NİZAMİ SÜLEYMANOV

# AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ

## 1501- 1736-Cİ İLLƏR

"İQTİSAD UNİVERSİTETİ" NƏŞRİYYATI

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**NİZAMİ SÜLEYMANOV**

# A Z Ə R B A Y C A N SƏFƏVİ DÖVLƏTİ 1501- 1736-cı İLLƏR

*Dərs vəsaiti*

Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi-Metodiki Şurasının 12 iyun 2018-ci il tarixli 04 saylı protokolunun qərarı ilə çapa tövsiyə edilib.

**BAKI - 2018**

**Elmi redaktor:** tarix elmləri doktoru, professor
**H.F.Cəfərov**

**Rəyçilər:** ADİU-nun "Humanitar fənlər" kafedrasının müdiri, tarix elmləri doktoru, professor
**V.S.Həsənov**

Bakı Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri, dosent
**M.Q.Abdullayev**

Süleymanov N. Azərbaycan Səfəvilər dövləti (1501-1736-cı illər). Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı. – 2018. - 214 səh.

Dərs vəsaiti Azərbaycanın dövlətçilik tarixinin ən möhtəşəm dövrü olan Səfəvilər dövlətinin tarixinə həsr olunmuşdur. Dərs vəsaitində Səfəvilər dövlətinin yaranması, Azərbaycan torpaqlarının vahid dövlət tərkibində birləşdirilməsi, dövlətin həyata keçirdiyi daxili və xarici siyasət, iqtisadi inkişafının əsas məsələləri, sosial-iqtisadi və mədəni həyatı şərh edilmişdir.

Dərs vəsaiti ali məktəb müəllimləri, tələbələr və geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

© Süleymanov N. - 2018
© "İqtisad Universiteti" Nəşriyyatı - 2018

Tariximizi, tarixi köklərimizi yaxşı bilmədən, onlara hörmət etmədən müstəqil dövlətimizi gələcəkdə yaxşı qura bilmərik

***Heydər ƏLİYEV***

# GİRİŞ

1501-ci ildə əsası Şah İsmayıl tərəfindən qoyulmuş Azərbaycan Səfəvi dövləti 1736-cı ilədək mövcud olmuş, XVI-XVII yüzilliklərdə beynəlxalq münasibətlər sistemində önəmli yer tutmuş, Şərq-Qərb iqtisadi-siyasi əlaqələrinin qurulmasında mühüm rol oynamışdır. Mərkəzləşdirilmiş Azərbaycan dövlətinin yaradılmasına nail olmaqla sosial-iqtisadi inkişafın müxtəlif pillələrində olan, dil, mədəniyyət və din baxımından müxtəlif olan bir çox xalqları vahid dövlət hakimiyyətində birləşdirmiş, ölkədə iqtisadiyyatın və mədəniyyətin inkişafını daha da sürətləndirmişdir. Səfəvi dövlətinin mövcudluğu dövründə Azərbaycanın və Azərbaycan xalqının Yaxın və Orta Şərqdə ən güclü etnosiyası amil kimi tarix səhifəsində rolu artmış, xalqımızın müstəqillik və azadlıq ruhu daha da möhkəmlənmiş, qüdrətli və möhtəşəm dövlətçilik ənənəsi yaranmışdır.

Təəssüflər olsun ki, dövlətçilik tariximizin bu şanlı səhifəsi uzun müddət xarici ölkələrin tədqiqatçıları tərəfindən məqsədli şəkildə saxtalaşdırılmış və öz dövlətlərinin məkrli siyasətlərinin təsiri ilə təhrif edilmişdir. Sovet rejimi dönəmində də sovet ideoloqlarının təzyiqi ilə Səfəvi dövlətinin tarixi obyektiv, geniş və hərtərəfli tədqiqatdan məhrum olmuşdur.

Milli tariximizin dərindən və hərtərəfli öyrənilməsi, tarixi həqiqətlərə obyektiv baxış ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Böyük tarixi şəxsiyyət Heydər Əliyevin müstəqil dövlət quruculuğu xəttini yaradıcılıq və ləyaqətlə davam etdirən İlham Əliyevin göstərdiyi kimi “Respublikamızın döv-

lət müstəqilliyinin bərpasından sonra tarixi həqiqətlərə obyektiv baxış imkanlarının yaranması xalqımızın keçmişinin müasir tələblərə uyğun və azərbaycançılıq məfkurəsi işığında öyrənilməsi baxımından alimlərimiz qarşısında yeni perspektivlər açmaqla mühüm vəzifələr irəli sürülmuşdür".

Həqiqətən də tarixçilərimiz müstəqilliyimizin bərpasından sonra sovet rejiminin diktə etdiyi konsepsiyalardan, qoyduğu yasaq və qadağalardan xilas olaraq tariximizin obyektiv, real zəmində araşdırılmasına başlamış, sovet dövründə saxtalaşdırılmış problemlərin tarixi gerçəklik əsasında araşdırılmasına diqqət yönəltmişlər. Nəticədə Azərbaycan Səfəvi dövlətinin tarixinin tədqiqində obyektivlik bərpa edilmiş və bu istiqamətdə uğurlu araşdırmalar aparılmış və bir sıra elmi əsərlər işıq üzü görmüşdür. Dərs vəsaiti hazırlanarkən həmin əsərlərdən istifadə edilmişdir.

Məlum olduğu kimi XV əsrin sonunda Azərbaycan ərazisində Ağqoyunlu və Şirvanşahlar dövlətləri mövcud idi. Bayandur şahzadələri arasındakı çəkişmələrdən, müharibələrdən əziyyət çəkən Azərbaycan xalqı mərkəzləşmiş dövlət yaratmaq uğrunda mübarizədə Səfəviyyə hərəkatına qoşularaq 1499-cu ildə Ərdəbil şeyxlərinin varisi İsmayılın ətrafında birləşərək siyasi mübarizəyə başladılar. 1500-cü ilin yazında qızılbaşlar İsmayılın başçılığı ilə Şirvanşah Fərrux Yasarın, 1501-ci ilin ortalarında Şərur düzündə Əlvənd Mirzənin ordularını məğlubiyyətə uğradaraq 1501-ci ilin payızında Təbrizə daxil olub Azərbaycan Səfəvilər dövlətinin əsasını qoydular.

Şah İsmayıl 1503-cü ilin yazında Murad Mirzəni məğlubiyyətə uğratmaqla Fars və İraq-i Əcəmin böyük bir hissəsini, 1508-ci ilə qədər Xorasan istisna olmaqla İran torpaqlarını, 1510-cu il dekabrın 1-də Şeybani xanın qoşunlarını darmadağın edərək Xorasanı ələ keçirdi. Beləliklə, I Şah İsmayıl ələ keçirdiyi bu ölkələrdə siyasi birlik yaratmaqla Şərqdə böyük bir imperatorluq yaratdı. Bu dövlət Yaxın və Orta Şərqin qüdrətli dövlətləri Osmanlı, Böyük Moğol və Şeybanilər dövlətləri ilə

yanaşı yaşamağa və rəqabət aparmağa qadir olan bir dövlətə çevrildi.

Azərbaycan Səfəvi dövləti həyata keçirdiyi tədbirlər nəticəsində XVI-XVII əsrlərdə ölkənin hərbi-siyasi qüdrətini möhkəmləndirdi, iqtisadiyyatın əsas sahələri olan kənd təsərrüfatının, sənətkarlıq sahələrinin, daxili və xarici ticarətin inkişafında mühüm irəliləyişlərə nail oldu. Nəticədə ölkənin ictimai, iqtisadi, siyasi və mədəni həyatında böyük dəyişikliklər baş verdi. Qərbi Avropa ölkələri və Rusiya dövləti ilə qarşılıqlı münasibətləri inkişaf etdirərək diplomatik və ticarət əlaqələrini daha da genişləndirdi.

# I FƏSİL

# AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİNİN YARANMASI

## §1.1. Səfəvi dövlətinin yaranmasının ictimai-iqtisadi və ideoloji amilləri

XV əsrin sonunda Azərbaycan ərazisində Ağqoyunlular və Şirvanşahlar dövlətləri mövcud idi. Səfəviyyə təriqətinin davamçıları olan feodal nümayəndələri Ərdəbil şəhəri və ətraf əraziləri müstəqil idarə etsələr də Ağqoyunlulardan asılı idilər.

Uzun Həsənin hakimiyyəti illərində Ağqoyunlu dövləti Azərbaycandan başqa İraq-i Ərəb, Şərqi Anadolu, Qərbi İranı (İraq-i Əcəm, Xuzistan, Fars və Kirman) özündə birləşdirən qüdrətli bir dövlətə çevrilsə də, onun ölümündən sonra (5 yanvar 1478) varisləri arasında hakimiyyət uğrunda çəkişmələr mərkəzi hakimiyyəti zəiflətmiş, feodal ara müharibələrinin başlanmasına səbəb olmuşdu.

Uzun Həsənin ölümündən sonra hakimiyyətə gələn böyük oğlu Sultan Xəlilin sülalə üzvləri arasındakı çəkişmələr nəticəsində hakimiyyəti 6 ay çəkmiş və qardaşı Yaqub tərəfindən hakimiyyətdən salınaraq öldürülmüşdür. Hakimiyyətə gələn Sultan Yaqubun (1478-1490) ölümündən sonra Ağqoyunlu dövləti zəifləmişdi. Az müddət ərzində Baysunqur (1490-1492), Rüstəm (1492-1497), Gödək Əhməd (1497), Sultan Murad (1497-1500), Əlvənd (1498-1500), Məhəmmədi (1498-1499) hakimiyyətdə olmuşlar.

Məhəmmədinin Sultan Murad tərəfindən öldürülməsindən sonra Əlvəndlə Murad arasında hakimiyyət uğrunda mübarizə 1500-ci ildə Əbhər barışığı ilə nəticələndi. Tərəflər arasında bağlanan sülh müqaviləsinə əsasən Qızılüzən çayı sərhəd olmaqla Azərbaycanın cənub hissəsi, Qarabağ, indiki Ermənistan ərazisi Əlvəndin, İraq-i Ərəb, İraq-i Əcəm, Fars və Kirman

Muradın hakimiyyəti altına keçdi. Azərbaycanın Şirvan bölgəsi isə Dərbəndi sülaləsinin hakimiyyəti altında idi.

XV yüzilliyin sonunda feodal ara müharibələrinin artması ölkədaxili təsərrüfat əlaqələrinin inkişafına mane olur, məhsuldar qüvvələrin inkişafını ləngidir, kənd təsərrüfatı və sənətkarlığın tənəzzülə uğramasına, ticarət əlaqələrinin pozulmasına səbəb olurdu.

Azərbaycan dövlətində tez-tez baş verən ara müharibələri, hərbi-köçəri əyanların özbaşınalığı oturaq əhali ilə hərbi-köçəri əyanlar arasında ziddiyyəti daha da artırır, təsərrüfat dağınıqlığına gətirib çıxarırdı. Nəticədə şəhər və kənd əhalisinin vəziyyəti ağırlaşırdı. Belə bir şəraitdə Azərbaycanın siyasi cəhətdən birləşmək zərurəti daha da artır, ara müharibələrinə, hərbi-köçəri əyanların özbaşınalığına son qoymaq və mərkəzləşmiş dövlət yaratmaq uğrunda xalq kütlələrinin hərəkatı genişlənirdi.

Ölkədəki feodal pərakəndəliyi ticarətin inkişafını ləngidirdi. Tacirlər hər bir feodal hakiminin ərazisindən keçərkən gömrük ödəməyə məcbur olur, karvan yollarının təhlükəsizliyi qayğısına qalınmadığına görə ticarət karvanları qarət edilirdi. Ölkədəki mövcud durumdan narazı olan tacirlər daxili və xarici ticarətin inkişaf etdirilməsi üçün mərkəzləşmiş dövlətin yaradılmasını dəstəkləyirdilər.

Orta və xırda feodallar da mərkəzləşmiş dövlətin yarandılması tərəfdarı idilər. Onlar iri feodalların özbaşınalığından əziyyət çəkir və qüvvətli dövlətin yaranmasına ehtiyac hiss edirdilər.

Bir çox ictimai təbəqələr ölkəni böhran vəziyyətindən çıxarmaq, vergi sistemində qayda yaratmaq, feodal ara müharibələrinə son qoymaq üçün yeni, vahid dövlət yaratmaq ideyasına tərəfdar idilər.

Ağqoyunlu dövlətində soyurqal torpaq sahibliyi formasının genişlənməsi mərkəzi hakimiyyətin zəifləməsinə, dövlət xəzinəsinə daxil olan gəlirlərin azalmasına səbəb olurdu, çünki

soyurqal sahibləri vergidən azad olub inzibati-məhkəmə imtiyazına malik idilər. Torpaqların iri feodalların əlində mərkəzləşməsi separatizmi daha da gücləndirirdi.

Göründüyü kimi mərkəzləşmiş dövlətin yaradılması əhalinin geniş təbəqələrinin mənafeyinə uyğun gəlirdi.

Mərkəzləşmiş dövlətin yaradılması xarici təhlükədən müdafiə baxımından zəruri idi. Feodal pərakəndəliyi və özbaşınalığı mərkəzi hakimiyyəti zəiflətdiyinə, dövlətin hərbi gücünə mənfi təsir göstərdiyinə görə dövlətin xarici müdaxiləyə qarşı müqaviməti zəifləyirdi.

XV yüzilliyin son illərində Bayandur şahzadələri arasındakı çəkişmələrdən, savaşlardan əziyyət çəkən və nəticədə mərkəzləşmiş dövlətə ehtiyac hiss edən Azərbaycan xalqının Səfəviyyə cəmiyyətinin irsi şeyxi olan İsmayıla rəğbəti gündən-günə artırdı. Azərbaycanın ayrı-ayrı hakimlər arasında bölünməsi, vilayətlər arasında təsərrüfat əlaqələrinin zəifləməsi, məhsuldar qüvvələrin inkişafının ləngiməsi ilə əlaqədar olaraq, artıq xalqın qüvvətli dövlət hakimiyyətinə ehtiyac hissi artırdı. Belə bir vaxtda İsmayılın bayrağı altında Azərbaycanı yenidən birləşdirmək uğrunda böyük bir siyasi hərəkat başlandı.

XV yüzilliyin sonlarında pərakəndəliklə səciyyəvi olan ara müharibələrinin ölkə miqyasında iqtisadi həyata vurduğu dağıdıcı zərbələrdən bütün xalq kütləsi, xüsusilə mülk sahibləri, rəiyyət, sənətkarlar, tacirlər əziyyət çəkmiş, müflisləşmiş və elə buna görə də onların çoxu mərkəzləşmiş dövlət yaratmaq uğrunda mübarizədə Səfəviyyə hərəkatına qoşulurdular.

## § 1.2. Səfəvilərin Ərdəbil hakimliyi

XIII əsrin ortalarından sonra monqolların istila etdikləri ərazilərdə müxtəlif dini təriqətlər yaranırdı. Belə təriqətlərdən biri əhalinin zəhmətkeş təbəqəsi, sənətkarlar və kəndlilər arasında yayılmış sufi[1]–dərviş təriqəti idi. Bu təriqətin mərkəzi

[1]Sufilik- təsəvvür, sirranlamlı dini-fəlsəfi təlim

Ərdəbil şəhəri idi. Bu dini-fəlsəfi təlimin əsası Şeyx Səfiəddin İshaq əl-Musəvi-əl-Ərdəbili (1252-1334) tərəfindən qoyulmuşdu. Onun dövründə Kiçik Asiyanın türk tayfaları ilə əlaqələr yaranmışdı. XIV əsrin ikinci yarısında bu təriqətin tərəfdarları daha geniş əraziləri əhatə edərək Kiçik Asiyada (Rumda), Farsda, İraqda, Gilanda, Talışda yayılmışdılar. XV əsrdə Səfəvilərin Kiçik Asiya və Şimali Suriyada yaşayan tayfalarla əlaqələri daha da möhkəmlənirdi. Bu dövrdən, yəni XV əsrin ikinci yarısından Ərdəbil hakimliyi daha da möhkəmlənərək dünyəvi və ruhani işləri ələ aldı. Səfəvilər şiəliyi həmin ərazilərdə yayır və onu ideoloji təbliğat vasitəsinə çevirirdilər.

Səfəvilər sülaləsinin yeddinci şiə imamı Musa Kazımdan törəməsi, Həzrət Əlinin və peyğəmbərin qızı Fatimənin nəslindən olması haqqında yaranmış rəvayət bu sülaləyə olan etiqadı daha da artırırdı. Sufi-dərviş şeyxlərinin xalq içərisində yayılmış nüfuzu feodal hakimlərinin bu təriqətə qoşulmasına təsir göstərirdi. Səfəvilər ölkədə yaranmış sosial vəziyyətin ağırlığından məharətlə istifadə edərək şəriətdə nəzərdə tutulan vergilərdən başqa alınan vergilərin əleyhinə çıxır və bunun günahını sünnü hakimiyyətinin mövcudluğunda görürdülər. Onlar şəriətdə nəzərdə tutulmayan vergilərin ləğv edilməsini irəli sürərək zəhmətkeş kütlənin mənafeyinin müdafiəçisi kimi çıxış edirdilər. Səfəvi şeyxləri "açıq bidət"çilikdən məharətlə istifadə edir, cəmiyyətin ictimai-siyasi həyatına fəal müdaxilə edir və hakimiyyət uğrunda mübarizəni genişləndirirdilər.

Şeyx Səfiəddin Musanın (1334-1392), Şeyx Xacə Əlinin (1392-1427), Şeyx İbrahimin (1427-1447), Şeyx Cüneydin (1447-1460), Şeyx Heydərin (1460-1488), Şeyx Sultanəlinin (1488-1494), Şah İsmayılın (1494-1524) dövründə şiəlik təriqətindən məharətlə istifadə edilir və hakimiyyət uğrunda mübarizə daha kəskin xarakter alırdı.

Orta əsrlər dövrünün görkəmli tədqiqatçısı İ.P.Petruşevski Səfəvilərin tarixini dörd dövrə bölmüşdür. Onun tərəfindən göstərilən dördüncü dövr paytaxtın İsfahana köçürül-

məsi ilə əlaqədar dövlətin mahiyyətinin dəyişməsi kimi verilmiş, həmçinin I Şah Abbasın mərkəzi hakimiyyəti möhkəmləndirmək istiqamətində həyata keçirdiyi tədbirlər düzgün təhlil edilməmişdir. Odur ki, Səfəvilərin tarixini üç dövrə bölmək daha obyektiv yanaşma olardı.

XIII əsrin sonlarından 1447-ci ilə qədər olan birinci dövrdə Səfəvilər şiəliyi yayır, xalq kütlələrinin antifeodal hərəkatına başçılıq etməyə çalışırdılar. XV əsrin əvvəllərindən Səfəvi şeyxi bütün Kiçik Asiya tayfalarına öz nümayəndələrini (xəlifə və pirə) təyin etsə də Səfəvilərin hakimiyyəti Ərdəbil mahalından kənara çıxmır.

1447-1501-ci illəri əhatə edən ikinci dövrdə Səfəvilər müstəqil feodal ruhaniləri kimi çıxış edir və Azərbaycanın siyasi həyatında mühüm rol oynayır.

1501-1736–cı illəri əhatə edən üçüncü dövrdə Səfəvilər hakimiyyəti yaranır, möhkəmlənir, geniş əraziləri ələ keçirərək imperatorluğa çevrilir. Yaxın Şərqin iqtisadi-siyasi həyatında mühüm rol oynayırlar.

Şeyx Cüneydin və Şeyx Heydərin zamanında Səfəvilər daha fəal siyasət yeridərək təsir dairələrini genişləndirmişlər. XV əsrin ortalarından etibarən Muğanın bir hissəsi, Qarabağ və Azərbaycanın Talış dağlarına qədər şərq torpaqları Səfəvilərin təsiri altına düşmüşdü. Şeyx Cüneyd və Şeyx Heydər daha çox siyasi xadim kimi çıxış edirdilər. Şeyx Heydər Azərbaycanın əraziləni birləşdirmək vəzifəsini qarşıya məqsəd qoymuşdu.

1449-cu ildə Şeyx Cüneyd Qaraqoyunlu hökmdarı Cahanşahın tələbi ilə Ərdəbili tərk edərək Misir, Suriya, Mesopotamiya ərazilərində bir müddət fəaliyyət göstərmiş və tərəfdarlarının sayını artırmışdı. Diyarbəkirə qayıdan Cüneyd Uzun Həsən tərəfindən çox yaxşı qarşılanıb və Qaraqoyunlu Cahanşaha qarşı ittifaq yaratmışdı. Şeyx Cüneyd Uzun Həsənlə qohumluq əlaqəsi yaradaraq onun bacısı Xədicəbəyimlə evlənir və bu nikahın sorağı Kiçik Asiya və Suriyanın ərazilərinə yayılaraq onun nüfuzunu daha da artırır.

Şeyx Cüneyd Ərdəbili tərk etdikdən sonra Ərdəbildə hakimiyyəti Şeyx İbrahimin oğlu Şeyx Cəfər idarə edirdi. 1459-cu ildə Şeyx Cüneyd Ərdəbilə qayıtmaq istədikdə Şeyx Cəfər onu və müridlərini Ərdəbilə buraxmadı. Belə bir vəziyyətdə Cüneyd Dağıstan və Şirvan istiqamətində yürüş etməyi qərara aldı. Onun bu yürüşü Qaraqoyunlu Cahanşah və Şirvanşah Xəlilullahın ona qarşı ittifaqına səbəb oldu. 1460-cı ilin mart ayında başlanan yürüş Dərbənd yaxınlığında Samur çayı sahilində tərəflər arasında döyüşlə nəticələndi.

Döyüş Qaraqoyunlu ilə Şirvanşah hərbi birləşmələrinin qələbəsi ilə nəticələndi. Döyüşdə Şeyx Cüneyd öldürüldü. O, indiki Qusar rayonunun Həzrə kəndində dəfn edildi. I Şah Təhmasibin hakimiyyəti dövründə onun göstərişi ilə Şeyx Cüneydin qəbri üzərində məscid-məqbərə tikildi.

Şeyx Cüneydin ölümündən sonra oğlu Şeyx Heydər (1460-1488) atasının siyasətini davam etdirmiş, Ağqoyunlularla qohumluq əlaqələrini daha da möhkəmləndirərək dayısı Uzun Həsənin qızı Aləmşah bəyimlə evlənmişdir. Qaraqoyunlu dövlətinin süqutu və Teymuri Əbu Səidin ölümündən sonra Uzun Həsənin köməyi ilə 1470-ci ildə Şeyx Heydər Ərdəbildə ordenin irsi taxtında oturmaqla Ərdəbil hakimi olmuşdur.

Şeyx Heydər qazi, sufi dəstələrini hərbi qaydada qurmuş, türkman papaqlarını on iki imamın şərəfinə on iki zolaqlı qırmızı çalma ilə əvəz etdirmişdir. Bununla o, qızılbaşlığın əsasını qoymuşdur.

Şəhər sənətkarları, oturaq əkinçiləri təmsil edən əxilər və qazilər sufi dərviş zümrəsinə qoşularaq təriqət döyüşçülərinə çevrilib əsgəri qulluq adamları olurdular. Bu tədbirlər Şeyx Heydərin nüfuzunu daha da artırmışdır.

Şeyx Heydər Ağqoyunlu hökmdarı Yaqub padşahın razılığı ilə Şirvan və Dağıstan ərazilərinə yürüşlər etmişdir. 1483 və 1487-ci illərdə etdiyi yürüşlərdə çoxlu qənimət və əsirlərlə geri qayıtmışdır. Şeyx Heydərin bu müvəffəqiyyətli yürüşləri onu daha da şöhrətləndirmiş və tərəfdarlarını artırmışdır. Onun

nüfuzunun artmasından ehtiyat edən Ağqoyunlu Yaqub padşah 1488-ci ildə Şirvan üzərinə etdiyi üçüncü yürüş zamanı Şirvanşah Fərrux Yasarla ittifaqa girərək Şirvanşahlara kömək etmişdir. Ağqoyunlu və Şirvanşahların birləşmiş hərbi qüvvələri ilə qızılbaşlar arasında 1488-ci il iyun ayının 30-da Şahdağın ətəyində Tabasaran yaxınlığında baş vermiş qanlı döyüşdə qızılbaşlar məğlub edilmiş və Şeyx Heydər öldürülmüşdür. Şeyx Heydərin üçüncü yürüşündə Rum, Talış, Qaracadağ sakinləri ilə birgə şamlı tayfası da iştirak etmişdir.

Şeyx Heydər Xızı rayonunun Tıxlı kəndində müridləri tərəfindən dəfn edilərək yeri gizli saxlanılmışdır. I Şah İsmayıl Şirvan ərazisinə yürüşü zamanı atasının məzarını tapmış, üzərində türbə tikdirib orada Şıxlar kəndini saldırmış, məqbərə ziyarətgaha çevrilmişdir. Şeyx Cüneydin məqbərəsindən fərqli olaraq Şeyx Heydərin məqbərəsi dövrümüzə qədər qalmamış, sonradan unudulmuşdur.

Şeyx Cüneydin və Şeyx Heydərin məzarları sonradan Ərdəbilə aparılmışdır.

Şeyx Heydərin ölümündən sonra qızılbaşların qüvvəsi xeyli zəifləyir. Yaqub padşah Ərdəbili və səfəvilərə məxsus digər əraziləri asanlıqla ələ keçirir. Şeyx Heydərin oğlanları ələ keçirilərək Şiraz yaxınlığında İstəxr qalasına salınırlar. Sultan Əli, İbrahim və İsmayıl Rüstəm padşah hakimiyyətə gələnə qədər İstəxr qalasında saxlanıldılar.

Ağqoyunlu şahzadələri arasında hakimiyyət uğrunda baş verən çəkişmələr zamanı bir sıra əmirlərin tələbi ilə Rüstəm Şeyx Heydərin oğlanlarını həbsdən azad etməyə məcbur oldu və Sultan Əlini Ərdəbil hakimi təyin etdi.

Rüstəm padşah (1492-1497) Sultan Əlidən hakimiyyət iddiasında olan, dayısı Şirvanşah Fərrux Yasarın yanına qaçmış Baysunqura qarşı istifadə etmək niyyətində idi. Həmin vaxt İsfahan hakiminin Rüstəm padşaha qarşı çıxaraq Baysunquru müdafiə etməsi Sultan Rüstəmin vəziyyətini daha da ağırlaşdırdı. Rüstəm Sultan Sultan Əlini Baysunqura qarşı döyüşə

göndərdi. Əhər-Şekin yaxınlığında baş vermiş döyüşdə Baysunqurun qüvvəsi məğlubiyyətə uğradı.

Sultan Əlinin bu qələbəsi onun şöhrətini daha da artırdı, ölkənin hər tərəfindən onun tərəfdarları Ərdəbilə gəlməyə başladılar. Sultan Əlinin nüfuzunun artması və tərəfdarlarının fəallaşması Sultan Rüstəmi qorxuya saldı. O, Şeyx Heydərin övladlarını Təbrizə gətirərək nəzarət altında saxlamağı qərara aldı. Lakin bir qədər sonra şahzadələrə qarşı hazırlanan suiqəsdin üstü açıldı. Sultan Əli qardaşlarını götürərək tərəfdarları ilə birlikdə Təbrizi tərk etdi. Ərdəbil istiqamətində hərəkət edən Sultan Əlinin arxası ilə ağqoyunlu sərkərdəsi Eybə Sultanın beş min nəfərlik hərbi qüvvəsi irəlilədi. Sultan Əli döyüşün qaçılmaz olduğunu görüb Sufi əmirlərinin toplantısında İsmayılı təriqət şeyxi vəzifəsinə təyin etdi. 1494-cü ildə Ərdəbil yaxınlığında ağqoyunlularla qızılbaşlar arasında baş vermiş Şəmsi döyüşündə Sultan Əlinin tərfdarları məğlubiyətə uğradılar. Sultan Əli həlak oldu .

Şəmsi döyüşündən sonra Şeyx Heydərin oğlanları İsmayıl və İbrahim sədaqətli sufilər tərəfindən bir müddət Ərdəbildə gizlədildilər. İsmayılın Ərdəbildə gizlədilməsində anası Aləmşah Bəyim, bibisi Paşa xatunun, Xancan və Uba adlı qadınların böyük rolu olmuşdur.

Eybə Sultan tərəfindən ciddi axtarışlar davam etdiyinə görə Ərdəbilin ətrafında Baqrov dağında gizlənmiş sufilərdən Rüstəm bəy Qaramanlı öz adamları ilə gecə gizlicə şəhərə gələrək İsmayılı Baqrov dağında yerləşən Kərkan kəndində Fərruxzadın evində gizlətdi. Hüseyn bəy Lələ, Xadim bəy Xüləfa, Məhəmmədi bəy Türkman (Şeyx Cüneydin qızı Paşa xatunun əri) və başqaları qərara aldılar ki, İsmayılı Rəşt hakimi Əmir İshaqın yanına aparsınlar. Rəştdə az müddət qaldıqdan sonra onu Lahicana, Gilanın Biyepiş vilayətinin hakimi Karkiya Mirzə Əlinin sarayına gətirdilər. İsmayılı Rüstəm bəy Qaramanlı, Məhəmmədi bəy Türkman 80 nəfərlik qızılbaş dəstəsi ilə müşayiət edirdilər.

Lahicanda İsmayıl və qardaşı İbrahim Key Əfridun məqbərəsi yanındakı evdə saxlanıldılar. Şəmsəddin Lahıci ərəb və fars dillərini öyrətmək və Quranı oxumaq üçün onların tərbiyəçisi oldu.

Ağqouynlu Sultan Rüstəm Lahican hakimindən dəfələrlə İsmayılı tələb etsə də Karkiya Mirzə Əli üzürlü bəhanələr gətirməklə onun tələblərini rədd etdi.

## § 1.3. Səfəvi dövlətinin yaranması. Azərbaycan torpaqlarının vahid dövlət tərkibində birləşdirilməsi

1499-cu ilin yayında Ərdəbil şeyxlərinin varisi İsmayıl və onun tərəfdarları siyasi mübarizəyə başlamaq üçün əlverişli şərait yarandığını anladılar. Ağqoyunlu şahzadələr arasındakı ara müharıbələri və ölkədə yaranmış ictimai-iqtisadi və siyasi böhran Azərbaycanın birləşdirilməsini zəruri edirdi.

1499-cu il avqustun 13-də 13 yaşlı İsmayıl Lahicandan yola düşəndə onu yeddi nəfərdən ibarət şəxslər – Hüseyn bəy Lələ Şamlı, Əbdüləli bəy Dədə (Dədəbəy), Xadim bəy Xüləfa, Rüstəm bəy Qaramanlı, Bayram bəy Qaramanlı, İlyas bəy Ayqut oğlu Xunuslu və Qarapiri bəy Qacar müşayiət edirdilər. Rumdan, Qaracadağdan və Əhərdən gəlmiş çoxlu tərəfdarları da onlara qoşuldular.

İsmayıl Gilandan cənuba və cənub-qərbə doğru irəliləyib Xalxal istiqamətində hərəkət etdi. Məqsəd Xalxal ərazisində Qızılüzən çayının sahillərində toplanmış şamlı tayfasından olan tərəfdarları ilə birləşmək idi. Xalxala yaxınlaşan zaman İsmayılın tərəfdarlarının sayı 1500 nəfərə çatırdı. İsmayıl tərəfdarları ilə birlikdə qışı Xəzərin sahilində – Ərcivanda (Astara rayonu) keçirdi. Onlar burada Azərbaycanın cənub hissəsindəki tərəfdarlarının gəlib çatmaları üçün dayanmışdılar.

1500-cü ilin yazında qızılbaş rəhbərləri Kiçik Asiya - Ərzincan istiqamətində hərəkət etmək qərarına gəldilər. Onlar Ərzincana birbaşa deyil, Araz çayının quzey hissəsindən Göyçə

gölünün cənub sahillərindən keçərək getdilər. Ərəşli və zülqədər tayfaları da qızılbaşlara qoşuldular. Qızılbaşlar tezliklə oradan Çuxursədə (İrəvan) gəldilər. Çuxursədi keçdikdən sonra Anadolu qızılbaşlarına rəhbərlik edən Qaraca İlyas öz dəstəsi ilə onlara qoşuldu.

İsmayıl Kiçik Asiyaya doğru hərəkət edərək ustaclı tayfasının yaşadığı Mingöl (Arazın mənbəyində) yaylağından və Tərcan ərazisindən keçərək Ərzincana çatdı. Ərzincanda İsmayılın ətrafında şamlı, rumlu, ustaclı, təkəli, zülqədər, əfşar, qacar, varsaq tayfalarından, həmçinin "Qaradağ" sufilərindən ibarət 7000 qazi toplanmışdı.

**Şirvan üzərinə yürüş.** Ərzincanda qızılbaş əmirlərinin toplantısında hərbi yürüşün növbəti istiqaməti məsələsi müzakirə edildi.

Əmirlərin bir hissəsi qışı Ərzincanda keçirərək yazda Təbriz üzərinə yürüş etməyi təklif etdilər. Bu təklif qəbul olunmadı. Çünki Təbriz üzərinə hücum etməklə Əlvənd Mirzə, Murad Mirzə və Şirvanşah Fərrux Yasarın qüvvələri ilə qarşılaşa bilərdilər. Bəzı əmirlər Gürcüstan üzərinə yürüş etməyi təklif etsələr də bu təklif də əksəriyyət tərəfindən etirazla qarşılandı. Əmirlərin əksəriyyəti və İsmayıl Şirvanşah Fərrux Yasara qarşı hücumun tərəfdarı idilər. Əvvəla Şirvanı ələ keçirməklə çoxlu var-dövlət əldə edə bilərdilər ki, bu qızılbaşların sonrakı yürüşləri üçün böyük maddi imkan yaradardı. İkincisi, Şirvanşahların Ağqoyunlu Əlvənd Mirzə və Murad Mirzə ilə birləşməsinin qarşısı alınardı. Üçüncüsü, qızılbaşların Şirvanşahlara qarşı güclü nifrətləri var idi, onlar Şeyx Cüneydin və Şeyx Heydərin ölümü üçün Şirvan hakimindən qisas almaq istəyirdilər. Bu zaman dini təriqət ədavəti də az rol oynamırdı. Ona görə qızılbaş əmirlərinin toplantısında gecikmədən Şirvanşah Fərrux Yasara qarşı yürüşə başlamaq qərara alındı.

1500-cü ilin payızında qızılbaşlar İsmayılın başçılığı ilə Kür çayını keçərək Şirvan üzərinə irəlilədilər. Fərrux Yasar Şirvanın paytaxtından Qəbələyə çəkildi. Qızılbaşlar Şirvanın

paytaxtını döyüşsüz ələ keçirdilər. Əhalinin çoxu dağlara çəkildilər. Şirvanşah Fərrux Yasar müəyyən hərbi hazırlıqdan sonra Gülüstan qalası istiqamətində hərəkət etdi. 1500-cü ilin sonunda qızılbaşlar Gülüstan qalası yaxınlığında Cabanı deyilən yerdə Şirvanşah qoşunları ilə qarşılaşdılar. Qızılbaş qoşununun sağ cinahında şamlı, sol cinahında isə ustaclı tayfalarının döyüşçüləri dayanmışdılar. İsmayıl isə təkəli, rumlu, zülqədər tayfalarının üzvlərindən ibarət hərbi hissə ilə mərkəzdə dayanmışdı.

Döyüşün əvvəllərində Şirvanşah qoşunları üstünlük qazansa da, İsmayılın süvari dəstəsinin zərbəsi ilə qizilbaşlar üstünlüyü ələ keçirdilər. Şirvan qoşunu məğlub olaraq qaçmağa başladı. Fərrux Yasar  Buğurd qalasına doğru qaçsa da Gülüstan qalası yaxınlığında qızılbaşlar ona çatdılar. Şahgəldi ağa onu vurub atdan saldı və başını kəsərək İsmayıla gətirdi. Fərrux Yasarın döyüşdən sağ çıxmış oğlu İbrahim Xəzər dənizi sahilində Şirvan qoşunundan sağ çıxmış hissələri toplamağa çalışsa da Xadim bəy Xüləfanın onu təqib etdiyini eşitdikdə gəmilərlə  Gilana  getdi.

İsmayıl yenidən Şamaxı şəhərinə qayıtdı, şəhər əyanları onu ehtiramla qarşıladılar. O, qışı keçirmək məqsədi ilə Muğandakı Mahmudabad  şəhərinə  yola  düşdü.

**İsmayılın Bakını tutması.** XV əsrdə Bakı iri sənətkarlıq və ticarət mərkəzi idi. Xəzər dənizində ən böyük liman şəhəri olmaqla Şirvanşahların ikinci iqamətgahı idi. Şirvanşahların xəzinəsinin bir hissəsi burada məşhur Şirvanşahlar sarayında saxlanılırdı. Bakının bir hissəsi Xəzər dənizi ilə əhatə olunsa da qalan hissəsi hündür qala divarları ilə əhatə olunmuşdu. Quru hissədə qala divarlarının ətrafı dərin xəndəklə əhatə olunmuşdu ki, təhlükə  yarandıqda  həmin  xəndək su ilə  doldurulurdu.

İsmayıl Bakını ələ keçirmək üçün Məhəmməd bəy Ustaclı və İlyas bəy Xunuşlunun rəhbərliyi ilə qoşun göndərdi. Quru hissədən Bakının hündür divarlarla əhatə olunduğunu görən qızılbaş sərkərdələri danışıq yolu ilə şəhərin təslim olunmasına

çalışdılar. Bakı qalabəyisi Fərrux Yasarın oğlu Qazi bəy Şirvan ərazisindəki uca dağlarda növbəti döyüş üçün hazırlıq apardığına görə Bakının müdafiəsində mənbələrdə adı çəkilməyən, əslində Bakının idarə olunmasını öz əlinə almış arvadı rəhbərlik edirdi. Cəsur təbiətli bu qadın Qalanın təslim edilməsi haqqında tələb gətirən elçini edam etdirdi. Hətta onu bu işdən çəkindirməyə çalışan Bakı darğası Əbülfəth bəyi də öldürtdu.

Bakının alınmasına qarşı inadlı müqavimət göstərilməsi qızılbaş əmirlərini qalanı hücumla almağa məcbur etdi. İsmayıl vəziyyətin çətinliyini görüb bacarıqlı sərkərdə Xadim bəy Xüləfanı Mahmudabaddan Bakı üzərinə göndərməli oldu. Sonra özü də gəldi. Qızılbaşlar qala bürclərindən birinin altına lağım atmaqla qalaya yol aça bildilər. Lakin üç gün yenə ciddi müqavimətlə qarşılaşaraq qalaya daxil ola bilmədilər. Nəhayət qızılbaşlar qala döyüşçülərinin müqavimətini qıraraq şəhərə daxil oldular. Şəhərdə qətl və qarətlər törədildi. Bir qrup şəhər əyanları əllərində Quran İsmayılın hüzuruna gəldikdən sonra qətl və qarətlər dayandırıldı. Xadim bəy Xüləfa şəhər əyanlarının müşayiəti ilə Bakıya daxil oldu. İsmayılın əmri ilə Bakı əhalisindən 1000 tümən qan bahası alındı. Şirvanşahların zəngin xəzinəsi ələ keçirildi. Xadim bəyin əmri ilə Cüneydin ölümünün səbəbkarı Şirvanşah I Xəlilullahın sümükləri qəbirdən çıxarılıb yandırıldı. Onun sərdabəsi dağıdıldı, sərdabənin qülləsi altında saxlanılan çoxlu qızıl pul aşkar edildi.

Bakı ələ keçirildikdən sonra İsmayıl Gülüstan, Buğurt və Surxab qalalarında müqavimət göstərən Şirvan qoşunları üzərinə hərəkət etdi. Möhkəm qala divarlarına və çoxlu ərzaq ehtiyatına arxayın olan qala müdafiəçiləri inadlı müqavimət göstərirdilər. Bu zaman Təbrizdən Musa Xəlifinin göndərdiyi çapar Ağqoyunlu Əlvənd Mirzənin böyük qoşunla Təbrizdən Şirvan istiqamətinə gəlməsi xəbərni çatdırdı. İsmayıl divan vəziri təyin etdiyi Əmir Zəkəriyyə Köcəcinin məsləhəti ilə Gülüstan qalasının mühasirəsindən əl çəkərək Əlvənd Mirzəni məğlub edib Təbrizi ələ keçirmək məqsədi ilə güneyə yollandı.

**Ağqoyunlu Əlvənd Mirzə üzərində qələbə.** İsmayıl Şamaxıda və Bakıda ələ keçirdiyi xəzinənin bir hissəsini döyüşçüləri arasında bölüşdürdü. Onun qələbəsi və qənimətin bir hissəsinin döyüşçülər arasında paylanması xəbəri geniş yayıldı, tərəfdarlarının sayını daha da artırdı. Naməlum Venesiya tacirinin verdiyi məlumata əsasən İberiyadan 9 min süvari Şamaxıda İsmayıla kömək etmək üçün gəldilər. İsmayıl onlara hədiyyələr bağışladı və Təbriz ələ keçirilərsə Ağqoyunlulara ödədikləri xəracdan azad edəcəyini bildirdi. Tacirin verdiyi məlumata görə İsmayılın 15-16 min nəfərlik ordusu var idi. 30 min nəfərlik qoşunla Naxçıvana gəlmiş Əlvənd Mirzə öz elçilərini Gəncə, Qarabağ və Qaradağa göndərərək yerli hakimləri qızılbaşlara qarşı qaldırmaqğa çalışırdı.

İsmayıl Qarapiri bəy Qacarı və İlyas bəy Halvaçıoğlunu qoşun hissəsinin başçısı təyin edərək Naxçıvan istiqamətində hərəkət etməyi əmr etdi. Özü isə qoşunun qalan hissəsi ilə irəlilədi. İlyas bəy Əlvənd Mirzənin qızılbaşların qarşısını almaq üçün göndərdiyi qoşun hissəsini məğlub etdi və Osman bəy Mosullunu əsir götürdü.

Əlvənd Mirzə İsmayıla məktub göndərərək Şirvana qayıtmasını və həmin vilayətin idarəsi ilə kifayətlənməsini təklif etdi. İsmayıldan rədd cavabı aldıqdan sonra Naxçıvandan Şərura çəkilərək döyüşə hazırlaşmağa başladı. İsmayıl Arazın cənub sahili boyunca irəliləyərək Naxçıvan ərazisində çayı keçərək Ağqoyunlu qoşunlarının qarşısını kəsdi. İsmayıl mərkəzdə mövqe tutaraq cağ və sol cinahlarda əmirlərini yerləşdirdi. Əlvənd Mirzə də mərkəzdə dayanaraq cinahlara sərkədələrini təyin etdi. 1501-ci ilin ortalarında Şərur düzündə tərəflər arasında döyüş baş verdi.

İsmayıl bu döyüşdə sərkərdəlik məharəti və döyüş hünəri göstərdi. Ağqoyunlu sərkərdələri Kərçiqay bəy, Lətif bəy, Sidi Qazi bəy, Musa bəy və Qaraca Mahmud bəyin öldürülməsi Ağqoyunlu əsgərləri içərisində vahimə yaratdı və qaçmağa baş-

ladılar. Əlvənd Mirzə Ərzincana qaça bildi. Qızılbaşlar böyük qənimət əldə etdilər.

1501-ci ilin payızında İsmayıl döyüşsüz Təbrizə daxil oldu. Öz adına xütbə oxudaraq sikkə kəsdirdi. Beləliklə Azərbaycan Səfəvilər dövlətinin əsasını qoyaraq özünü şah elan etdi.

Səfəvi dövlətinin ərazisi Şirvan, Qarabağ, Naxçıvan, Muğan və Qızılüzən çayına qədər Cənubi Azərbaycanın torpaqlarını əhatə etdi. Beləliklə, İsmayıl Şirvanşahların və Ağqoyunluların Azərbaycan ərazisindəki hakimiyyətlərinə son qoyaraq güclü mərkəzi hakimiyyətə malik bir dövlət yaratdı.

Azərbaycan Səfəvi dövlətinin etnik və mədəni birliyə malik çoxluğunu və hərbi-siyasi əsasını Azərbaycan türkləri təşkil edirdi. Mühüm dövlət vəzifələri, əyalət hakimləri Azərbaycan əyanları idi. XVI əsrin ortalarında yüksək vəzifəli 74 əmirdən 64-ü Azərbaycan türkü idi. Sarayda, orduda əsas danışıq dili Azərbaycan dili idi.

## § 1.4. İmperatorluğun yaradılması

Azərbaycan Səfəvi dövlətini yaradandan sonra siyasi vəziyyət Şah İsmayılın qarşısında daha geniş vəzifələr qoymuşdu. O, hakimiyyətə Ağqoyunlu Uzun Həsənin varisi kimi gəlmişdi. Əlvənd Mirzə məğlub olsa da Ərzincanda yeni döyüş üçün hazırlıq işləri aparırdı. Ağqoyunlu Murad Mirzə qızılbaşlara zərbə vurmağa hazırlaşırdı. Bir çox feodal hakimlər müstəqillik iddiası ilə hərəkət edirdilər. Şah İsmayıl və onun əmirləri Azərbaycan dövlətinin qüdrətini daha da artırmaq və ərazilərini genişləndirmək üçün tədbirlər görürdülər. İran, İraq, Kürdüstan və Kiçik Asiyadakı tərəfdarlarını öz ətrafında birləşdirirdilər.

Əlvənd Mirzə Təbrizlə Şərqi Anadolu arasında köç və ziyarət yollarını bağlayaraq qızılbaş tərəfdarlarının Təbrizə gəlmələrinə imkan vermirdilər. Şah İsmayıl 1502-ci ilin yazında Ərzincana yürüş etdi. Əlvənd Mirzənin Təbrizə doğru

hərəkət etdiyi haqda məlumat aldıqda 1502-ci ilin avqustunda Təbrizə qayıtdı. Şah İsmayılın gəldiyindən xəbər tutan Əlvənd Mirzə Ucandan Bağdada qaçdı. Beləliklə Əlvənd Mirzə tərəfindən yaranan təhlükə aradan qaldırıldı.

Şah İsmayıl Murad Mirzə ilə müharibə etmək fikrində deyildi. Ona görə də 1503-cü ilin yazında müridi Qənbər ağanı Murad Mirzənin yanına göndərib, ağqoyunlularla qohumluq əlaqələrini xatırladaraq itaət etməsini, əvəzində İraq-i Əcəmin bir hissəsini ona təklif etdi. Murad Mirzə bu təklifi qəbul etmədi.

1503-cü ilin yayında Şah İsmayıl Qızılüzən çayını keçərək Həmədan yaxınlığında Almaqulağı deyilən yerdə 12 minlik ordusu ilə düşərgə saldı. Sultan Muradın 70 minlik ordusu ilə qarşı-qarşıya durdu. 1503-cü il iyun ayının 21-də səhər tezdən Murad 10 min nəfərlik döyüşçüsü ilə Səfəvilərin ordusu üzərinə hücuma keçdi. Az müddət ərzində onun ordusu darmadağın edildi. O, ordunun sağ və sol cinah hissəsini döyüş meydanına gətirdı. Şah İsmayıl da ordusunun cinah hissələrinə döyüşə başlamağı əmr etdi. Müharibə günün yarısına kimi davam etdi. Sultan Murad məğlubiyyətə uğrayaraq sağ qalmış döyüşçüləri ilə qaçdı. Qızılbaşlar Şiraz istiqamətində hərəkət edərək Şirazı ələ keçirdilər.

Murad Mirzənin məğlubiyyəti ilə Fars və İraq-i Əcəmin böyük bir hissəsi ələ keçirildi və Ağqoyunlu səltənətinə son qoyuldu. 1503-cü ildə qızılbaşlar İsfahan, Kaşan və Qum şəhərlərini də ələ keçirdilər. 1504-cü ildə Yəzd şəhəri də tutuldu. 1506-1508-ci illərdə qızılbaşlar Bağdad da daxil olmaqla Diyarbəkir, Xilat, Bidlis, Ərciş və Ərəb İraqını işğal etdilər. 1508-ci ildə Xorasan istisna olmaqla bütün İran torpaqları Səfəvilərin hakimiyyəti altına keçdi.

I Şah İsmayıl özünü babası Uzun Həsənin varisi hesab edir və Ağqoyunlu dövlətinə aid olan əraziləri geri qaytarmağa çalışırdı. Diyarbəkir bölgəsini də ələ keçirməyə çalışırdı. İsmayıl Məhəmməd xan Ustaclını Diyarbəkir hakimi təyin etmişdi.

Anadolu xanlarından olan Məhəmməd Ustaclı yeddi qardaş olub İsmayıla sədaqətli idilər. İsmayıl ikinci bacısını ona ərə vermişdi. Hesnkif hakimi Sultan Xəlil könüllü olaraq İsmayılın yanına gəlib, qızılbaş papağı geyinib ona tabe olacağına and içmişdi. İsmayıl onun əmirliyini təsdiq edib bacılarından birini ona ərə vermişdi. Lakin Xəlil İsmayıla tabe olmaqdan boyun qaçırır, bütün Diyarbəkir bölgəsini özünə tabe etməyə çalışırdı.

Osmanlı torpaqları və Misir arasındakı sərhəd zonasında yerləşən Zülqədər oğulları bəyliyi (1339-1521) ilə Səfəvilər arasında münasibətlər kəskinləşirdi. Zülqədər oğlu Əlaüddövlə dəfələrlə Diyarbəkirə yürüşlər təşkil edib Urfa şəhəri və ətraf ərazilərdə qarətlər törədirdilər. Onlar Xarput şəhərini də ələ keçirmişdilər. Əlaüddövlə bəy Əlvənd Mirzənin ölümündən (1505) sonra ona sığınmış Ağqoyunlu şahzadələrini Diyarbəkirə yürüşə təhrik və kömək edərək Amid, Mardin və bir sıra yerləri ələ keçirmişdi. Çox keçmədən Əmir bəy (Əlvənd Mirzənin bəylərbəyi) onları məğlubiyyətə uğradaraq həmin ərazilərdə öz mövqeyini möhkəmlətmişdi. Əmir bəy İ Şah İsmayılın hakimiyyətini qəbul etmişdi.

I Şah İsmayıl Əlaüddövlənin Diyarbəkirdə marağına birdəfəlik son qoymaq üçün Ərzincana gedərək hazırlıq işlərinə başlayır.

İsmayıl Ərzincanda olarkən Qulu bəyi Osmanlı sarayına, Zəkəriyyə bəyi isə Misir Məmlükünün yanına göndərdi ki, onların ərazisini tutmaq fikrində deyil. O, Osmanlı Sultanından Əlaüddövlə ilə döyüşmək üçün onun ərazisindən keçməyə icazə istədi. İsmayıl Osmanlı ərazisindən keçərək Qeysəriyyə yolu ilə hərəkət etdi. Əlaüddövlə kömək üçün Osmanlı Sultanına və Misir Məmlüklərinə müraciət etdi. Xarput ələ keçirildi. Əmir bəy ətrafı ilə İsmayılın hüzuruna gələrək itaət etdi. Mosullular İsmayılın tərəfinə keçərək qızılbaşlığı qəbul etdilər. Diyarbəkir bölgəsi tam İsmayılın idarəsi altına keçdi. Elbistan qarət və talan edildi. Qızılbaşlar Əlaüddövlənin paytaxtı Mərəşə doğru irəlilədilər. Əlaüddövlə hündür dağlara çəkilmişdi. Oraya gedib

çatmaq üçün dar keçidlər çətinlik törədirdi. İsmayıl Səfəvi ordusuna hücum edən Əlaüddövlənin oğlanlarını ələ keçirib öldürtdürdü. Ustaclı Məhəmməd Əlaüddövlənin ordusunu bir neçə dəfə məğlub etməklə böyük rəşadət və hünər göstərdi. I Şah İsmayıl Elbistana qədər gəlsə də ərzaq çətinliyi, qar, yağış yağması və soyuqların düşməsi ilə əlaqədar olaraq oranı tərk etdi.

**Xorasan uğrunda döyüş**. I Şah İsmayıl mərkəzləşmiş Azərbaycan dövləti yaratmaq və Ağqoyunlu dövlətinin tərkibində olan əraziləri bu dövlətin tərkibinə qatmaq uğrunda mübarizəyə başı qarışdığı dövrdə Məhəmməd Şeybani xan Xorasanı ələ keçirməyə çalışırdı. 1507-1508-ci illərdə Şeybanilər Xorasanı ələ keçirdikdən sonra Kirman və Yəzdə talanedici yürüşlər edirdilər. Onlar Xorasan uğrunda mübarizəni şiələrə qarşı “müqəddəs müharibə” şüarı ilə həyata keçirirdilər. Xorasan uğrunda mübarizə Səfəvilərlə Şeybanilər arasında düşmənçiliyə səbəb olmuşdu.

Şeybani xanın I Şah İsmayıla göndərdiyi məktubda hakimiyyətdən əl çəkməsi, tabe olması haqqında sərt tələbləri müqabilində İsmayıl onun yanına iki dəfə elçi göndərərək yürüşləri dayandırmağa çağırdı. Şeybani xan cavabında bildirdi ki, dərvişlər və onların övladları dövlət idarəsi ilə deyil, ibadətlə məşğul olmalıdırlar. O, Səfəvi şahına darğa kimi müraciət etmişdi. I Şah İsmayıl isə cavabında bildirdi ki, o, Məşhəddəki səkkizinci İmam Rza məqbərəsini bir “dərviş” kimi ziyarət etmək niyyətindədir və buna görə də Xorasana qoşunla gələcəkdir.

1510-cu ildə I Şah İsmayıl Xorasan üzərinə yürüşə başladı. O, Cam yaxınlığında əsir götürdüyü özbək əsgərlərindən Şeybani xanın Mərvdə olduğunu öyrəndi. Ona görə də qoşunu Herata doğru deyil, Mərv üzərinə göndərdi. Şeybani xanın qızılbaşlara qarşı göndərdiyi ordu məğlubiyyətə uğradı. I Şah İsmayıl noyabrın 28-də Mərv qalasına yaxınlaşdı. Mərv qalasının möhkəmliyini görən İsmayıl Şeybani xanı qaladan

çıxarmaq üçün hiyləyə əl atdı. Ordunu qalanın mühasirəsindən çəkərək, şəhərin 3 fərsəxliyində (10 km) yerləşdirdi. Əmir xan Mosullunu isə bir dəstə ilə qalanın ətrafında olmağı, Şeybani xan qaladan çıxarkən "qaçmağa üz qoymağı" tapşırdı. Şeybani xan I Şah İsmayılın Azərbaycana doğru geri çəkildiyini zənn edərək qaladan çıxdı və Mosullunun 300 nəfərlik dəstəsini təqib etməyə başladı. Bu zaman I Şah İsmayılın göndərdiyi elçi gətirdiyi məktubu Şeybani xana çatdırdı. Məktubda I Şah İsmayıl geri çəkilmək məcburiyyətində qaldığını, qışı Xorasanda qalaraq yazda özbəklər üzərinə yenidən yürüş edəcəyini bildirirdi. Məktubu oxuduqda Şeybani xan qızılbaşların həqiqətən geri çəkilməsinə inandı və onlar üzərinə hücum etmək qərarına gəldi.

1510-cu il dekabrın 1-də Şeybani xan İsmayılın əsas qoşunu ilə qarşılaşdı. Sayca çox olan qızılbaşlar Şeybani qoşununu darmadağın etdilər. Məhəmməd Şeybani xan öldürüldü. Mərv qələbəsi nəticəsində Amudəryaya qədər bütün Xorasan Səfəvilərin hakimiyyəti altına keçdi. Herat, Mərv və Bəlx şəhərləri daxil olmaqla Xorasan Azərbaycan Səfəvi dövlətinin tərkibinə qatıldı. I Şah İsmayıl ələ keçirdiyi bu ölkələrdə siyasi birlik yaratmaqla, böyük bir imperatorluq yaratmağa nail oldu. İmperatorluq Fəratdan Qəndahara, Qafqazdan Hind okeanına qədər 2.800.000 $km^2$–dən ibarət geniş bir ərazini əhatə edirdi.

# II FƏSİL

# I ŞAH İSMAYILIN DAXİLİ VƏ XARİCİ SİYASƏTİ

## § 2.1. I Şah İsmayılın daxili siyasəti

Səfəvi dövləti yaranandan sonra I Şah İsmayıl tərəfindən həyata keçirilən tədbirlər nəticəsində ölkədə vahid inzibati idarəetmə sisteminin qurulması, təsərrüfat həyatının bərpası və inkişaf etdirilməsi istiqamətində həyata keçirilən iqtisadi siyasət, kəndlilərin və sənətkarların vəziyyətinin yüngülləşdirilməsi sahəsində atılan addımlar, vergi siyasətini nizamlamaq sahəsində islahatlar iqtisadiyyatın inkişafını stimullaşdırırdı. Şəhər həyatında baş verən iqtisadi canlanma, sənətkarlıq məhsullarına yerli əhalinin və xarici tələbatın artması sənət və peşələrin inkişafını sürətləndirir və yeni sənət sahələrinin yaranmasına səbəb olurdu.

I Şah İsmayılın daxili siyasətinin əsas ideyası mərkəzləşdirilmiş dövlət yaratmaq idi. Ölkə iqtisadiyyatının bərpası və inkişaf etdirilməsi, iqtisadiyyatın əsas sahələri olan kənd təsərrüfatı, sənətkarlıq və ticarətin dirçəldilməsi bunu tələb edirdi.

I Şah İsmayılın tacirlərdən və sənətkarlardan vəziyyətlərinə görə vergi alma siyasəti, ticarətin canlanması və inkişafına mane olan bəzi vergilərin ləğv edilməsi, monqol dövründən tətbiq edilən vergilərin yığılmasındakı iltizam sisteminin aradan qaldırırlması ticarətin və sənətkarlığın inkişafına müsbət təsir göstərirdi.

Keçmişdən qalan bir sıra vergi və mükəlləfiyyətlər daxili bazarın formalaşması prosesinə və fəaliyyətinə mane olduğuna görə I Şah İsmayıl məhdud miqyaslı fərmanları ilə bu maneələri aradan qaldırmağa çalışmışdı.

İsmayıl hələ hakimiyyət uğrunda mübarizəyə başladığı dövrdə tərəfdarlarının yüksək hərbi zümrəsi hesabına yeni

dövlət aparatının əsasını yaratmış, ələ keçirdiyi ərazilərdə yerli idarəçilik formasını formalaşdırmaqla bərabər dövlətin yüksək vəzifələrini bərqərar etməklə hakim türk qızılbaş soylarından zümrəni möhkəmləndirə bilmişdi.

I Şah İsmayılın ən mühüm tədbirlərindən biri dini islahat keçirməsi idi. 1501-ci ilin payızında, Səfəvi dövləinin yaranmasının ilk günlərində islamın şiə təriqəti, yəni imamilər təriqəti dövlət dini elan edildi. Tacqoyma ərəfəsində əmirlər və şiə imamları ilə məsləhətləşəndə onlar İsmayılı ifratçılıqdan çəkindirməyə çalışsalar da buna nail ola bilməmişlər. İsmayılın əmri ilə səhərisi Təbrizin Cümə məscidində oxunan xütbədə 12 imam xatırlanmış və ilk 3 xəlifə (Əbubəkr, Ömər və Osman) isə açıq şəkildə lənətlənmişdi. Xütbə oxunan zaman İsmayıl minbərin aşağısında, məscidə gələn təbrizlilərin başları üzərində qılıncını qaldırmış halda durmuşdu.

Qızılbaş nəzəriyyəsinə görə Xəlifə Əli imamdır və kim bunu qəbul etmirsə kafirdir. İsmayıl özünün Əli və Fatimədən başlanan "mənşəyi" ilə fəxr edirdi.

Xətayinin "Divan"ında (şerlər külliyyatı) əksini tapmış qızılbaş nəzəriyyəsinə görə Peyğəmbər və Əlinin keyfiyyətləri İsmayılın simasında təcəssüm etmişdir. Əlinin və onun nəslindən olanların ilahiləşdirilməsi, Allahın əlamətlərinin insanda görünməsi ifrat şiə təriqətçiləri üçün xasdır.

Dövriyyəyə şiəlik simvolları olan sikkələr buraxıldı. Pulların üstündə 12 şiə imamının adları və "Müqəddəs şahın (yəni Əlinin) qulu" ifadəsi ilə, kiçildilmiş formada Şah İsmayılın adı göstərilmişdi. Pul islahatı şiəliyin təbliğat məqsədlərinə, onun Səfəvilər dövlətində hakim mövqeyinin möhkəmləndirilməsinə xidmət edirdi.

I Şah İsmayıl daxili siyasətində separatçılığa meyl göstərən qızılbaş əyanlarına güzəştə getmir və onlara qarşı sərt tədbirlər görürdü. Qızılbaş əyanlarının yerlərdə möhkəmlənə bilməməsi üçün tez-tez onların yerlərini dəyişdirirdi.

O, mərkəzi hakimiyyəti möhkəmləndirmək üçün oturaq şəhər əhalisinin nümayəndələrini də dövlət işlərinə təyin edirdi. Onun daxili siyasətində mərkəzi hakimiyyətin ictimai dayağının genişləndirilməsinə diqqət yetirilirdi.

## § 2.2.Səfəvi-Osmanlı münasibətləri

Səfəvi şeyxləri siyasi mübarizəyə başlayana kimi Osmanlı sultanları ilə xoş münasibətdə idilər. Ankara savaşından sonra Səfəvi şeyxi Xacə Əlinin xahişi ilə Əmir Teymur Anadoludan apardığı əsirləri sərbəst buraxdırmış və onlar Ərdəbil şəhəri ətrafında məskunlaşdırılmışdılar.

Bu hadisə Şərqi Anadoluda yaşayan türk boyları ilə əlaqələri daha da yaxınlaşdırmışdı. XV əsrin II yarısından başlayaraq Osmanlı sultanlarının Anadoluda yaşayan türk tayfalarına ölkənin idarəetmə sistemində yer verməməsi bu yarımköçəri türk tayfalarını türk dövlətindən narazı salmış və Şərqi Anadoluda Qızılbaş müridlərinin çoxalmasına səbəb olmuşdu. II Bəyazid Şərqi Anadoluda yaşayan Ərdəbil sufilərinə qarşı sərt tədbirlər həyata keçirsə də sonradan I Şah İsmayılla münasibətlərini kəskinləşdirməmək üçün mövqeyini dəyişdi. Hətta Şərur döyüşündən sonra Əlvənd Mirzəyə göndərdiyi məktubda Ağqoyunlu şahzadələrinə öz aralarında baş vermiş çəkişmələrə son qoymalarını və qızılbaşlara qarşı birləşmələrini tövsiyə edirdi. Bütün bunlara baxmayaraq I Şah İsmayıl II Bəyazidlə ehtiyatlı davranır və ona yazdığı məktublarda “ata” deyərək mürüciət edirdi. 1503-cü ildə qızılbaşların Sultan Murad üzərində qələbəsindən sonra yeni siyasi vəziyyətin yarandığını görən II Bəyazid Səfəvi dövlətinə qarşı siyasətini dəyişdi.

II Bəyazid isə məktubunda I Şah İsmayıla "I Şah İsmayıl" ünvanı ilə müraciət edir, I Şah İsmayılın əcdadlarını "Allahın dostları" kimi adlandırırdı. II Bəyazid 1504-cü ilin qışında I Şah İsmayılın Əcəm İraqı və Farsı ələ keçirməsini təbrik etmək, hakimiyyətini rəsmən tanımaq üçün öz elçisini göndərdi. O,

məktubunda I Şah İsmayıla "möhtərəm oğul", "ali məqamlı övlad" deyə xitab edirdi.

Ümumiyyətlə II Sultan Bəyazidin hakimiyyəti dövründə Səfəvi-Osmanlı münasibətlərində sülh şəraiti hökm sürmüşdür.

Hər iki hökmdar münasibətlərində yaranmış ziddiyyətləri müharibə həddinə çatdırmamışlar.

Lakin getdikcə Səfəvi-Osmanlı münasibətlərində yaranan siyasi-iqtisadi ziddiyyətlərə dini çalarların əlavə olunması ilə bu ziddiyyət daha da dərinləşirdi. I Şah İsmayıl ana tərəfdən Uzun Həsənin nəvəsi olduğundan Ağqoyunlu dövlətinin varisi kimi onlara məxsus Şərqi Anadolu torpaqlarına olan qanuni varislik hüququnu əsas tutaraq Şərqi Anadolunu ələ keçirməyə çalışırdı. Belə bir şəraitdə XV əsrin II yarısından başlayaraq Şərqi Anadoludakı yarımköçəri türk boylarının Osmanlı sarayı tərəfindən sıxışdırılması, onların nicat yolunu Ərdəbildə axtarmasına səbəb oldu.

Hər iki dövlət bölgədə siyasi mövqelərini möhkəmləndirmək üçün geniş xalq kütlələri arasındakı dini təriqətləri qızışdırmaqla öz məqsədlərini gerçəkləşdirmək üçün ondan bir vasitə kimi faydalanmağa çalışırdılar.

I Şah İsmayıl 1507-ci ildə Zülqədər ölkəsinə, yəni Əlaüddövlə üzərinə yürüş edərək Ərzurum və Ərzincan yolu ilə, yəni Osmanlı ərazisindən keçərək hücum etmiş və bu yürüşə II Bəyazid icazə vermişdi. I Şah İsmayıl Zülqədər bəyliyinə yürüş nəticəsində Xarputu ələ keçirib, Diyarbəkiri nəzarət altına aldı. Bu zaman şahzadə Səlim Trabzon valisi idi. O, 1508-ci ildə Gürcüstana üç dəfə yürüş edərək xeyli hissəsini ələ keçirmişdi. Səlim həmçinin Ağqoyunlulardan Səfəvilərə keçən Bayburt, Ərzincan, Kemah, İşpir, Gümüşxanə və Cəmişgəzər arasındakı əraziləri də tutmuşdu. I Şah İsmayıl Səlim tərəfindən ələ keçirilmiş əraziləri qaytarmaq üçün qardaşı İbrahim Mirzənin rəhbərliyi ilə hərbi hissə göndərmişdi. Səlimin başçılığı ilə Osmanlı ordusu qizilbaşları məğlub etmiş və İbrahim Mirzə əsir alınmışdı. I Şah İsmayıl Osmanlı dövləti ilə

müharibəyə yol verməmək məqsədilə II Sultan Bəyazidin yanına elçi göndərərək şahzadə Səlimin hərəkətlərinə etirazını bildirərək Osmanlı dövlətinə dostluq münasibətlərini bəyan etdi. II Bəyazid elçiləri hörmətlə qarşılamış, Səlimə hakimlik etdiyi Sancağın mühafizəsi ilə məşğul olmağı və bir daha belə hərəkətlər etməməyi tapşırmışdı. Ələ keçirilən əraziləri isə Səfəvi dövlətinə qaytarmışdı.

Lakin şahzadə Səlimin 1510-cu ildə yenidən Ərzincana yürüşü Səfəvi-Osmanlı münasibətlərini gərginləşdirmişdi. II Sultan Bəyazid münasibətləri qaydaya salmaq üçün I Şah İsmayılın yanına elçilərini göndərmiş, yaranmış qarşıdurmanı aradan qaldırmışdı. Göründüyü kimi istər I Şah İsmayıl, istərsə də II Bəyazid tərəflər arasında yaranmış qarşıdurmanın müharibə həddinə çatmasını istəmir və dostluq münasibətlərinə üstünlük verirdilər.

1510-cu ildə Kiçik Asiyanın Şərq vilayətində Şahqulunun rəhbərliyi altında güclü üsyanın baş verməsi, Məhəmməd xan Ustaclının – Diyarbəkir hakiminin tez-tez sərhədi pozaraq Osmanlı ərazisinə soxulması da Osmanlı-Səfəvi münasibətlərinə mənfi təsir göstərirdi.

Belə bir şəraitdə I Şah İsmayıl imperatorluq hüdudlaından kənarda və xüsusilə, Şərqi Anadoludakı müridləri ilə əlaqələrini nəinki saxlayır, bu əlaqələri daha da gücləndirirdi. Bu, daha çox dövlətin qərb bölgələrində türk oymaqlarından olan qızılbaşların sayını artırmaqla, dövlətin yerli dayaqlarını möhkəmləndirmək üçün lazım idi. Qızılbaşların belə siyasəti Osmanlı dövləti daxilində gərginliklər yaradır, eyni zamanda iki ölkə arasında ciddi narazılıqlara səbəb olurdu.

Osmanlı hökmdarı II Bəyazid (1481-1512) təbələrinin ölkəni tərk etməsinin qarşısını almaq üçün tədbirlər görürdü. I Şah İsmayıl II Bəyazidə göndərdiyi bir məktubda təriqət mənsublarının ziyarətinə mane olunmamasını xahiş edirdi. II Bəyazid isə I Şah İsmayıla göndərdiyi məktubda ziyarəti yerinə yetirdikdən sonra geri dönməyə söz verənlərə mane olma-

yacağını yazmışdı. Əslində, II Bəyazid I Şah İsmayılın könlünə dəyməmək üçün ona belə bir cavab göndərmişdi. I Şah İsmayıl isə Osmanlılarla çox ehtiyatlı davranırdı.

I Şah İsmayılın ehtiyatlı davranışlarına baxmayaraq, 1510-cu ildə Anadoluda Şahqulu Baba üsyanı baş verdi. Şahqulu Şeyx Heydərin Anadoluda təriqət yayan və Təklə elindən olan Həsən adlı xəlifəsinin oğlu idi. O, son dərəcə fəal və cəsarətli bir adam idi. Osmanlı dövlətində mərkəzi hakimiyyətin bir qədər zəifləməsindən istifadə edərək hərəkətə başlamışdı. Tərəfdarları Şahquluya «baba» deyirdilər. Təklə elinin yoxsul və varlılarından ibarət saysız-hesabsız tərəfdarları vardı. Şahqulu Osmanlı ordusunu bir neçə dəfə məğlubiyyətə uğratdı. Sonuncu savaşda çox ağır yaralanmış Şahqulu çox keçmədi ki, öldü. Ancaq onun tərəfdarları Səfəvi ölkəsinə gedə bildilər. Onların sayı 15.000 idi. Şahqulu güvəndiyi adamlardan birini özünə vəzir təyin etmişdi. Ətraf bölgələrə bəylərbəyi, sancaqbəyilər də göndərmiş və Osmanlı elindəki xəlifələrinə məktublar yazaraq hərəkətə başlamalarını bildirmişdi.

Bütün bunlara baxmayaraq, onun məqsədi Osmanlı dövlətini devirmək yox, Şərqi Anadoluda tərəfdarlarının sayını artırıb Səfəvi hakimiyyətini möhkəmləndirmək idi. Şahqulu bacarığı ilə elə bir təsirə malik idi ki, hətta II Bəyazidin Qaraman valisi olan oğlu Şehinşah da onun təbliğatına uymuş və qızılbaşlığı qəbul etmişdi.

I Şah İsmayıl tərəfindən Osmanlı taxt-tacı uğrunda mübarizədə Amasiya valisi Əhmədin müdafiə edilməsi və Qaraman valisı Şahzadə Şehinşahın qızılbaş tərəfdarlarına qoşulması siyasi gərginliyi artırırdı. Şahzadə Əhmədin öldürülməsi, oğlu Muradın Səfəvi şahına sığınması, hakimiyyətə keçən Səlimin qızılbaşlara qarşı təcavüzkarlıq siyasəti münasibətləri daha da pisləşdirdi.

Nəticədə I Şah İsmayılın Sultan Səlimin səltənət taxtına oturması münasibəti ilə Ədirnəyə göndərdiyi elçini Sultan Səlim qəbul etmədi və həbs etdirdi. Bu hadisədən sonra I Şah

İsmayıl Nurəli Xəlifənin başçılığı ilə Anadoluya qoşun göndərdi. O, Qarahisar və Niksar qalalarını və Toqatı ələ keçirdi, az sonra Ərzincan ətrafında Sinan paşanı məğlub edərək Şahzadə Əhmədin oğlu Muradın qüvvəsi ilə birləşərək Sivaş, Toqat, Amasiya və Gorumda qızılbaşların üsyana qoşulmasını təmin etdi.

Qızılbaşların Anadoludakı bu tədbirləri Osmanlı dövləti ilə Səfəvilər arasında münasibətləri daha da gərginləşdirdi. I Sultan Səlim qardaşları ilə bağlı təhlükəni aradan qaldırdıqdan sonra Anadoluda 40.000 nəfər qızılbaşı öldürtdü. Təklə elində həbs etdirdiyi qızılbaşları isə Aralıq dənizində yeni fəth olunan adalara sürgün etdi. Bununla, Səfəvilərə qarşı müharibəyə hazırlaşan I Sultan Səlim yürüşü zamanı arxasında baş qaldıra biləcək təhlükəni aradan qaldırıb özbək Übeydulla xanın da köməyinə arxalanaraq hərbi əməliyyata başlamağı qərara aldı.

Sultan Səlim I Şah İsmayıla elçi göndərərək, şahzadə Muradı təhvil verməsini və Diyarbəkiri qaytarmasını tələb etdi. I Şah İsmayıl Sultan Səlimin bu tələblərinə rədd cavabı verdi. Sultan Səlim divanı toplayaraq Qızılbaş dövlətini və üsyan edən qızılbaşları necə aradan qaldıracağını müzakirə etdi. "Dinin saflığı uğrunda" müharibəyə gedən Sultan Səlim də ideoloji mübarizədə islam dininin ehkamlarına söykənirdi.

Səfəvi dövlətindəki sünnilərin bir hissəsi osmanlı, bir hissəsi isə özbəklərlə əlaqə yaradaraq onları qızılbaşlara qarşı müharibəyə təhrik edirdilər.

XVI əsrin əvvəllərində iki türk fövqəldövlətinin Yaxın Şərqdə geosiyasi, ideoloji və iqtisadi maraqlarının toqquşmasının şiələr və sünnilər arasında din müharıbəsi kimi qələmə verilməsi düzgün deyildir. Osmanlı hakim dairələri Şərqi Anadoluda əhalinin vəziyyətinin ağırlığı və dövlət məmurlarının özbaşınalığına qarşı etirazlarının artaraq Səfəvilərə yaxınlaşmasını sünni əhaliyə qarşı məhzəb ayrılığı uğrunda mübarizə kimi adlandıraraq öz məqsədlərinə nail olmaq üçün dini təfriqədən istifadə edirdilər.

I Şah İsmayıl Şərqi Anadoludakı tərəfdarlarından istifadə edərək Osmanlı əleyhinə yaranmış narazılıqdan istifadə edib Şərqi Anadolunu ələ keçirmək istəyirdi.

Digər amil – Qərbi Avropa ölkələrinin türk imperiyalarını bir-birilə salışdırmağa yönələn siyasəti də bu dövlətlər arasında münasibətləri kəskinləşdirdi.

Təsadüfi deyil ki, Türkiyə tarixçisi Xəlil İnalcık yazır ki, Osmanlı iqtisadiyyatının şah damarı olan Təbriz-Toqat-Bursa ipək yolu Osmanlı işğallarını Şərqə doğru istiqamətləndirən əsas amil olmuşdur.

Səfəvi ərazisində yaşayan sünnilərin bir hissəsinin Osmanlıya, bir hissəsinin Şeybanilərə sığınaraq Qızılbaşlara qarşı təhrik edilmələri də Osmanlı-Səfəvi münasibətlərini pisləşdirirdi. Məsələn, Kürdüstandan İdris Bidlisini Osmanlılar qızılbaşlarla mübarizəyə təhrik edirdilər.

Sultan Səlim Venesiya və Macarıstanla bağlanmış müqavilələri bərpa etdi. Məmlük sultanlarının bitərəf qalmasına nail oldu. Türkiyə tarixçisi Mustafa Əkinçi yaranmış vəziyyəti təhlil edərək göstərir ki, Sultan Səlimin məqsədi Səfəvi dövlətini tamamilə aradan qaldırmaq idi. Onun I Şah İsmayıla hələ Maltəpədə olarkən göndərdiyi məktubdan aydın olur ki, o, Səfəvi şahına normal bir padşahın qəbul etməsi mümkün olmayan təkliflər etmişdi.

Sultan Səlim Azərbaycana hücumu ərəfəsində I Şah İsmayıla 3 məktub göndərdi. O, məktubda təhqiramiz ifadələr işlədir və hədə-qorxu gəlirdi. Sivaşda olarkən göndərdiyi məktubda isə İsmayılı çox ağır ifadələrlə həqarət etmişdi. Şeyxliyinə işarə edərək ona əsa, əba və dərviş xalatı göndərmişdi. Ərzincandan Sultan Səlim üçüncü məktubu göndərdikdən sonra I Şah İsmayıl ona nəsihətamiz cavab verdi.

Sultan Səlim I Şah İsmayılın müdrik və nəsihətamiz məktubunu alarkən elçini edam etdirdi və Ərzincandan Təbriz üzərinə hərəkət etdi. Sultan Səlim 1514-cü il avqustun ortala-

rında Çaldıran döyüşü ərəfəsində I Şah İsmayıla Tərcan yaxınlığında 4-cu məktubunu göndərdi.

Sultan Səlim bu məktubunda I Şah İsmayılın cürət edib ona cavab yazmasını göstərərək yenə də təhqiramiz ifadələr işlədir və ona boyunbağı, sırğa və baş örtüyü göndərir. Artıq bu iki türk dövləti arasında qarşılaşma qaçılmaz vəziyyətə gəlir.

Məşvərət məclisində Məhəmməd xan Ustaclı Osmanlı ordusunun Çaldıran düzünə enərkən döyüş mövqeyini müəyyən etmədən hücum etmə və ya osmanlıların odlu silahının üstün olmasını nəzərə alaraq gecə hücuma keçmənin məqsədə uyğun olması təklifləri Durmuş xan Rumlunun etirazı ilə qəbul edilmədi. I Şah İsmayıl da gecə hücumunu öz qüruruna sığışdırmadığına görə bu təklifə etiraz etdi. Hətta, Məhəmməd xan Ustaclının Osmanlı ordusunun sayca çox olmasını nəzərə alıb döyüşə girməməyi və gözləmə mövqeyi tutaraq ölkənin digər bölgələrindən hələ gəlib çıxmamış hərbi hissələrin çatmasından sonra döyüşə başlama təklifi də qəbul olunmadı. Beləliklə, I Şah İsmayılla I Sultan Səlimin aralarındakı qırıcı məktublardan sonra 23 avqust 1514-cü ildə Xoy şəhərinin şimali-cənubunda eyni adlı şəhərdən 20 fərsəx məsafədə olan Çaldıranda bir qandan olub, bir dildə danışan qüvvələr qarşılaşdı.

I Şah İsmayıl ordusundakı düzülüşə görə ortadakı qüvvəyə Nizaməddin Əbdülbaqi, Məhəmməd Kəmunə, Şərəfəddin Əli, sağ cinaha Durmuş xan Şamlı, sol cinaha Məhəmməd xan Ustaclı, öncüllərə qorçubaşı Sarı Piri və Yusif bəy Varsaq başçılıq edirdi. I Şah İsmayıl özü seçmə döyüşçülərdən yaradılmış qüvvə ilə sağ cinahda dayanırdı.

I Sultan Səlimin ordusunun sol cinahına Rumeli bəylərbəyi Həsən paşa, sağ cinaha Anadolu bəylərbəyi Sinan paşa başçılıq edirdi. Ortada 300 top (bəzi mənbələrdə 500 top olduğu göstərilir) və onların önündə xüsusi dəstə və arxasında isə tüfəngli yeniçərilər dururdu. I Sultan Səlim isə şəxsi qvardiyası ilə yeniçərilərin arxasında idi. Ən geridə isə Şadi bə-

yin dəstəsi yerləşdirilmişdi. Onlar arxadan ediləcək yürüşlərin qarşısını almalı idilər. Hər iki ordunun əsgərləri, «Allah, Allah» deyə döyüşə daxil olub çox igidliklə vuruşurdular. Səfəvilərin öncülləri olan qorçular Sarı Piri Ustaclının başçılığı ilə döyüşə girib osmanlıların xeyli döyüşçüsünü öldürdülər. Ancaq qızılbaş süvarilərinin qarşısı top və tüfəng atəşi ilə alındı. Döyüşün qızğın vaxtında fars bəylərbəyi Xəlil Sultan Zülqədər isə özbaşına savaş meydanından dəstəsi ilə qaçdı. I Şah İsmayılın əlinə və qoluna güllə dəyməsinə baxmayaraq igidliyi ilə tanınmış Malqoçoğlunun başını dəbilqəsi ilə birlikdə 2 yerə böldü. Axşama yaxın I Şah İsmayıl qələbəyə heç bir ümidinin qalmadığından Təbrizə çəkildi.

Məğlubiyyətin əsas səbəbi qızılbaşların sayca Osmanlı ordusundan az olması və demək olar ki, odlu silaha malik olmamaları idi.

Osmanlı və qızılbaş ordularının sayı haqqında müxtəlif məlumatlar mövcuddur. Xüsxusilə Osmanlı və Səfəvi mənbələri qərəzli şəkildə öz ordularının sayını azaltmış, əks tərəfin sayını artırmışlar. Fransız tarixçisi Mikbilin və İdris Bidlisinin verdiyi məlumatlara görə, osmanlı ordusunda 100 min, qızılbaş ordusunda isə 40 min döyüşçü olmuşdur. Qızılbaşların sayca az olmasını nəzərə alan Nurəli Xəlifə Rumlu və Məhəmməd xan Ustaclının osmanlı ordusunun dağ-təpələrdən enərək Çaldıran düzünə çatmamış, hətta dincəlməyə fürsət vermədən üzərlərinə hücum etmək təklifi ilə məşvərət məclisi razılaşsa da Şah İsmayılın yanında xüsusi nüfuzu olan Durmuş xan Şamlı bu təklifin əleyhinə çıxdı. Məhəmməd xan Ustaclının osmanlı ordusunun topxanasının qurulmasına qədər, topxananın döyüş hazırlığına yerləşdirilməsinin qarşısını almaq üçün gecə hücum etmək təklifini də Durmuş xan Rumlu qorxaqlıq adlandırdı. I Şah İsmayıl Durmuş xanı mərdlik qürurundan müdafiə edərək dedi: "Mən karvanbasan quldur deyiləm. İlahi nə buyursa qoy o da olsun." Hətta, Məhəmməd xan Ustaclının qızlbaşların sayca az olmasını nəzərə alıb digər qızılbaş hərbi hissələri gələnə qə-

dər gözləməyi, sonra döyüşə girmək təklifi də qəbul olunmadı. Göründüyü kimi qızılbaşlar əsgərlərinin sayı və odlu silah cəhətdən qat-qat üstün olan osmanlı ordusu ilə döyüşə qərar verdilər.

Döyüşdə 3 min qızılbaş, 2 min nəfər osmanlı əsgəri və hər iki tərəfdən bir çox adlı-sanlı əmirlər də öldürüldü. Qızılbaşlar bu döyüşdə Məhəmməd xan Ustaclını, Hüseyn bəy Lələni, Xadim bəy Xulafəni və Sarı Pirə Ustaclını itirdilər. I Sultan Səlim bu qələbədən sonra 1514-cü ilin sentyabr ayının 6-da döyüşsüz Təbrizə daxil olur, ancaq yeniçərilərin müsəlman qırğınına etirazının getdikcə güclənməsindən, Təbriz əhalisinin müqavimətindən, Şah İsmayılın qüvvələrini toplayaraq yenidən hücum edəcəyindən ehtiyat edərək, həmin ayın 13-də şəhəri tərk edib, Şərqi Anadoluya qayıdır.

Çaldıran savaşından qabaq Səfəvi-Osmanlı sərhəddi Sivasa bağlı Su şəhərindən keçirdi. Kemax qalası, Xarput, Urfa Səfəvilərin hüdud şəhərlərindən idi. Çaldırandan geri dönən I Səlim 1514-1515-ci ildə Amasiyada qışlayıb, sonra İstanbula qayıdarkən Anadolunun açarı Kemax qalasını tutdu. Qala rəisi Məhəmməd bəy 300 döyüşçü ilə təslim olmadan, ölüncəyə qədər vuruşmuşdu. I Səlim Şərqi Anadolunun tutulmasını Ağqoyunlu Bıyıklı Məhəmmədə tapşırdı. O, 1515-ci ildə Təkir yaylağında Nurəli Xəlifəni məğlub etdi. Nurəli Xəlifə, bir çox başqa cəsur bəylər döyüşdə öldürüldü.

Şah İsmayıl Çaldıranda Məhəmməd xan Ustaclı öldükdən sonra Diyarbəkirin idarəsini onun qardaşı Qara bəyə tapşırıb, ona xan titulu da verir. Qara xan, qardaşları Ulaş və Süleyman Diyarbəkirdə möhkəmlənmək üçün əllərindən gələni etdilər. Ancaq Mardin yaxınlığında, Dədə Qarkin düzündə Bıyıklı Məhəmməd paşa ilə savaşda məğlub oldu və özü də öldürüldü. Nəticədə Şərqi Anadolu İraqın Şimal hissəsi də daxil olmaqla Osmanlı idarəsi altına düşdü. Amma Şah İsmayıl Azərbaycan Səfəvi imperatorluğunu qoruyub saxlaya bildi. Bağdad daxil olmaqla Ərəb İraqı Səfəvilərdə qaldı.

1516-cı ildə Qoçhisar döyüşündə də qalib gələn Osmanlılar yenidən Təbrizə daxil oldular. Lakin onlar Təbrizdə çox qala bilmədilər. Qoçhisar döyüşü nəticəsində Səfəvilər Mosul, Xarput və Bitlisi itirdilər.

Çaldıran savaşı göstərdi ki, artıq müasir odlu silah olmadan Osmanlı və ya hər hansı bir dövlətlə müharibədə qələbə qazanmaq mümkün deyil. I Şah İsmayılın Portuqaliyadan odlu silah almaq ümidi özünü doğrultmadı. Portuqaliya İran körfəzində daha da möhkəmlənməyə başladı. Portuqaliyalılar 1515-ci ildə Hörmüz limanını ələ keçirərək Səfəvilərin Hind okeanına çıxışını tamamilə bağladılar.

Azərbaycan Səfəvi dövlətinin hərbi-siyasi tarixində Çaldıran vuruşması mühüm hadisə olmuşdur. Çaldıran məğlubiyyəti I Şah İsmayılın yenilməzliyi haqqındakı inancı məhv etdisə, Sultan Səlim də öz məqsədinə nail ola bilmədi. Onun məqsədi bu dövləti tamamilə aradan qaldırmaq idi. Ancaq, o, dövlət adamları və bilavasitə yeniçəri ocağının gözlənilməyən müqaviməti ilə qarşılaşdı. Lakin Osmanlı Sultan nəinki məqsədinə nail oldu, hətta Azərbaycan ərazisini tərk etməklə qələbəsinin əhəmiyyətini xeyli azaltdı.

I Şah İsmayıl Osmanlı Sultanının Amasiyada qışladığını və 1515 ilin yazında Azərbaycana yürüş etmək planından xəbərdar oldu. Bunun qarşısını almaq üçün Təbriz üləması Seyid Əbdülvəhhabın rəhbərliyi ilə elçi göndərdi ki, xərac vermək şərtilə sülh bağlansın və əsir götürülmüş zövcəsini geri qaytarsın. (Taclı xanıma məxsus ziynət əşyalarının Topqapı sarayında saxlanması bəzi tarixçilər tərəfindən onun Osmanlılar tərəfindən əsir alınması haqqında fikri formalaşdırmışdır. Lakin Taclı xanım Təbriz ələ keçirilən zaman ziynət əşyalarını verməklə azad ola bilmişdi. Əsir düşən isə İsmayılın digər zövcəsi Bəhruzə xanım olmuşdur). Lakin Sultan Səlim bu təklifi nəinki qəbul etmədi, üstəlik elçiləri də həbs etdirdi.

Səfəvi şahının türkcə yazdığı məktuba Sultan Səlim farsca cavab göndərdi ki, şiə məzhəbinin təbliğindən və üç xəlifəni

tənələyib lənətləməkdən çəkinsə, məscidlərdə onun adına xütbə oxutdursa və Araz çayını iki dövlətin sərhəddi hesab etsə təklifini qəbul edəcək və şah hərəmini geri qaytaracaqdır. Şah İsmayıl bu məktuba cavab vermədi. Dövrün mənbələrində iki hökmdar arasında sonrakı yazışmalar haqqında heç bir məlumat yoxdur.

Bir müddət sonra I Şah İsmayıl Kəmaləddin Heydər bəy və Bayram ağa adlı elçilərini Osmanlı sarayına göndərdi, onlar da Sultan Səlimin göstərişi ilə həbs edilərək zindana salındılar.

I Şah İsmayılın Məmlük Sultanı ilə yaxınlaşması ilə Səlim Qansu Quriyə qarşı yürüşə qərar verdi və 1516-cı il avqustun 24-də döyüşdə qələbə çalaraq Suriyanı, 1517-ci il yanvarın 22-də Qahirəni ələ keçirərək aprel ayında Misirin işğalını başa çatdırdı.

Səlimin Azərbaycana yürüş edəcəyi planından xəbərdar olan I Şah İsmayıl yenidən Misirdən qayıdan Sultan Səlimin yanına Dəməşqə Sarı Şeyxin başçılığı altında növbəti elçi heyəti göndərdi. Bu elçilər də həbs edildilər.

1518-ci ilin yazında Sultan Səlim Səfəvi şahı ilə məsələni birdəfəlik həll etmək üçün Fərat çayı sahilinə gəldi. Lakin Osmanlı ordusunun Şərqə doğru bir addım belə atmayacağını bildirən yeniçərilərin gözlənilməyən müqaviməti qarşısında Sultan Səlim İstanbula dönmək məcburiyyətində qaldı.

1520-ci ildə Sultan Səlim vəfat etdi. Sultan Süleyman atasının 1514-cü ildə Təbrizdən apardığı 600-dən artıq şəxsi azad edərək vətənlərinə dönmələrinə icazə verdi, Səfəvilərlə ipək ticarətini bərpa etdi.

## § 2.3. I Şah İsmayılın Gürcüstana yürüşü

XVI əsrin əvvəllərində böyük coğrafi kəşflər nəticəsində okean və dənizlərdən keçən yollar açılsa da karvan yolları öz əhəmiyyətini itirməmişdi. Volqa-Xəzər su yollarında və Təbrizdən Dərbəndə və oradan Avropaya gedən yollarda bir çox

dövlətlərin maraqları var idi. Osmanlı dövləti də Qafqazda öz mövqeyini möhkəmləndirməyə çalışırdı. Səfəvilər də Qafqazdan keçən ticarət yollarını nəzarət altında caxlamaqda maraqlı idilər. Gürcüstan hərbi-strateji əhəmiyyətinə görə Səfəvi dövləti ilə Osmanlı imperiyası arasında mübarizə mövqeyinə çevrilmişdi. Gürcüstan xırda çarlıqlara, Kartli, Kaxetiya, İmeretiya çarlıqlarına və Samstxe-Saafabaqo, Mesxi knyazlığına bölündüyünə görə öz hakimiyyətlərini qoruyub saxlamaq üçün Osmanlı və Səfəvi dövləti arasında manevr edirdilər.

Səfəvilərin Çaldıran döyüşündə məğlubiyyətindən sonra Kartli və Kaxetiya çarları Osmanlı hakimiyyətini qəbul etmişdilər. Mesxi çarı IV Kvarkvare (1516-1535) İmeretiya (Başı Açıq) çarı Mənucöhr tərəfindən məğlub edildikdə I Şah İsmayıla kömək ğöstərməsi üçün müraciət etdi. Onun bu müraciəti Səfəvilərin Gürcüstanda mövqelərini möhkəmləndirmək üçün bəhanə oldu.

1517-ci ildə I Şah İsmayıl Div Sultan Rumlunun başçılığı ilə Gürcüstana qoşun göndərdi. Qızılbaşlar Mənucöhrü məğlubiyyətə uğradıb, IV Kvarkvareni hakimiyyətə gətirdilər. Mənucöhr Osmanlı dövlətinə sığındı.

Bir il sonra Mənucöhr osmanlıların köməyi ilə yenidən IV Kvarkvare üzərinə hücuma keçdi. Div Sultan Rumlunun başçılığı ilə ikinci dəfə qızılbaş qoşunu Dəbil (Dvin) rayonu ərazisində Osmanlı ordusunu darmadağın etdi.

1521-ci ildə Kartli çarı Davidin Səfəvi dövlətinə xərac ödəməkdən imtina etməsi və Kaxetiya çarı Ləvəndin Şəki xanlığına basqını Div Sultan Rumlunun üçüncü dəfə Gürcüstan üzərinə hücuma keçməsinə səbəb oldu. Qızılbaş ordusu Qanıq və Qabirri çaylarını keçərək Zəyəm və Qirem qalalarına hücum edərək gürcü qoşunlarını məğlub etdi. Ləvənd Div Sultan Rumlunun yanına gələrək itaət etdiyini bildirdi. Qızılbaşlar Davidin ordusunu da məğlubiyyətə uğradaraq Tiflisi ələ keçirərək orada qarnizon yerləşdirdilər. X David də Səfəvilərə tabe olduğunu bildirdi. Kvarkvare və Mənucöhr də bu cür hərəkət

etdilər. Gürcüstan hakimləri Div Sultan Rumlu ilə birlikdə qışı Naxçıvanda keçirən I Şah İsmayılın yanına gələrək, Səfəvilərin hakimiyyətini qəbul edərək illik xərac verməyi öhdələrinə götürdülər.

Beləliklə, qızılbaşların yürüşləri nəticəsində Kartli və Kaxetiya – Şərqi Gürcüstan Səfəvi dövlətinə tabe edildi.Qərbi Gürcüstan isə Osmanlıların təsiri altında qaldı.

1524-cü ildə Kaxetiya çarı Ləvənd Şəkiyə yenidən hücum etdi. Şəki qoşunu məğlub edildi. Şəki hakimi Həsən xan öldürüldü. I Şah İsmayıl Kaxetiya çarını cəzalandırmaq üçün hazırlıq gördüyü zaman 23 may 1524-cü ildə vəfat etdi.

### § 2.4. Şirvan üzərində nəzarətin gücləndirilməsi

1500-cü ilin sonunda Cabanı döyüşündə Fərrux Yasarın öldürülməsindən sonra, Şirvan Səfəvi dövlətinin tabeliyində idi. Səfəvilər Şirvanda yerli sülalənin daxili müstəqilliyinə toxunmamışdılar. İlk vaxtlar İsmayıl ən nüfuzlu silahdaşı və tərbiyəçisi Hüseyn bəy Lələni Şirvana canişin təyin etsə də 1502-ci ildə II İbrahim adı ilə Şirvanda hakimiyyəti ələ keçirən Şeyxşah İsmayıla hədiyyələr göndərib vergi verəcəyini və sədaqətli olacağını bildirmişdi. Şeyxşaha qədər Şirvanda Fərrux Yasarın oğlanları Bəhrəm bəy, Qazi bəy və Mahmud öz aralarında taxt-tacı ələ keçirmək uğrunda mübarizə etmiş və onlar bir-birini öldürərək hakimiyyətdə olmuşdular.

1502-ci ildə Fərrux Yasarın oğlanlarından Şeyxşah Gilandan qayıdaraq Sultan Mahmudu hakimiyyətdən salmış və Sultan Mahmud kömək almaq üçün I Şah İsmayılın yanına qaçmışdır. Qızılbaşlardan kömək alan Sultan Mahmud Şirvan üzərinə hərəkət etdi (1505-1506). Şeyxşah Gülüstan qalasına çəkildi, 3 ay mühasirədə qalaraq müqavimət göstərdi. Sultan Mahmudun gecə yatdığı yerdə öldürülməsi hadisəni Şeyxşahın xeyrinə dəyişdi. Şeyxşah Gülüstan qalasından Şirvan üzərinə hərəkət edərək Sultan Mahmudun tərəfdarlarını məğlub etdi. İlk

vaxtlar Şeyxşah I Şah İsmayıla hədiyyələr göndərib sədaqətli olacağına and içsə də öz mövqeyini möhkəmləndirəndən sonra müstəqillik arzusu ilə Şirvan qalalarını möhkəmləndirdi, qoşunun sayını artırdı, I Şah İsmayıl Xorasan yürüşünə hazırlaşdığı zaman Səfəvilərə xərac verilməsini dayandırdı. Bu, 1509-cu ilin sonunda İsmayılın Şirvan üzərinə yenidən yürüşünə səbəb oldu. I Şah İsmayılın qoşunu ilə qarşılaşmaqdan ehtiyat edən Şeyxşah Buğurd qalasına çəkildi.

Bakı, Şirvan şəhərlərinin qala rəisləri və digər qala rəisləri hədiyyələrlə İsmayılın yanına gəldilər. Dərbənd hakimləri I Şah İsmayılın yanına gəlmədiklərinə görə Dərbənd üzərinə yürüş edildi, qala divarlarına lağımlar atılıb dağıdıldıqda, onlar müqaviməti dayandırıb tabe olduqlarını bildirdilər.

Şah İsmayıl ikinci dəfə Şirvanı ələ keçirib Hüseyn bəy Ləlıni ora canişin təyin etdi. Şeyxşahın günahları bağışlanaraq hakimiyyətdə saxlanıldı. Lakin Şeyxşah yenə də Səfəvilərə tabe olmaqdan boyun qaçıraraq Buğurd qalasına çəkilərək müqavimət göstərirdi. Yalnız 1517-ci ildə üçüncü yürüşdən sonra Səfəvilərdən asılılığı qəbul etdi və böyük oğlu Sultan Xəlillə birlikdə İsmayıla çoxlu hədiyyələr göndərdi. Şah İsmayıl qızı Pərixan xanımı Sultan Xəlilə ərə verdi. Şeyxşah isə özü 1523-ci ilin avqustunda Şah İsmayılın Marağadakı düşərgəsinə gəldi və ona sədaqətlə xidmət edəcəyinə and içdi.

1521-ci ilin sentyabrında Şah İsmayıl Şeyxşahın qızı ilə evlənmək üçün elçilərini Şamaxıya göndərdi. Şeyxşah elçiləri böyük hörmətlə qarşıladı, qızını onlarla Təbrizə yola saldı. 5 noyabr 1523-cü ildə Təbrizdə təntənəli surətdə toy mərasimi keçirildi. 1524-cü ildə Şah İsmayıl Naxçıvandan Şirvana gələrkən yolda Şirvanşah II İbrahimin ölüm xəbərini eşitdi. Şah oradan Şəkiyə gəldi. Şəki ilə Gürcüstan sərhəddi arasında ov edərək xeyli əyləndikdən sonra Ərdəbilə qayıtdı. Şirvanda hakimiyyətə II İbrahimin böyük oğlu, Şah İsmayılın qızı Pərixan xanımın əri II Xəlilullah (1524-1535) gəldi.

# III FƏSİL

# SƏFƏVİ DÖVLƏTİ I ŞAH TƏHMASİBİN HAKİMİYYƏTİ İLLƏRİNDƏ

## § 3.1. I Şah Təhmasibin hakimiyyətinin əvvəllərində Qızılbaş əmirləri arasında çəkişmələr

I Şah İsmayılın ölümündən (23 may 1524-cü il) sonra qızılbaş əmirlərinin hakimiyyətdə nüfuz dairəsi uğrunda çəkişmələri mərkəzi hakimiyyətin zəifləməsinə səbəb oldu. Div Sultan Rumlu I Şah İsmayılın hakimiyyətinin son illərində Əmir-əl Üməra, həm də mülki və dini məsələlər üzrə şahın müavini, yəni vəkili idi. O, hakimiyyətə gələn az yaşlı Təhmasibin (1524-1576) vəkili və lələsi (tərbiyəçisi) oldu. Dövlət işlərində nəzarəti ələ keçirən Div Sultan Rumlu qızılbaş əyanları arasında baş qaldıran çəkişmələrin qarşısını ala bilmədi, əksinə ustaclı tayfalarından olan əmirləri vəzifədən uzaqlaşdırmaq və onlara məxsus mülkləri ələ keçirməklə vəziyyəti daha da kəskinləşdirdi. Ustaclı tayfa başçıları Köpək Sultan və Abdulla xan kimi qüdrətli ustaclı əmirləri Div Sultan Rumluya qarşı çıxdılar. Div Sultan Rumlu təkəli tayfasından olan əmirləri Çuxa Sultan Təkəli başda olmaqla öz tərəfinə çəkə bildi. Şamlı tayfasından olan Herat hakimi Durmuş xan və Astrabad hakimi Zeynal xan da Div Sultan Rumlunu müdafiə etdilər. 1525-ci ildə yaranmış qarşıdurmada Köpək Sultan münaqişəni dinc yolla həll etmək qərarı ilə Təbriz yaxınlığında Div Sultan Rumlunu qarşıladı. Div Sultan Köpək Sultanla paytaxta daxil oldular. Lakin Div Sultan ona qarşı daha sərt mövqedə duran bir neçə ustaclı əmirini edam etdirdi və ustaclı əmirləri dövlət işlərindən uzaqlaşdırdı. Köpək Sultan paytaxtdan Çuxursəd vilayətinə çəkildi. Div Sultan Rumlu və Çuxa Sultan Təkəli ustaclı tayfasına məxsus tiyul torpaqlarını ələ keçirdilər. 1526-cı ilin aprel ayında Köpək Sultan rumlu və təkəli tayfaları ilə

mübarizə aparmaq üçün Xalxaldan Sultaniyyəyə gəldi. 1526-cı il may ayının 26-da tərəflər arasında baş verən döyüşdə ustaclı tayfası məğlub olaraq Rəştə çəkildilər. Rəşt və Kirman hakimlərinin ustaclılara kömək etmələrinə baxmayaraq ustaclılar yenə məğlubiyyətə uğradılar. Köpək Sultan öz tərəfdarları ilə Xalxal-Rəşt-Ərdəbil yolu ilə Çuxursədə hərəkət etdi.1527-ci ilin iyun ayının 30-da Naxçıvanda tərəflər arasında baş vermiş döyüşdə ustaclılar darmadağın edildilər, Köpək Sultan öldürüldü.

Tezliklə vəkillik vəzifəsi uğrunda Div Sultanla Çuxa Sultan arasında mübarizə başladı. Çuxa Sultan I Şah Təhmasibi inandırdı ki, tayfalar arasında ədavətin yaranmasının səbəbkarı Div Sultan Rumludur. Beləliklə Çuxa Sultanın təhriki ilə 1527-ci ilin iyul ayında Div Sultan Rumlu öldürüldü.

Dövlət işlərinin idarə edilmsi Çuxa Sultan başda olmaqla təkəli əmirlərinin əlinə keçdi. 1527-ci ildən 1531-ci ilin iyun ayına qədər Çuxa Sultan şahın həm vəkili, həm də əmir əl-üməra oldu. O, yüksək vəzifələrə təkəli əmirlərini gətirdi.

Qızılbaş tayfaları arasında baş verən toqquşmalar mərkəzi hakimiyyəti iflic vəziyyətinə salmışdı. Səfəvilər dövlətində yaranmış şəraitdən istifadə edən Özbək hakimi Übeydulla xan 1526-cı ildən başlayaraq Xorasana dağıdıcı yürüşlər edirdi. Herat hakimi Hüseyn xan özbəklərə qarşı cəsarətlə mübarizə aparırdı. Qızılbaş qoşunu Xorasanı tərk edən vaxt Übeydulla xan yenidən yürüş edərək Heratı mühasirəyə aldı. Herat hakimi Hüseyn xanın nüfuzunun artmasından ehtiyat edən Çuxa Sultan Heratın mühasirəsinə kömək etmək üçün gedən qoşunu yubandırdı. Özbəklərlə danışıq vasitəsi ilə mühasirədən çıxan Hüseyn xan Sarı Mirzə ilə birlikdə şahın İsfahan yaxınlığındakı qərargahına gələrək şahın zülqədər tayfasından olan qorçiləri ilə birləşərək Çuxa Sultan Təkəlini 1531-ci il iyunun 17-də qətlə yetirdilər.

Çuxa Sultan Təkəlinin ölümündən sonra təkəli əmirləri öz hökmranlıqlarını qoruyub saxlamaq üçün Azərbaycan hakimi

Üləma Sultan Təkəlini vəkil vəzifəsinə gətirmək üçün mübarizəyə başladılar. Şahın Təbrizdə olmamasından istifadə edərək Təbrizdə qarətlər törətdilər. Şahın qoşununun gəlməsindən ehtiyatlanıb Üləma Sultan başda olmaqla təkəli əmirləri öz tərəfdarları ilə İstanbula getdilər.

1531-ci ildə Hüseyn xan Şamlı şahın vəkili və əmir əl-ümərə vəzifəsini tutur. O da öz sələflərinin yolu ilə gedir. Ən yüksək vəzifələrə şamlı tayfasının əmirlərini gətirir, ən yaxşı vilayətləri onların arasında bölüşdürürdü.

1534-cü ildə Hüseyn xan Şamlı Sam Mirzənin xeyrinə I Şah Təhmasibi zəhərləmək cəhdində ittiham edilərək öldürülür. Artıq böyümüş və saray çəkişmələrində böyük təcrübə qazanmış I Şah Təhmasib bütün mərkəzi hakimiyyəti öz nəzarətinə götürür. 1524-1534-cü illərdə qızılbaş tayfaları arasında hakimiyyətdə nüfuz dairəsi uğrunda aparılan çəkişmələr mərkəzi hakimiyyəti zəiflətdi, feodal ara müharibələrinə səbəb oldu.

Qızılbaş tayfaları arasındakı çəkişmələrdən istifadə edən özbək Übeydulla xan XVI əsrin 20-ci illərinin ikinci yarısı və 30-cu illərində tez-tez Xorasana yürüşlər edib qarətlər törədirdi. Səfəvi dövlətindəki yaranmış vəziyyətdən istifadə edərək Osmanlı sultanı I Süleyman da yürüşlərə başladı. Azərbaycan Səfəvilər dövləti Şərqdə özbəklərlə, Qərbdə isə Osmanlı Türkiyəsi ilə müharibə etmək məcburiyyətində qalmışdı.

## § 3.2. I Şah Təhmasibin dövründə Səfəvi-Osmanlı müharibələri

1514-cü il Çaldıran müharibəsindən sonra Osmanlılarla Səfəvilər arasında sülh bağlanmamışdı. I Sultan Süleymanın dövründə Osmanlı dövləti Azərbaycanı işğal etmək siyasətindən əl çəkməmişdi. I Şah Təhmasib hakimiyyətə keçəndə I Sultan Süleyman nəinki onu təbrik etməmiş, hətta təhqir və təhdidedici məktub göndərmişdi. 1526-cı ildə I Sultan Süleyman

Azərbaycan Səfəvi dövləti üzərinə hücum etməyi nəzərdə tutsa da, Macarıstanı ələ keçirmək üçün Avstriya ilə başlanmış müharibə I Sultan Süleymanın Şərqə doğru yürüşünü dayandırdı. 1533-cü ildə Macarıstanın bölüşdürülməsi ilə əlaqədar Avstriya kralı ilə sülh barışığı I Sultan Süleymanın Səfəvilərlə müharibəyə başlamasına şərait yaratdı. Səfəvilərə qarşı yürüşə hazırlaşan Sultan Süleyman Səmərqənd xanı Əbu Səidə, Buxara xanı Übeydullaha, Türküstan xanı Abdullaha məktub göndərərək onları Səfəvilərə qarşı müharibəyə təhrik edirdi. İraq-i Ərəb və Kürdüstanın sünni hakimlərinin bir hissəsi Osmanlı dövlətinə meylli idi. Osmanlı sultanı Asiya ilə Avropa arasında ticarətdə mühüm əhəmiyyət kəsb edən İraq-i Ərəbi, həmçinin dənizlərə çıxaraq Bəsrə körfəzi ilə Xəzər dənizi arasındakı əraziləri ələ keçirmək istəyirdi. Osmanlılar Ərəb İraqına sahib çıxmaq istəyirdilər. Ona görə də İraqda qızılbaşlara qarşı baş verən hadisələrdə osmanlıların əli vardı. 1528-ci ilin yazında Luristan hakimi Zülfüqar xan Səfəvilər əleyhinə üsyan qaldırdı, Bağdada hücum edib dayısı İbrahim xan Mosullunu öldürdü, Ərəb İraqını özünə tabe edərək Bağdad şəhərinin açarlarını Osmanlı Sultanına göndərib onun tabeliyinə keçdi. 1529-cu ildə I Şah Təhmasib Bağdadı mühasirəyə aldı, iyun ayının 10-da Zülfüqar xan şahın tərəfdarları tərəfindən öldürüldü və qala qapılarını açıb şahı şəhərə buraxdılar. Şah şəhərin idarə olunmasını Məhəmməd Sultan Təkəliyə tapşırdı.1531-1532-ci illərdə Üləma bəy Təkəli Diyarbəkirin Osmanlı hakimi Fil Yaqub paşanın 50 minlik ordusu ilə Bidlisdən Şərəf xanı çıxardı. Şərəf xan I Şah Təhmasibdən kömək istədi. I Şah Təhmasib Osmanlı sarayına elçi göndərərək Üləma bəyi təslim etməsini xahiş etdi. Osmanlı Sultanı şahın təklifini rədd etməklə bərabər Şərəf xanı tələb etdi. Osmanlılarla barışıq baş tutmadığı üçün I Şah Təhmasib hücum edərək Bidlisi geri qaytardı. Lakin 1533-cü ildə qızılbaş qoşununun Xorasana Übeydulla xana qarşı yürüşə getməsindən istifadə edərək,

Üləma bəy yenidən Bidlisə hücum edərək şəhəri ələ keçirdi, Şərəf xan öldürüldü.

**I Sultan Süleymanın Azərbaycana birinci yürüşü.** 1534-cü ilin yayında Sultan Süleyman Qızılbaş qoşununun Xorasana özbək Übeydulla xanın basqınına qarşı getməsindən istifadə edərək Üləma bəy Təkəlinin təhriki ilə Azərbaycan üzərinə yürüşə başladı. Ordunun ön dəstələrinə 90 min nəfərlik qoşunla baş vəzir İbrahim paşa rəhbərlik edirdi. Üləma bəy də 10 min nəfərlik qoşunla irəlidə gedirdi.

Heç şübhəsiz Osmanlı sultanının yürüşü Üləma bəy və Şərəf xan arasında baş verən çəkişmələr deyildi. Osmanlı sultanı Şərqlə Qərb arasında mühüm ticarət mərkəzlərindən olan Bağdad şəhərini, Ərəb İraqını və İran körfəzini ələ keçirdikdən sonra Səfəvi dövlətinə ciddi zərbə vurmaq istəyirdi. Ərəb İraqının və Bəsrə körfəzinin ələ keçirilməsi Osmanlılara Hind okeanına çıxışla bərabər Qırmızı dənizdəki Portuqaliya təhlükəsini aradan qaldırırdı.

Osmanlı yürüşü zamanı bəzi qızılbaş əyanları da osmanlıların tərəfinə keçdilər. İbrahim paşanın qüvvələri 1534-cü il iyun ayının 13-də Təbrizə daxil oldular. Sultan Süleyman isə əsas ordu hissələri ilə sentyabrın 27-də Təbrizə gəldilər. İbrahim paşa Üləma Təkəlini Azərbaycan bəylərbəyi təyin etdi. O, Üləmanı Ərdəbilə, Xosrov paşanı isə Əlincə üzərinə göndərdi.

Osmanlı yürüşü haqqında xəbər tutan I Şah Təhmasib qardaşı Sam Mirzəni Heratda qoyub geri qayıtdı.

Şah Xorasandan Reyə, oradan isə Qəzvinə gəldi. Qəzvindən Əbhərə hərəkət etdi. Şah Təhmasib Osmanlı ordusu ilə qarşılaşmır, onların keçdiyi ərazilərdə ərzaq ehyiyatlarını gizlədir, otlaqları məhv edir, onları ərzaq çatışmamazlığı ilə qarşılaşdırırdı. Həmçinin osmanlılara qarşı əhali də güclü müqavimət göstərirdi.

Sultan Süleyman İ Şah Təhmasibə göndərdiyi məktubda onu qorxaqlıqda təqsirləndirib döyüşə başlamağı təkid etsə də I

Şah Təhmasib osmanlıların sayca çox olmasını nəzərə alaraq, əsaslı döyüşdən çəkinir, tətbiq etdiyi döyüş taktikasını davam etdirirdi.

Sultan Süleymanın Sultaniyyəyə catması qızılbaş əmirləri arasında çaşqınlıq yaratdı. Məhəmməd xan Zülqədər oğlu, Hüseyn xan Təkəli və başqaları osmanlı tərəfə keçdilər. Payızın sonunda Sultaniyyə ərazisinə güclü qar yağması, havanın soyuması, ərzaq çatışmamazlığı nəticəsində osmanlılar böyük itkilər verdilər. Sultan qışlamaq üçün Bağdad istiqamətində geri çəkildi. Üləmanı isə Təbrizə göndərdi. Sultanın Bağdada doğru getməsindən xəbər tutan I Şah Təhmasib Təbriz istiqamətində irəlilədi. Sultan şahın gəldiyini eşidib Van qalasına çəkildi. Van qalasını mühasirədə saxlayan I Şah Təhmasib qardaşı Sam Mirzənin xəyanət edərək düşmən tərəfə keçməsi haqqında məlumat aldıqda mühasirədən əl çəkərək geri çəkildi.

Sultan Süleyman böyük çətinliklə Bağdada çatdı. Həmin ilin qışını Bağdadda keçirdi. Ərəb İraqında osmanlı idarə sistemi yaradıldı. Beləliklə Ərəb İraqı osmanlı dövlətinin tabeliyinə keçdi.

**Sultan Süleymanın ikinci yürüşü.** Qışı Bağdadda keçirən Sultan Süleyman 1535-ci ilin yazında Bağdaddan Azərbaycana doğru hərəkət etdi. I Şah Təhmasib osmanlıların hərəkət etdiyi ərazilərdən əhalini Fars vilayətinə, Əcəm İraqına köçürür, suvarma kanallarını, kəhrizləri torpaqla doldurtdurur, taxıl və əkin sahələri yandırılır, ərzaq ehtiyatı daşınırdı. Təbriz şəhəri ikinci dəfə osmanlıların əlinə keçdi. İ Şah Təhmasib Sultaniyyəyə çəkildi. I Şah Təhmasib iyun, iyul, avqust aylarında Sultan Süleymanın yanına öz elçilərini göndərərək, Ərəb İraqını vermək şərti ilə sülh bağlamağı təklif etdi. Lakin Sultan barışıq təklifini rədd etdi.

Osmanlı ordusu Sultaniyyə istiqamətində irəlilədi. Sultaniyyə ərazisində ərzaq qıtlığından və taun xəstəliyindən Sultanın ordusunun canlı qüvvəsi böyük itkiyə məruz qaldı.

Qızılbaşların öndə olan hissələri isə osmanlılarla qarşılaşdılar. Türk qoşunları çoxlu sayda itki verərək geri çəkildilər.

I Şah Təhmasib Bəhram Mirzənin başçılığı ilə qızılbaş ordusunun bir hissəsini İbrahim paşanı təqib etmək üçün göndərdi, özü isə Van qalasına doğru hərəkət etdi.

Vostan yaxınlığında Diyarbəkirin hakimi Məhəmməd paşa və Üləmanın hərbi hissələri ilə türkman və zülqədər tayfasından olan qorçilər arasında döyüş baş verdi. Osmanlı ordusu məğlubiyyətə uğradı, bir neçə osmanlı əmiri əsir alındı. Qızılbaşlar çoxlu qənimət əldə etdilər və osmanlıları Bidlisə qədər təqib etdilər. Bəhram Mirzə Ərciş yaxınlığında osmanlı qüvvələrini məğlubiyyətə uğratdı. Osmanlılar Ərciş qalasına çəkildilər. Sultan qala müdafiəçilərinə Sinan paşanın başçılığı ilə qoşun göndərdi. Sinan paşa Budaq xan Qacarın dəstəsi tərəfindən darmadağın edildi. Sinan paşa və bir neçə türk sərkərdəsi öldürüldü. Mühasirədə qalanlara kömək məqsədi ilə İbrahim paşanın göndərdiyi hərbi hissəni qızılbaşlar məğlub etdilər. İbrahim paşa qalada qalanlarla birlikdə geri çəkilməyə məcbur oldu. Van və Ərciş əraziləri qızılbaşlar tərəfindən tutuldu.

**I Sultan Süleymanın Azərbaycana üçüncü yürüşü.** Sultan Süleyman 1547-ci ildə Almaniya və Avstriya ilə 7 illik sülh bağlayıb Avropa, Asiya və Afrikada osmanlılara tabe olan ərazilərdən böyük ordu toplayaraq 1548-ci ilin yazında Azərbaycan ərazisinə hücum etdi. I Şah Təhmasib Osmanlı sərhədlərindən Təbrizə qədər olan ərazilərdə ərzaq və yem ehtiyatlarını daşıtdırdı, apara bilmədiklərini isə od vurub yandırtdı.

I Şah Təhmasib Təbrizi tərk edərək Şəmbi Qazana çəkildi. Şirvan bəylərbəyi İsmayıl (I Şah Təhmasibin oğlu) və digər hakimlər bura gəldilər.

Üləma bəy Təkəli və Əlqas Mirzə Osmanlı ordusu ilə birlikdə gəlirdilər. Osmanlı ordusu Ərzurum-Xoy-Təbriz yolu ilə irəliləyirdi. Şah Əhər çayına doğru şərq istiqamətində çəkildi. O, burda Xuzistan, Fars, Kirman və İraqdan gələn qoşun hissələrini gözlədi.

Sultan Süleymanın ordusu 1548-ci il iyulun 27-də Təbrizə daxil oldu. Lakin bu dəfə qızılbaş əmirləri şahı tərk edib osmanlılara qoşulmadı. Təbriz əhalisi osmanlılara qarşı üsyan qaldıraraq ciddi müqavimət göstərirdilər. Su mənbələrini və suvarma kanallarını doldurdular. Osmanlı ordusu böyük çətinlik qarşısında qaldı. Yem çatışmaması üzündən minlərlə at, dəvə və qatır məhv oldu. Təbrizdə qalmağın və irəliləməyin mümkün olmadığını görən osmanlılar 1548-ci il avqustun 1-də Təbrizdən geri çəkildilər.

I Sultan Süleyman Kürdüstandan keçərək Van qalasını ələ keçirdi, sonra Diyarbəkirə döndü. İbrahim xan və Məhəmməd bəy Türkmanın başçılığı ilə qızılbaş dəstələri Osmanlı ordusunu təqib edir və onlara böyük tələfat verirdilər.

Osmanlı ordusu geri çəkildikdən sonra I Şah Təhmasib Xoya daxil oldu. Burada bir sıra qızılbaş əmirləri ona qoşuldular. Şah Təhmasib Qars Qalasını bərpa etmək üçün Sultan Süleymanın göndərdiyi qoşuna qarşı oğlu İsmayıl Mirzənin başçılığı ilə qızılbaş dəstəsi göndərdi. Qızılbaşlar osmanlıları məğlub edərək Qars qalasını dağıtdılar.

Sultan Süleyman Əlqas Mirzəni beş min nəfərlik qoşunla İraq tərəfə, Üləmanı isə Ərzurum və Şiraz paşaları ilə 30 minlik qoşunla Ərzurumu müdafiə etməyə göndərdi.

I Şah Təhmasib Üləmanın Tərcanda olması xəbərini aldıqda onun arxasınca hərəkət etdi. Üləma qaça bildi. Şah Tərcandan Ərzincana doğru hərəkət etdi. İsmayıl Mirzənin irəlidə gedən dəstəsi Bayburt yaxınlığında osmanlı Məhəmməd paşanın dəstəsini darmadağın etdi. Ərzincan ələ keçirildi. Şah noyabrın əvvəlində İrəvana gəldi və Üçkilsədə düşərgə saldı.

Əlqas Mirzə beş min nəfərlik dəstəsi ilə Kürdüstandan Həmədana, oradan Quma, sonra Kaşana daxil oldu, şahın yaxınlaşma xəbərini aldıqda Şiraz-İsfahan yolu ilə Bağdadın hüdudlarına çıxdı. Lakin 1549-cu ildə ələ keçirilərək Qəhqəhə qalasına salınaraq öldürüldü.

1552-ci ilin əvvəllərində Ərzurum hakimi İskəndər paşanın Səfəvi ərazisinə soxulması, Xoyu, Çuxursədi talan etməsi, Qızılbaş əmirlərinə hədələyici məktubları qızılbaşların yeni hücumuna səbəb oldu. İsmayıl Mirzənin başçılığı ilə qızılbaş ordusu Ərzurum qalası yaxınlığında osmanlı qoşununu darmadağın etdi və lovğa İskəndər paşa öldürüldü.

I Şah Təhmasib osmanlıların gələcəkdə yürüşlərinin qarşısını almaq, Şərqi Anadoluda qarətlər, talanlar törətməklə bu bölgəni keçilməz həddə gətirmək və nəhayət osmanlıları sülh bağlamağa məcbur etmək üçün özü Kürdüstanda osmanlı sərhəddinə yürüşlər etdi.

**I Sultan Süleymanın Azərbaycana dordüncü yürüşü.** I Şah Təhmasibin həyata keçirdiyi tədbirlər Sultan Süleymanın yenidən yürüşünə səbəb oldu. O, Azərbaycana yürüş ərəfəsində I Şah Təhmasibə təhdid məktubu göndərərək yürüşə keçəcəyini bildirdi. Sultan bir sıra osmanlı hakimlərinə sultana qoşulmaq üçün öz dəstələri ilə Xarputda hazır olmalarını tələb etdi. Kürdüstan bəylərinə də hazır olmaları üçün fərmanlar göndərdi.

I Şah Təhmasib Sultan Süleymanın yürüşə başlamasının qarşısını almaq üçün 1553-cü ilin avqust ayında barış təklifi ilə Seyyid Şəmsəddin Dilicanı İstanbula göndərdi. 1553-cü ilin dekabrında Səfəvi elçisi I Şah Təhmasibə Osmanlı Sultanının məktubunu təqdim edti. Məktubda Sultan Süleymanın şaha kifayət qədər ehtiram göstərməməsinə cavab olaraq İsmayıl Mirzənin rəhbərliyi ilə qızılbaş qoşunu Kürdüstana qarətedici yürüşlər etdi. 1554-cü ilin yazında Sultan Süleyman böyük ordu ilə Naxçıvan istiqamətində hücum edərək Naxçıvanı tutdu. I Şah Təhmasib əvvəlki döyüş taktikasından istifadə edərək geri çəkildi. Lakin qızılbaş dəstələri aramsız olaraq osmanlı qoşunu üzərinə qəfil hücuma keçərək zərbələr endirirdilər. Qızılbaşların osmanlıların hərəkət etdiyi yollarda onlar üzərinə gözlənilməz basqınları və ərzaq çatışmamazlığı Sultanı geri çəkilməyə vadar etdi. Osmanlı ordusu geri çəkilən zaman qızılbaş ordusu onları təqib edib, Osmanlı ərazisinə daxil

oldular. Baş verən döyüşdə Osmanlı dəstələri ağır məğlubiyyətə uğradı və Sultanın yaxın adamlarından olan Sinan bəy əsir alındı.

Sultan Süleyman eyni vaxtda Azərbaycana Şimal tərəfdən zərbə vurmağı planlaşdırmışdı. O, Şirvanşahlar nəslindən olan Qasım Mirzəni Kəffəyə (Krıma) göndərmiş, Dağıstanda Kumık və Qaytaq hakimlərinə onunla birləşərək Şirvan istiqamətində hücum etmələri haqqında göstərış vermişdi. Səfəvilərin əsas qüvvələri osmanlılarla müharibəyə cəlb olunduğundan Şirvan bəylərbəyi Abdulla xan Ustaclının sərəncamında az qüvvə qalmışdı. Ona görə də Qasım Mirzə asanlıqla irəliləyərək Buğurd qalasını ələ keçirdi. Gülüstan qalası ətrafında baş vermiş döyüşdə Qasım Mirzənin qüvvələri ciddi məğlubiyyətə uğrayıb geri qaçdılar.

Beləliklə, Osmanlı Sultanı Azərbaycanı işğal etməyin mümkün olmadığını görüb, Səfəvilərin dəfələrlə təklif etdiyi sülh danışıqlarına başlamağa razı oldu və baş vəzir Mehmet paşaya bu haqda göstəriş verdi. Mehmet paşa məktub göndərərək Sinan bəyi azad etməyi və onunla danışıq aparmaq üçün nümayəndələrini göndərməyi xahiş etdi. Sinan bəylə gələn Qorçibaşı Şahqulu ağa Qacar I Şah Təhmasibin məktubunu 1554-cü il sentyabrın 26-da Ərzurumda Sultan Süleymana təqdim etdi. Sultan Süleyman elçini hörmətlə qarşıladı və I Şah Təhmasibə yazdığı məktubla geri yola saldı. Hər iki dövlət sülh müqaviləsinə hazırlıq işlərinə başladılar.

Şahqulu ağa Qacar geri döndükdən sonra eşikağası Kəmaləddin Fərruxzad Amasiyaya göndərildi. Osmanlı baş vəziri ona ziyafət verdi. 1555-ci il may ayının 21-də Sultanın yanında toplanan Divanda Səfəvi elçisinin gətirdiyi hədiyyələr təqdim edildi. Osmanlı vəzirləri ilə Səfəvi elçisi arasında sülhün şərtləri müzakirə olundu. İki dövlət arasında sərhəd son Osmanlı hücumu əsas götürülməklə müəyyən olundu. 1555-ci il may ayının 29-da Səfəvi dövləti ilə Osmanlı dövləti arasında sülh müqaviləsi imzalandı. Sülhə görə Qərbi Gürcüstan–

İmeteriya, Menqreliya, Quriya Osmanlı Türkiyəsinin təsiri altına keçdi. Şərqi Gürcüstan–Mesxiya, Kartliya, Kaxetiya Səfəvi dövlətinin təsiri altına düşdü. Qars vilayəti boşaldılmış ərazi kimi tanındı və qərara alındı ki, oranın əhalisi köçürülsün. Bağdad da daxil olmaqla Ərəb İraqı Osmanlıların əlində qaldı.

Amasiya sülh müqaviləsi nəticəsində Ərəb İraqı, Şərqi Anadolu və Gürcüstanın qərb vilayətləri Osmanlıların təsiri altına düşsə də bu sülh I Təhmasibin böyük qələbəsi idi. Amasiya sülhü ilə Osmanlı və Səfəvi dövlətləri arasında 41 il davam edən düşmənçiliyə son qoyuldu. Səfəvi dövlətini Osmanlı dövləti rəsmən tanıdı.

XV əsrdə sərhədləri Avropa, Asiya və Afrika qitələrini əhatə etməklə böyük canlı qüvvə və maddi ehtiyatlara, güclü hərbi potensiala malik Osmanlı dövləti qüdrətli dövrünü yaşayırdı. Bu baxımdan Səfəvi dövləti üçün Osmanlı imperiyası ilə müharibə aparmaq çox təhlükəli idi. Nəzərə alınsa ki, Səfəvilər tez-tez hər iki cəbhədə, həm Osmanlılarla, həm də arası kəsilmədən Xorasanda özbəklərin hücumlarına qarşı müharibələr aparırdılar. Belə bir şəraitdə Amasiya sülhünün bağlanması I Şah Təhmasibin uğuru idi.

1555-ci ildə, Amasiya sülh müqaviləsindən sonra I Şah Təhmasib dövlətin paytaxtını Təbrizdən Qəzvinə köçür-dü. Bu Osmanlı dövlətinin yürüşləri zamanı Təbrizin hər dəfə Osmanlı işğalı altına düşməsi ilə əlaqədar idi.

Tərəflər arasında sülh şəraiti yaranandan bir neçə il sonra Sultan Süleymanın oğlu Bəyazid atasına qarşı üsyan qaldırmış, lakin məğlub olub Çuxursəd istiqamətində geri çəkilmiş və 1559-cu ilin sonunda Qəzvinə gələrək I Şah Təhmasibə sığınmışdı. I Şah Təhmasib bu imkandan faydalanmaq məqsədi ilə Bəyazidin qaytarılması müqabilində Bağdadı Osmanlıdan geri almaq istəyirdi. Osmanlı sultanı bu təklifi qəbul etmirdi və Bəyazidin qaytarılmasını tələb edirdi.

1562-ci ilin iyulunda Van hakimi Xosrov paşanın başçılığı ilə Qəzvinə Bəyazidin qaytarılması tələbi ilə böyük bir elçi

heyəti gəldi. Osmanlılarla yeni müharibə təhlükəsindən ehtiyat edən İ Şah Təhmasib Bəyazidi və onun dörd oğlunu elçilərə təhvil verdi. Onlar oradaca edam edilərək cəsədləri Osmanlı dövlətinə aparıldı. Bəyazidin cənazəsini aparan osmanlı nümayəndələri Qəzvinin küçələrində əhali tərəfindən daşa tutulurdu. Bəyazidin Bursada gizlədilmiş 5 yaşlı oğlunu da Sultan Süleymanın cəsusları boğub öldürdülər. Beləliklə, Bəyazidin I Sultan Süleymanın adamlarına verilməsi iki dövlət arasında baş verə biləcək yeni çəkişməni aradan qaldırdı.

I Sultan Süleymanın ölümündən (1566-cı il) sonra da iki dövlət arasında dinc münasibətlər davam etmişdir. I Şah Təhmasib II Səlim (1566-1574) və II Muradın (1574-1595) cülularını təbrik etmək üçün 1567-ci ildə Şahqulu xan Ustaclını qiymətli hədiyyələrlə Ədirnəyə və 1575-ci ildə Toxmaq xan Ustaclını İstanbula göndərmişdi.

## § 3.3. Şeybanilərin Səfəvilərin ərazilərinə basqınları

XVI əsrin əvvəllərində Məhəmməd Şeybani xan bütün Xorasanı ələ keçirməyə çalışsa da özbəklər yalnız Xorasanın şimal-şərq hissəsində – Bəlx vilayətində möhkəmlənə bildilər. Herat, Məşhəd və Mərv vilayətləri isə yenə də Səfəvilərin hakimiyyəti altında qaldı. Orta Asiyanın sünni ruhaniləri Şeybani dövlətini müdafiə edir, qızılbaşlara qarşı müharibəni "müqəddəs" müharibə adlandırırdılar.

I Şah İsmayılın ölümündən sonra qızılbaş əmirləri arasında hakimiyyətdə nüfuz dairəsi uğrunda feodal ara müharibələrindən istifadə edən Şeybani hökmdarı Übeydulla xan (Məhəmməd Şeybani xanın oğlu) Xorasan üzərinə basqınlara başladı.

Übeydulla xan tərəfindən 1524-cü ildə Herat üzərinə basqının qarşısı Xorasan bəylərbəyi Durmuş xan tərəfindən alındı. 1526-cı ildə Durmuş xanın ölümündən sonra Übeydulla xan yenidən Xorasan ərazilərinə hücum edərək Tus şəhərini və

Astrabadı ələ keçirdi. 1527-ci ildə özbəklər Heratı mühasirəyə aldılar. Herat 7 ay mühasirədə qaldı. I Şah Təhmasibin yaxınlaşması haqqında xəbər tutan Übeydulla xan mühasirədən əl çəkdi. Tərəflər arasında Cam vilayətində Sarıqamış adlanan yerdə böyük döyüş baş verdi. Özbək qoşunu məğlubiyyətə uğradı, Übeydulla xan qaça bildi. I Şah Təhmasib geri qayıtdıqdan sonra 1529-cu ildə Übeydulla xan yenidən hücum edərək Məşhədi və Heratı tutdu. 1529-cu ilin sonunda I Şah Təhmasib 70 minlik ordu ilə Xorasana qayıtdı. Özbəkləri Xorasandan çıxararaq qardaşı Bəhram Mirzəni lələsi Qazi xan Təkəli ilə Xorasan hakimi təyin etdi. I Şah Təhmasibin başı Üləma bəy Təkəlinin üsyanını yatırmağa qarışdığı vaxt Übeydulla xan yenidən 1531-ci ildə Xorasana basqın etdi. Məşhədi tutub, Heratı mühasirəyə aldı. Herat il yarım özbəklərin qoşunu tərəfindən mühasirədə saxlanıldı. Lakin 1532-ci ilin sonunda I Şah Təhmasibin Xorasana qayıtması Übeydulla xanı Xorasanın mühasirəsindən geri çəkilməyə məcbur etdi.

1534-cü ildə vəkil Hüseyn xan Şamlının öldürülməsi qızılbaş tayfaları arasında yeni çəkişmələrə səbəb oldu. Şamlı tayfası mərkəzi hakimiyyətə qarşı üsyan qaldırdı. Xorasanda yaranmış hərc-mərclikdən istifadə edən özbəklər yenidən yürüşlərə başladılar. Herat ərazisinə daxil olan özbəklər 1535-ci il may ayının 22-də baş vermiş döyüşdə qızılbaş qoşununu darmadağın etdilər.

Məşhədi mühasirəyə alan özbəklər 1536-cı il yanvar ayının 13-də Nişapur ərazisində qızılbaşları məğlubiyyətə uğradaraq Məşhəd hakimi Sufiyan Xəlifəni öldürdülər. 1536 -cı il martın 11-də Übeydulla xan Heratı mühasirəyə aldı, beş ay davam edən mühasirədən sonra şəhər ələ keçirildi.

Bir ildən artıq Herat qalasında qalan özbəklər 1537-ci il yanvarın 29-da I Şah Təhmasibin Xorasana gəlməsi ilə geri çəkilərək Buxaraya qayıtdılar. Heratda yenə də Səfəvilərin hakimiyyəti bərpa olundu.

Übeydulla xan 1539-1540-cı illərdə Xorasana uğursuz yürüşlərindən sonra xəstələnib öldü. 1540-cı illərdə Xarəzm hakimləri Səfəvilərlə yaxınlaşsa da, bu özbək xanlarının Xorasan ərazisinə yürüşünü dayandırmadı. Osmanlı dövləti Səfəvi dövlətinə qarşı mübarizədə özbək xanlarından istifadə etmək məqsədi ilə onlarla əlaqə saxlayıb onları qızılbaş ərazisinə yürüşə təhrik edirdi. 1543, 1545, 1548,1550, 1555, 1558, 1559-1560, 1563-1564, 1566-1567, 1569-1570-ci illərdə özbək xanlarının Xorasan ərazisinə basqınları davam etsə də, bu yürüşlər uğursuzluqlarla nəticələnmişdi.

## § 3.4. Şirvan və Şəkinin Səfəvi dövlətinə birləşdirilməsi

Məlum olduğu kimi I Şah İsmayılın hakimiyyəti dövründə Şirvanşahların irsi idarə hüquqlarına toxunulmadı, daxili idarəetmə müstəqilliyi saxlanıldı. II Xəlilullahın dövründə (1524-1535) Şirvan Səfəvilərdən asılı vəziyyətdə idi. II Xəlilullah (II İbrahim Şeyxşahın böyük oğlu, I Şah İsmayılın qızı Pərixan xanımın əri) Səfəvilərə xəyanət edən Gilan hakimi Əmir Dibaca Şamaxı sarayında sığınacaq vermiş, onu aparmağa gələn şah elçilərinə rədd cavabı verərək Əmir Dibacı verməkdən boyun qaçırmışdı. Həmçinin, II Xəlilullah 1534-cü ildə Osmanlı dövlətinin vəziri İbrahim paşaya Təbriz tutulduqdan sonra qiymətli hədiyyələr göndərmişdi. I Şah Təhmasibin başı osmanlılarla müharibəyə qarışdığından onu cəzalandıra bilmədi. II Xəlilullah 1535-ci ildə öz əcəli ilə vəfat etdi. Oğlu olmadığından qardaşı oğlu Şahrux Şirvanda hakimiyyətə gəldi. Şahrux azyaşlı olduğuna görə hakimiyyət onun vəkili Hüseyn bəy və Şirvan əyanlarının əlinə keçmişdi. Əyanların özbaşınalığı daxili çəkişmələrə və ixtilaflara səbəb olmuşdu. 1537-ci ildə Mahmudabad və Salyanda bir qələndər özünü Şirvanşahın qardaşı Məhəmməd Amin kimi qələmə verərək xalqı üsyana qaldırdı, Şirvana doğru hərəkət edərək Şamaxını

ələ keçirdilər. Şahrux və saray əyanları Buğurd qalasına sığındılar.

Üsyançılar öz hakimiyyətlrini qura bilmədilər və 40 gündən sonra Şamaxıdan Salyana doğru çəkildilər. Üsyançıları təqib edən Şahruğun qüvvələri Salyan yaxınlığında onları darmadağın etdilər və qələndər öldürüldü.

Lakin Şirvanda Şirvan əmirləri arasında çəkişmələr davam edir və mərkəzdən qaçma meylləri daha da artırdı. II Xəlilullahın dul qadını Pərixan xanım Şirvanada yaranmış vəziyyət haqqında məlumatı qorçubaşı Padar vasitəsi ilə qardaşı I Şah Təhmasibə çatdırdı. 1538-ci ilin yayında şahın qardaşı Əlqas Mirzə iyirmi minlik ordu, həmçinin Qarabağın və Muğanın qoşun hissələri ilə Şirvana daxil oldu. Surxab, Qorçi qalaları, Qəbələ tutulduqdan sonra Gülüstan və Buğurd qalaları üzərinə hərəkət etdilər. Buğurd qalasının müdafiəçiləri bir neçə ay müqavimət göstərsələr də, şahın əlavə qüvvələrinin gəlməsindən sonra müqavimət dayandırıldı. Şirvanşahların Buğurd qalasında saxladıqları zəngin xəzinə ələ keçirildi.

I Şah Təhmasib ixtişaşda günahı olanları cəzalandırdı, bir sira əmirlər və yerli əyanlar, o cümlədən Şahruxun vəkili Hüseyn bəy edam edilərək əmlakları müsadirə olundu. Şahrux Təbrizə aparıldı və sonradan edam edildi.

Beləliklə, Şirvanşahlar dövlətinin varlığına son qoyul du, Səfəvi dövlətinin bir əyalətinə çevrildi. Şah qardaşı Əlqas Mirzəni Şirvan bəylərbəyi təyin etdi. Əlqas Mirzə Şirvanın birinci bəylərbəyi oldu.

Şirvanın Azərbaycan Səfəvilər dövlətinə birləşdiril-məsi mütərəqqi hadisə idi. Ölkənin cənub və şimal vilayət-lərinin vahid dövlət tərkibində birləşdirilməsi Azərbaycanın iqtisadi və mədəni inkişafında müsbət rol oynadı.

Şirvanın müstəqilliyinə son qoyulması ilə yerli əyanlar barışmırdılar. Onlar itirdikləri imtityazlarını bərpa etmək istəyirdilər. Onların bu mövqeyindən Osmanlı dövləti də istifadə etməyə cəhd edirdi. Şirvan əyanlarının əhval-ruhiyyəsindən

istifadə edərək Əlqas Mirzə özünü müstəqil dövlət başçısı elan etmək qərarına gəldi.

1546-cı ilin əvvəllərində Şirvandan Oruz ağa Rumlu Qəzvinə gələrək Əlqas Mirzənin hazırladığı qiyam haqqında şaha məlumat verdi. Bir neçə gün sonra Sultan Mahmud Mirzə və Kərəm Mirzənin Əlqas Mirzənin qiyama hazırlaşması xəbərini çatdırmaları ilə I Şah Təhmasibdə qiyam hazırlığına şübhə qalmadı.

I Şah Təhmasib Ürgənc oğlunu 1546-cı ilin yazında Şirvana Əlqas Mirzə ilə danışıq aparmağa göndərdi. Əlqas Mirzə tabe olmaqdan imtina etsə də şahın öz qoşunu ilə Şirvana yaxınlaşması xəbərini alanda anası Xanbəyi xanımı və böyük oğlu Sultan Əhmədi bağışlanması üçün onun yanına göndərdi. Şah Xanbəyi xanımla birlikdə bir qrup adlı-sanlı adamları Əlqas Mirzə ilə danışıq aparmağa göndərdi. Əlqas Mirzə ilə Cavadda aparılan danışıqlardakı razılaşmaya görə hər il şah xəzinəsinə min Təbriz tüməni ödəyəciyini və min atlı göndərəcəyini öhdəsinə götürdü və şaha sədaqətli olacağına and içdi.

Əlvənd Mirzə I Şah Təhmasibin 1547-ci ildə Gürcüstan və "çərkəz diyarına" yürüşlərində iştirak etdi. Lakin Şirvana qayıtdıqdan sonra yenidən məscidlərdə öz adından xütbə oxut-durdu, öz adından pul zərb etdirdi və özünü müstəqil hakim elan etdi. Şah Gürcüstan yürüşündən qayıdarkən Gəncədən keçib Yevlaxda dayandı. Əlqas Mirzənin üzərinə 5 min nəfərlik süvari dəstəsi göndərdi. Şah həmçinin Süleyman Çələbinin başçılığı ilə Dərbənd üzərinə dəstə göndərdi. Bu zaman Əlqas Mirzə Dərbənddən Cənibi Dağıstana ("çərkəz diyarına") yürüş edirdi. Əlqas Mirzənin bu yürüşü uğursuzluqla nəticələndi. Əlqas Mirzə Dağıstanda olarkən I Şah Təhmasibin 30 minlik qoşunla Şirvan üzərinə hərəkət etməsi haqqında xəbər aldı. O, şah qoşunlarına qarşı hərbi dəstələr göndərdi. Onun göndərdiyi dəstənin bir hissəsi Samur çayı sahilində, bir hissəsi isə Qəbələdə qarmadağın edildi. Şah Əlqasın qayıtma xəbərini al-

dıqda Dərbəndə böyük bir dəstə göndərdi. Əlqas Mirzə Xınalığa çəkildi. Onun qoşunu kütləvi şəkildə şahın tərəfinə keçməyə başladı. Əlqas qoşunun qalan hissəsi ilə şimala çəkilib Samur çayını keçdi. Qızılbaş qoşununun qabaqda gedən dəstəsi ona çataraq qalan qoşununu darmadağın etdi. Yaralanmış Əlqas Mirzə qaça bildi. O, Azov dənizindən İstanbula getdi.

Əlqas Mirzə qaçandan sonra da onun tərəfdarları Gülüstan və Dərbənd qalalarında müqavimət göstərirdilər. Gülüstan qalası üç ay mühasirədə qalandan sonra şah qoşunları tərəfindən ələ keçirilə bildi.

Dərbənd qalasının müdafiəçiləri də ciddi müqavimət göstərirdilər. I Şah Təhmasib əlavə qüvvə göndərdikdən sonra lağım və top atəşi ilə qala divarları dağıdıldı. Müdafəçilər təslim olmağa məcbur oldular. Şaha təslim olmaq üçün gələnlərin içərisində I Şah Təhmasibin ögey qardaşı Əlqas Mirzənin anası Xanbəyi xanım da var idi.

Beləliklə Əlqas Mirzənin və Şirvan əyanlarının müqavimətinə son qoyuldu. I Şah Təhmasib oğlu İsmayıl Mirzəni (II Şah İsmayıl) Şirvana bəylərbəyi təyin etdi.

Şirvanda dövlət müstəqilliyinin bərpasına meyl çox güclü idi. Ona görə də Şirvanda Səfəvilər əleyhinə yeni üsyan baş verdi. Üsyana 1547-ci ildə Qaytaqdan Şirvana yürüş edən Bürhan Mirzə başçılıq edirdi. Qaynaqlarda Bürhan Əli Sultan, yaxud Bürhan Mirzə Şirvanşah II Xəlilullahın (1524-1535) oğlu olduğu göstərilir.

Bürhan Mirzə hələ 1544-cü ildə Qaytaqdan Şirvan üzərinə yürüş etmiş və Əlqas Mirzənin ordusu tərəfindən məğlub edilmişdi.

1547-ci ildə Bürhan Mirzə yenidən Şirvan üzərinə yürüşə başladı. Şirvan əsgərlərinin qalıqları da ona qoşuldular. Lakin Şirvan bəylərbəyi İsmayıl Mirzə və lələsi Göyçə Sultan Qacarın qüvvələri tərəfindən darmadağın edildilər. Bürhan Mirzə Qaytağa qaçdı. Çox keçmədi ki, Sultan Süleymanın Azərbaycana üçüncü yürüşü ilə əlaqədar Şirvan hakiminin Şir-

vandakı hərbi hissələri Azərbaycanın cənubi istiqamətində aparmasından istifadə edən Bürhan Mirzə Şirvana hücum edərək Şamaxını müqavimətsiz ələ keçirdi.

Osmanlı qoşunları Azərbaycanı tərk etdikdən sonra I Şah Təhmasib Abdulla xan Ustaclını Şirvana hakim təyin etdi. Əlavə qoşun hissəsi verərək Şirvanı qiyamçılardan təmizləmək haqqında göstəriş verdi. 1549-cu ildə Abdulla xan Cavad yaxınlığında Kür çayını keçib Əli Şəban deyilən yerdə dayandı. Buğurd dərəsində yerləşən üsyançılar çox olduqlarından qızılbaşlar hücum etməyə ehtiyat edirdilər. Bu zaman Bürhan Mirzənin ölməsi və onun qohumlarından Mehrabı başçı seçmələri haqqında xəbər alan qızılbaşlar üsyançılar üzərinə hücuma keçdilər. Üsyançılar məğlub oldular. Mehrab yaxın adamları ilə qaçdı. Üsyançılar Mehrabın qohumu Qurban Əlini başçı seçərək Şirvanşah taxtına namizədliyini irəli sürdülər. Özləri isə Kür çayının Xəzərə töküldüyü yerdə yerləşən Derav adlı adaya çəkildilər. Qızılbaşlar onları təqib edərək çatdılar. Lakin qiyamçılar Abdulla xanın barışıq təklifini qəbul etmədilər. Tərəflər arasında baş verən döyüşdə üsyançıların əksəriyyəti və Qurban Əli öldürüldü.

Səfəvilər dövləti əleyhinə başlamış üsyan Şirvanın müstəqilliyini bərpa etmək məqsədini qarşıya qoymuşdu. Onlar Şirvanın müstəqilliyinə nail olmaq üçün Osmanlı Türkiyəsinin köməyindən istifadə etmək üçün Osmanlı Sultanına müraciət etdilər. Osmanlılar isə bundan öz məqsədləri üçün istifadə edərək Xəzər sahilinə çıxmağa çalışırdılar. Şirvanda baş verən üsyanlar burda dövlət müstəqilliyi ənənəsinin güclü olduğunu göstərirdi.

Şəki xanı Həsən bəyin oğlu Dərviş Məhəmmədin dövründə (1524-1551) Səfəvilərlə Şəki xanlığının münasibətləri pisləşmişdi. 1538-ci ildə qızılbaşlar Buğurd qalasını mühasirəyə alanda Dərviş Məhəmməd Şahruğun köməyinə gəlmişdi. Şirvanşahlar məğlub olub hakimiyyətdən salındıqda o, Şəkinin müstəqilliyini və hakimiyyətini qorumaq üçün Səfəvilərlə

yaxınlaşmaq siyasəti yeritdi. I Şah Təhmasibin bacısı, Şirvanşah II Xəlilullahın dul qalmış qadını Pərixan xatunla evləndi. Pərixan xatunun ölümündən sonra Səfəvilərlə Şəki xanlığı arasında münasibətlər yenidən pisləşdi.

Dərviş Məhəmməd xan Əlqas Mirzənin müstəqillik uğrunda apardığı üsyanı da müdafiə etmiş, hətta qardaşı Şahnəzərin başçılığı ilə ona kömək üçün hərbi qüvvə göndərmişdi. Əlqas Mirzənin müstəqillik meylini müdafiə etməsi Səfəvilərlə Şəki xanlığının münasibətlərini daha da pisləşdirdi. Osmanlılar Azərbaycan ərazisini tərk edəndən sonra 1548-ci ildə I Şah Təhmasib Qarabağdan Sevindik bəy Əfşarı 2500 nəfərlik qorçi ilə Şəkiyə göndərdi. Dərviş Məhəmməd Kiş qalasına çəkildi. Sevindik bəy Kiş qalasını tuta bilməsə də Şəkini talan edib geri qayıtdı.

1551-ci ildə I Şah Təhmasib Şəkinin müstəqilliyinə son qoymaq üçün Ərəşə gəldi. Səfəvilərdən asılı olan Kaxetiya çarı Levan (Ləvənd) hərbi dəstəsi ilə I Təhmasibin hüzuruna gəldi və qızılbaşlara qoşuldu. Dərviş Məhəmməd isə Təhmasibin yanına gəlmədi. Hətta şahın tabe olması haqqında Şəki hakiminin yanına göndərdiyi elçiyə rədd cavabı verdi. Dərviş Məhəmməd şahın tələbini qəbul etməməkdə Şəki xanlığının ərazisində yerləşən alınmaz hesab etdiyi "Gələsən-Görəsən" qalasına arxayın idi. Şəkililər "Gələsən-Görəsən", Kiş qalalarına və dağ yamaclarında yerləşən sığınacaqlara – Siqzara çəkildilər. Qızılbaşlar eyni vaxtda qeyd olunan qalalar üzərinə hücuma keçdilər. Qorçibaşı Sevindik bəy, Bədir xan və Şahqulu xan Ustaclı Kiş qalasına, Abdulla xan Ustaclı və Kaxetiya çarı Levan "Gələsən-Görəsən" qalasına, Şahqulu xəlifə isə Sıqnağa doğru hərəkət edən qoşun hissələrinə başçılıq edirdilər. Şəkililər qızılbaşlara qarşı cəsarətlə müqavimət göstərsələr də qızılbaşların topları qarşısında tab gətirə bilmədilər. Qala divarları toplarla və başqa vasitələrlə dağıdılırdı. Kiş qalasının divarları 20 gün müqavimətdən sonra dağıdıldı. Qalanın rəisi Mahmud bəy müqavimət göstərməyin heç bir nəticə vermə-

yəcəyini başa düşərək qala qapısının açarlarını şaha təqdim edərək təslim olduğunu bildirdi. Kiş qalasının müdafiəçilərinin müqaviməti dayandıraraq təslim olması xəbərini alan Sıqnağdakı şəkililər də mübarizəni dayandırıb itaət etdilər. Vəziyyətin belə olduğunu görən Dərviş Məhəmməd xan gecə 400 nəfərlik süvari dəstəsi ilə "Gələsən-Görəsən" qalasından çıxıb qızılbaşların mühasirə xəttini yararaq qaçmağa cəhd göstərdi. Lakin qızılbaş dəstələri onların qarşısını alaraq onları qılıncdan keçirdilər. Dərviş Məhəmməd xanın başını kəsib şaha gətirdilər. Beləliklə Şəki vilayəti Səfəvilərin hakimiyyəti altına keçdi. I Şah Təhmasib Toyğun bəy Qacarı Şəki hakimi təyin etdi.

# IV FƏSİL

# SƏFƏVİ DÖVLƏTİ XVI ƏSRİN SONU, XVII ƏSRİN BİRİNCİ YARISINDA

## § 4.1. I Şah Təhmasibin ölümündən sonra daxili vəziyyət

**Təbriz üsyanı (1571-1573-cü illər).** Səfəvilər sülaləsinin hakimiyyəti dövründə əhalinin vəziyyəti xeyli yaxşılaşmışdı. I Şah İsmayılın və I Şah Təhmasibin həyata keçirdiyi iqtisadi tədbirlər, vergilərin azaldılması sahəsində verdikləri fərman və göstərişlər əhalinin sosial vəziyyətinin yaxşılaşmasına yönəlmişdi. Osmanlı dövləti ilə aparılan müharibələr əhalinin sosial vəziyyətini pisləşdirsə də I Şah Təhmasib iqtisadiyyatın inkişafı, sənətkarlığın və ticarət sahələrinin canlanması məqsədi ilə XVI əsrin 50-60-cı illərində əhəmiyyətli tədbirlər həyata keçirdi.

Lakin I Şah Təhmasibin hakimiyyətinin son illərində yerlərdə şah tərəfindən təyin olunmuş bəzi qızılbaş məmurlarının özbaşınalığı kəndlilərin, sənətkarların ehtiyaclarını nəzərə almadan vergilərin alınması sahəsində etdikləri zorakılıq və özbaşınalıq əhalinin narazılığını artırırdı. Təbriz şəhər darğasının zülmünə qarşı şəhər yoxsullarının 1571-ci ildə üsyanı başladı. Üsyana sənətkarlar və xırda tacirlərin nümayəndələri başçılıq edirdi. Şəhər darğasının üsyançılardan birini edam etdirməsi və edam olunanın öz məhəlləsində dəfn olunmasına icazə verməməsi sərəncamı əhalinin narazılığını artırdı və üsyanın genişlənməsinə səbəb oldu. Ehtirası coşmuş Təbriz şəhər yoxsulları dövlətli şəxslərin evlərini talan edir, mülklərini dağıdırdılr. Təbriz şəhərində hər bir məhəllədə üsyançılar yaşadıqları məhəlləni öz nəzarəti altına keçirdilər.

Hakim dairənin nümayəndələri üsyançılara qarşı hərbi hissə yeridərək üsyanın yatırılması və üsyançıların cəzalandı-

rılması haqqında I Şah Təhmasibə təkliflər versə də Təhmasib üsyanı yatırmaq üçün ordudan istifadə etmək istəmirdi. Çünki bu tədbir ordu ilə şəhər əhalisi arasında qarşıdurmaya gətirər və əhali arasında çoxlu itkiyə və şəhərin dağılmasına səbəb olardı. Şah Təbriz şəhər hakimini dəyişməklə bu narazılığın sakitləşəcəyini gözləyirdi. Yeni təyin edilmiş şəhər hakimi ilə razılaşmaya görə üsyançılar üsyanı dayandırmalı, şəhər hakimi isə üsyançılardan heç birini cəzalandırmayacağını öhdəsinə götürürdü. Lakin şəhər yoxsulları bu razılaşmanın əleyhinə çıxdılar, nəticədə şəhər hakiminin hərbi xidmətçiləri ilə bir qrup şəhər yoxsulları arasında toqquşma baş verdi, həlak olanlar oldu. Bu hadisə şahın əmrinə əsasən Təbriz şəhərinə hərbi hissələrin yeridilməsinə səbəb oldu. Ordu hissələri bir neçə məhəllədə üsyan iştirakçılarına vurduqları zərbədən sonra üsyan iştirakçıları müqavimət göstərməyin mənasız olduğunu başa düşərək mübarizəni dayandırdılar. Üsyan rəhbərlərindən Pəhləvan Yari, Pəhləvan Əvəz və Əli Həsəncan ələ keçirilərək Təbriz meydanında dar ağacından asıldılar. Təbriz şəhərində baş vermiş bu üsyan 1573-cü ildə yatırıldı. Şah hökuməti üsyanın rəhbərləri və fəal üzvlərindən 150 nəfəri edam etdi.

Üsyanın zor gücünə yatırılmasına baxmayaraq I Şah Təhmasib Təbriz şəhər əhalisinə güzəştə getməyə məcbur oldu. Sənətkarlardan alınan mali-möhtərife vergisi ləğv edildi. Şəhər əhalisi bütün dükan vergilərindən azad oldu. Şəhər demək olar ki, vergi toxunulmazlığını əldə etdi.

I Şah Təhmasib 1576-cı il may ayının 14-də vəfat etdi. Hələ 1575-ci ildə I Şah Təhmasib ağır xəstələndikdə sarayda əyanlar arasında kimin hakimiyyətə keçməsi barədə fikir ayrılığı və qruplaşmalar yarandı. I Təhmasib şəxsi həkimi Mövlana Qiyasəddin Əli Kaşinin müayinəsi ilə sağaldı. Maraqlıdır ki, Təhmasib yenə də ondan sonra doqquz oğlundan hansının hakimiyyətə gələcəyi haqqında bir söz demədi. I Təhmasibin böyük oğlu Məhəmməd Mirzənin (Məhəmməd Xudabəndə

(1578-1587)) gözlərinin pis görməsi və zəif xarakterli olması onun hakimiyyətə gəlmək imkanını azaldırdı.

I Şah Təhmasibin ikinci oğlu İsmayıl Mirzə (II Şah İsmayıl (1576-1577)) gənc yaşlarında böyük nüfuz qazanmışdı. 1547-ci ildə şahın qardaşı Əlqas Mirzə Şirvanda qiyam qaldırdığına görə onun yerinə İsmayıl Mirzə hakim təyin edilmişdi. İsmayıl Burhan Mirzə ilə vuruşmada döyüş sınağından çıxmışdı. I Sultan Süleymanın yürüşü zamanı onun osmanlı ordusuna qarşı döyüşlərdə sərkərdəlik bacarığı üzə çıxdı. 1552-ci ildə Ərzurumun osmanlı hakimi İskəndər paşa (Lovğa İskəndər) üzərində qələbəsi ona böyük şöhrət gətirdi. İsmayılın həyata keçirdiyi döyüş taktikası, cəsarətli və sürətli həmlələri Osmanlı ordusunu qorxuya salmışdı. Osmanlılar onu "Dəli İsmayıl" adlandırmışdılar. 1555-ci ildə bağlanmış Amasiya sülh barışığından sonra 1556-cı ildə I Şah Təhmasib İsmayıl Mirzəni Herata qardaşı Məhəmməd Mirzənin yerinə hakim təyin etdi. İsmayıl Mirzənin Heratdan bir sıra vilayət hakimlərinə şahdan icazəsiz osmanlılara qarşı yürüşə başlamaq üçün qoşun toplamaları haqqında məktub göndərməsi I Şah Təhmasibi hövsələdən çıxardı. O, hələ qardaşları Əlqas Mirzənin və Sam Mirzənin xəyanətlərini unutmamışdı. İsmayıl Mirzənin də belə bir hərəkət edəcəyindən ehtiyat edirdi. Ona görə də Qorçibaşı Sevindik bəy Əfşarı Herata göndərdi, Məhəmməd Mirzə yenidən Herata hakim təyin edildi. İsmayıl Mirzə Qəhqəhə qalasına salındı, 19 il 6 ay 21 gün Qəhqəhə qalasında həbs həyatı yaşadı.

Hüseynqulu xan başda olmaqla rumlu, əfşar və türkman tayfaları İsmayıl Mirzənin hakimiyyətə gəlməsinin tərəfdarı idilər. I Təhmasibin həddindən artıq ağıllı, lakin hiyləgər qızı, dövlət şurasına buraxılan yeganə qadın Pərixan xanım da İsmayıl Mirzənin tərəfdarı idi.

I Təhmasib üçüncü oğlu, gürcü arvadından olan Heydər Mirzəni hələ 18 yaşından, 1571-ci ildən özünə müavin təyin edərək əslində idarəetmə işlərini ona həvalə etmişdi. O, atasının

göstərişlərinə əməl etdiyinə görə I Təhmasibin və saray adamlarının yanında nüfuza malik idi. Hüseyn bəy başda olmaqla ustaclı tayfası və gürcü əmirləri onu müdafiə edirdilər.

I Təhmasibin qalan 6 oğlunun hakimiyyətə gəlmək imkanları yox idi. I Təhmasibin ölümündən sonra Heydər Mirzə ilə İsmayıl Mirzənin tərəfdarları arasında hakimiyyət uğrunda mübarizə çox kəskin xarakter aldı. 1576-cı il may ayının 13-dən 14-nə keçən gecə halı pisləşən I Şah Təhmasib səhər vəfat etdi. Gecə anasının məsləhəti ilə sarayda qalan Heydər Mirzə səhər atasının tacını başına qoyub, qılıncını belinə bağlasa da hər şey onun istədiyinin əksinə oldu.

Həmin gecə sarayın mühafizəsini İsmayıl Mirzənin tərəfində olan rumlu, əfşar, qacar, bayat və varsaq tayfalarından olan qorçilər təşkil edirdilər. Şahın ölüm xəbərini eşidən kimi mühafizəçilər saray qapılarını bağladılar. Heydər Mirzənin tərəfdarları saraya buraxılmadı. Beləliklə, Heydər Mirzənin tərəfdarları ustaclı tayfasının əmiri Hüseyn bəylə İsmayıl Mirzənin hakimiyyətə gəlməsinə çalışan Hüseynqulu Xəlifənin tərəfdarları arasında gedən mübarizə ikincilərin qələbəsi ilə başa çatdı. Heydər Mirzə öldürüldü.

Qəhqəhə qalasından iyun ayının13-də Qəzvinə gələn İsmayıl Mirzə 1576-cı il avqustun 22-də II İsmayıl adı ilə taxta oturdu. İsmayıl taxta çıxdıqdan sonra hakimiyyətini möhkəmlətmək məqsədi ilə ilk növbədə şahzadələri aradan götürmək qərarına gəldi. I Təhmasibin çərkəz qızından olan Süleyman Mirzəni dayısı çərkəz Şamxalın əli ilə öldürtdürür. Gürcü qızından olan Mustafa Mirzəni II İsmayılın əmri ilə Məhəmməd xan Ustaclı öldürür. I Təhmasibin hakimiyyətinin sonunda Şirvan əyalətinə hakim təyin edilmiş Mahmud Mirzə oğlu Məhəmmədbaqir Mirzə ilə birlikdə öldürülür.

Lahican əyalətinin hakimi İmamqulu Mirzə Qəzvin darüs səltənəsinə gətirilərək öldürülür. Qarabağ bəylərbəyi İbrahim Sultan Ziyadoğlunun yanında olan Əli Mirzəni Qəzvinə apartdırıb gözlərinə mil çəkdirir. Sonuncu qardaşı Əhməd Mirzə

İsfahanda öldürülür. Qardaşlarını öldürtdü-rəndən sonra əmisi, bibisi, xalası oğlanlarını və onların əyalətlərində yaşayan kişi nəslini qətlə yetirtdirdi. Yalnız bir anadan olduğu doğma qardaşı Məhəmməd Mirzəyə (Məhəmməd Xudabənd) və onun 5 oğluna – Həsən Mirzə, Həmzə Mirzə, Abbas Mirzə (I Şah Abbas), Abutalıb Mirzə və Təhmasib Mirzəyə toxunmadı. II İsmayılın dini islahatının əleyhinə olan təkəli və türkman tayfa başçıları Məhəmməd Mirzənin oğlu Həsən Mirzəni hakimiyyətə gətirmək niyyətində idilər. Ona görə də II İsmayıl doğma qardaşı oğlu Həsən Mirzəni Tehranda öldürtdürdü.

II İsmayılın dövründə də saray vəzifələri və vilayət hakimləri qızılbaş əmirləri sırasından seçilirdı.

II İsmayil mərkəzi hakimiyyəti möhkəmləndirməklə bərabər osmanlılarla münasibətləri yaxşılaşdırmaq istəyirdi. O, şiəliyi mötədil hala gətirməklə sünnilərə qarşı ifrat mövqe tutmağın əleyhinə idi. O, küçələrdə və meydanlarda Əbubəkirin, Ömərin və Osmanın açıq lənətlənməsini qadağan etmişdi. İsmayılın əmri ilə hətta bəzi şiə ruhaniləri təqib edilirdi. Ona görə İsmayılın sünniliyi qəbul etmə istəyi haqqında şaiyələr yayılırdı.

Əslində II İsmayıl Osmanlı dövləti ilə sülh münasibətləri yaratmağa, bu məqsədlə şiə-sünni qarşıdurmasını yumşaltmağa çalışırdı. Ona görə onun dövründə Osmanlı Səfəvi sərhəddində tam sakitlik olmuşdur. II İsmayılın fərmanı ilə kəsilmiş gümüş sikkələrin bir üzündə həkk edilən “Allahdan başqa Tanrı yoxdur, Məhəmməd Allahın rəsuludur, Əli Allahın dostudur” sözləri yazılmadı. İsmayılın dini islahatı həyata keçirmək cəhdi şiə ruhanilrinin, qızılbaş əyanlarının və əhalinin narazılığına səbəb olmuşdu. Tezliklə şah başa düşdü ki, dini islahat səylərində tələsmişdir. Ona görə də saray daxilində bir daha dinlə bağlı məsələyə toxunmadı. Çox keçmədi ki, 1577-ci il noyabrın 25-də II İsmayıl müəmmalı şəkildə öldü.

II İsmayılın ölümündən sonra Qəzvində şah sarayında yaranmış gərgin vəziyyət, qızılbaş tayfaları arasında qarşıdurma

vəzir Mirzə Salmanın və Xəlil xan Əfşarın fəaliyyəti sayəsində toqquşma həddinə çatmadı. Tayfa əmirlərinin və nüfuzlu əyanların iştirak etdikləri saray toplantısında bir-biri ilə düşmənçilik edən türkman və ustaclı tayfalarının başçıları barışdırıldı. Toplantıda şah taxtına Məhəmməd Mirzənin oğlanları Həmzə və Abbas Mirzə, II İsmayılın südəmər oğlu Şahşücanın namizədliyi irəli sürülsə də əksəriyyət I Şah Təhmasibin böyük oğlu Məhəmməd Xudabəndənin üzərində dayandı. Bu zaman Məhəmməd Mirzə Şirazda yaşayırdı. Bacısı Pərixan xanım Qəzvində dövlət işlərini öz əlinə almışdı.

Qəzvindən Şiraz şəhərinə gələn Mirzə Salman tezliklə Məhəmməd Mirzənin Qəzvinə gəlməsinə nail oldu. Qəzvinə daxil olanda Pərixan xanımı müdafiə edən əmirlərin əksəriyyəti onun tərəfinə keçdilər. Pərixan xanımın müqavimət göstərməsi heç bir nəticə vermədi.1578-ci il fevralın 13-də Qəzvində tacqoyma mərasimi keçirildi. Məhəmməd Mirzə Məhəmməd Xudabəndə adı ilə taxta oturdu. O, otuz yaşlı bacısı Pərixan xanımı fevralın 17-də edam etdirdi. II İsmayılın oğlu Şahşücan da öldürüldü.

Qızılbaş tayfalarının əmirləri hərəsi öz tayfasının ağsaqqalı hesab olunurdu, əmirlər əyalətlərdə nəzarətsiz hakimlik edirdilər. Onlar mərkəzi hakimiyyətlə heablaşmır, əyalətləri istədikləri kimi idarə edirdilər. Sanki vilayətlər qızılbaşlar arasında bölüşdürülmüşdü.

Məhəmməd Xudabəndə hakimiyyətə gəldiyi ilk gündən arvadı Məhdi Ülya (Xeyrannisə) ərinin zəif iradəli olmasından istifadə edərək bütün dövlət işlərinə qarışırdı. Məhdi Ülya keçmiş Mazandaran hakiminin qızı idi. Onun atasi qızılbaş əmirləri tərəfindən öldürüldüyünə görə o atasının intiqamını alırdı. Qızılbaş əmirlərini yüksək vəzifələrdən uzaqlaşdırıb əvəzində Mazandaran əmirlərini gətirirdi. Mazandaran hakimi Mirzə xanı aldadıb Qəzvinə gətirərək öldürtdü. Əsir alınmış Adili Girey də Məlikə ilə çəkişmələrin qurbanı oldu. Kaşan bəylərbəyi Türkman Məhəmməd vəzifədən çıxarılması ilə

əlaqədar qızılbaş əmirlərinə müraciət etdi. Məhdi Ülyanın qızılbaş əmirlərinə qarşı apardığı siyasət qızılbaş əmirlərinin narazılığına səbəb olmuşdu. Ona görə Türkman Məhəmməd xanın çağırışı ilə qızılbaş əmirləri şahın sarayına yığışdılar. Məlikəni müdafiə edən əmir tapılmadı. Məhəmməd Xudabəndə vəziyyəti belə gördükdə Məhdi Ülyanı Mazandarana göndərməyi qərara aldı. Lakin, 1579-ci il iyulun 26-da əmirlər şahın bu qərarı ilə razılaşmadılar. Qızılbaş əmirləri hərəm otağına daxil olub Məhdi Ülyanı öldürdülər.

Şah Məhəmməd Xudabəndənin dövründə nəinki mərkəzi hakimiyyət zəifləmiş, I Təhmasibin dövründə qənaət hesabına toplanmış xəzinənin sərvəti bir ilin içində dağıdılmışdı. Qızılbaş əmirləri arasında mərkəzdən qaçma halları baş qaldırmışdı. Ustaclı və şamlı tayfasından olan Xorasan əmirləri Əliqulu xanın başçılığı ilə Məhəmməd Xudabəndənin oğlu Abbas Mirzəni şah elan etdilər. Bu yalnız şaha qarşı deyil, mərkəzdə mövqeləri möhkəmlənmiş təkəli və türkman əmirlərinə qarşı çevrilmişdi. Göründüyü kimi, Məhəmməd Xudabəndənin zəiflədiyindən istifadə edərək bir sıra əmirlərin dövlətin siyasi və əsgəri təşkilatında yüksək vəzifələri ələ keçirmək cəhdləri ilə əlaqədar olaraq tayfalararası çəkişmələr yenə də qalırdı.

Ölkədə yaranmış vəziyyətdən Osmanlı dövləti istifadə etdi. Azərbaycan torpaqlarını ələ keçirmək və Cənubi Qafqazda möhkəmlənmək planlarını həyata keçirmək istəyi baş qaldırdı. Osmanlı Sultanı Van hakimi Xosrov paşaya Səfəvilər dövlətinin sərhəd ərazilərində yaşayan kürd tayfalarının qiyamını təşkil etməyi tapşırdı. 1577-ci ildə Səlmas və Tasuq hakimi Qazi bəy kürdlərin qiyamını qaldırdı. Xosrov paşanın qoşunları qiyamçılarla birlikdə Xoya hücuma keçdilər. Beləliklə, osmanlılar 1555-ci ildə tərəflər arasında bağlanmış Amasiya andlaşmasını pozdular. Xoy hakimi Mahmud Sultan Rumlu inadla müqavimət göstərsə də məğlub olaraq həlak oldu. Xoy ələ keçirildi. Qiyamçılar Urmiya hakimi Hüseyncan Sultan Xunuşluya qarşı hücuma keçdilər. Hüseyncan Xunuşlu bir ay

müqavimət göstərə bildi. O qiyamçılar tərəfindən öldürüldü, Urmiya ələ keçirildi.

Azəpbaycan hakimi Əmir xan Türkman qiyamçıları məğlub etsə də onlar tabe olmayaraq dağlara və qalalara çəkildilər. Əmir xan qiyamçılar tərəfindən dağıdılmış ərazilərdə möhkəmlənə bilmədi. Osmanlıların Azərbaycana yürüş edəcəyi haqqında xəbərlər digər kürd tayfalarının da qiyamçılara qoşulmasına səbəb oldu. Marağa yaxınlığında Sulduz və Miyanduab ərazisində yaşayan kürdlər Əmir bəyin başçılığı ilə Marağaya hücuma keçib qarətlər törətdilər və şaha məxsus ilxıdan 10 min atı apardılar.

Kürdlərin qiyamı ilə eyni vaxtda Osmanlı sultanının təhriki ilə Şirvanda üsyan baş verdi. Səfəvilər əleyhinə başlanan bu üsyana Bürhan Mirzənin oğlu Əbubəkir rəhbərlik edirdi. Bürhan Mirzənin ölümündən sonra onun tərəfdarları Əbubəkiri Dağıstana aparmışdı. Bir müddət Dağıstanda qaldıqdan sonra o, Krım xanı Adil Gərayın yanına getmiş, Adil Gəray qızı ilə onu evləndirmişdir. Səfəvilər dövlətinin zəifləməsi, feodal ara müharibələri və çəkişmələrin yaranmasından istifadə edərək Osmanlı Sultanı Əbubəkirə Şirvanda qızılbaşlar əleyhinə üsyan daldırmaq haqqında göstəriş verdi. Osmanlı Sultanı tərəfindən dəstəklənən Əbubəkir Dağıstanda və çərkəz ölkəsində qaçıb yaşayan keçmiş Şirvan ordusunun qalıqları və ləzgilərdən 2-3 minlik qoşun toplayaraq Şirvan üzərinə yürüş etdi. Dərbənddə və Şabranda qızılbaşlar əleyhinə üsyan başladı.

I Şah Təhmasib hakimiyyətinin sonlarında əhalinin var-yoxdan çıxmasını nəzərə alıb Şirvanın bəzi yerlərində mal-i-xərac yığılmaması haqqında fərman vermişdi. Doqquz ilə qədər alınmayan verginin toplanması barədə şah sarayında göstəriş verilməsi Şirvanda əhalinin narazılığına səbəb oldu. Bu narazılıqdan istifadə edən osmanlılar Əbubəkirin vasitəsi ilə Şirvanda üsyan qaldırmağa nail oldular.

## § 4.2. 1578-1590-cı illərdə Səfəvi-Osmanlı müharibəsi

Məhəmməd Xudabəndənin dövründə baş verən kəskin daxili ziddiyyətlər, mərkəzi hakimiyyətin zəifləməsi, qızılbaş əmirləri arasında çəkişmələr, dövlət xəzinəsinin boşaldılması, ölkədə yaranmış qeyri-sabitlik osmanlı hakimlərini Azərbaycan torpaqlarına işğalçı yürüşə cəsarətləndirdi. Osmanlı Sultanı III Murad (1574-1596) Xəzər dənizinə kimi Azərbaycan ərazilərini ələ keçirmək, Orta Asiya xanlıqları ilə birbaşa əlaqə yaratmaq, Asiyanın mühüm ticarət yollarına nəzarət etmək, xüsusilə Təbrizə sahib olmaq, Cənubi Qafqazda möhkəmlənmək, şimaldan gələn müstəmləkə təhlükəsinin qarşısını almaq niyyətində idi.

Osmanlı imperiyası Səfəvi dövlətində yaranmış ağır daxili vəziyyətdən istifadə edərək Van hakimi Xosrov paşaya sərhəd ərazilərdə yaşayan kürd tayfalarının Səfəvi dövləti əleyhinə üsyan qaldırmalarını təşkil etməyi tapşırdı. 1577-ci il noyabrın 25-də Anadolu, Rum, Qaraman və Zülqədər bəylərbəylərinə Səfəvilərlə döyüşə ciddi hazırlaşmaları haqqında göstəriş verildi. 1578-ci il yanvarın 2-də III Sultan Murad Səfəvi dövləti üzərinə yürüş etmək haqqında qərar verdi. Osmanlı Sultanı III Murad Osmanlıdan vassal asılılığında olan Krım xanı I Məhəmməd Gəraya (1577-1584), Dağıstanın Kumik və Qaytaq hakiminə, Tabasaran və Avar hakimlərinə Səfəvilərə qarşı yürüşdə iştirak etmələrinə göstəriş verdi.

1578-ci ildə Mustafa Lələ paşanın rəhbərliyi ilə yüz minlik Osmanlı ordusu Qarsdan Gürcüstan istiqamətində yürüşə başladı. Çuxursəd bəylərbəyi Məhəmməd xan Toxmaq Ustaclı Qarabağ bəylərbəyi İmamqulu xan Qacarı və Azərbaycanın cənub hissəsinin hakimi Əmir xanTürkmanı köməyə çağırdı. Məhəmməd xan Toxmaq Ustaclı və İmamqulu xan Qacarın 15 minlik qoşunu Çıldır gölü yaxınlığında Əmir xan Türkmanın qoşununu gözlədilər. Lakin, ustaclı və türkman tayfaları arasında düşmənçilik olduğuna görə Əmir xan köməyə

getmədi. Məqsəd Osmanlı ordusunun Gürcüstana yürüşünün qarşısını almaq idi.

Çıldır gölü sahilində Osmanlı ordusu ilə ilk döyüşdə qızılbaşlar üstünlük qazansa da osmanlıların əlavə qüvvələrinin gəlməsi qızılbaşların məğlubiyyəti ilə nəticələndi. 1578-ci il avqustun 9-da Qarsın şimal-şərqində yerləşən Çıldır gölü sahilində baş vermiş döyşdə osmanlıların qələbəsi onların Gürcüstana daxil olmalarına şərait yaratdı. Osmanlılar Axaltsıxı ələ keçirib Kaxetə daxil oldular. Avqustun 24-də Tiflisi, sonra Qorini və Zəyəmi tutdular. Bu vaxt gürcü feodalları arasında birlik yox idi. Bəzi gürcü feodalları öz mülklərini qorumaq naminə osmanlıların tərəfinə keçirdilər. Mesxi vəliəhdi Mənuçöhr və qardaşı Kvarkvare osmanlı tərəfinə keçdilər. Kartli çarı osmanlılara tabe olmadığına görə Tiflis osmanlıların hücumuna məruz qaldı, Tiflis və Qori işğal edildi. Kaxetiya çarı Aleksandr isə Mustafa paşanın təslim olma tələbini qəbul etdi.

1578-ci il sentyabrın əvvəllərində Osmanlı ordusu Qanıq (Alazan) çayına çatdı. Sentyabrın 9-da Qoyun ölümü keçidi döyüşündə qızılbaşlar bir neçə dəfə düşmənə zərbə vurub tələfat versə də məğlubiyyətə uğradılar. Sentyabr ayının 16-da Mustafa paşa Ərəşi ələ keçirdi. Şirvan bəylərbəyi Araz xan Rumlu Mustafa paşanın çoxlu sayda qoşunu qarşısında Kür çayının cənub sahilinə çəkilməyə məcbur oldu. Bu vaxt Əbubəkir Mirzə ləzgi və şirvanlılardan ibarət dəstə ilə Şirvana yürüş etdi. Osmanlı ordusu Şamaxı, Qəbələ, Bakı, Şabran, Mahmudabad və Salyanı işğal etdi.

Şirvan ələ keçirildikdən sonra Azərbaycanın cənu-bunda yaşayan bir sıra kürd tayfaları və Şimali Azərbaycan əyanlarının bir hissəsi osmanlılar tərəfinə keçdilər. Şirvan ələ keçirildikdən sonra yeni hərbi-inzibati sistem yaradıldı. Şirvan Şamaxı və Dərbənd bəylərbəyliyinə bölündü. Hər iki vilayətə osmanlı hakimi təyin edildi. Mustafa paşa Şirvanda Osmanlı qoşunlarına komandanlıq etmək vəzifəsini Osman paşaya həvalə edərək Ərzuruma qayıtdı. Osman paşa Gəncə üzərinə

yürüş edərək qarət və talanlar törətdi. O, Salyanda hazırlıq işləri ilə məşğul olan Araz xan Rumlunun üzərinə hərbi hissə göndərdi. Araz xan müqavimət göstərərək Osman paşanı geri çəkilməyə məcbur etdı. Bu vaxt İmamqulu xan Qacar Ərəş üzərinə hücuma keçərək Osmanlı qoşununu darmadağın etdi.

1578-ci il sentyabrın axırlarında Həmzə Mirzə otuz minlik qoşunla Ərdəbildən Qarabağa gəldi. Araz xan qızılbaşlar ordusunun gəlməsi xəbərini aldıqda Kür çayını keçərək Şamaxıya doğru hərəkət etdi. Şamaxını ələ keçirmək uğrunda mübarizədə Araz xanın üstünlük qazandığı vaxt Krım xanının qardaşı Məhəmməd Çirey və varisi Adil Çirey iyirmi minlik qoşunla Dağıstandan keçərək osmanlılara köməyə gəldi. Osmanlı qoşunu, Krım tatarları, ləzgilər və Əbubəkirin üsyançı dəstələrinin birləşməsi Araz xanın məğlubiyyəti ilə nəticələndi. Araz xan ələ keçirilərək edam olundu.

Bu vaxt Qarabağa gəlmiş Qızılbaş qoşunu vəzir Mirzə Salmanın rəhbərliyi ilə Şirvana doğru irəliləyərək Şamaxı qalasını mühasirəyə aldı. Osman paşa Salyanda olan Adil Çireyə xəbər göndərərək köməyə çağırdı. Qızılbaş əmirləri Şimal istiqamətində Şamaxıya Osman paşaya köməyə gələn Krım tatarlarından ibarət qoşunu qarşılamaq üçün böyük hərbi hissə ilə cənuba doğru hərəkət etdilər. 1578-ci il noyabrın 28-də Ağsu çayı sahilində, Mollahəsən adlı yerdə Adil Çireyin qoşunu ilə qarşılaşdılar. Səhər tezdən axşama kimi davam edən döyüşdə tatarlar darmadağın edildi. Adil Çirey və Ərəş hakimi təyin edilmiş Piyalə bəy əsir alındılar. Tatarların ələ keçirdikləri qənimət geri alındı. Əlavə köməkdən məhrum olan Osman paşa Şamaxı qalasının mühasirəsindən geri çəkilərək Dərbəndə doğru hərəkət etdi. Qızılbaşlar osmanlıları Şabrana qədər təqib edib geri qayıtdılar. Osmanlı qoşunu böyük itkilər verərək Dərbəndə daxil oldu. Lakin Qızılbaş əmirləri Osman paşanı təqib etməyib Qarabağa qayıtdılar. Mollahəsən döyüşündə böyük şücaət göstərmiş Həmzə xan Ustaclının Şirvan hakimi vəzifəsinə namizədliyi əmirlər arasında, xüsusilə Məhdi Ülyanın narazı-

lığına səbəb oldu. Şah Məhəmməd Xudabəndənin arvadı Məhdi Ülya da oğlu Həmzə Mirzə ilə Qarabağa gəlmişdi. Onun göstərişi ilə Mirzə Salman və əmirlər Mollahəsən döyüşündəki qələbədəln sonra Qarabağa qayıtdılar. Şah qərargahının Dərbəndin tutulması haqqında göstərişinin əksinə olaraq Məhdi Ülya Qızılbaş qoşununa Şirvandan Qarabağa qayıtması haqqında əmir verdi və əsir alınmış Adil Çireylə Qarabağdan Qəzvinə qayıtdı.

Beləliklə, Mollahəsən qələbəsinə baxmayaraq, Səfəvi- lər Şirvanda möhkəmlənə bilmədilər. Osman paşanın Dər- bənddə möhkəmlənməsi ilə Şirvan üzərinə yeni yürüş təhlükəsi yaranırdı. Onun göndərdiyi hərbi hıssələr bir neçə dəfə Şirvan ərazisinə soxulsa da, Şirvan hakimi Məhəmməd Xəlifə Zülqədər tərəfindən məğlub edildilər. 1579-cu ilin yayında Krım xanı Məhəmməd Çirey Osmanlı Sultanın təhriki və qənimət əldə etmək məqsədilə Şimali Qafqazdan keçib 100 min nəfərlik qoşunla Dərbənddə Osman paşanın qüvvələri ilə birləşdi. Tatar qoşunları oktyabrın 23-də Şamaxını ələ keçirdilər. Şamaxı və Bakı yürüşündən sonra Ərəş, Gəncə, Qarabağ və Muğana hücum edərək Qızılağaca qədər ərazilərdə dağıntılar və qarətlər törətdilər. Samur çayı sahilində Şirvan hakimi Məhəmməd Xəlifə qeyri-bərabər qüvvə ilə tatar qoşunları ilə döyüşə girərək həlak oldu.

Qızılbaş ordusunun Şirvana çatması xəbərini eşidən Məhəmməd Çirey Şirvan ərazisindən geri çəkildi. Onlar çoxlu qənimət və əsir edilmiş insanlar apardılar. Qazi Çireyin başçılığı ilə Osman paşaya kömək məqsədi ilə Dərbənddə bir dəstə saxlayıb Krıma qayıtdılar.

Qızılbaşlar Şamaxıya çataraq şəhəri mühasirəyə aldılar. Bir neçə gün müqavimətdən sonra şəhər alındı. Əmir xanın rəhbərliyi ilə qızılbaşlar Xaçmazda yerləşmiş şirvanlı və dağıstanlılardan ibarət dəstəyə qarşı döyüşdə müqavimətlə rastlaşaraq geri qayıtdılar. Əmir xanın bu uğursuzluğu şamlı və ustaclı əmirlərinin narazılığı ilə qarşılandı. Tərəflər arasında

düşmənə qarşı birləşərək mübarizə aparmaq əvəzinə bir-birləri ilə çəkişmə və didişməyə səbəb olan qarşıdurma yarandı. Qızılbaş əmirləri iki düşmən cəbhəyə bölündülər.

1578-1579-cu illərdə Osmanlı və Krım tatarlarının yürüşü Azərbaycanda çoxlu dağıntılara, talan və qarətlərə səbəb olmuşdu. Ölkəni aclıq və xəstəlik bürümüşdü. Ölənlərin sayı-hesabı yox idi. Ac insanlar köhnə sümükləri bişirir, dəri, yırtıq ayaqqabı yeyirdilər. Səlnaməçinin verdiyi məlumata görə dilənçilər çöllərə səpələndilər, keçi və qoyun sürüləri kimi yabanı tərəvəz və göy ot yeməyə başladılar.

Belə bir şəraitdə ustaclı və şamlı tayfaları ilə türkman tayfası arasında qarşıdurma yaranmış, Xorasanda əmirlərin bir-biri ilə düşmənçilik edən Herat və Məşhəd dəstəsi yaranmış, bu dəstələr bir-birinə qarşı qanlı toqquşmalar aparırdılar. Bütün bunlar Xorasanın bir hissəsinin dövlətin tərkibindən çıxmasına və 1581-ci ildə şahzadə Abbasın Xorasanda şah elan edilməsi ilə nəticələndi.

1580 və 1581-ci illərdə Krım tatarları Şirvan ərazisinə dağıdıcı yürüşlər edərək əhalini soyub taladılar. Dördüncü yürüş zamanı tatar ordusu Peykər xan Qacarın rəhbərliyi ilə Şabranla Şamaxı arasında məğlub edildi. Qazi Çirey əsir alındı. Sağ qalan tatar və türk döyüşçüləri və Əbubəkir Mirzə qaçdılar. Qızılbaşlar Şirvan ərazisindən gedəndən sonra Dərbənddən Osman paşa hücum edərək həmin əraziləri ələ keçirdi.

1583-cü ilin yazında Gəncə hakimi İmamqulu xan Qacar Şirvan ərazisinə daxil olaraq Şamaxıya çatdı. Osmanlı ordusunun Niyazabadda olması haqqında məlumat aldıqda Rüstəm xanın başçılığı ilə ora qoşun göndərdi. Tərəflər arasında baş verən döyüşdə osmanlılar məğlub edildi və türk sərkərdələri öldürüldü. Qızılbaşlar Dərbəndə qədər irəlilədi.-lər. Osman paşanın Dərbənddən gələn dəstəsi ilə Samur çayı sahilində Baştəpə adlanan döyüş bir neçə gün davam etdi. Gecələr də davam edən bu döyüş “Məşəl savaşı” kimi tarixə düşdü. Döyüşün dördüncü günü osmanlılar üstünlük qazandılar.

Qızılbaş döyüşçüləri geri çəkildi. "Məşəl döyüşündə" Əbubəkir Mirzə Qızılbaşlar tərəfindən Osmanlılara qarşı vuruşmuşdu. Bu Şirvan dövlət müstəqilliyini bərpa etmək uğrunda mübarizədə Əbubəkir Mirzənin ümidinin sona çatması ilə əlaqədar idi.

1583-cü ilin yayında Fərhad paşanın komandanlığı ilə Osmanlı ordusu Qarsdan Çuxursədə hücuma keçərək oranı tutdular. Çuxursəd hakimi Məhəmməd xan Toxmaq Naxçıvana çəkildi. Xorasan əmirlərinin separatizm hərəkətlərinə qarşı şahın əsas qüvvələrinin Xorasanda olması, Qarabağ və Azərbaycanın cənub hissəsinin hakimlərinin kömək etməmələri Çuxursədin asanlıqla tutulmasına səbəb oldu.

Azərbaycanı ələ keçirmək məqsədilə Osmanlı sultanı Özdəmir oğlu Osman paşanı Dərbənddən geri çağıraraq Şərq yürüşünün komandanı təyin etdi. Osman paşa 1585-ci il avqustun 12-də Ərzurumdan Pasinabad-Çıldıran-Xoy-Mərənd-Sufiyan-Təbriz istiqamətində yürüş etdi: Bu zaman şah və Həmzə Mirzə Qarabağda dincəlirdilər. Şah Qarabağdan Naxçıvana getdi. Həmzə Mirzəni 20-min nəfərlik qoşunla Mərənddən Təbrizə doğru gələn Osman paşaya qarşı göndərdi. Sufiyan ərazisində Məhəmməd xan Toxmağın başçılığı ilə qızılbaşların qabaqda gedən dəstəsi Sufiyan ərazisində Osmanlı hissələri ilə qarşılaşdı. 1585-ci il sentyabrın 18-də baş vermiş döyüşün başlanğıcında qızılbaşlar üstünlüyü ələ alsalar da çoxsaylı Osmanlı ordusu qarşısında tab gətirə bilməyib geri çəkildilər.

Osmanlılar Təbrizə yaxınlaşdılar, 1585-ci il sentyabrın 20-də Təbrizə qarşı hərbi əməliyyata başladılar. Osman paşanın təslim olma tələbi Təbriz əhalisinin inadlı müqaviməti ilə qarşılandı. Osmanlılar şiddətli artıleriya atəşi ilə təbrizlilərin müqavimətini qıraraq şəhərə daxil ola bildilər. Şəhər əyanları şəhəri talan və qarətdən xilas etmək üçün Osman paşanın yanına öz nümayəndələrini göndərdilər. Şəhər əhalisi müqaviməti dayandırmadıqlarına görə Osman paşa talan və qarət əmrini verdi. Təbrizdə gözəl binalar, məscidlər dağıdıldı.

“Qeysəriyyə” bazarı yandırıldı. “Həştbehişt” sarayının yerində qala ucaldıldı.

Qorçıbaşı Qulu bəy Əfşarın başçılığı ilə qızılbaşlar Osmanlı qoşununa ağır zərbə vurdular. Həmzə Mirzənin hücumu ilə Qaraman hakimi Murad paşa və Diyarbəkir hakimi Məhəmməd paşa əsir alındı, Trabzon paşası və bir sıra Osmanlı sərkərdələri öldürüldü. Osmanlılarla bu döyüşdə Oruc bəy Bayat (Don Juan) da iştirak etmişdi. Osmanlı qoşunu bir aydan sonra tikdikləri qalada 7 min nəfərlik hərbi hissə saxlamaqla Təbrizdən geri çəkildilər. Həmzə Mirzə onları təqib edərək Şənbi-Qazanda onlara ağır zərbə vurdu. Həmzə Mirzə osmanlıların Təbrizdə qaldıqları qalanı dəfələrlə almağa cəhd etsə də bu baş tutmadı.

Belə bir vaxtda Azərbaycanın hakimi Əmir xan Türkmanın Həmzə Mirzə tərəfindən Qəhqəhə qalasına salınaraq öldürülməsi nəticəsində üsyan qaldırmış türkman və təkəli əmirlərinin Təbrizə yaxınlaşması ilə əlaqədar Osmanlı qala qarnizonuna qarşı mübarizə dayandırıldı.

Qiyamçılarla danışıqlar heç bir nəticə vermədi, ustaclı və şamlı tayfası ilə türkman və təkəli tayfaları arasında qarşıdurma daha da dərinləşdi. Qiyamçılar Həmzə Mirzənin on yaşlı qardaşı Təhmasibi oğurlayaraq Qəzvinə aparıb şah elan etdilər. 1586-cı ilin yayında Həmzə Mirzə türkman və təkəli tayfalarının qiyamını çox çətinliklə yatıraraq Təbrizə qayıtdı. Lakin, Təbrizdə türk qarnizonuna qarşı qüvvələri səfərbərliyə almaq istəyəndə onun ətrafına çox az qüvvə gəldi. Çünki təkəli və türkman əmirləri ondan üz döndərmiş, İsfahan, Yəzd, Girmanda yaşayan əfşar tayfaları Qulu bəylə Osmanlılar tərəfinə keçmiş, şamlı və ustaclı Xorasan əmirləri Həmzə Mirzənin əleyhinə çıxaraq Abbas Mirzəni taxt tac varisi kimi müdafiə edirdilər.

Həmzə Mirzə Osmanlı qoşunu gələnə qədər Təbrizdəki türk qarnizonunu məğlubiyyətə uğratmağa çalışırdı. Lakin Fərhad paşanın əlavə qüvvələrlə Təbrizə daxil olması vəziyyəti

dəyişdi. O, qaladakı qarnizonu ərzaq və sursatla təmin edib daha da möhkəmləndirdi. Həmzə Mirzə mühasirəni dayandırılıb Dizmara doğru geri çəkildi. 1586-cı ilin sentyabr-oktyabr aylarında Təbrizdə olduğu vaxt ələ keçirdikləri ərazilər Osmanlılarda qalmaq şərti ilə sülh təklif etdi. Həmzə Mirzə Təbriz istisna olmaqla ələ keçirilən torpaqların verilməsinə razılaşırdı.

Şah və Həmzə Mirzə Qarabağa gəldilər. Gəncədə Həmzə Mirzə Osmanlı elçisi Vəli bəylə görüşdü. Vəd etdi ki, yaxın günlərdə oğlu ilə bərabər elçisini Osmanlı sultanının yanına göndərəcəkdir. Əhməd bəy Ustaclını isə Fərhad paşa ilə danışıq aparmağa yola saldı. Əhməd bəy Ustaclı təklif olunmuş şərtlərlə sülh danışıqlarına başlamağa razı olduqlarını bildirdi.

Osmanlılarla yaranmış dinc şəraitdən istifadə edərək Həmzə Mirzə mərkəzi hakimiyyəti daha da möhkəmləndirmək, qızılbaş əmirlərinin mərkəzdən qaçma meyllərinin qarşısını almaq, sonra isə bütün qüvvələri birləşdirib tutulmuş əraziləri osmanlılardan təmizləmək üçün tədbirlər görməyə başladı. Lakin, Həmzə Mirzənin əmirlərin rolunu azaltmaq siyasəti qızılbaş əmirlərini qane etmirdi. Həmzə Mirzənin 1586-cı ildə dekabrın 10-da Xoy erməni̇si olan dəllək Xudaverdi tərəfindən yatan zaman öldürülməsi ölkədə ara müharibələrinin və feodal özbaşnalığının yenidən genişlənməsinə şərait yaratdı.

Əsasən üstaclı və şamlı əmirlərinin təsiri ilə şah Məhəmməd Xudabəndə 13 yaşlı oğlu Abutalıb Mirzəni özünün varisi təsdiq etdi. Hakimiyyətin faktiki olaraq ustaclı əmirlərinin əlinə keçməsi digər qızılbaş tayfa başçılarının narazılığını daha da artırdı. Onlar Qəzvin sarayından üz döndərib şahlıq taxtına varis kimi Abbas Mirzəni müdafiə edən Xorasan əmirləri ilə birləşdilər. Murtuzaqulu xan başda olmaqla türkman tayfası, Kaşan hakimi, Kirman və Yəzd hakimləri, İsfahan və Kuh Gilyədə olan ərəşli və əfşar tayfalarının əmirləri, Farsda zülqədər tayfa başçıları Abbas Mirzəni müdafiəyə qalxdılar.

Səfəvilər dövlətində yaranmış daxili çəkişmələrdən istifadə edərək Cəfər paşa Təbrizdən çıxaraq Azərbaycanın cənub ərazilərinin əksər hissəsini ələ keçirdi. Cəfər paşa Ərdəbildən Təbrizə gələn qızılbaş dəstəsini məğlub etdi. Qaradağ hakimi osmanlılar tərəfə keçdi. Ordubad, Mərənd, Dizmar, Gərgər və ətraf əraziləri Cəfər paşa asanlıqla tutdu. 1588-ci ildə Sinan paşa Bağdaddan Həmədan üzərinə yürüş edərək Nihavəndi ələ keçirdi. Osmanlı qoşunları Qarabağı tutdular, Fərhad paşa Gürcüstan ərazisindən keçərək Gəncə və Bərdəni işğal etdi. Naxçıvan da Osmanlılar tərəfindən ələ keçirildi.

1586-1589-cu illərdə demək olar ki, bütün Azərbaycan torpaqları işğal edildi. 1587-ci ildə hakimiyyətə gələn I Abbas yaranmış ağır vəziyyəti nəzərə alaraq Həmzə Mirzə tərəfindən başlanmış sülh danışıqlarını davam etdirmək qərarına gəldi. İki ilə yaxın davam edən danışıqlardan sonra Ərdəbil hakimi Mehdiqulu ağa Ustaclının rəhbərliyi ilə elçi heyəti İstanbula göndərildi. Elçi heyətinin tərkibində Həmzə Mirzənin oğlu Heydər Mirzə də var idi. 1590-cı il yanvarın 28-də III Sultan Murad elçi heyətini qəbul etdi. 1590-cı il mart ayının 21-də Osmanlı və Səfəvi dövlətləri arasında sülh müqaviləsi imzalandı. İstanbul sülh müqaviləsinə görə Qaradağ, Ərdəbil və Talış vilayətlərindən başqa Azərbaycanın bütün əraziləri Osmanlı dövlətinin nəzarətinə keçdi. Həmçinin Cənubi Qafqazın digər əraziləri, İranın qərb vilayətləri – Nihavənd, Luristan, Şəhrizur Osmanlı imperiyasının tərkibinə daxil edildi. Sülhün şərtlərinə görə məzhəb ayrılığına görə insanlar incidilməməli, Hz.Peyğəmbərin əshabına və xəlifələrinə tənə edilməsinə son qoyulmalı, heç kimsəyə nifrət təlqin edilməməli idi.

## § 4.3. I Şah Abbasın islahatları

**I Şah Abbasın hakimiyyətə gəlməsi, osmanlılarla 1590-cı il barışığı.** Xarici yürüşlərin, daxili çəkişmələrin Azərbaycan Səfəvi dövlətini sarsıtdığı bir vaxtda Abbas Mirzə Mürşüdqulu xan başda olmaqla, türk-qızılbaş əmirlərinin köməyi sayəsində şahlıq taxtına oturdu (1587). I Şah Abbasın hakimiyyətinin ilk günlərində dövlətin həm daxili, həm də xarici vəziyyəti çox ağır idi. Hələ 1568-ci ildə I Şah Təhmasib Gilanda Biye Pişi Əmir Dibacın oğlu Cəmşid xana qaytarmaq istədikdə Biye Piş hakimi Əhməd xan şaha qarşı çıxmışdı. I Şah Təhmasib Əhməd xanı məğlub etmiş və onun özünü də ələ keçirib İstəxr həbsxanasına saldırmışdır. Şah oğlu Mahmud Mirzəni Gilana yerli hakim təyin edib, bu vilayəti isə türk əmirləri arasında ulkalara bölmüşdü. Şah Məhəmməd Xudabəndə dövründə həbsdən azad edilən Əhməd xan 1590-cı ildə Səfəvi dövlətinin daxili və xarici durumundan istifadə edərək, açıq şəkildə şahlıqdan ayrıldığını elan etmiş, Osmanlı Sultanı ilə danışıqlara başlamışdı. Gilan, Luristan, Mazandaran, Astrabad, Kaşanda baş qaldırmış separatizm də mərkəzləşmə siyasətinin qarşısında ciddi çətinliklər yaradırdı. Elə buna görə də I Şah Abbas bu bölgələrə qoşun yeridib məhəlli əmirliklərini, yerli sülalələri devirib Gilan (1592) və Mazandaranı (1596) xassə əmlakına çevirdi. Şah separatizmin qarşısmı aldıqdan sonra gələcək mərkəzdənqaçma hərəkatlarının qarşısını almaq üçün Gilan, Luristan, Mazandaran, Astrabad, Kaşanın məhəlli əsilzadələ-rinə hakimiyyətdə yer versə də, bu vilayətlərin hamısına yeni hakimlər türk-qızılbaş əmirləri arasından təyin olundular.

Mürşüdqulu xan Ustaclı və Əliqulu xan Şamlının Abbas Mirzə ilə Xorasandan Qəzvinə getməsindən Özbək Abdullah xan istifadə edib, 1587-ci ildə Heratı, ardınca da Məşhədi tutmuşdu. Bu xəbəri alan I Şah Abbas Xorasana hərəkət edir. Bundan istifadə edən Fərhad Paşa Gəncəni (1588), Bağdaddakı Osmanlı valisi Cığılzadə Sinan Paşa isə Nihavəndi (1588) ələ

keçirir. Səfəvi dövlətini şərqdən Özbək, qərbdən isə Osmanlı ordusu sıxışdırırdı. Daxildə isə əmirlər arasında çəkişmələr hələ də gedirdi. I Şah Abbas ölkə daxilindəki dartışmaları aradan qaldırmaq üçün Osmanlı hökuməti ilə barışmağa məcbur oldu. Eyni zamanda Osmanlı dövləti üçün də müharibəni davam etdirməyin bir çox çətinlikləri var idi. Bir tərəfdən uzun sürən müharibələr Osmanlı dövlətində maliyyə çətinlikləri yaratmışdı və digər tərəfdən tutulan torpaqları əldə saxlamaq üçün çoxlu güc tələb olunurdu. Hər iki tərəfin barışığa çox ehtiyacı var idi. İlk addımı I Şah Abbas atdı. O, 1590-cı ildə Həmzə Mirzənin oğlu Heydər Mirzəni İstanbula göndərdi. 1590-cı ildə tərəflər arasında müqavilə imzalandı. Barışığa əsasən məzhəb ayrılığına görə insanlar incidilməməli, Peyğəmbərin xələflərinə qarşı hər cür pis hərəkətə yol verilməməli, 22 mart 1590-cı ilə qədər hər iki tərəfin əllərindəki torpaqlar özlərində qalmalı, sülh əhdnaməsinə ciddi əməl olunmalı idi. Belə ki, Təbriz, Qərbi Azərbaycanın bir sıra bölgələri, Çuxur-Səd, Şirvan, Gürcüstan, Qarabağ və Luristan, Nihavənd, Şəhrizor Osmanlı dövlətinə verildi.

I Şah Abbas dövlətə qarşı baş qaldıran əmirləri sakitləşdirib, Osmanlı dövləti ilə barışıb, özbəkləri Xorasandan uzaqlaşdırdıqdan sonra ölkəni sabitliyə qovuşdurdu. Dövlətin mərkəzini 1598-ci ildə Qəzvindən daha qorxusuz yer olan İsfahana köçürdü. Yeni paytaxtın və onun ətraf bölgələrinin əhalisinin xeyli hissəsini hələ vaxtı ilə I Şah İsmayıl tərəfindən burada dayaq yaratmaq məqsədi ilə köçürülüb yerləşdirilmiş Təklə türkləri təşkil edirdi. I Şah Abbas da bura Təbrizdən xeyli əhali gətirib, onlara Zayəndərud çayının sahilində Təbrizabad (Abbasabad) adlı məhəllə saldırıb, orada məskunlaşdırdı. O cümlədən, I Şah Abbas zamanı Təbrizdən İsfahana 200 sənətkar ailəsi də köçürülmüşdü. Beləliklə, dövlətin yeni mərkəzində türk-qızılbaşlardan özünə güclü dayaq yaradan I Şah Abbas Avropa və Şərq ölkələri ilə əlaqələri artırmaqla, daxildə iqtisadi islahatlar keçirib, ölkədəki geriliyi yavaş-yavaş aradan qaldırdı. O, məmləkətlə yanaşı, onun ordusunu da möhkəmləndirməyə

başladı. I Şah Abbas Səfəvi imperatorluğunu möhkəmləndirməklə osmanlılar tərəfindən tutulan torpaqları geri qaytarmaq flkrində idi. O, eyni zamanda Bəsrə körfəzindən yavaş-yavaş ölkənin içərilərinə doğru irəliləyən Qərb dövlətlərinin işğalçılıq siyasətinin mahiyyətini başa düşür, Səfəvi imperatorluğunu onlara qarşı dura biləcək bir duruma gətirməyə çalışırdı.

Dövləti möhkəmləndirmək üçün imperiya ərazisindəki mərkəzdənqaçma hərəkatlarının qarşısını almaqla paralel, əmirlər arasında davam edən çəkişmələr də aradan qaldırılmalı idi. I Şah Abbas hakimiyyətə gəldiyi gündən idarəçiliyə yeni əmirlər gətirdi. Ancaq onlar da özlərindən əvvəlkilərin yolu ilə getməyə başladılar. Elə buna görə də, onların da çoxu hakimiyyətdən uzaqlaşdırıldı. I Şah Abbas hakimiyyətə keçməsində Mürşüdqulu xana borclu idi. Ancaq 1589-cu ildə onun göstərişi ilə Mürşüdqulu xan öldürüldü. I Şah Abbas nüfuzlu əmirləri aradan götürməklə həm ara çəkişmələrini azaltdı və həm də hakimiyyətini möhkəmləndirdi. Onların yerinə isə daha gənc və az tanınan əmirləri gətirdi. Şah bu gənc əmirlərdə qüsur gördükdə onları da aradan götürdürdü. Ancaq I Şah Abbas həyata keçirdiyi bu cəza tədbirləri ilə hakimiyyətinin möhkəmləndirilməsinə tam müvəffəq ola bilmədi. Ona görə ki, bu zaman Gilanda, Astrabad, Kaşan, Luristanda baş qaldırmış separatizm dövlətin möhkəmləndirilməsi qarşısında ciddi çətinliklər yaradırdı. Elə buna görə də, I Şah Abbas əhalisinin çoxu türk olmayan bu vilayətlərdə məhəlli sülalələri və bir çox senyor mülklərində hakimlərin irsi hüquqlarını ləğv etdi. Hakimiyyətə imperatorluğun tərkibindəki başqa xalqların əsilzadələri, eyni zamanda kiçik yaşından saraya gətirilib burada böyüdülən çərkəz, gürcü qulamları da cəlb olundu. Onların idarəçiliyə gətirilməsi qızılbaşların hakimiyyətdəki mövqeyini azaltmaq məqsədini güdmürdü. Şah Abbas bununla imperatorluğun tərkibindəki başqa xalqların mərkəzdənqaçma meyllərinin qarşısını alırdı. Yeni əsilzadələrin hakimiyyətə gətirilməsi dövlətin

milli mahiyyətini dəyişə bilməzdi. Ona görə ki, I Şah Abbas öz daxili siyasətində dövlətin milli mahiyyətini dəyişmək fikrində olmamış və əslində onun möhkəmləndirilməsi tədbirlərini həyata keçirmişdir. Bu dövləti quran da, yaşadan da türklər idi. Beləki, 1628-ci ildə dövlət quruluşunda müxtəlif vəzifələrdə olan 92 əmirdən 54 nəfəri türk, 15 nəfəri türklüyü qəbul etmiş və türk dilindən savayı ayrı dil bilməyən qulam və qalanı isə qeyri-türklərdən ibarət olmuşdur.

I Şah Abbas hərbi islahatında Osmanlı dövlətinin yeniçəri hərbi institutunu örnək kimi qəbul edərək, qulam, tüfəngçi nizami alaylarını yaratmış və bir qədər sonra isə topçu takımını da təşkil edib, əsgəri təşkilatı təkmilləşdirərək, dövləti hərbi-siyasi baxımdan gücləndirməyə müvəffəq olmuşdur. I Şah Abbasın hərbi islahatları nəticəsində aşağıdakı qoşun növləri yarandı:

1. Qızılbaşlar (Qorçilər) XVII əsr boyu Səfəvi ordusunda üstünlük təşkil etmişlər. I Şah Abbas ordunun bu növünü aradan götürüb onların yerində qulamları yerləşdirmək istəsə də buna nail ola bilməmişdir. Qızılbaşlar türk tayfalarından təşkil olunurdu. Bu hərbi hissəyə hər tayfanın içərisindən başçı seçilirdi.

2. Qulamlar öz valideynləri və dini ilə əlaqəsini itir-miş şah sarayında tərbiyə almış gürcü, çərkəz mənşəli gənclərdən təşkil olunmuşdu. Osmanlı yeniçərilərinə bənzər nizami hərbi hissə idi. Qulamların başında qullarağası dururdu.

3. Tüfəngçilər. Bu qoşun növünə müxtəlif vilayət-lərdən çağrılan əhalinin aşağı təbəqəsi cəlb olunurdu. Tüfəngçilər şaha məxsus qoşun növü idi. Tüfəngçilərə digər xalqların nümayəndələri cəlb olunsa da əsas hissəsini azərbaycan türkləri təşkil edirdi.

4. Topçular. Səfəvi ordusunda topdan əsasən düşmənin möhkəmləndirilmiş mövqeyinə zərbə vurmaq və qala mühasirəsi zamanı istifadə edilirdi.

I Şah Abbasın dövründə daimi nizami hissələr yaradıldı, odlu silahdan geniş istifadə edildi.

Beləliklə, I Şah Abbas islahatlaı və daxili siyasətindəki uğurları sayəsində bir tərəfdən bürokratik dövlət aparatını genişləndirmiş, digər tərəfdən mərkəzi hakimiyyəti möhkəmləndirməyə müvəffəq olmuş və onun türk əmirlərindən ibarət olan mərkəzi və yerli idarələrə qeyri-türk elementlərini də qismən cəlb etməsi dövlətin cənub, cənub-şərq bölgələrindəki mərkəzdənqaçma hərəkatlarının qarşısının alınması işinə xidmət etmişdir. Ölkə miqyasında mərkəzdənqaçma hallarının, əmirlər arasındakı çəkişmələrin qismən aradan qaldırılması iqtisadiyyatın təkamülünə, məhsuldar qüvvələrin inkişafına müsbət təsirlər göstərmişdir. Daxili və xarici ticarətin inkişafında şahın karvan yollarını abadlaşdırması, yolboyu karvansaralar inşa etdirməsi, yollardakı təhlükəsizlik tədbirləri də az rol oynamamışdır.

I Şah Abbasın vergi islahatı, yəni ayrı-ayrı bölgələr, şəhərlər üzrə vergilərin azaldılması, yaxud müəyyən müddət ərzində ləğvi ölkənin iqtisadi həyatındakı geriliyin aradan qaldırılması və dövlət büdcəsinin gəlir qaynaqlarının bərpası ilə bağlı olub, itirilmiş torpaqların geri qaytarılması, mərkəzləşdirmə siyasətinin uğurla həyata keçirilməsi, dövlətin hərbi-siyasi qüdrətinin artırılması işinə xidmət edirdi. Şahın fərmanı ilə 1598-1599-cu ildə Əcəm İraqında heyvandarlıq təsərrüfatından alınan çobanbəyi vergisi ləğv edildi, bəzi vergilər isə azaldıldı. İsfahan şəhəri və mahalı qeyd olunan fərman əsasında bir il müddətində və 1613-cü ildə isə üç il ərzində bütün vergilərdən azad edildi. Artıq burada göstərilən zaman kəsiklərində divan və xassə torpaqlarındakı icarədarlar da icarə haqqını ödəməkdən azad idilər. Ölkənin şimal-qərb torpaqları osmanlılardan geri alındıqdan sonra vergi imunitetləri bu bölgələrə də aid edilirdi. Belə ki, Ordubad, Dərbənd və 1615-ci ildə Təbriz şəhər əhalisi mal-xərac vergisindən azad olundular. Bu, zaman Təbrizdə garuğəgi və ehdas vergisi də ləğv edilir. I

Şah Abbasın vergi islahatına uyğun olaraq bu tədbirlərin bütün ölkə miqyasında həyata keçirilməsi az vaxtda iqtisadiyyatın bərpasına qismən də olsa, zəmin yarada bilmişdi.

I Şah Abbasın dövründə sikkələr qızıl, gümüş, misdən ibarət olub, qızıl sikkə ancaq yeni şah hakimiyyətə keçdikdə zərb edilir və bu sikkələr dövriyyəyə az buraxılır, alqı-satqıda ondan çox nadir hallarda istifadə olunurdu. I Şah Abbas dövründə qızıldan zərb olunmuş sikkələrin vəzni də dəqiq məlum deyildi. Bu zaman dövriyyədə I Şah Abbasın sikkə islahatı və fərmanı əsasında abbası adı ilə gümüşdən zərb edilən sikkələr üstünlük təşkil edirdi. Abbasının rəsmi çəkisi bir misqal, yəni 4,64 qram idi. Sikkələrin dinarla dəyərinə gəldikdə isə 1 abbası 200, 1 şahı 50, 1 bisti 20, 1 kasbeki 5 dinar olub, 1 tümən isə 10000 dinara, yaxud 50 abbasıya bərabər idi.

## § 4. 4. I Şah Abbasın dövründə işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi

XVI əsrin 80-ci illərində osmanlılar tərəfindən Azərbaycanın işğal edilməsi əhalinin vəziyyətini daha da ağırlaşdırdı. Təbriz, Şirvan, Qarabağ və Gəncədə əhalinin osmanlılara qarşı mübarizəsi davam etsə də şəhərlərini və ərazilərini qorumaqda axıra qədər davam gətirə bilmirdilər. Onların bir hissəsi doğma yerlərini tərk edib ölkənin başqa yerlərinə getmək məcburiyyətində qalırdılar. 1588-ci ildə Gəncə və Qarabağdan sıxışdırılan qacar və digər qızılbaş tayfaları öz ərazilərini qaytarmaq uğrunda gərgin mübarizə aparırdılar. Səfəvi-Osmanlı sülh danışıqlarının aparıldığı dövrdə onlar Gəncə və Qarabağı mühasirədə saxlayaraq mübarizəni davam etdirirdilər. Osmanlıların I Şah Abbasa dəfələrlə təkid etməsindən sonra şahın Məhəmməd xan Ziyad oğlu Qacara müraciəti ilə Qacarlar Qarabağın mühasirəsini dayandırdılar. Beləliklə, əhalinin vəziyyətinin getdikcə pisləşməsi, özbaşınalığın artması, dağıntılar,

iqtisadi böhran Aərbaycanda əhalinin osmanlı işğalına qarşı mübarizəsini daha da artırırdı.

**Cəlalilər hərəkatı.** Tarixdə "Cəlalilər hərəkatı" kimi tanınmış, XVII əsrin 20-ci illərinə qədər fasilələrlə davam etmiş kütləvi üsyanların kökləri XVI əsrin əvvəllərinə gedib çıxır. Bu üsyanın ilk əlamətləri hələ II Bəyazidin dövründə Həmid və Təklə bölgələrində başlamışdı. Şeyx Cəlal "Mehdilik" adı altında Toqat ətrafında üsyan qaldırdıqdan sonra üsyançılar cəlalilər adlanmağa başladılar. 1519-cu ildə Şeyx Cəlalın başçılığı ilə başlanmış üsyan Osmanlı imperiyasını sarsıtsa da Sultan I Səlim tərəfindən yatırıldı. Şeyx Cəlal ələ keçirilərək edam edildi. Şeyx Cəlal üsyanı yatırıldıqdan sonra bu üsyan haqqında xalq kütlələri arasında əfsanələr yaradıldı və bundan sonra "Cəlal" adı hakimiyyətdən narazı olan bütün şəxslərə, üsyan iştirakçılarına aid edildi. 1526-1529-cu illərdə Kilikiya-Toqat ərazilərində üsyanlar baş verdi.

1529-cu ildə Adanada baş verən üsyan da yatırıldı. Osmanlı imperiyasında XVI əsrin birinci yarısında baş verən üsyanlarda müxtəlif sosial təbəqələr və kütlələr iştirak etmişdir.

1558-ci ildə Sultan Süleymanın oğlanları — Şahzadə Səlimlə Şahzadə Bəyazid arasında taxt-tac uğrunda mübarizədən narazı olan torpaq sahibləri hakimiyyətə Bəyazidi gətirmək üçün sultanın müdafiə etdiyi Şahzadə Səlimə qarşı mübarizəyə qoşuldular.

1559-cu ildə Bəyazid məğlub olduqdan sonra onların əksəriyyəti narazı tələbə qüvvələri ilə birləşərək hakimiyyətə qarşı açıq fəaliyyətə keçdilər. 1564-cü ildə tələbə iğtişaşlarının yeni mərhələsi başlamış və bu narazılıq geniş ərazilərə yayılaraq XVI əsrin ikinci yarısı boyu davam etmişdir.

XVI əsrin sonlarında Osmanlı imperiyasının Avropa dövlətləri və səfəvilərlə uzun sürən müharibələri xalqın vəziyyətini xeyli ağırlaşdırmış, iqtisadi böhrana yol açmış, bazarlarda qiymətlərin artmasına, vergilərin ağırlaşmasına, məmurların özbaşınalığına səbəb olmuşdu. Cəmiyyətdə baş verən ictimai-

iqtisadi vəziyyət Cəlalilər hərəkatının genişlənməsinə şərait yaratmışdır. Belə bir vəziyyətdə Cəlalilər hərəkatına nəinki zəhmətkeş kütlələrin nümayəndələri, həmçinin hakimiyyətdən narazı torpaq sahibləri, sipahilər və hətta bəzən əyalət başçıları da qoşuldular. Ona görə də "Cəlalilər hərəkatı" sarayda, hökumət dairələrində və əhali arasında baş vermiş böhrana və özbaşınılığa qarşı çevrilmiş bir hərəkat olmuşdusa da, digər tərəfdən bu hərəkata qarətçilik və özbaşınalıqla məşğul olan qüvvələr də qoşulmuşdular.

XVII əsrin əvvəllərində I Şah Abbasın osmanlılara qarşı hərbi əməliyyatlara yenidən başlaması hərəkatın Azərbaycanda da geniş yayılmasına şərait yaratdı. Osmanlılara qarşı müharibənin gedişində I Şah Abbas Cəlalilər hərəkatının iştirakçısı olan ayrı-ayrı dəstə başçılarını rəsmi qaydada səfəvi qızılbaş ordusunun tərkibinə daxil etdiyi üçün Azərbaycan torpaqlarının osmanlı işğalından azad edilməsində ayrı-ayrı Cəlali dəstələri iştirak etdilər.

Cəlalilər hərəkatı İstanbulun ətraflarından İrəvan şəhərinə, Bağdaddan Dərbəndə, Aralıq dənizindən Qara dənizə qədər ərazilərə yayılmışdı. Urfalı Qara Yazıçı (Əbdülhəlim), qardaşı Dəli Həsən, amasiyalı Dəli Zülfüqar, malatyalı Qaraqaş Əhməd, ankaralı Qələndəroğlu Mehmet, Gavur Murad, Təkəli Mehmet, toqatlı Ağactanpiri, sivaşlı Səid, adanalı Sevindik, bağdadlı Uzun Xəlil, Qalındodaq Mahmud, İrəvan, Naxçıvan və Salmas-Xoy bölgələrində Kənəkirli Məhəmməd, Koroğlu, Giziroğlu Mustafa bəy və s. kimi cəlali rəhbərləri daha çox məşhur idilər.

1590-cı ildə Osmanlı-Səfəvi sülh müqaviləsindən sonra Osmanlı imperiyasının tərkibinə qatılmış Azərbaycan torpaqlarında işğalçı hakimiyyət orqanlarına qarşı üsyanlar "Cəlalilər hərəkatı" adı ilə tanınırdılar. 1591-ci ildə Təbriz şəhərində əhalinin Osmanlı hakimiyyətinə qarşı baş vermiş üsyanı da Cəlalilər hərəkatının təzahürü idi.

I Şah Abbas cəlalilərin qüvvəsindən həm itaətdən boyun qaçıran kürd əmirlərinə, həm də osmanlılara qarşı müharibədə istifadə etmək istəyirdi. O bu məqsədlə cəlalilərin yanına Hətəm bəy Ordubadini göndərdi. Hətəm bəy Ordubadi Təbrizə gələrək cəlali başçıları ilə görüşdü. Görüşdən məqsəd 10 min cəlalinin ehtiyaclarını təmin edib qeydiyyatlarını aparmaqla yerləşdirmək və cəlali dəstələrinin hər birini nəzarətdə saxlamaq idi. Cəlalilərin bir hissəsi İsfahana gəldikdə I Şah Abbas onları qəbul etmişdi. Şah sarayının planlarına əsasən cəlalilər Həsən Ustaclı başda olmaqla səfəvi qoşunları ilə birləşərək Marağadan hərbi yürüşə başlayıb Kürdüstanı ələ keçirməli və osmanlıların nəzarətində olan ərazilərə daxil olaraq Diyarbəkiri tutmalı idilər.

I Şah Abbas eyni zamanda cəlalilərə etibar etmir, onları nəzarətdə saxlayırdı. Təsadüfi deyil ki, ili illədək I Şah Abbasa xidmət edən Anadolu cəlaliləri hökmdarın münasibətlərindən narazı qalaraq 1610-cu ilin ortalarında Osmanlı dövlətinə qayıtdılar.

Cəlalilər hərəkatının rəhbərləri arasında Koroğlu xüsusilə seçilirdi. Mənbələrdə Koroğlunun Bolu sancağına bağlı Gerede mahalının Sayik kəndindən olduğu bildirilir. 1578-ci ildə Səfəvi dövlətinə qarşı müharibə davam etdiyi şəraitdə Koroğlu fəaliyyətini genişləndirmiş, osmanlı ordusu səfəvilərlə müharibəyə cəlb olunduğu üçün onun ələ keçirilməsi uğursuz olmuşdur. Lakin o müxtəlif istiqamətlərdən sıxışdırıldığına görə Bolu ətrafından çəkilərək Sivaş-Toqat karvan yolu üzərində yerləşən Çənlibelə gəlmişdi. Çənlibel Koroğlunun əsas istinadgahı olmuşdur. Şərqi Anadolu və Azərbaycanın qərb bölgəsində Çənlibel adlı qalalar var. Koroğlu Çənlibeldə də sıxışdırıldığı zaman Azərbaycana gələrək I Şah Abbasın xidmətinə girmiş və qızılbaş əsgərləri ilə birlikdə osmanlılara qarşı döyüşlərdə iştirak etmişdir. Lakin digər cəlali rəhbərləri kimi Koroğlunun da münasibətləri sabit olmamışdır. Səfəvi-Osmanlı müharibəsinin başa çatması, Azərbaycan torpaqlarının işğaldan

azad edilməsindən sonra cəlalilər hərəkatının digər hissələri kimi Koroğlunun da fəaliyyəti I Şah Abbası narahat edirdi. Digər cəlali dəstələri kimi Koroğlunun rəhbərlik etdiyi hərəkat məğlubiyyətə uğrasa da yadelli işğalçılara, feodal zülmünə və hər cür ədalətsizliyə qarşı mübarizliyi Koroğluya xalq kütlələri arasında sonsuz hörmət və sevgi qazandırmışdı.

Cəlalilər hərəkatının son mərhələsi (1626-1629) Abaza paşanın adı ilə bağlı olmuşdur. "Abaza paşa" kimi tanınmış Ərzurum bəylərbəyi Məhəmməd paşa Sultan Osmanın qardaşı Sultam Muradı səltənət taxtına gətirmək və yeniçərilərdən intiqam almaq üçün Şərqi Anadoludakı cəlali dəstələrini də öz ətrafında birləşdirib mübarizəyə başladı. Abaza paşa ilə I Şah Abbasın münasibətlərinə gəlincə, Abaza paşa iki dəfə şah ilə münasibətlər yaratmağa təşəbbüs göstərsə də, I Şah Abbas ona etibar etmədiyinə görə uğursuz olmuşdu .

Məlum olduğu kimi Osmanlı Sultanının qoşunları tərəfindən məğlub edilən cəlalilərin bir hissəsi Səfəvi hökmdarı I Şah Abbasın himayəsinə sığınmışdı. Belə bir şəraitdə Azərbaycan xalqının azadlıq mübarizəsi Osmanlı imperiyası daxilində baş verən xalq hərəkatı ilə üzvi şəkildə birləşirdi. Hərəkat daxilində müxtəlif zümrələr iştirak etdiyinə görə onların öz daxilində müxtəlif ixtilaflar baş verirdi və bu ixtilaflardan həm Osmanlı sarayı, həm də Səfəvi hökmdarı istifadə etməyə çalışırdılar. Hadisələrin təhlili göstərir ki, Şərqi Anadolunun tarixi Azərbaycan torpaqları olması Azərbaycanı cəlalilər hərəkatının əsas mərkəzi hesab etməyə əsas verir.

Azərbaycan Səfəvi dövlətində I Şah Abbasın mərkəzi hakimiyyəti möhkəmləndirməsi və işğal altında qalmış torpaqları azad etməsindən sonra Azərbaycanda cəlalilərin geniş fəaliyyət göstərməsi üçün heç bir zəmin olmadığına görə onların fəaliyyəti başa çatmışdır.

I Şah Abbas daxili çəkişmələrə son qoyub dövlət hakimiyyətini möhkəmləndirdikdən sonra, əvvəlcə Xorasanın özbək xanlarından geri qaytarılmasını qərara aldı. Ona görə ki,

Xorasanda Abdullah xan tərəfindən tutulan torpaqların geri qaytarılması və burada dövlətin sərhədlərinin qəti möhkəmləndirilməsi üçün əlverişli vəziyyət yaranmışdı. Belə ki, Xorasanda, Mavərəünnəhrdə, Xarəzmdə özbək tayfa başçıları arasında çəkişmələrin genişlənməsi, bu zaman Abdullah xanın və onun vəliəhdi Əbdülmömin xanın ölümündən bacarıqla istifadə edən I Şah Abbas 1598-ci ildə Herat savaşında Div Məhəmməd xanı məğlub etdi. Bu savaşda 4000 nəfərdən çox özbək döyüşçüsü və Div Məhəmməd xan da öldürüldü. Nəticədə Nişapur, Məşhəd, Herat, Mərv daxil olmaqla, bütün Xorasan özbəklərdən geri alındı. Səfəvi imperatorluğunun sərhədləri yenə Ceyhun çayına çatdı. Beləliklə, I Şah Abbas dövlətin şərq sərhədlərinin təhlükəsizliyini gücləndirib, Osmanlı dövlətinə qarşı müharibədə itirilmiş torpaqları geri almaq üçün ciddi şəkildə hazırlaşmaq imkanı əldə edir.

I Şah Abbas ciddi hərbi hazırlıqdan sonra Osmanlılar tərəfindən tutulmuş torpaqları geri qaytarmaq üçün 14 sentyabr 1603-cü ildə Təbrizə doğru hərəkət etdi. Yolda Əmirgünə xan Qacarın Qəzvin və Zülfüqar xan Qaramanlının Ərdəbil alayları da onunla birləşdilər. Onlar on dörd günə Təbriz qala qapılarına çatdılar. Qızılbaş ordusunun yaxınlaşdığını görən Təbriz və onun ətraf əhalisi osmanlılara qarşı çıxışlara başladılar. 21 oktyabr 1603-cü ildə I Şah Abbas Təbrizi tutdu. Təbriz tutulduqdan sonra qərbə doğru hərəkət edən I Şah Abbas Əli Paşanın başçılıq etdiyi Təbriz qarnizonunu dağıtdı. Əli Paşa əsir götürüldü.

Təbriz qaytarıldıqdan sonra Zülfüqar xan Qaramanlı Azərbaycana bəylərbəyi təyin olundu. Amma bir qədər sonra şah onun yerinə türkman tayfalarının başçısı Pirbudaq xan Pornaqı təyin etdi.

Qızılbaşlar tərəfindən Culfa və Naxçıvan döyüşsüz tutuldu. Şəhərdəki Osmanlı qarnizonu müqavimət göstərməyib təslim oldu. Maku hakimi Mustafa bəy şahın düşərgəsinə gəlib ona xidmət edəcəyini bildirdi. Qızılbaş ordusunun gəlişindən

xəbər tutan Ordubad əhalisi Osmanlılara qarşı üsyan qaldırdı. Ona görə də şəhər osmanlılar tərəfindən dağıdıldl. Ordubad əhalinin köməyi ilə ələ keçirildi. Ordubadın əhalisinə və iqtisadiyyatına ciddi zərər dəydiyi üçün baş vəzir Hətəm bəy Ordubadinin təklifi ilə ordubadlıların dövlət vergilərindən azad edilməsi haqqında şah fərman verdi.

I Şah Abbas Culfa və Naxçıvan ələ keçiriləndən sonra İrəvan qalasını tutmaq haqqında göstəriş verdi. Qızılbaşlar İrəvanda osmanlıların çox böyük müqaviməti ilə qarşılaş-dılar. Mühasirə 1603-cü il oktyabrın 18-dən 1604-cü iyun ayının 8-nə qədər davam etdi. İrəvan qalasının alınmasında Culfa və Naxçıvan əhalisinin gücündən də istifadə olundu. Çox çətinliklə İrəvan qalası ələ keçirildi. Osmanlı sərkərdələri Şərif paşa və Xızır paşa əsir alındı. Şah onların hər ikisini sərbəst buraxdı. Şərif paşa Osmanlı dövlətinə qayıtmadı, Xızır paşa isə öz ölkəsinə qayıtdi. Şah Çuxur-Sədə Əmirgünə xan Qacarı hakim təyin etdi. Maqsud Sultan Kəngərli Haxçıvana hakim təyin edildi.

İrəvan qalası alındıqdan sonra Səfəvi ordusu Van üzərinə yürüş edərək çoxlu qənimət ələ keçirərək bölgənin əhalisinin çoxunu Səfəvi dövlətinin ərazilərinə köçürdü. Cığaloğlu Sinan paşanın komandanlığı ilə Osmanlı ordusunun yürüşü ilə əlaqədar qızılbaşlar Qars ərazisindən geri çəkildilər.

I Şah Abbas Sinan paşanın rəhbərliyi ilə Osmanlı ordusunun Azərbaycana yütüşü ilə əlaqədar I Şah Təhmasib dövründə tətbiq olunan “yandırılmış torpaq” taktikasından istifadə edərək Naxçıvan, İrəvan, Culfa və Arazın sol sahilindəki digər ərazilərdə yaşayan əhalini ölkənin daxili vilayətlərinə köçürdü, ərzaq və ələf nə varsa götürüldü, qala isə məhv edilib yandırıldı. I Şah Abbasın bu siyasəti həmin ərazilərdə əhalinin sayının kəskin azalmasına səbəb oldu.

I Şah Abbas hərbi-siyasi tədbir kimi görünən bu siyasəti ilə həm də İsfahan, Mazandaran və digər bölgələrin məhsuldar qüvvələrini inkişaf etdirmək, Osmanlı təhlükəsi ilə əlaqədar

Avropaya gedən tranzit ticarət yolunun istiqamətini Cənuba — Fars körfəzinə keçirməyi nəzərdə tuturdu.

I Şah Abbasın bu siyasəti öz nəticəsini göstərdi. Sinan paşanın rəhbərliyi ilə Osmanlı ordusu İrəvana qədər irəliləsə də ərzaq və ələf çatışmamazlığı nəticəsində geri dönüb qışlamaq üçün Vana qayıtmağa məcbur oldu.

Allahverdi xanın başçılığı ilə Vana göndərilən qızılbaş ordusu osmanlıları məğlubiyyətə uğratdı. Sinan paşa Ərzuruma doğru geri çəkildi.

1605-ci ilin may ayında Sinan paşanın böyük ordu ilə gəldiyini eşidən Şah Səlbasdan Təbrizə qədər olan ərazidə əhalini köçürüb, ərzaq ehtiyatını məhv etdi. Osmanlı ordusu ilə qızılbaşlar arasında Təbrizin 6 fərsəxliyində – Sufiyanda 1605-ci il noyabrın 7-də baş vermiş döyüşdə Sinan paşanın ordusu ağır məğlubiyyətə uğradı.

I Şah Abbas Sinan paşanı məğlubiyyətə uğradandan sonra 1605-1606-ci ilin qışında Qarabağa daxil oldu. Gəncə mühasirəyə alındı. Gəncədə yerləşən Osmanlı qarnizonu təslim olmadı. Mühasirə 4 ay davam etdi. 1606-ci il iyunun 5-də Gəncə osmanlılardan azad edildi. Qarabağ hakimi vəzifəsinə Məhəmməd Ziyadoğlu Qacar təyin edildi.

Gəncə alındıqdan sonra Lori, Tiflis və Dmanis qala-larında yerləşən Osmanlı qarnizonları müqavimət göstər-mədən təslim oldular. I Şah Abbas Dərbəndi və Şamaxını tutmaqla Qafqazda möhkəmlənmək istəyirdi. Kəffədən Şəmsəddin paşanın başçılığı ilə Şamaxıya əlavə qüvvələrin gəlməsi Şamaxıda Osmanlı qarnizonunun mövqeyini möhkəmləndirdi. Osmanlı ordusunun Qafqaza və Krım xanının qoşunla şimal istiqamətindən Şirvan ərazisinə gələcəyi haqqında xəbərlər osmanlı qarnizonunu ruhlandırdı və onlar Şamaxıdan çıxmadılar. Osmanlının Şirvan hakimi Əhməd paşa I Şah Abbasın təslim olmaq haqqında təklifini qəbul etmədi. Səfəvi ordusu 1607-ci il yanvarın 9-da Şamaxıya çatdı. Ərzaq çatışmamazlığı və güclü yağışlar nəticəsində hücum əməliyyatı üç ay gecikdi.

Səfəvilərin Şamaxıya çatması xəbəri Bakıda Osman-lılara qarşı üsyan başlamasına səbəb oldu. 1607-ci ilin yanvarında başlanan üsyana şəhər əyanları rəhbərlik edirdilər. Üsyançılar Osmanlı qarnizonunu məğlub edərək şəhəri ələ keçirdilər. Dərbənddə də Osmanlılara qarşı üsyan başladı. 1607-ci ilin fevral-mart aylarını əhatə edən üsyan nəticəsində Osmanlı qarnizonu I Şah Abbasın təslim olma tələbini qəbul etdi. 1607-ci il martın əvvəllərində yerli əhalinin və şah qoşununun birgə səyi nəticəsində Dərbənddə osmanlı hakimiyyətinə son qoyuldu. Dərbəndin əhalisi şah fərmanı ilə dövlət vergilərindən azad edildi. Çıraq Sultan Ustaclı Dərbəndin hakimi təyin edildi.

Şamaxının mühasirəsi davam edirdi. Nəhayət Zülfüqar xanın qoşunu qala bürcünü dağıdandan sonra şəhərə daxil ola bildilər. Bir həftə davam edən qanlı vuruşma nəticəsində osmanlı qarnizonu məğlub edildi. 1607-ci il iyunun 27-də təslim oldular. Zülfüqar xan Qaramanlı Şirvanın hakimi təyin edildi.

I Şah Abbas Ərdəbildən Təbrizə qayıtdı. O, osmanlılarla sülh bağlanılmasına çalışdı. Səfəvi ordusu dörd il davam edən hərbi əməliyyat nəticəsində Azərbaycanın Osmanlılar tərəfindən tutulmuş bütün torpaqlarını azad etmişdi. Şah əldə olunan qələbəni qoruyub saxlamaq üçün 1555-ci il Amasiya sülh müqaviləsinin şərtləri daxilində Osmanlı dövlətinə barış təklif edirdi. Osmanlı dövləti isə Azərbaycan torpaqlarının itirilməsi ilə razılaşmır, 1590-cı ildə bağlanmış İstanbul sülhünün şərtlərini bərpa etmək istəyirdi. Ona görə də hərbi əməliyyatlar 1610-cu ilin aprel ayında baş vəzir Murad paşanın Azərbaycana hücumu ilə yenidən başladı. Osmanlı ordusu Təbrizə qədər irəliləyərək Təbriz şəhərini ələ keçirdilər. Lakin, 5 gündən sonra Murad paşa Səfəvilərin hücumundan ehtiyat edərək Vana doğru geri çəkildi. Murad paşa I Şah Abbasa III Murad dövrü sərhədlərinin bərpası şərti ilə sülh təklif etsə də Səfəvi elçisi Sultan Süleyman Qanuni dövründə bağlanmış Amasiya sülhünün şərtlərinin əsas götürülməsini istədi. 1610-cu il noyabrın 16-da Təbrizin şimalında Acı çayın sahilində

Osmanlı və Səfəvi ordusu 5 gün qarşı-qarşıya dayanaraq gözləmə mövqeyi tutduqdan sonra Osmanlılar geri çəkildilər. Murad paşa sülh bağlamaq üçün vasitəçi olacağını bildirdi. Hər iki tərəf ilk addım kimi əsirləri azad etdilər.

1611-ci ilin avqust ayında Murad paşanın ölümü sülh müqaviləsi bağlanmasını təxirə saldı. Baş vəzir təyin olunan Nasuh paşa I Şah Abbasın sülh təşəbbüsünü müsbət qarşıladı. Aparılan danışıqlar nəticəsində Sərab şəhərində 1555-ci il sülhünün bərpa edilməsi qərara alındı. Lakin Osmanlı tərəfi bir sıra yeni şərtlər irəli sürdü. 1612-ci il sentyabrın 27-də İstanbula gələn Səfəvi elçisi oktyabrın 17-də I Sultan Əhməd tərəfindən qəbul edildi. 1612-ci il noyabrın 20-də İstanbulda Səfəvi-Osmanlı sülhü bağlandı. Sülh müqaviləsinə görə 1555-ci il Amasiya sülhünün müəyyən etdiyi sərhədlər qəbul edildi.

Osmanlı dövlətinin irəli sürdüyü şərtlər əsasında I Şah Abbas hər il 200 tay ipək xərac verməyi; rusların Terek çayı sahilində tikdikləri qalanı dağıtmaq və onları uzaqlaşdırmaq üçün osmanlılar tərəfindən təşkil olunan yürüşə mane olmayacağını öhdəsinə götürdü. Bundan başqa Səfəvilər söz verirdilər ki, İraq sərhəddində osmanlılara qarşı qiyam qaldıran bəylərə yardım etməyəcək, Dağıstan Şamxalı başda olmaqla buradakı Osmanlı hakimiyyəti tanınacaq. Həmçinin müqavilədə göstərilirdi ki, Səfəvilər dövlətində şiələr sünni böyüklərinə küfr etməyəcək, Səfəvi ölkəsindən olan hacılar Həccə Bağdad və Bəsrə yolu ilə deyil, Hələb-Şam yolu ilə qedib gələcəklər.

İstanbul sülh müqaviləsində ilk dəfə idi ki, tərəflər arasında "Şimali Qafqaz məsələsi" öz əksini tapmışdı. Həmçinin 1555-ci il sülhünə görə şərqi Mesxeti və Axalsık Səfəvi dövlətində qalsa da İstanbul sülhü bağlanan zaman Osmanlı dövlətinin nəzarətində qalmışdı. Bu müqaviləyə görə Şəhrizor, Kürdüstanın bir hissəsi, Bağdad əyalətinin müəyyən hissəsi də Osmanlı dövlətinə verildi. Ona görə də I şah Abbas 1555-ci il Amasya sülh müqaviləsini tam bərpa etmədiyi üçün sülhün şərtlərindən tam razı deyildi.

I Şah Abbas 1613-cü ilin oktyabr ayında Azərbaycanın şimal vilayətlərinə və Gürcüstana yürüş etdi. Səfəvi dövlətinin Cənubi Qafqazda möhkəmlənməsi Osmanlı sarayında narahatlıq yaratdı. I Şah Abbasın İstabul müqaviləsindəki öhdəliyə görə osmanlılara verməli olduğu 200 tay ipəyi göndərməməsi də Səfəvi-Osmanlı münasibətlərini gərginləşdirdi. Şah tərəfindən Səfəvi dövləti ilə danışıqlara gələn Osmanlı elçisinin iki ilə yaxın saxlanılması və geri qayıtmağına icazə verilməməsi də osmanlılarla münasibətə mənfi təsir göstərdi.

I Şah Abbas sülhün pozulmasının qarşısını almaq üçün hədiyyələrlə öz elçisini I Sultan Əhmədin yanına göndərdi. Lakin Osmanlı sultanı müharibəyə başlamaq haqqında qərar verdi. I Şah Abbas Qasım xanla 200 tay ipəyi Osmanlı sarayına göndərsə də sultan qərarını dəyişmədi. Növbəti dəfə göndərilən Səfəvi elçisi həbs edilib zindana salındı. Beləliklə, 1616-cı ilin aprelində baş vəzir Qara Mehmet paşanın rəhbəriyi ilə Osmanlı ordusu Ərzurumdan yürüşə başladı. 1616-ci ilin avqust ayında İrəvan qalası yüz minlik Osmanlı ordusu ilə mühasirəyə alındı. I Şah Abbas osmanlılarla həlledici döyüşə girmədi. Osmanlı ordusuna ərzaq gətirilməsinə mane olmağı, geriyə yolunu bağlamağı, mühasirəyə alaraq qəfil hücumlarla zərbə vurmağı qərara aldı. Mühasirənin uzanması, Osmanlı ordusunun ərzaq və sursat sarıdan çətinlik çəkməsi, qışın sərt keçməsi Mehmet paşanı I Şah Abbasın yanına elçi göndərməyə məcbur etdi. Noyabrın 5-də mühasirə dayandırıldı, osmanlılar geri çəkilərkən çoxlu itki verdilər.

1617-ci il iyunun 15-də baş vəzir Xəlil Paşanın başçılğı ilə yeni yürüş başlandı. "Ərdəbil-Səfəri" adı ilə tarixə düşən bu yürüşdə Krım xanı Cani bəy Gəray 15 minlik ordusu ilə şimali Qafqazdan Azərbaycana soxuldu, Gəncə, Naxçıvan və Culfanı talayaraq Xəlil paşanın qüvvələri iə birləşdi. I Şah Abbas Təbriz və Ərdəbil şəhərlərindən əhalini çıxartdı, ərzaq ehtiyatarını daşıtdı. Səfəvilərlə osmanlılar arasında döyüş 1618-ci il sentyabr ayının 10-da Sərab vilayətində baş verdi. Osmanlılar

15 min əsgər itki verərək ağır məğlubuyyətə uğradılar. Döyüşdə üç Osmanlı bəylərbəyi öldürüldü, ikisi isə əsir götürüldü. Sərab yaxınlığındakı məğlubiyyətdən sonra Xəlil paşa sülh danışıqlarına başlamağa razılıq verdi. 1618-ci il sentyabrın 26-da Xəlil paşa ilə I Şah Abbas arasında Mərənddə sülh müqaviləsi imzalandı. Mərənd sülhünün İstanbul sülhündən əsas fərqi Səfəvilərin ildə verəcəyi 200 tay ipək bacın 100 taya endirilməsi idi.

## § 4.5. XVII əsrin 20-30-cu illərində Səfəvi-Osmanlı münasibətləri

Mərənd sülhünün bağlanmasından sonra tərəflər arasında sülhün və dostluğun davam etdirilməsi məzmununda məktublaşmalar olsa da, 1622-ci il mayın 19-da Sultan Osmanın öldürülməsi və mərkəzi hakimiyyətin zəifləməsindən istifadə edərək I Şah Abbas Ərəb İraqında möhkəmlənməyə çalışdı. Belə bir şəraitdə Osmanlının Bağdad bəylərbəyi Yusif paşa ilə sərhəddəki Osmanlı qoşunlarının başçısı Bəkir Subaşı arasında ədavət zəminində toqquşmanın olması və bəylərbəyinin öldürüməsi Bağdadda qeyri-sabitlik yaratdı. Bundan istifadə edən I Şah Abbas Qarçuqay xanın başçılığı ilə Bağdada qoşun göndərdi. Üç aylıq mühasirədən sonra 1624-cü il yanvarın 14-də Bağdad şəhəri təslim oldu. I Şah Abbas Səfiqulu xanı Bağdad hakimi təyin etdi. Səfəvi ordusu tərəfindən Kərbəla, Nəcəf, Mosul, Kərkük şəhərləri ələ keçirildi. Eyni zamanda Çuxursəd bəylərbəyi Əmirgünə xan Qacar osmanlıların tabeliyində olan Axıskanı ələ keçirdi.

Səfəvilərin bu uğurları ilə barışmayan IV Murad (1623-1640) Hafiz Əhməd paşanı Diyarbəkirə hakim təyin edərək Səfəvilər tərəfindən ələ keçirilmiş ərazilərin geri qaytarılması haqqında tapşırıq verdi.

Bu zaman Georgi Saakadzenin (“Böyük Murov bəy”) rəhbərliyi ilə gürcülərin Səfəvi hakimiyyətinə qarşı silahlı

üsyan qaldırması çox mühüm hadisə idi. Üsyançılar I Şah Abbas tərəfindən göndərilmiş qoşun hissəsini məğlubiyyətə uğratdılar, Səfəvi ordusunun baş komandanı Qarçuqay xan və Şirvan bəylərbəyi Yusif xan üsyançılar tərəfindən öldürüldü. Georgi Saakadzenin rəhbəriyi ilə üsyançılar Gəncə bəylərbəyi ərazisinə yürüş edərək qarət və talanlar törətdilər. 1625-ci il iyun ayının 30-da İsa xan Qorçibaşının komandanlığı ilə Səfəvi ordusu Gümüşlü adlanan yaşayış yerində gürcülər üzərində qələbə çaldı.

Eyni zamanda Azərbaycanın cənub-qərbində kürdlər də Səfəvilərə qarşı üsyan qaldırdılar (1624-1626). Şah qoşunları tərəfindən üsyan yatırıldı. I Şah Abbas müharibələrdəki uğurları ilə bərabər asılı bölgələrdə mərkəzdənqaçma hallarının da qarşısını alaraq Səfəvi dövlətini daha da möhkəmləndirdi.

1625-ci il noyabrın 13-də Osmanlı ordusu tərəfindən Bağdad mühasirəyə alındı. Lakin yeniçərilər üsyan qaldırdıqlarına görə baş vəzir Hafiz Əhməd Paşa Bağdadın 8 aylıq mühasirəsindən sonra 1626-cı ilin iyununda mühasirəni dayandırıb geri çəkilməyə məcbur oldu.

I Şah Abbas Osmanlı sarayına Təhmasibqulu xanın başçılığı ilə elçi göndərərək Bağdadın Səfəvi dövlətinə verilməsi şərti ilə sülh bağlanmasına çalışsa da buna nail ola bilmədi.

Buna baxmayaraq hərbi əməiyyatlar nəticəsində Bağdada daxil olmaqla Ərəb İraqını Səfəviərin nəzarətində saxlamağa nail oldu. 1629-cu il yanvarın 19-da I Şah Abbas vəfat etdi. I Şah Abbasın ölümü və nəvəsi Şah Səfinin hakimiyyətə keçməsi Osmanlı dövlətinin yenidən hərbi əməliyyatlara başlamasına səbəb oldu.

1629-cu ilin iyulunda Xosrov paşanın başçılığı ilə Osmanlı qoşunu Bağdad istiqamətində hərəkət etdi. Bağdad mühasirəyə alındı. Şəhər möhkəm müdafiə olunduğuna görə Xosrov paşa onu ələ keçirə bilmədi. Osmanlı ordusu çoxlu itki verərək geri çəkildi.

Zur paşanın komandanlığı ilə osmanlı ordusu Cuxur-Səd istiqamətində hərəkət edərək 1630-cu il aprelin 30-da İrəvanı döyüşsüz ələ keçirdi. I Şah Səfinin Osmanlı ordusunun hücumu ilə əlaqədar ciddi tədbir görməməsi İrəvanın işğalından sonra osmanlıların Həmədana doğru irəliləməsinə şərait yaratdı. 1630-cu ilin iyun ayında Həmədan tutuldu. Lakin tezliklə Səfəvi ordusu Rüstəm xanın başçılığı ilə osmanlıları Həmədan bölgəsindən geri çəkilməyə məcbur etdi.

Osmanlı ordusu Bağdadı ələ keçirməyə çalışırdı. 1630 -cu il oktyabrın 6-da Xosrov paşanın komandanlığı ilə Osmanlı ordusu Bağdadı yenidən mühasirəyə aldı. Osmanlı ordusunun Bağdadı tutmaq cəhdi baş tutmadı, noyabrın 14-də geri çəkildilər. 1631-ci ildə hərbi əməiyyatlar yenidən başladı. IV Murad Zur paşanı yenidən Bağdad üzərinə göndərdi. 1631-ci il oktyabrın 2-də Rüstəm xanın rəhbərliyi ilə Səfəvi ordusu ilə - Osmanlı ordusu arasında döyüş baş verdi. Osmanlılar çoxlu itki verərək geri çəkildilər. Osmanlı ordusunun bu məğlubiyyətindən sonra iki il Səfəvi-Osmanlı cəbhəsində sakitlik hökm sürdü.

Hərbi əməliyyatarın kəsilməsinə baxmayaraq sərhəd bölgələrində vəziyyət mürəkkəb olaraq qalırdı. 1634-cü ilin yazında IV Sultan Murad hərbi əməiyyatların yenidən başlanması üçün böyük hazırlıq işləri gördü. Polşa və Rusiya ilə sülh müqaviləsi bağlayaraq bütün qüvvələri Səfəvilərə qarşı yönəltdi. Ərzurumdan İrəvan istiqamətində hərəkət edərək İrəvan qalasını mühasirəyə aldı. Qala müdafiəçiləri ciddi müqavimət göstərsələr də ağır toplardan açılan atəşə tab gətirə bilmədilər. 10 gün müqavimət göstərdikdən sonra Təhmasibqulu xan təslim oldu.

IV Murad İrəvan qalasını ələ keçirdikdən sonra Təbrizə doğru irəlilədi. Bu vaxt Təbriz bəylərbəyi Rüstəm xan şəhəri tamamilə boşaltdı. IV Murad Təbrizə döyüşsüz daxil oldu. Ancaq boşaldılmış şəhərdə ərzaq, sursat yox idi, qış yaxın-

laşırdı, Səfəvilər hücum edə bilərdilər. Ona görə də, sentyabrın 15-də IV Murad Təbrizdən geri çəkilməyə məcbur oldu.

Osmanlı ordusu Təbrizi tərk etdikdən sonra I Şah Səfi İrəvan qalasını geri almaq haqqında göstəriş verdi. Rüstəm xanın başçılığı ilə Səfəvi ordusu İrəvan qalasını mühasirəyə aldı. Azərbaycanın Qarabağ və Şirvan əmirləri də İrəvan qalasını geri qaytarmaq üçün köməyə gəldilər. Şah özü də İrəvan qalası ətrafına yaxınlaşdı. 1635-ci il aprelin 2-də İrəvan qalası osmanlılardan geri alındı. Şah Səfi Novruz bayramını İrəvan qalasında keçirdikdən sonra Ərdəbilə qayıtdı.

Beləliklə, 1634-1635-ci ilin hərbi əməiyyatları səfəvilərin qələbəsi ilə başa çatsa da, IV Murad Bağdadın Səfəvilər tərəfindən ələ keçirilməsi ilə razılaşa bilmirdi. 1637-ci ildə Osmanlı Sultanı Bağdada hücumla bağlı ciddi hazırlıq işlərinə başladı. Bağdad üzərinə irəliləyən Osmanlı ordusunun qarşısını qızılbaşların 12 minlik ordusu ala bilmədi. IV Murad 1638-ci il noyabrın 20-də Bağdadı mühasirəyə aldı. Mühasirə dekabrın 25-nə qədər davam etdi. Bağdad uğrunda gərgin döyüşlər getdi. Baş verən döyüşlərin birində Osmanlı dövlətinin baş vəziri Təyyar Mehmet paşa və İsmayıl əfəndi öldürüldü. Lakin Bektaş xanın xəyanəti nəticəsində Osmanlı ordusu Bağdadı ələ keçirdi. IV Murad Bağdadı ələ keçirdikdən sonra hərbi əməliyyatları davam etdirməyib İstanbula qayıtmaq haqqında əmr verdi.

IV Muradın hərbi əməliyyatları dayandırıb sülh danışıqlarına başlamağı təklif etməsi Osmanlı dövlətində IV Muradın qardaşlarının hakimiyyəti ələ keçirmək uğrunda mübarizəsi və Avropa dövlətərinin osmanılara qarşı yeni hərbi əməliyyata başlamaq niyyəti ilə əlaqədar idi.

Səfəvi dövlətində də daxili siyasi vəziyyətin mürəkkəb olması, tez-tez baş verən üsyanlar və Moğol dövləti ilə başlanan hərbi əməliyyatar Şah Səfini sülh bağlamağa vadar edirdi. Ona görə Şah Bağdadın itirilməsi ilə razılaşaraq Osmanlı sultanının sülh təklifini qəbul etdi.

1639-cu il mayın 17-də Səfəvi elçisi Sarı xanla Osmanlı Qara Mustafa paşa arasında Qəsri-Şirində üç günlük müzakirədən sonra sülh müqaviləsi imzalandı. Beləliklə, osmanlılarla Səfəvilər arasında uzun sürən müharibəyə son qoyuldu. Sülhə görə Ərəb İraqı osmanlıların nəzarəti altına düşdü. Zəncir qalasından qərbdəki ərazilər osmanlıların, şərqdəki ərazilər isə Səfəvilərin əlində qalırdı. Səfəvilər Arazın sağ sahilindəki Maku, Qotur, Mağazburd qala divarlarını dağıtmalı idilər. Osmanlı tərəfi Urmiya və Mehriban qalaları yerləşən ərazilərə, Səfəvilər isə Qars, Axışka, Van, Şəhrizor, Bağdad və Bəsrə ərazilərinə hücum etməyəcəklərinə söz verdilər. Müqavilə I Şah Səfi tərəfindən 40 il müddəti üçün təklif edilsə də, IV Sultan Murad 20 il müddətinə bağlamağa razılıq verdi.

Beləliklə, 1578-ci ildən fasilələrlə davam etmiş Səfəvi-Osmanlı müharibələri tərəflərin hər birinə böyük itkilər, dağıntılar, əlavə xərclərdən başqa heç nə vermədi.

Müqavilə imzalandıqdan az sonra, 1639-cu ildə Səfəvi dövləti Osmanlı sarayına Məhəmmədqulu xan Ciğatayı göndərmiş və o, 1640-cı ildə geri döndükdə, elə həmin il Sultan İbrahim (1640-1648) də 1639-cu il andlaşmasının şərtlərinə uyğun olaraq qarşılıqlı münasibətləri möhkəmləndirmək üçün İsfahana elçi göndərdi. I Şah Səfı də Osmanlı elçisi ilə Maqsud Sultan adlı elçisini Sultan İbrahimi hakimiyyətə keçməsi münasibəti ilə təbrik etmək üçün İstanbula yola saldı. 1642-ci ildə sultanın Yusif ağa adlı elçisi diplomatik danışıqlar və II Şah Abbası təbrik etmək üçün Səfəvi dövlətinə gəldi. Yusif ağa ilə II Şah Abbas Qəzvində görüşmüş və iki ölkə arasında dostluq, qarşılıqlı iqtisadi əlaqələrin genişləndirilməsi məsələlərini müzakirə etdilər.

1648-ci ildə Osmanlı sultanı dostluq münasibətlərini möhkəmləndirmək məqsədi ilə II Şah Abbasın yanına öz elçilərini göndərmiş və tərəflər arasında sülhün qorunub saxlanmasının vacibliyini bildirmişdi. II Şah Abbas elçisi ilə yola saldığı Məhəmmədqulu bəylə Osmanlı sultanına ünvanladığı

məktubda hər iki dövlət arasında sülhün və dostluq əlaqələrinin möhkəmləndiriləcəyini qeyd etmişdi.

1650-ci ilin əvvəllərində osmanlı İbşir paşanın təhriki ilə Pinyaniş kürdləri dəfələrlə Səfəvi ərazisinə basqınlar edib qarət və qətllər törətdilər. Urmiya xanı cavab tədbiri görərək 20 min nəfərlik ordu ilə Pinyaniş sərhəddini keçərək Pinyanişliləri cəzalandırmış və 40 min baş qoyun sürüsünü ələ keçirmişdi. Bu zaman Urmiya xanı 1639-cu il müqaviləsinin "tərəflər bir-birinin ərazisinə top və tüfəngdən istifadə edərək basqın etməyəcək" öhdəliyini pozmuşdu. Ona görə Osmanlı dövləti yaranmış vəziyyəti aydınlaşdırmaq üçün Elviya Çələbini Təbrizə göndərdi. Tərəflər arasında aparılan danışıqlar nəticəsində yaranmış gərginlik aradan qaldırıldı və münasibətlər qaydaya salındı.

Bəsrə hakimi Hüseyn paşa ilə əmirləri arasında hakimlik uğrunda baş vermiş çəkişmədən istifadə edərək Bağdad paşası yürüş edərək Bəsrəni ələ keçirmişdi. Bu zaman Bəsrə hakimi Hüseyn paşa II Şah Abbasa məktub göndərərək onun tabeliyinə keçməsini bildirərək hərbi yardım göstərməsi ilə əlaqədar müraciət edir. Lakin II Şah Abbas 1639-cu il əhdnaməsini pozmaq istəmədiyinə görə Hüseyn paşaya hərbi yardım göstərməmişdi.

1661-ci ildə Kartili-Kaxetiya varisi Şahnavaz xan Qərbi Gürcüstana yürüş edərək İmeteriyanı (Başı Açıq) ələ keçirir. Bu Səfəvi-Osmanlı dövlətləri arasındakı 1639-cu il müqaviləsinə zidd olduğuna görə II Şah Abbas Şahnavaz xandan geri çəkilməsi və ələ keçirdiyi əraziləri geri qaytarması haqqında göstəriş vermişdi. Göründüyü kimi istər II Şah Abbas, istərsə də Osmanlı Sultanı baş vermiş hadisələri diplomatik danışıqlar və digər tədbirlərlə qaydasına salmaqla 1639-cu il Qəsri-Şirin sülh müqaviləsindəki öhdəlikləri qoruyub saxlamışlar.

# V FƏSİL

# AZƏRBAYCAN XVII ƏSRİN SONU-XVIII ƏSRİN BİRİNCİ QƏRİNƏSİNDƏ

## § 5.1. XVII əsrin sonu- XVIII əsrin əvvəllərində Səfəvi dövlətində daxili iqtisadi-siyasi vəziyyət

Şah Abbasın dövründə yaranmış güclü mərkəzləşdirilmiş hakimiyyət, ölkənin iqtisadi qüdrəti I Şah Səfəvi (1629 -1642) və II Şah Abbas (1642-1666) dövründə zəifləsə də tənəzzül mərhələsinə keçməmişdi. Şah Süleymanın dövründə (1666-1694) dövlətin iqtisadi və siyasi həyatında tənəzzülün əlamətləri görünməyə başlayır və getdikcə dərinləşirdi. Şah Hüseynin hakimiyyəti illərində (1694-1622) iqtisadi və siyasi böhran daha kəskin xarakter aldı. Kənd təsərrüfatı, sənətkarlıq və daxii ticarət ciddi tənəzzülə uğrayaraq dövlətin əsasını sarsıdırdı. Əhalinin amansız istismarı, vergilərin artması, feodal özbaşınalığı əhalini dilənçi vəziyyətinə salırdı. Ölkə ağır maliyyə böhranı keçirirdi.

XVII əsrin ikinci yarısında – 1668-ci il yanvarın 13-də Dağıstan və Şamaxıda, 1688\89-cu illərdə yenə Dağıstanda baş vermiş zəlzələlər, 1677\78-ci illərdə Dağıstanda baş vermiş taun xəstəliyi və bu xəstəliyin Şamaxı və cənub istiqamətində Rəştə qədər yayılması da ölkədə iqtisadi və siyasi vəziyyətə mənfi təsir göstərirdi. Ərzaq qıtlığı ilə qiymətlərin artması, şəriətdə qadağan olunmasına baxmayaraq sələmçiliyin yayılması əhalinin var-yoxdan çıxmasına səbəb olurdu. Ərzaq məhsullarının qiymətlərinin artması yalnız quraqlıqla bağlı deyildi, həmçinin iqtisadiyyatda gedən tənəzzüllə əlaqədar idi. Yerli feodal hakimlər (mərkəzi hakimiyyətin zəifləməsindən istifadə edərək) dövlət tərəfindən müəyyən olunmuş verginin miqdarından çox toplayaraq çoxlu gəlir əldə edirdilər. Yerli feodalların varlanması mərkəzdənqaçma hallarının baş verməsi

ilə nəticələnirdi. Bununla yanaşı mərkəzi hakimiyyət tərəfindən həyata keçirilən gömrük siyasəti nəticəsində ölkəyə gətirilən mallara görə bir neçə dəfə gömrük haqqı alınması, şəhərlərə satılmaq üçün gətirilən mallardan həm şəhərə daxil olanda, həm də bazar meydanında gömrük alınması, gömrük məntəqələrinin sayının çoxaldılması, bu sahədəki nəzarətsizlik tacirlərin əksəriyyətini müflisləşdirir və nəticədə ticarətin inkişafına mənfi təsir göstərirdi. Bu dövr ölkədə müxtəlif ölçü vahidlərinin mövcud olması vahid ölçü sisteminin olmadığını göstərirdi. Ticarət yollarının nəzarətsizliyi, ticarət karvanlarının təhlükəsizliyinin təmin olunmaması da daxili və xarici ticarəti ləngidirdi.

Şah boşalmış xəzinəni doldurmaq üçün vergi və mükəlləfiyyətləri getdikcə artırırdı. Şah Sultan Hüseynin göstərişi ilə 1699-1702-ci illərdə əhalinin siyahıya alınması həyata keçirildi. Bu zaman əhalinin var-dövləti və əmlakı da siyahıya alınırdı. Vergilərin əvvəlki illərlə müqayisədə üç dəfə artıq olmasına baxmayaraq əhalidən üç illik vergi yığılmasına başlanıldı.

1700-1703-cü illərdə Azərbaycanda quraqlığın baş verməsi kəndlilərin vəziyyətini daha da ağırlaşdırdı. İş o yerə çatmışdı ki, şah vilayətlərə vergi toplamaq üçün mərkəzdən cəza dəstələri göndərirdi. Lakin belə üsulla vergi toplamaq kəndlilərin vəziyyətini daha da ağırlaşdırır və təsərrüfatın dağılmasına gətirib çıxarırdı. Nəticədə ölkədə iqtisadi böhran daha da dərinləşirdi. Şah Hüseynin iradəcə zəif olması, günlərini eyş-işrətdə keçirməsi, şah sarayının həddindən artıq israfçılığı, yerli hakimlərin özbaşnalığı, vilayətlərdə toplanan vergilərin vilayət hakimləri tərəfindən mənimsənilməsi nəinki dövlət xəzinəsini var-yoxdan çıxarmışdı, hətta ağır sosial-iqtisadi nəticələrə səbəb olmuşdu. Ərzaq məhsullarının qıtlığı və bahalığı şəraitində əhali arasında aclıq və xəstəlik geniş yayılmışdı. 1716-1718-ci illərdə rus elçisi A. Volinski Səfəvi dövlətindəki vəziyyət haqqında yazırdı: "Səfəvilər dövlətinin taxıl anbarı olan Azərbaycanda tarlalar yeddi il ərzində

əkilməmiş qalmış, ölkədə aclıqdır”. Aclıqdan əhali kütləvi şəkildə qırılırdı. A.Volinski I Pyotra göndərdiyi məktubda yazırdı:“Biz orada olduğumuz zaman çoxlu dilənçiyə rast gəlirdik və onlardan çoxu həyatı unudub çılpaq gəzirdi. Küçələrdə heç kəsin diqqətini cəlb etməyən yığın-yığın meyidlər var idi ki, onların cəsədini itlər yeyirdi.”

Şah Hüseynin dövründə hərəmxana xüsusi siyasi qüvvəyə malik idi. Hətta, saraydakı “fövqəladə şuraya” şahın anası, baş xacələr və şahın ən sevimli hərəmləri daxil idi. Şahzadələrin hərəmxana şəraitində yaşaması onların dövlət işlərindən xəbərsiz və zəif xarakterli böyüməsinə səbəb olurdu. Şah Hüseynin sərxoş həyat tərzi keçirməsi, ölkənin idarə edilməsinə laqeyd münasibəti getdikcə mərkəzi hakimiyyətin zəifləməsinə, iqtisadiyyatın bütün sahələrinin böhran vəziyyətinə düşməsinə, yerli hakimlərin özbaşnalığına, əhalinin narazılığının artmasına gətirib çıxarırdı.

XVIII əsrin sonlarında ölkədə iqtisadi və siyasi böhranın yaranması nəticəsində İran körfəzinin mühüm liman məntəqələri yenidən Qərb dövlətlərinin nəzarəti altına düşmüşdü. Okeanlardan keçən beynəlxalq ticarət yolu ticarət gəmiləri olmayan Səfəvi dövlətinin üzünə qapanmış, Volqa-Xəzər yolunun əsas hissəsinə Rusiya nəzarət edir, Avropa mallarını ölkəyə qərbli tacirlər, Mərkəzi Asiya, Hind, Çin mallarını isə hindli tacirlər gətirirdi. Mal ixracı da əcnəbi tacirlərin əlində idi. Səfəvi dövlətinə mal idxalı artmış, mal idxalı isə şəhərlərdə bəzi istehsal sahələrinin ləğvi və iqtisadi durğunluğa səbəb olurdu.

Ölkədə yaranmış vəziyyət əhalini dözülməz hala salmışdı, əyalətlərdə baş verən narazılıq getdikcə artır, mövcud rejimə qarşı mübarizəyə çevrilirdi.

Bu, özünü qeyri-türk tayfalarının fəallaşmasında da göstərirdi. 1698-1699-cu illərdə Bəlic tayfası üsyan qaldıraraq Kirmanı ələ keçirdi, Yəzd və Bəndər Abbas istiqamətində soyğunçu yürüşlər etdi. Həmin dövrdə Kürdüstanda kürd

tayfasının narazılıq hərəkatı baş verdi. Bu üsyanlar yatırılsa da həyacan davam edirdi. Səfəfvi dövlətinin şimal-qərbində baş verən hadisələr, 1706-cı ildə ləzgilərin Gürcüstana qarətedici yürüşləri həmin regionda gərginlik yaratdı. 1707-ci ildə Car-Balakən bölgəsində əhali Ərəş hakimi Əli Sultanın rəhbərliyi ilə Şirvan bəylərbəyliyinin özbaşnalığına qarşı üsyan qaldırdılar. Carlılar sərhədləri qoruduqlarına görə şah xəzinəsinə verilən vergidən azad idilər. Onlara sərhədləri qoruduqlarına görə xəzinədən pul da verilirdi. Şirvan bəylərbəyi onlara verilən pulu dayandırdığına görə onlar üsyan qaldırdı. 1707-ci ildə üsyan yatırılsa da 1711-ci ildə yenidən başladı. Bu üsyan daha geniş ərazini əhatə etdi. Şirvan, Şəki, Gəncə bölgəsinin kəndliləri üsyana qalxdılar. Onlar yerli hakimlərin malikanələrinə hücum edərək dağıdır və qarət edirdilər. Yerli hakimlərin birləşmiş qüvvələri üsyanı yatıra bilmirdilər. Şəki mahalında üsyançılarla Şirvan bəylərbəyinin hərbi hissələri arasında qanlı döyüş baş verdi. Döyüşdə Şirvan hakimi Kiçik xan üsyançılar tərəfindən öldürüldü. Uğurlu xan Gəncə qalasına qaçaraq xilas ola bildi. Üsyan şah qoşunları tərəfindən çətinliklə yatırıldı.

1707-ci ildə İsfahanda şəhər əhalisinin narazılığı baş qaldırır. Şəhər əhalisi Şah Meydanına toplaşaraq Şah Hüseynin hakimiyyətdən getməsini, onun yerinə qardaşı Abbas Mirzənin taxta çıxarılmasını tələb edirdilər. Həyəcan şah qoşunları tərəfindən yatırılır.

1709-cu ildə Təbrizdə şəhər əhalisinin, 1715-ci ildə kürdlərin, 1717-ci ildə Muğanda şahsevənlərin, 1720-ci ildə lurların, 1721-ci ildə bəlucların, 1722-ci ildə Sünik ermənilərinin, 1722-ci ildə Şərqi Gürcüstanda gürcülərin üsyanları baş verdi.

1709-cu ildə Qəndəharda Mir Veysin başçılığı ilə əfqan tayfasının üsyanı baş verdi. Üsyançılar Qəndəharı ələ keçirdilər. Şah bir neçə dəfə üsyanı yatırmaq üçün qoşun göndərsə də məğlubiyyətə uğradı, 1715-ci ildə Mir Veysin ölümündən sonra Qəndəharda hakimiyyətə qardaşı Əbdül-əziz gəlsə də tezliklə

hakimiyyəti Mir Veysin oğlu Mahmud ələ keçirdi. 1719-cu ildə Qəndəhara göndərilən şah qoşunlarını məğlub etməklə Mahmud hakimiyyətini daha da möhkəmləndirərək ətraf əraziləri ələ keçirdi.

Səfəvi dövlətinin ucqar ərazilərində vergilərin ağırlığı, məmurların özbaşnalığının artması əhalinin narazılığını artırmaqla ölkəni daha böhranlı vəziyyətə salırdı. Şah Hüseynin bacarıqsızlığı, dövləti idarə edə bilməməsi, onun göstərişlərinin çox vaxt yerinə yetirilməməsi, orduda acınacaqlı vəziyyət Səfəvi səltənətini məhv olmaq həddinə çatdırmışdı. Rusiya elçisi Volinski öz raportlarında göstərirdi ki, "əgər yaxın vaxtlarda zəif və bacarıqsız şah, üstün rəhbərlik xüsusiyyətinə malik başqa birisi ilə əvəz olunmazsa, Səfəvi monarxiyası labüd olaraq süqut edəcək."

Qəndəharda Mahmudun daha da möhkəmlənərək, yeni ərazilər ələ keçirdiyi bir şəraitdə ölkənin şimalında ləzgilərin üsyanı baş verdi. Üsyançılar Şamaxı şəhərinə yürüş etdilər. Hacı Davudun rəhbərlik etdiyi Şirvanın sünni əhalisi ləzgilərlə birləşdilər. Bu hərəkatda Qaytaq və Qaraqaytaq usmisi Əhməd xan, Qazıqumuk hakimi Çolaq Surxay xan da işirak edirdilər. Üsyançılar 1721-ci il avqustun 15-də Şamaxını mühasirəyə aldılar. Sentyabrın 9-da Şamaxı ələ keçirildi. Şamaxı şəhərində qırğın və talanlar baş verdi.

Səfəvi dövlətinin İran körfəzi və digər bölgələrində də siyasi vəziyyət yaxşı deyildi. 1721-ci ilin payızında Mahmudun başçılığı ilə əfqanlar Kirman şəhərini mühasirəyə aldılar. Çətinliklə də olsa onlar Kirmanı ələ keçirdilər. 1722-ci ilin fevralında əfqanlar Yəzdi tuta bilməsələr də İsfahan üzərinə yürüşə başladılar. 1722-ci il martın 8-də Gülnabad kəndində şah qoşunları ilə əfqanlar arasında döyüş baş verdi. Şah qoşunları məğlub olaraq darmadağın edildilər. İsfahan əfqanlar tərəfindən mühasirəyə alındı. Mahmud öz nümayəndələrini göndərərək şahın qızı ilə evlənməyi, Qəndəhar, Sultan, Kırman və Xorasanın hakimi kimi tanınacağı halda İsfahanın müha-

sirəsindən əl çəkərək Qəndəhara çəkiləcəyini təklif etdi. Lakin onun təklifi rədd edildi.

İsfahan 6 ay əfqanlar tərəfindən mühasirədə saxlanıldı. Qaynaqların verdiyi məlumata görə həmin dövrdə 20 min adam əfqanlar tərəfindən, bundan 4 dəfə çox adam isə xəstəlik və aclıqdan məhv olmuşdu. Vəziyyətin ağırlığını görüb Şah Hüseyn 1722-ci il oktyabrın 23-də paytaxtdan Fərəhabada (Mazandarandadır) yola düşür. O, Fərəhabadda Mahmudun düşərgəsinə gələrək şahlıq nişanəsini öz əli ilə onun başına qoyub və möhtəşəm Səfəvi sülaləsini şərəfsizcəsinə alçaltdı. Keçmiş şah Hüseyn həbs edildi. 1722-ci il noyabrın 10-da Təhmasib atasının Mahmudun xeyrinə şahlıqdan imtina etməsini eşidib özünü Qəzvində şah elan etdi.

## § 5.2. XVIII əsrin əvvəllərində Azərbaycanın beynəlxalq rəqabət meydanına çevrilməsi

XVIII əsrin əvvəllərində Şah Hüseynin (1694-1722) hakimiyyəti dövründə dərin iqtisadi və siyasi böhran, idarəçilikdə özbaşnalıq, həyata keçirilən vergi islahatları nəticəsində vergilərin 3 qat artması, yerli hakimlərin özbaşınalığı, mərkəzi hakimiyyətə tabe olmaması, əhalini soyub-talaması, Azərbaycanda 7 il quraqlığın baş verməsi, ölkənin ayrı-ayrı bölgələrində baş verən üsyanlar Səfəvi dövlətinin tənəzzülünə səbəb olurdu.

Səfəvi dövlətində baş verən hadisələri çar Rusiyası və Osmanlı dövləti diqqətlə izləyirdilər. I Pyotrun dövründə Qafqazın işğal edilməsi ilə əlaqədar geniş plan hazırlanmışdı. Bu dövrdə Rusiyanın iqtisadi və siyasi cəhətdən möhkəmlənməsi şimaldan gələn təhlükəni daha da artırırdı. I Pyotr Qara dənizə çıxmaq uğrunda Osmanlı dövləti ilə apardığı uğursuz (1711-ci il Prut müqaviləsi) müharibədən sonra Şərq siyasətində əsas diqqətini Xəzər dənizinə çıxmağa yönəltmişdi. Rusiya dövləti Volqa-Xəzər ticarət yolunu nəzarətə götürməklə Şərq ölkələri

ilə ticarət əlaqələrini genişləndirməyə, Xəzər sahillərini ələ keçirməklə inkişaf etməkdə olan sənayesini Azərbaycanın xammal ehtiyatları ilə təmin etməyə çalışırdı. Lakin İsveç dövləti ilə müharibəyə başı qarışdığına görə Qafqaz istiqamətində yürüşə başlaya bilməyərək kəşfiyyat xarakterli tədbirlər görürdü. I Pyotr 1714-cü ildən 1715-ci il mayın 30-na qədərki müddət üçün Səfəvi dövlətinə elçi kimi göndəriməsi haqqında A.P. Voliniskinin fərmanını verdi və ona İsfahana Azərbaycandan, xüsusilə Şirvandan keçərək getməsi, keçdiyi yerlərin xəritəsini tərtib etməyi, hərbi məqsədlə tikilmiş müdafiə qurğuları haqqında məlumat toplamağı, xristianlarla əlaqə yaratmağı və Rusiyanın ticarət imkanlarını müəyyən etməsi tapşırılmışdı. Rusiya gələcəkdə Xəzər dənizinin mühüm limanlarını, Dərbənd, Bakı, Şamaxı, Rəşt şəhərlərini ələ keçirməyi nəzərdə tuturdu. Bununla Volqa-Xəzər ticarət yolunu tutmaqla Qərb ilə Şərq arasındakı ticarətdə vasitəçilik etməyi planlaşdırırdı.

A.P.Volinski 1716-cı il iyulun 13-də Həştərxana gəldi, buradan Niyazabada yola düşdü. Niyazabaddan gəmilərlə Şamaxıya gələrək 3 ay Şamaxıda qaldı. Şirvan bəylərbəyi Xosrov xan rus elçisinin təhlükəsizliyini təmin etmək üçün tədbirlər gördü. 1716-cı il dekabrın 7-də İsfahana yola düşərək 1717-ci il martın 14-də Səfəvilər dövlətinin paytaxtı İsfahana çatdı. Şah Hüseyn tərəfindən qəbul edildikdən sonra baş vəzir Fətəli xanla danışıqlar apardı. Danışıqlar Rusiya və Səfəvi dövləti arasında ticarət müqaviləsi bağlamaq ətrafında getsə də A.P.Volinski Səfəvi dövlətinin daxili vəziyyəti haqqında gizli məlumatlar toplayaraq çar Rusiyasına ötürür və öz hökümətini Cənub istiqamətində yürüşə hazırlamağa təhrik edirdi. 1717-ci il iyunun 30-da Rusiya ilə Səfəvi dövləti arasında ticarət müqaviləsinin layihəsi haqqında razılıq əldə olundu. Müqaviləyə əsasən rus tacirlərinə Şirvan və Xəzərboyu əyalətlərdə sərbəst ticarət və güzəştli gömrük hüquqları verilirdi. Rus tacirlərinin əsasən yerləşdiyi, Şərq ölkələrindən və Hindistandan gətirilən

malları bu bölgələrdən aldıqları üçün Şirvan bəylərbəyinə rus tacirlərinə şərait yaradılması haqqında şah xüsusi fərman göndərdi.

A.P.Volinski ticarət müqaviləsi bağladıqdan sonra karvan yolu ilə Rəştə getmək, Gilan haqqında kəşfiyyat xarakterli tapşırıqları da yerinə yetirərək oradan Həştərxana qayıtmaq istəyirdi. Onun məqsədini başa düşən şah hökuməti ona gəldiyi yolla qayıtmağa icazə verdi. 1717-ci il dekabrın 17-də Şamaxıya çatan rus elçisi burada 8 ay qaldı. O, Şamaxıda olarkən xristianlarla sıx əlaqə yaratdı, VI Vaxtanqın göndərdiyi nümayəndə ilə görüşdü. Dərbənddən gələn erməni tacirləri Dərbənd qalasının planını da ona çatdırdılar. A.P.Volinski Şamaxıdan Həştərxana gedən karvan yolları haqqında məlumat toplamaq üçün heyət üzvlərinin bir hissəsinin Həştərxana quru yolla getməsinə nail oldu.

Səfəvi dövlətində vəziyyətin getdikcə ağırlaşması I Pyotrun Xəzər dənizi hövzəsində fəaliyyətini daha da genişləndirirdi. O xüsusi ekspedisiya göndərərək Xəzərin qərb sahillərinin topoqrafik xəritəsini tərtib etməyi tapşırdı.

Ekspedisiya Xəzər dənizinin şimal-qərb sahillərinin xəritəsini tərtib etdikdən sonra cənub istiqamətində irəliləyərək Bakı sahillərini tədqiq edərək Astrabada qədər Xəzər sahillərinin xəritəsini çəkdilər.

Bu zaman Əfqan tayfalarının Xorasandan ölkənin içərilərinə doğru irəliləməsi, Şirvanda Hacı Davudun başçılığı ilə isə baş vermiş hərəkat çar Rusiyasının işğalçılıq planlarını həyata keçirməyə şərait yaratdı. Hacı Davud Qazıqumuxlu Surxay xanla birləşərək Şirvanı ələ keçirmək, Səfəvi dövlətinin bu bölgədəki hakimiyyətinə son qoyaraq müstəqil dövlət yaratmaq uğrunda mübarizəyə başladı. Şamaxı, Dərbənd və Bakı uğrunda döyüşlərdə müvəffəqiyyət qazana bilməyən Hacı Davud Rusiya dövlətinə hərbi kömək göstərməsi üçün müraciət etdi. Hacı Davud Dağıstandan gələn əlavə qüvvələrin və Şamaxının sünni əhalisinin köməyi ilə 1721-ci ilin avqustunda

Şamaxını ələ keçirdi. Şamaxıda törədilən dağıntı və qarətlər nəticəsndə xarici ökədən gələn tacirlərlə bərabər rus tacirlərinin malları qarət edildi. Hacı Davudun başçılığı ilə üsyançılar Gəncə, Qarabağ ərazilərində də talanlar törətdilər. Hacı Davudun A.P.Volinski (Həştərxan qubernatoru, Rusiyanın İsfahanda keçmiş elçisi) ilə məktublaşmasından Rusiya dövlətinə məlum oldu ki, Hacı Davud Rusiyanın himayəsinə keçmək arzusunda olmayıb, Şirvanda müstəqil dövlət yaratmaq fikrindədir. Bu, Rusiyanın işğalçılıq planlarına cavab vermədiyinə görə I Pyotr Səfəvi dövləti ilə dostluq münasibətlərini, Şamaxıda rus tacirlərinin üsyançılar tərəfindən qarət olunmasını bəhanə gətirərək Şirvana yürüş etməyi qərara aldı.

Rusiyanın planından xəbər tutan Hacı Davud Osmanlı dövlətinə hərbi kömək göstərməsi ilə əlaqədar müraciət etdi. O, həmçinin Osmanlı dövlətinin himayəsinə keçməyi də öhdəsinə götürdü. Bununla əlaqədar A.P.Volinski I Pyotra yazırdı ki, “Davud bəy (Hacı Davud) və Surxay...özlərinin Türkiyə təbəəliynə qəbul olunmalarını və Şamaxını müdafiə etmək üçün qoşun göndərilməsini Krım xanı vasitəsi ilə Türkiyə Sultanından xahiş etmişlər”.

Rusiyanın Cənubi Qafqazda işğalçılıq planları Osmanlı dövlətini narahat edirdi. Cənubi Qafqazdakı xalqların əksəriyyəti ilə Osmanlı dövlətini soy-kök və din birliyi yaxınlaşdırdığına görə bu dövlətin bölgədə böyük nüfuzu var idi. Rusiyanın türk və müsəlman xalqlarını öz əsarəti altına almaq siyasətini Osmanlı dövləti böyük həyəcanla izləyir və hərbi hazırlıq tədbirləri görürdü. Rusiya dövləti isə bu əraziləri ələ keçirmək üçün regionda türk və müsəlman xalqları ilə müqayisədə çox azlıq təşkil edən gürcüləri və cənubi Qafqaza sonradan gəlmiş erməniləri alətə çevirirdi. I Pyotr Rusiyanın Səfəvi dövlətindəki konsulu G.Abramova yazırdı ki, biz mütləq dəniz sahillərinə sahib olmalıyıq, türkləri buraya buraxa bilmərik.

Rusiyanın Xəzər sahillərində möhkəmlənmək niyyətindən narahat olan Osmanlı dövləti Hacı Davudla əlaqə yaradaraq

1722-ci ilin dekabr ayında onu Osmanlı dövlətinin himayəsinə qəbul etdi. Hacı Davud İstanbula gedib Sultan Əhmədlə görüşdü. O, Sultan Əhməddən Şirvanın hakimi olmaq haqqında razılıq aldı. Şirvana qayıtdıqdan sonra əsasən qarətçiliklə məşğul olan Qazıqumuxlu Surxay xanı Şirvandan çıxararaq Şirvanın müstəqil hakimi oldu.

Osmanlı dövlətinin cənubi Qafqazda möhkəmlənmək siyasətini Fransa dövləti müdafiə edirdi. Fransa Rusiyanın Cənubi Qafqazda və Xəzər körfəzində möhkəmlənməsini istəmirdi. Türkiyə ilə münasibətləri gərgin olan İngiltərə hökuməti də Rusiyanın Xəzər dənizi sahillərində möhkəmlənməsinə İngiltərənin Yaxın Şərq siyasətinə maneə kimi baxırdı. Ona görə də İngiltərə Türkiyənin cənubi Qafqazda və Xəzər sahillərində möhkəmlənməsinin tərəfdarı idi.

Səfəvilər dövlətinin tənəzzülü, ölkədə yaranmış böhranlı vəziyyət Azərbaycanın beynəlxalq rəqabət meydanına çevirməsinə gətirib çıxardı.

## § 5.3. Rusiyanın Xəzərboyu ərazilərdə işğalçılıq siyasəti

Rusiyanın Şərq siyasətində Qafqaz və Xəzərin sahilboyu ərazilərini ələ keçirmək, Xəzəri Rusiyanın daxili dənizinə çevirərək Volqa-Xəzər ticarətində nəzarət hüququna malik olmaq və cənubi Qafqazın xammal ehtiyatına sahib olmaq kimi maraqları dayanırdı. I Pyotr Xəzərboyu əyalətlərə 1723-cü ildə yürüş etməyi planlaşdırmışdı. Şirvanda Hacı Davudun başçılığı ilə üsyançıların qələbəsi, Hacı Davudun Osmanlı dövləti ilə yaxınlaşması, əfqanların şah qoşunlarını məğlub edərək İsfahanı mühasirəyə alması çar Rusiyasını daha da tələsdirdi. Çünki Səfəvi dövlətində yaranmış şəraitdən istifadə edərək Osmanlı dövləti Cənubi Qafqazda möhkəmlənə bilərdi. I Pyotr Türkiyənin Qafqazda möhkəmlənməsini Rusiyanın işğalçılıq planları üçün təhlükə hesab edirdi. 1722-ci ilin yazında I Pyotr

böyük ordu ilə cənub istiqamətində yürüşə başladı. Rus qoşunları 1722-ci il iyulun 18-də 274 gəmidən ibarət donanma və quru qoşunları ilə birlikdə Həştərxandan cənuba doğru hərəkət etdilər. I Pyotr öz işğalçılıq məqsədini gizlədərək bildirdi ki, o, Xəzər sahillərinə Hacı Davudun rəhbərliyi ilə baş vermiş qiyamı yatırmaq, qarət olunmuş rus tacirlərinin qisasını almaq üçün gəlir. I Pyotr həmçinin öz nümayəndələrini Dərbəndə, Bakıya və Gilana göndərdi ki, əhali arasında türk, fars və ərəb dillərində tərtib olunmuş bəyannaməni yaysınlar. Həmin manifestdə göstərilirdi ki, guya yürüşün əsas məqsədi şah hakimiyyətinə qarşı üsyan qaldırmış Hacı Davudu və Surxay xanı cəzalandırmaqdır. Manifestdə əhalinin təhlükəsizliyinə təminat verilir və göstərilirdi ki, dinc əhalinin əmlakına ziyan vurulmayacaq. Xristian əhali üçün tərtib olunmuş manifestdə isə onlara müsəlman əsarətindən azad olunmaları vəd olunurdu. Manifestin əsas məqsədi əhalini sakitləşdirmək idi.

1722-ci il avqustun 15-də rus eskadrası Dərbəndə çatdı. Dərbənd hakimi İmamqulu bəy bir qrub şəhər varlılarının mənafeyini təmsil edərək qalanın bir verstliyində I Pyotru qarşıladı və ona 1722-ci il avqustun 23-də şəhərin iki gümüş açarını verdi. İmamqulu bəy XVI əsr əlyazması olan "Dərbəndnamə" adlı qiymətli tarixi əsəri də I Pyotra təqdim etdi. Rus ordusu şəhərə daxil oldu, Dərbənd döyüşsüz ələ keçirildi. Lakin şəhərdə rus qoşunlarına əhali tərəfindən müqavimət göstərilirdi.

Bakı əhalisinin rus qoşunlarının Xəzərboyu ərazilərə gəlməsinə münasibəti birmənalı deyildi. Bakılılar Şirvan üsyançılarının hücmuna məruz qalsalar da ruş qosunlarının Bakıya daxil olmasını istəmirdilər. Şəhər əhalisinin bəzi təbəqələri, xüsusilə Rusiya ilə ticarət əlaqələri olan bəzi tacirlər rusların gəlişinin tərəfdarı idilər. Onlar 13 nəfərin imzası ilə I Pyotra məktub göndərmişdilər. 22 avqust 1722-ci il tarixli həmin məktubu I Pyotr sevinclə qarşılayaraq senata yazdığı məktubda bildirirdi: "....oraya (Bakıya) qarnizon göndərərik və beləliklə də allahın köməyi ilə ölkələrdə möhkəm yerləşərik. Bu

münasibətlə sizi də təbrik edirik”. Lakin Bakı sultanı Məhəmmədhüseyn xan və Bakı əhalisi I Pyotrun Hacı Davud üzərinə yürüşünü müdafiə etsələr də rus qoşunlarını Bakıya buraxmayacaqlarını bildirdilər. I Pyotrun göndərdiyi nümayəndəyə qeyd edildiyi kimi cavab verilsə də çar Bakı üzərinə yürüşə qərar verdi.

1722-ci il avqustun 30-da rus qoşunları Dərbənddən Bakıya doğru irəliləsə də I Pyotr yürüşü dayandırıb sentyabrın 5-də Dərbəndə qayıtdı, iki gün sonra qarnizonu polkovnik Yunkerin komandanlığı ilə saxlayıb Peterburqa qayıtdı. I Pyotrun yürüşü dayandıraraq geri qayıtmasının bir necə səbəbi var idi. Birincisi, Bakı hakimi Məhəmmədhüseyn xanın Rusiyanın təklifini qəbul etməməsi; ikinci, rus donanmasının Xəzər dənizində baş verən tufan nəticəsində böyük tələfat verməsi, ərzaq və sursat gəmilərinin əksəriy-yətinin dənizdə batması; üçüncü, Isveç dövlətinin Rusiya ilə bağladığı 1721-ci il Niştad sülh müqaviləsini pozmaq istəməsi; dördüncü, Rusiyanın Xəzərboyu ərazilərə yürüşünə Osmanlı dövlətinin etiraz etməsi. Bütün bu səbəblər I Pyotrun yürüşü dayandırıb, geri qayıtması ilə nəticələndi.

I Pyotr Rusiyanın İstanbuldakı səfiri İ.Neplyuyevə Hacı Davudun Türkiyənin himayəsinə keçməsinə mane olması haqqında göstəriş vermişdi. Lakin I Pyotr Qafqazdan geri dönəndən sonra Osmanlı sultanı Hacı Davudu Krım xanı səlahiyyətində Türkiyənin himayəsinə qəbul edərək, onu Şirvan və Dağıstanın hakimi təyin edərək xan titulu verdi.

I Pyotr Peterburqa qayıtdıqdan sonra Xəzər dənizinin qərb sahillərini işğal etməyi qərara aldı. Mühüm iqtisadi və hərbi-strateji əhəmiyyətə malik Bakının alınmasına xüsusi diqqət yetirdi. Bakının alınmasını general-mayor M.Matyuşkinə tapşırdı. I Pyotr M.Matyuşkinə “Allah qoysa, Bakını alsaq, nə etməliyik” adı ilə təlimat göndərdi. Təlimata əsasən, Bakı ələ keçirildikdən sonra qala mühafizəsi daha da gücləndirilməli, Kür çayının sağ sahilində qala tikilməli idi ki, I Pyotr gələcəkdə

burada böyük şəhər salmağı nəzərdə tuturdu. 1722-ci il 4 oktyabr tarixli məktubunda I Pyotr general M.Matyuşinə Bakını tutmağı əmr etdi.

Baki üzərinə yürüş ərəfəsində 1722-ci ilin 23 oktyabrında Mir Mahmudun başçılığı ilə əfqanların İsfahanı ələ keçirməsi, Şah Sultan Hüseynin Mir Mahmudun xeyrinə hakimiyyətdən getməsi, çar Rusiyasının yürüş planını dəyişdi. I Pyotr ehtiyat edirdi ki, əfqanlar Gilan əyalətini tuta bilərlər. Ona görə də Gilanın işğal edilməsini ön plana çəkdi. Bakıya yürüş üçün hazırlanmış gəmilər 1722-ci ilin noyabrında Rəst istiqamətində hərəkət etdilər. 1722-ci ilin dekabrında rus donanması Ənzəli limanına daxil olub, Rəşt şəhərini müqavimətsiz işğal etdilər.

Hələ İsfahan mühasirədə olan zaman Şah Hüseyn Xəzərboyu vilayətləri Rusiyaya güzəştə getmək, əvəzində əfqanlara qarşı hərbi kömək göstərməklə əlaqədar İsmayıl bəyi Peterburqa göndərmişdi. İsmayıl bəy ölkəni tərk etməmiş əfqanlar İsfahanı ələ keçirdi, Şah Hüseyn əfqan üsyançılarının başçısı Mahmudun xeyrinə hakimiyyətdən əl çəkdi, noyabr ayında Şah Hüseynin Astrabadda olan böyük oğlu II Təhmasib özünü şah elan etmişdi. Ona görə İsmayıl bəy geri qayıdaraq səlahiyyətlərini II Təhmasib tərəfindən təsdiq etdirmişdi. İsmayıl bəy Astrabadı tərk etdikdən sonra II Təhmasib rusların Rəşt şəhərini ələ keçirməsi haqqında məlumat alır. II Təhmasib İsmayıl bəyi elçi səlahiyyətindən və Rusiya ilə müqavilə bağlamaq hüququndan məhrum edir. Lakin Rusiya hökuməti bu haqda İsmayıl bəyə heç bir məlumat vermir. 1723-cü il sentyabr ayının 12-də Rusiya hökumətinin diktəsi ilə Peterburqda İsmayıl bəylə 5 maddədən ibarət müqavilə imzalandı. Müqaviləyə görə Xəzəryanı vilayətlər – Dərbənd, Bakı, Gilan, Mazandaran, Astrabad Rusiyaya birləşdirildi. II Təhmasib Peterburq müqaviləsini təsdiq etmədi və İsmayıl bəyi vətənə xəyanətdə günahlandırdı. II Təhmasib öz elçisini İstanbula göndərərək sultandan kömək istədi. Lakin Osmanlı Sultanı onun müraciətini cavabsız qoydu.

1723-cü il iyul ayının 17-də rus donanması Bakı körfəzinə daxil oldu. General M.Matyuşkin Peterburqa danışıqlar üçün göndərilən İsmayıl bəyin məktubunu Bakı sultanı Məhəmmədhüseyn bəyə göndərdi. Məktubda İsmayıl bəy Bakını ruslara təslim etməyi təklif edirdi. Lakin Məhəmmədhüseyn bəy rus komandirinin məktubu gətirən nümayəndəsini içəri belə buraxmadı və tabe olmaq təklifini rədd etdi. İyul ayının 21-də səhər tezdən rus donanmasından Bakı qalasına toplardan atəş açıldı. Rus gəmilərindən açılan top atəşləri qala müdafiəçilərnin toplarını susdurdu. Gəmilərdən qalaya yandırıcı mərmilər atıldı, şəhərdə yanğın baş verdi. M.Matyuşkinin Məhəmmədhüseyn bəyə sonuncu məktubundan sonra iyulun 26-da qala bürclərindən təslim olmaq haqqında ağ bayraqlar qaldırıldı. Rus qoşunu qalaya daxil oldu, qarnizon yerləşdirildi. Sentyabrın 3-də I Pyotr Bakının tutulmasını bayram etdi.

Bakının idarə edilməsi keçmiş şəhər yüzbaşısı, rus qoşunlarının Bakıya daxil olmasının tərəfində olan Dərgahqulu bəyin əlinə keçsə də, bir il sonra o da Məhəmmədhüseyn bəy kimi Hacı Davudla daxili əlaqə saxlamaqda günahlandırıldı. Bakıda sultanlıq ləğv edildi. 1724-cü ildə komendant idarəçiliyi yaradıldı. Şəhərə knyaz Baryatinski komendant təyin edildi.

Bakı istila edildikdən sonra 1723-cü il sentyabrın 16-da çar hökuməti Bakı komendantı Baryatinskiyə Salyanı ələ keçirməyi əmr etdi. Salyan naibi Hüseyn bəy Rusyanın təbəəliyini qəbul etsə də onun evinə qonaq çağırılan 22 rus zabiti öldürüldü. Kazak atamanı Stepan Razin Salyanı qarət edən zaman Salyan naibinin qızını əsir almış, sonra bu zavallı qızı Volqa çayına atmışdı. Həmin hadisədən 55 il keçsə də Salyanda bu faciə unudulmurdu. 22 rus zabitinin öldürülməsinə baxmayaraq Salyan rus qoşunlarının nəzarətində qaldı.

I Pyotrun 1724-cü il 10 noyabr tarixli fərmanı ilə Xəzərboyu ərazilərə çoxlu erməni köçürülməsi nəzərdə tutulurdu. Yerli əhalini sıxışdıraraq ermənilərin münbit torpaqlarda yerləşdirilməsi Quba və Dərbənddə həyata keçirilməyə başladı.

Rusiya Xəzəryanı ərazilərdə öz işğalçılıq planlarını genişləndirirdi. İstanbul sülhündən sonra başlanan Osmanlı-Rusiya danışıqları 1726-cı ildə Şamaxı şəhəri yaxınlığındakı Mabur kəndində hər iki dövlət arasında sərhədləri müəyyən etməklə razılaşıldı. Həmin ildən başlayaraq rus qoşunları Müşkür, Niyazabad, Cavad, Salyan, Lənkəran, Astara, Qızılağac, Talış dağlarının bir hissəsini, 1727-ci ildə Şeşpara, Rustovu, 1728-ci ildə isə Quba və Təngəni ələ keçirdilər.

Çar Rusiyası ilk vaxtlar yerli idarəçilik sistemini ləğv edib komendant idarəçiliyi yaradırdısa da, 1726-cı ildən sonra knyaz V.V.Dolqorukinin komandanlığı ilə həmin işğal ərazilərində ümumi idarəçilik yaratdılar.

V.V.Dolqorukin hərbi və mülki hakimiyyətə malik idi. Rus idarəçiliyi yaratmaqla çarizm işğal etdiyi ərazilərin kapital ehtiyatlarını Rusiya sənayesinin inkişafına yönəltməyə çalışırdı. Ona görə həmin ərazilərdə ipəkçiliyi, pambıqçılığı, tütünçülüyü, şərabçılığı inkişaf etdirmək istiqamətində tədbirlər həyata keçirirdi. Həmçinin neft hasilatını artırmaq, qızıl, gümüş, mis mədənlərini aşkara çıxarmağa çalışırdı. Rusiya hökuməti həmçinin Azərbaycan və Şərq ölkələri ilə geniş ticarət əlaqələri yaratmaq üçün Xəzərsahili liman şəhərlərindən istifadə edərək Volqa-Xəzər ticarətini daha da inkişaf etdirmək istəyirdi. Xüsusi ilə Bakını şərq ticarətinin mərkəzinə çevirmək, əsas ticarət işlərini erməni və rus tacirlərinin əlində birləşdirməyi nəzərdə tuturdu.

## § 5.4. Azərbaycan torpaqları Osmanlı hakimiyyəti altında

Osmanlı dövləti ilə çar Rusiyası arasında münasibətlər gərginləşirdi. Rusiyanın Qara dəniz uğrunda apardığı uğursuz müharibə Osmanlı dövləti ilə 1711-ci il noyabrın 5-də Prut müqaviləsi ilə nəticələnmişdi. Ona görə də Rusiya Xəzər

dənizinin sahil ərazilərini ələ keçirmək istəyərkən Osmanlı dövlətindən ehtiyat edirdi. Çünki, Çar Rusiyası kimi Osmanlılar da Azərbaycan ərazilərini tutmaq istəyirdi. Cənubi Qafqazın hərbi-strateji əhəmiyyəti, tranzit ticarət yollarının Azərbaycandan keçməsi Osmanlı imperiyasını da çox maraqlandırırdı. Rusiyanın Qafqazda və Xəzəryanı ərazilərdə möhkəmlənməsi Osmanlı dövlətinin mənafeyinə uyğun gəlmirdi. Rus qoşunlarının Dərbənddən cənub istiqamətində hərəkəti və Xəzərboyu ərazilərdə yaydığı manifestin məzmunu I Pyotrun işğalçılıq niyyətini aydın göstərirdi. Osmanlı dövlətinin baş vəziri İbrahim Paşa Rusiyanın İstanbuldakı konsulu İ.Nepluyev və 1722-ci ilin noyabr ayında Xəzəryanı torpaqların tutulması ilə əlaqədar etiraz bəyanatı verdi. Bəyanatda Osmanlı sarayı I Pyotrdan Səfəvi ərazisini tərk etməsini tələb edirdi.

1722-ci ilin oktyabr ayında Osmanlı dövləti Hacı Davudun Şirvan üzərində hakimiyyətini tanıyaraq Krım xanı hüququnda vassal hökmdar hüququ verdi.

İngiltərə dövləti də Rusiyanın Xəzəryanı ərazilərində möhkəmlənməsini istəmirdi. Rusiyanın bu bölgəni ələ keçirməsi İngiltərənin ticarət və müstəmləkə maraqlarını təhlükə altına alırdı. Ona görə İngiltərə Osmanlı dövlətini Cənubi Qafqazda Rusiyaya qarşı müharibəyə təbrik edir və ona müharibəyə başlayacağı halda maliyyə yardımı göstərməyi vəd edirdi. Hətta buna görə Osmanlı dövlətinə diplomatik təzyiq də göstərməkdən çəkinmirdi.

Sultan Rusiyanın Qafqazda həyata keçirdiyi yürüşlərə qarşı hərbi hazırlıq işləri görürdü. 1722-ci il sentyabrın 12-də Tiflis şəhəri ələ keçirildi. 1723-cü ilin yazında Ərzurum paşasının komandanlığı ilə türk ordusu Kartlı və Kaxetiyaya daxil oldu. Osmanlı ordusu İrəvan, Gəncə və Naxçıvan istiqamətində hərəkət etdi. Yaranmış vəziyyət Rusiya ilə müharibəyə səbəb ola bilərdi. Lakin İsveçlə müharibəni yeni başa vurmuş çarizm üçün Türkiyə ilə müharibə başlanması təhlükəli idi. I Pyotrun osmanlılara qarşı əfqanların başçısı Mir Mahmudla yaxınlaşma

cəhdi və türklərə qarşı yardım təklifi baş tutmadığından Osmanlı dövləti ilə barışıq yoluna əl atdı. Danışıqlar nəticəsində 1723-cü ilin payızında hərbi əməliyyatlar dayandırıldı.

Rusiya ilə Osmanlı dövləti arasında danışıqlar İngiltərə və Fransa dövlətlərinin təzyiqi ilə uzansa da, 1724-cü il iyulun 12-də İstanbulda müqavilə imzalandı. Müqaviləyə görə Türkiyə Rusiyanın işğal etdiyi Xəzərsahili əraziləri "İran tərəfindən Rusiyaya güzəşt edilmiş kimi" təsdiq etməklə həmin əraziləri Rusiyanın təsir dairəsi kimi tanıdı. Qazvində şah elan edilən II Təhmasibə taxt-tacı geri almaqda kömək etmək şərti ilə Bakı, Dərbənd, Gilan, Mazandaran, Astrabad Rusiyaya verildi. Rusiya isə İrəvan da daxil olmaqla Azərbaycanın Xəzəryanı əyalətlər istisna olmaqla bütün ərazilərinin və Gürcüstanın Osmanlı dövləti tərəfindən işğal edilməsinə razılıq verərək Türkiyənin təsir dairəsi elan etdi. Müqaviləyə görə Şirvanın Xəzərsahili hissəsindən başqa qalan əraziləri Türkiyənin himayəsi altında yarımmüstəqil xanlıq kimi tanındı. Lakin Türkiyə bu ərazidə qoşun saxlaya bilməzdi. Hətta bu ərazidə baş verən münaqişə zəminində Rusiyanın razılığı olmadan Türkiyə bura qoşun yeridə bilməzdi. Göründüyü kimi, İstanbul müqaviləsi Rusiya üçün 1723-cü il 12 sentyabr tarixli Peterburq müqaviləsinin şərtlərini təsdiq etməklə bərabər Xəzərboyu ərazilərə türk qoşunlarının gəlməsinin qarşısını alırdı. Bu müqavilə Osmanlı dövlətinə nəinki bütün Azərbaycan və Gürcüstan torpaqlarını, həmçinin Səfəvilər dövlətinin digər ərazilərini ələ keçirməyə şərait yaratdı. Altı maddə və bir əlavədən ibarət olan müqavilə ilə Azərbaycan torpaqları və Səfəvi dövlətinin bəzi əraziləri Rusiya və Türkiyə arasında bölüşdürüldü.

İstanbul danışıqlarının sonunda Osmanlı ordusu hücum əməliyyatlarına yenidən başladı. 1724-cü ilin aprelində Osmanlı ordusunun bir hissəsi Vandan Azərbaycana doğru, may ayında Arifi Əhməd paşanın komandanlığı ilə Tiflisdən İrəvan istiqamətində hərəkət etdi. İyunun 24-də İrəvan qalası mü-

hasirəyə alındı, üç aydan çox İrəvan qalasının müdafiəçiləri müqavimət göstərdilər. Oktyabrın 7-də İrəvan qalası Osmanlı qoşunu tərəfindən ələ keçirildi. 1724-cü ilin yayında Osmanlı ordusu Salmas, Xoy və Mərəndi ələ keçirərək Təbrizə yaxınlaşdı. 1724-cü il avqustun 31-də Osmanlı ordusunun Təbrizi ələ keçirmək cəhdi uğursuz oldu. Qışın yaxınlaşması ilə əlaqədar Osmanlılar hərbi əməliyyatı dayandıraraq geri çəkildilər. 1724-cü ildə Kirmanşah, Marağa, Həmədan osmanlıların əlinə keçdi. 1725-ci ilin yazında Osmanlı ordusu Xoyu və Mərəndi tutub Təbrizə doğru irəlilədi. 1725-ci il avqustun 3-də Təbriz ələ keçirildi. II Təhmasib Təbriz ələ keçiriləndən sonra Osmanlı sərkərdəsi Abdulla paşaya məktub yazaraq müəyyən ərazi güzəştlərinə getməklə Osmanlılara yürüşü dayandırmağı təklif edir və əfqanlara qarşı müharibədə kömək göstərməyi təklif edir. Lakin Osmanlı sarayı bu təkliflə razılaşmadı.

1725-ci ildə Sarı Mustafa paşanın ordusu Gəncə yaxınlığında Krım xanı tərəfindən göndərilən hərbi hissələrlə birləşərək Gəncəni mühasirəyə aldılar. İki aylıq mühasirədən sonra sentyabrın 6-da Gəncə osmanlılar tərəfindən tutuldu. 1725-ci il dekabr ayının sonunda Ərdəbil şəhəri də işğal edildi.

1726-cı ildə II Təhmasib Osmanlı sarayı ilə danışıqlar aparmaq üçün öz elçisini göndərdi. II Təhmasib osmanlıların işğal etdikləri ərazilər onlarda qalmaqla üç il müddətinə hərbi əməliyyatların dayandırılmasını istəyirdi. Lakin 1726-cı ilin yayında tərəflər arasında aparılan danışıqlar nəticəsiz qaldı.

Osmanlı sultanı III Sultan Əhməd 1725-ci ildə Mir Mahmudun ölümündən sonra onun yerinə hakimiyyətə gəlmiş Əşrəflə sülh danışıqlarına başlamaq üçün öz elçilərini göndərdi, tərəflər arasında 1727-ci ilin iyulunda başlanan danışıqlar oktyabr ayının 3-də Həmədan sazişi ilə başa çatdı. Həmədan sazişinə görə Osmanlıların ələ keçirdikləri Cənubi Qafqaz əraziləri, Sultaniyyə, Əbhər, Tarom, Zəncan, Təbriz, Həmədan, Kirmanşah üzərində Osmanlı dövlətinin hakimiyyəti tanınırdı.

Osmanlılar işğal etdikləri ərazilərdə yeni idarə üsulu yaratdılar. Yaradılan idarəetmə sistemi əvvəlki inzibati ərazi bölgüsündən çox fərqlənmirdi. Həmin ərazilər vilayətlərə, vilayətlər də sancaqlara bölünürdü. Vilayətlərin ərazisi keçmiş bəylərbəyliklərin ərazisinə uyğun gəlirdi. Sancaqlar isə mahal və nahiyələrə bölünürdü. Vilayətlərə hərbi və mülki rəhbərlik Osmanlı sərkərdələri təyin edilirdi. Sancaqların, mahalların və nahiyələrin idarəsi əsasən yerli feodallara tapşırılırdı.

Kür çayından şimalda yerləşən ərazilər isə xüsusi statusa malik vassal hakimlər tərəfindən idarə edilirdi. Həmin vəzifələrə hakim Osmanlı dövləti tərəfindən təyin edilirdi.

Şəki, Ərəş və Qax vassal mülkləri sayılırdı. Şirvanda isə Hacı Davudun hakimiyyəti Krım xanının statusunda Osmanlı sultanı tərəfindən tanındı və ona xan rütbəsi verildi. Lakin 1728-ci ilin yayında Hacı Davud Rusiyaya meyl etdiyinə görə Gəncəyə dəvət edilərək ailəsi ilə birlikdə Kipr adasına göndərildi. Onun yerinə bir il əvvəl Qəbələnin idarə edilməsi tapşırılan Surxay xan təyin edildi.

Osmanlı hakimiyyəti altında olan ərazilərdə vergi qanunnaməsi və vergi dəftəri tərtib olunmuşdu. 1727-ci ildə tərtib edilmiş "Gəncə vilayətinin qanunnaməsi" və "Naxçıvan dəftərində" əvvəlki vergilərdən çox da fərqlənməyən vergilər əksini tapırdı.

## § 5.5. Azərbaycan torpaqlarının Osmanlı və Rusiya işğalından azad edilməsi uğrunda mübarizə

1720-ci illərin birinci yarısında əfqanlar Səfəvi dövlətinin paytaxtı İsfahan şəhərini və ərazisinin böyük bir hissəsini, Rusiya Azərbaycanın Xəzəryanı vilayətlərini və Gilanı, Osmanlı dövləti isə Qərbi İranı, Cənubi Azərbaycanı və Cənubi Qafqazı (Xəzər sahilləri vilayətlər istisna olmaqla) ələ keçirmişdilər. 1726-cı ildə II Şah Təhmasibin hakimiyyəti altında yalnız Mazandaran vilayəti qalmışdı. 1726-cı ildə II Təhmasib

hakimiyyəti altında olan əraziləri genişləndirmək üçün Xorasana yürüşə başladı. Bu zaman Xorasanda müxtəlif qüvvələr hakimiyyət uğrunda çəkişirdilər. Bu çəkişmələrdə Nadir Məlik Mahmud Sistani və başqaları ilə döyüşdə məşhurlaşmışdı. Nadir əfşar türk tayfasının Qırxlı boyundan idi. I Şah İsmayılın dövründə Xorasanın Əbivərd ərazisinə köçürülmüşdülər. O, Əbivərd şəhərini tutaraq özünə mərkəz edir. Sonra əfşar və digər köçəri tayfaları birləşdirərək Gelat qalasını tutmaqla daha da güclənir. II Təhmasib Xorasana yürüş zamanı Nadiri öz tərəfinə çəkir, II Təhmasibə taxt-taca sahib olmaq üçün Nadir kimi müttəfiq lazım idi. Nadir də rəqiblərinin gücünü nəzərə alaraq II Təhmasiblə birləşir. II Təhmasib Nadirə xan titulu verir, əvvəl qorçubaşı vəzifəsinə, sonra ordunun sərkərdəsi təyin edir.

1726-ci ilin noyabrında Nadir Məlik Mahmudu məğlubiyyətə uğradaraq Məşhədi əfqanlardan azad edir. Təhmasib Xorasanın bütün bölgələrinə xəbər göndərərək Nadirin bütün əmrlərinə tabe olmalarını bildirir. Nadir Əfqan tayfa liderləri ilə döyüşlərdə qələbə çalır. Əfqan sərkərdələri Nadirə tabe olduqlarını bildirirlər. Herat 1729-cu ildə ələ keçirilir. Nadir 1728-1729-cu illərdə əfqanları məğlubiyyətə uğradaraq İsfahana yol açdı.

1730-cu ildə Osmanlı dövlətində çevrilişin baş verməsi, III Sultan Əhmədin (1703-1730) devrilməsi, hakimiyyət uğrunda daxili çəkişmələrin olması Azərbaycan torpaqlarını azad etmək uğrunda əlverişli şərait yaratdı. 1725-ci ildə I Pyotrun ölümündən sonra Rusya dövlətinin Xəzəryanı ərazilərində təcavüzkar siyasəti yumşalmışdı. Ona görə Rusiya Xəzər sahilinin bir sıra əyalətlərini geri qaytarmaq istəyirdi.

İsfahana qayıdan II Təhmasib Osmanlı imperiyasından əvvəl Səfəvi dövləti tərkibinə daxil olan ərazilərin geri qaytarılmasını tələb etdi. Vəli Məhəmməd xanın başçılığı ilə göndərilən nümayəndəlik Osmanlı sarayının qərarı ilə Mardin qalasında həbs edildi. Bunun səbəbi Nadirin qoşunla İrəvan istiqamətində hərəkət etməsi olmuşdu. Azərbaycan ərazisində yenidən hərbi əməliyyatlar başlandı.

1730-cu ildə II Təhmasib Təbrizi mühasirəyə aldı. Səfi Qulu xan da onlara qoşuldu. Osmanlı qoşunlarının sərəsgəri (qoşun başçısı) Abdulla Körpülü Təbrizdə mühasirəyə alınmış Osmanlı qarnizonuna köməyə tələssə də onun qoşunu yolda məğlub edildi və o, İrəvana çəkilməyə məcbur oldu. 1730-cu ilin sentyabrında Təbrizdə olan Osmanlı qarnizonu təslim oldu. Həmin il Nadir Marağa və Həmədanı da türklərdən geri qaytardı.

Sonra Təhmasib və Nadirin qoşunları Ərdəbili mühasirəyə aldılar. Şəhəri tutmaq cəhdi baş tutmadı. Osmanlı qoşunlarının Azərbaycandan tamamilə çıxarılmasını istəyən Rusiya dövləti Gilanda yerləşən rus qoşunlarının komandiri general Levaşova Nadirin qoşunlarına kömək etmək haqqında əmr verdi. General ikitərəfli oyun oynayaraq həm Nadirə, həm də türklərə kömək etməyə başladı. O, Nadirə kömək üçün paltarlarını dəyişmiş rus zabitləri ilə artileriya göndərdi. Digər tərəfdən isə Ərdəbildə olan Osmanlı qoşunlarının rusların əlində olan ərazidən keçməklə Şirvana getmələrinə imkan verdi. Ərdəbili təslim etmək istəməyən Əli paşa nəhayət 1731-il yanvarın 5-də şəhəri tərk edərək Astaraya gəldi. Bakıdan keçən türk qoşun dəstəsi fevralın 27-də Şamaxıya çatdı. Bu zaman Xorasanda Nadirin əleyhinə qiyam qalxmışdı. Nadirin Xorasana getməsindən istifadə edən Şah II Təhmasib qoşunun baş komandanlığını öz əlinə aldı. Şah Təhmasib 18 minlik qoşunla1731-ci ilin dekabrında osmanlılarla müharibəyə başladı. Naxçıvan, İrəvan, Bağdad ətrafında olan döyüşlərdə II Təhmasib məğlub oldu. Həmədanın 30 kmliyində Quricanda osmanlılarla döyüşdə tam məğlub olaraq 5 min əsgər itirdi və İsfahana qayıtdı. Osmanlı qoşunu yenidən Təbriz və Marağanı tutdu.

Qeyd etmək lazımdır ki, 1729-30-cu illərdə Osmanlı sarayında siyasi vəziyyət xeyli çətinləşsə də 1731-ci ilin əvvəllərində Osmanlı sarayında Sultan Mahmudun hakimiyyətə gəlməsi ilə Osmanlı dövlətində siyasi vəziyyət xeyli qaydasına

düşmüşdü və buna görə də II Təhmasibin hücumları heç bir müsbət nəticə verməmişdi.

Döyüşlərdə məğlub olan şah II Təhmasib Osmanlı dövləti ilə 1732-ci il yanvarın 16-da Kirmanşah şəhərində uğursuz sülh müqaviləsi bağlamağa məcbur oldu. Müqaviləyə görə Araz çayının şimalı – İrəvan, Gəncə, Tiflis, Şirvan vilayəti, Dağıstan və Kirmanşaha qədər olan ərazilər türklərə verildi. Sülhün şərtinə görə Təbriz Səfəvilər dövlətində qalırdı.

1730-cu ildə Nadir xanın osmanlılara qarşı uğurlu savaşı çar Rusiyasını Xəzərsahili vilayətlərin Səfəvilərə qaytarılması fikrinə gətirmişdi. Bununla bağlı 1732-ci il yanvarın 21-də Rusiya ilə Rəşt müqaviləsi bağlandı. Müqaviləyə əsasən Rusiya 5 ay ərzində Kür çayının Xəzərə töküldüyü yerdən güneyə yerləşən bütün əraziləri qaytarmalı, Nadir isə bu torpaqların Türkiyənin əlinə keçməsinə yol verməməli idi. Kür çayından Dərbəndə kimi uzanan quzey torpaqlarının qaytarılması üçün ayrıca şərt qoyulmuşdu. Belə ki, İstanbul bağlaşması üzrə (1724-cü il İstanbul müqaviləsi nəzərdə tutulur) Türkiyəyə keçən Şirvan, İrəvan və Gürcüstanı Nadir xan osmanlılardan geri almalı, bununla da Xəzəryanı torpaqların Türkiyənin əlinə keçməyəcəyini təmin etməli idi.

Şah II Təhmasibin məğlubiyyətini və Osmanlı dövləti ilə bağladığı sülh müqaviləsi xəbərini eşidən Nadir çox qəzəbləndi. O, Osmanlı sarayına və Bağdad valisi Əhməd paşaya məktub yazaraq Şah Təhmasibin müqaviləsinin heç bir siyasi qiyməti olmadığını və ələ keçirdiyi bütün torpaqların qaytarılmasını tələb etdi. Əks halda müharibəyə başlayacağını bildirdi.

Heratdan geri qayıdan Nadir İsfahana gəldi, şah II Təhmasibi Osmanlı dövləti ilə bağlanan sülhə görə tənqid etdi, qoşun zabitləri də Nadirə tərəfdar çıxdılar. 1732-ci il avqustun 8-də (başqa məlumata görə avqustun 22-də) qoşun başçılarının müşavirəsi II Şah Təhmasibin dövləti idarə etmək iqtidarında olmadığı haqqında qərar qəbul etdi.

Təhmasibin 8 aylıq oğlu III Abbas hakimiyyətə gətirildi. Nadir onun qəyyumu oldu. Nadir "Təhmasibqulu xan" ləqəbini ataraq, vəkilü-dövlət və naibüssəltənə adını qəbul etdi.

Nadir II Təhmasibin osmanlılarla bağladığı müqavilənin şərtlərini ləğv etdi. İşğal etdiyi torpaqları qaytarmağı Türkiyə dövlətindən tələb etdi. Türkiyə dövləti bu tələbləri rədd etdi.

Nadir osmanlıların tutduqları torpaqların qaytarılmasına 1732-ci ilin payızında başladı. İlk olaraq Kirmanşah azad edildi. Ətraf əraziləri tutan Nadir Bağdadı mühasirəyə aldı. Bağdad ətrafında olan döyüşdə 1733-cü il iyul ayında Nadir məğlub olaraq Bəhruza çəkildi. Bağdadda mühasirədə olan Osmanlı qoşununa köməyə gələn Topal Osman paşa Nadiri məğlub etdikdən sonra Bağdada girdi. Çox keçmədən yeni qoşun toplayan Nadir yenidən osmanlılarla müharibəyə başladı. 1733-cü ilin payız və qışında osmanlıları məğlub edən Nadir Bağdadı tutdu. Hər iki tərəf müqavilə imzaladı. Bağdad yaxınlığında türk ordusunu ağır məğlubiyyətə uğratdıqdan sonra Nadir 1733-cü ilin fevralında Əhməd paşa ilə Bağdad müqaviləsi bağladı.

Müqavilədə iki dövlət arasında sərhəd 1639-cu il müqaviləsinə əsasən müəyyənləşməli idi. Lakin Osmanlı dövləti müqaviləni təsdiq etmədiyinə görə döyüşlər yenidən başladı. Müharibəni davam etdirməyin mənasız olduğunu başa düşən Osmanlı Sultanı İraq ərazisini tutmuş bütün paşalara ələ keçirilən vilayətləri boşaltmaq üçün xətt-i-şərifi ilə bəzədilmiş fərmanlar göndərdi. Sultan paşalara bütün əraziləri boşaltmaq əmri verdi. Nadir Ərdəbilə gəldi və Astara hakimi Musa xana xətt-i-şərifin bir sürətinin Şirvan hakimi Surxay xana göndərməsi əmrini verdi. Surxay xan fərman gətirən adamı öldürüb Musa xana nalayiq sözlər yazdı. Buna görə Nadir bu məğrur adamı cəzalandırmaq üçün Şirvana hücum etməyi lazım bildi. Lakin Nadirin Kür çayına yaxınlaşdığını eşidən Surxay xan Şamaxını tərk edib Dağıstana getdi.

1734-cü il avqustun 17-də Nadir Şamaxıya gəldi və Ərdəbil hakimi Məmmədqulu xan Səidlini Şirvana hakim təyin etdi.

Nadirlə Surxay xan arasında həlledici döyüş Qəbələdə oldu. Car və Tala ləzgiləri Surxay xana qoşuldu. Gəncə hakimi Əli paşanın əmri ilə 8 minlik Osmanlı və tatar qoşunu da ona köməyə gəldi. Surxay xanın 20 minlik ordusu Qəbələdə Dəvəbatan adlı yerdə baş verən döyüşdə darmadağın edildi. Surxay Qazıqumuğa, tatar və Osmanlı qoşunu isə Gəncəyə çəkildi. Nadir böyük hərbi qənimət ələ keçirdi.

Payızın düşməsi ilə Nadir yürüşü Arana keçirdi. Ordusunu iki yerə bölərək birini Miskincə-Şahdağ yolu ilə Qəbələyə, o birini isə öz komandanlığı altında Xaçmaz yolu ilə Qəbələyə apardı. Bir həftə Qəbələdə qalıb Gəncəyə hərəkət etdi. 1734-cü ilin noyabr ayında Gəncə yaxınlığına gəldi. Gəncədə olan Osmanlı qoşun başçısı Əli paşa Gəncə qalasına sığınmışdı. Nadirin qoşunları qalanı mühasirəyə aldı və qanlı döyüşlər başladı. Qalaya atılan top gülləleri o qədər də əhəmiyyət vermədi. Qala divarlarının altına lağım ataraq 7 yerdən barıt dolduruldu. Partlayış nəticəsinədə 700 türk əsgəri öldüsə də qala təslim olmadı. Qalanın mühasirəsinin uzun sürdüyünü görən Nadir Tiflisi tutmaq üçün qoşun göndərdi.

Gəncənin mühasirəsi 4 ay çəkdi. Nadirin göstərişi ilə Gəncə çayının qarşısı bağlandı, qalanın Şirhacı və cənub divarları uçub dağıldı. Bəndi dağıtmağa müvəffəq olunsa da Osmanlı qarnizonu təslim olmadı.

Qeyd etmək lazımdır ki, Gəncə savaşının gedişində Rusiyadan göndərilmiş elçi knyaz S.Qolitsin həmişə Nadirin yanında olurdu. Nadir rus elçisi qarşısında Dərbənd və Bakının qaytarılması haqqında qəti tələb qoymuşdu. Buna görə də 1735-ci il martın 10(21)-da Rusiya ilə Gəncə müqaviləsi bağlandı. Müqaviləyə görə ruslar Bakını 2 həftə, Dərbəndi isə 2 ay müddətində azad etməli idilər. Bu şəhərlər üçüncü dövlətə verilməməli idi. Bundan başqa Ruslar Dağıstanın da Səfəvilər hökmranlığına keçməsinə razılıq verirdi. Gəncə müqaviləsindən sonra Gəncə qalasının alınması üçün ruslar yeni toplar göndərsə

də müsbət nəticə əldə olunmadı. Qarsda olan Osmanlı qoşunlarının sərəsgəri Abdulla paşa Gəncədə mühasirədə olanlara köməyə gələcəyi xəbərini göndərdi. Buna imkan verməmək üçün Nadir Gəncədə bir qədər qoşun saxlayıb 15 minlik qoşunla Loridən Qars üzərinə yürüdü. İrəvanı tutan Nadir Abdulla Paşa ilə həlledici döyüşə girmək üçün Zəngi çayı yaxınlığında yerləşdi. 1735-ci ilin iyununda tərəflər arasında həlledici döyüş oldu. Nadir tam qələbə qazandı. Abdulla paşa döyüşdə öldü. Nadir çoxlu hərbi qənimət (o cümlədən 32 top) ələ keçirdi. Abdulla paşanın məğlubiyyətindən sonra Gəncə, Tiflis qalasında olan Osmanlı qarnizonu təslim oldu. Gəncə hakimi Əli paşa Nadir tərəfindən bağışlandı, qarnizona Türkiyəyə getmək icazəsi verildi.

Nadirin əldə etdiyi qələbələr onu daha da ruhlandırmışdı. O, Osmanlı paytaxtına hücum etməyi planlaşdırırdı. Bunun üçün Nadir Rusiyanın kömək etməsini istəyirdi. Lakin Rusiya Nadiri bu plandan çəkinməyə və Türkiyəni Səfəvi dövləti ilə həmsərhəd bölgə və şəhərlərə hücum etməyə sövq edirdi.

1735-ci ildə Rusiya ilə Osmanlı dövləti arasında başlanan müharibə Osmanlı dövlətini Nadirlə sülh bağlamağa məcbur etdi. Osmanlı dövləti İranla sülh danışıqları aparmağı Gəncəli paşaya həvalə etdi. 1736-cı ilin martında Gəncəli paşa Səfəvilərin nümayəndəsi Mirzə Məhəmmədlə sülh danışıqlarına başladı. Bu danışıqlar Gəncə müqaviləsinin şərtlərinin Nadir tərəfindən pozulması demək idi. Beləki bu müqaviləyə əsasən Rusiyanın iştirakı olmadan Nadir Osmanlı dövləti ilə sülh bağlamamalı idi.

Osmanlı dövləti ilə aşağıdakı şərtlərlə: Dövlət sərhədlərinin Sultan IV Muradın zamanındakı kimi müəyyənləşdirilməsi barədə razılıq əldə edildi. Bu razılaşmaya əsasən Osmanlı dövləti ilə Nadir arasında olan müharibələrə müvəqqəti də olsa son qoyuldu. Xırda hərbi əməliyyatlar nəzərə alınmazsa Nadirin ölümünə qədər Osmanlı dövləti ilə müharibə baş vermədi.

Osmanlılarla müharibəni sona çatdıran Nadir müəyyən müddət Dağıstanı tutmaqla məşqul olsa da öz əsas məqsədini həyata keçirməyə başladı. Quba elinin «Həsənqala» düşərgə-

sindən qabağa düşərək Ağsuya (Yeni Şamaxı), oradan isə 1736-cı il yanvarın 13-də Muğandakı ordugahına gəldi. Bu düşərgədə onu ölkənin bütün əyanları gözləyirdi. O, dövlətin bütün əyalətinə fərmanlar göndərmiş, hakimlər, vilayət rəisləri, əyan və üləmaları Muğana qurultaya çağırmışdı. Nadirin əmri ilə Cavad keçidi yaxınlığında ağac və qamışdan 12 min ev tikilmiş, ayrıca karvansara, məscid və minarələr inşa edilmişdi. Tezliklə bura 100 min adam toplaşmışdı. Nadir qurultay iştirakçılarına müraciət edərək "hər kəsi İran şahlığına, ölkənin sülh və əmniyyətinin qorumasına, xalqın rifahını təmin etməyə daha layiq bilirsiniz onu seçin. O (Nadir), indi Allahın köməyi ilə İranı düşmənlərin işğalından azad edib, onları İran ərazilərindən qovubdur. İndi qocaldığına və yorğunluğuna görə dincəlməyə ehtiyacı var."

Uzun müzakirələrdən sonra qurultay işirakçılarınm böyük əksəriyyəti yalnız Nadirin şahlığa layiq olduğunu bildirdilər (Əlbətdə bu Nadir tərəfindən hazırlanmış bir oyun idi). Müzakirələr zamanı Səfəvilərin son nümayəndəsi şah III Abbasın ölüm xəbəri də gəlib çıxdı. Qurultay iştirakçılarının "təkidini" qəbul edən Nadir 3 şərtlə şah olmağa razılıq verdi. Birinci, bundan sonra Şah Təhmasib və onun uşaqlarına tərəfdar olmayasınız, əgər bundan sonra Səfəvilərdən biri meydana çıxsa onu müdafiə etməyib tutub zindana atasınız... İkinci, şiə məzhəbilə yanaşı sünnü məzhəbinə də hörmət olunsun, bundan sonra Ömərə, Osmana lənət oxunmasın, bu barədə heç nə yazılmasın, ondan ötəri ki, bu iki məzhəb iki millət arasında çoxlu qan tökülməsinə səbəb olmuşdur... İmam Cəfəri-Sadiqin yolunu unutmayasınız. Üçüncü, məni şahlığa qəbul edirsinizsə, gərək and içəsiniz məndən sonra mənim uşaqlarıma, ailəmə hörmətsizlik etməyib, onlara tabe olacaqsınız. Qurultay iştirakçıları tərəfindən Nadirin şah seçilməsi ilə Səfəvilər sülaləsinin hakimiyyəti sona çatdı.

# VI FƏSİL

# SƏFƏVİ DÖVLƏTİNİN XARİCİ ÖLKƏLƏRLƏ SİYASİ-İQTİSADİ ƏLAQƏLƏRİ

## § 6.1. Qərbi Avropa dövlətləri ilə münasibətlər

Hələ 1472-1473-cü illərdə Ağqoyunlu dövlətinin Osmanlı dövləti ilə apardığı müharibələr və XV əsrin sonlarında Azərbaycanda baş vermiş hadisələr göstərdi ki, güclü mərkəzləşdirilmiş dövlət və müasir ordu, silah olmadan ölkənin təhlükəsizliyini və müstəqilliyini qorumaq mümkün deyil. Şah İsmayıl qarşıya qoyduğu hərbi-siyasi planlarını həyata keçirmək üçün şiəlikdən bir vasitə kimi istifadə edərək geniş xalq kütlələrini öz tərəfinə çəkərək güclı mərkəzləşdirilmiş dövlət yaratmağı həyata keçirirdi. Bu, bir tərəfdən osmanlıların şərq istiqamətində ərazilərinin genişləndirilməsi sahəsində ciddi maneələrə çevrilirdisə, digər tərəfdən Anadolunun şərq hissəsində, Qaramanda şiə tərəfdarlarının sürətlə artması və onların Səfəvilər tərəfindən müdafiə olunması Səfəvi Osmanlı qarşıdurmasını daha da artırırdı. Osmanlı dövləti Avropa ilə şərq dövlətləri arasındakı ticarət yollarında öz mövqeyini daha da möhkəmləndirmək, Cənubi Qafqazı öz təsir dairəsinə keçirmək, Azərbaycan ipəyinə sahib olmaq üçün bu əraziləri ələ keçirmək niyyətində idi. Hər iki dövlətin qarşıya qoyduqları planları onların qarşıdurmalarını labüd edirdi.

Odur ki, Şah İsmayıl Osmanlı dövlətinin qüvvələrini iki cəbhəyə parçalamaq üçün Avropa dövlətləri ilə diplomatik əlaqə yaratmağa meyl edirdi. Belə bir şəraitdə Venetsiya hökuməti Osmanlı dövləti ilə müharibə apardığından Səfəvi dövlətinə elçilik göndərərək bundan yararlanmaq istəyirdi. Venetsiya hökuməti öz elçisi Konstantino Laşkarini Qaramana və Azərbaycana Səfəvi dövləti ilə əlaqə yaratmaq üçün yola saldı. Venetsiya hökuməti Səfəvilərlə Qaraman bəyliyi vasitəsi

ilə əlaqə yaratmağı planlaşdırırdı. Çünki Qaraman bəyliyi II Mehmetin işğalçılıq yürüşünə qarşı ciddi müqavimət göstərmiş, Qaraman sahzadələri vaxtilə Uzun Həsənin yanına pənah aparmış, İsmayılın hakimiyyətə gəlməsində mühüm rol oynamışdılar. Həmçinin Qaramanda şiə tərəfdarlarının çox olması Səfəvilərin bu bölgə ilə əlaqələrini daha da yaxınlaşdırırdı.

Venesiya elçisi Konstantino Laşkari əvvəl Qaramana və oradan Qaraman şahzadəsi Mustafa Qaramanlı ilə birlikdə Səfəvilərdən kömək almaq üçün Şah İsmayılın yanına gəlmiş və onunla danışıqlar aparmışdır. O, Şah İsmayıla artileriya və odlu silahla kömək etmək təklifini çatdırmışdır. Şah İsmayıl da Venetsiya elçisini çox hörmətlə qarşılamışdır. Lakin Şah İsmayıl Venetsiya hökumətinin təklif etdiyi kimi Qaraman istiqamətində yürüşə keçmədi. Çünki bu Osmanlı döləti ilə müharibəyə səbəb ola bilərdi. Yeni yaranmış Səfəvi dövləti üçün bu çox təhlükəli nəticələrlə qurtara bilərdi. 1501-ci ilin sonunda Venetsiya hökuməti tərəfindən göndərilən bu elçilik Səfəvi dövlətinə Avropa dövlətləri tərəfindən göndərilən ilk diplomatik nümayəndəlik idi. Venetsiya hökuməti 1503-cü və 1504-cü illərdə Səfəvi sarayına diplomatik əlaqələri yaxşılaşdırmaq üçün elçi göndərmişdi.

Azərbaycan Səfəvi dövləti yarandığı dövrdən fəal xarici siyasət yeritməyə başladı. I Şah İsmayıl hakimiyyətinin əvvəllərindən Avropa dövlətləri ilə Osmanlı imperiyasına qarşı müttəfiq axtarışında oldu. 1505-ci ildə Venetsiya doju Leonardo Loredanoya məktub göndərərək Türkiyəyə qarşı ittifaq yaratmağı təklif etdi. 1507-1508-ci illərdə Venetsiyada olmuş Səfəvi elçiləri Venetsiya hökuməti ilə Osmanlı dövlətinə qarşı birgə müharibə aparmağı, venetsiyalıların dənizdən Osmanlılara qarşı hücuma keçdikləri halda qızılbaşların qurudan Osmanlı dövlətinə qarşı müharibəyə başlayacağını təklif edirdilər. Lakin Venetsiya hökuməti Osmanlı dövləti ilə bağladığı 1503-cü il sülh müqaviləsini pozmaq istəmədi. Avropa

dövlətləri arasında mövcud olan çəkişmələr də Səfəvi dövlətinin Venetsiya ilə yaxınlaşmasına mane oldu.

1515-ci ildə I Şah İsmayıl Rodos adasına xaçpərəst İoannitlərin başçısının yanına öz elçisini göndərdi. I Şah İsmayıl hesab edirdi ki, Rodos adasının dini hakimi Avropa dövlətlərinin Osmanlıya qarşı hərbi ittifaqını təşkil edə bilər. Avropa dövlətlərinin 1518-1520-ci illərdə Osmanlı imperiyasına qarşı Səfəvi dövlətinin də iştirakını nəzərdə tutduqları plan onların öz arasında baş verən siyasi və iqtisadi ziddiyyət nəticəsində baş tutmadı.

Mərkəzi Asiya ölkələrini, Hindistan və Çini Aralıq dənizi və Qara dəniz hövzəsi vasitəsilə Avropa ilə bağlayan əsas beynəlxalq karvan yolları Azərbaycan və İran ərazisindən keçirdi. 1498-ci ildə Afrika çevrəsindən Hindistana dəniz yolunun kəşfi Avropa ilə Şərq arasında dünya ticarət yolunu dəyişsə də XVII əsr boyu quru karvan yolu əhəmiyyətini itirməmişdi. XVI əsrdə Azərbaycan ipəyi də Avropaya Hörmüz vasitəsi ilə, yəni okean yolu ilə ixrac olunmağa başlayırdı. 1501-ci ildə Portuqaliya donanması Hörmüz sahillərinə gəlmiş və hərbi qüvvə işlədərək Hörmüzü ələ keçirmişdi. I Şah İsmayılın başı ölkənin qərb sərhədlərində aparılan müharibəyə qarışdığından Hörmüzü işğaldan azad edə bilməmişdi. 1512-ci ildə portuqallar İran körfəzi sahillərində işğallarını genişləndirərək indiki Bəndər Abbasın yerindəki Cərim bəndərini (limanını) tutmuş, onu Hambrun adlandırmışdılar. Körfəzdə Portuqal işğalına görə İngiltərə, Hollandiya şirkətləri və başqaları Səfəvi ərazilərinə daxil ola bilmirdilər. Osmanlı imperiyasının da İran körfəzində olan maraqları Portuqaliyanın Hind okeanında möhkəmlənməsinə qarşı idi. Osmanlı dövləti ilə müharibə vəziyyətində olan I Şah İsmayıla Qoa adasında yerləşmiş portuqal vitse-kralı Albukerke müasir odlu silah vermək təklifi ilə danışıqlar apararaq Hörmüzün portuqallara güzəştə getməsi şərti ilə hərbi yardım göstərmək haqqında müqavilə bağladı. Beləliklə, 1508-ci ildə Hörmüzü tərk etməyə məcbur

olmuş portuqallar Hörmüzdə möhkəmləndilər. Onlar Hind okeanında Səfəvi-Hindistan ticarətini öz nəzarətləri altına aldılar. XVI əsrin 30-50-ci illərində Səfəvi-Osmanlı qarşıdurması Portuqaliyanın siyasi və iqtisadi maraqlarına uyğun gəlirdi.

I Şah Təhmasibin hakimiyyəti dövründə (1524-1576) Portuqaliya kralı Don Sebastian 1551-ci və 1574-cü ildə öz elçilərini qiymətli hədiyyələrlə I Şah Təhmasibin sarayına göndərmişdi. Portuqaliya Səfəvilərlə Osmanlı dövləti arasında yaranmış düşmənçilikdən istifadə edərək hər iki Şərq dövlətini zəiflətmək, İran körfəzində möhkəmlənmək, Fərat və Dəclə boyunca mühüm iqtisadi, hərbi-strateji əhəmiyyəti olan əraziləri ələ keçirmək istəyirdi. 1549-cu ildə Portuqaliya Səfəvi dövlətinə 10 min qoşun və 20 top vermişdi.

XVI-XVIII əsrlərdə Səfəvi dövlətinin daha çox siyasi-iqtisadi əlaqə saxladığı Qərbi Avropa dövlətlərindən biri Venetsiya Respublikası idi. I Şah İsmayılın dövründə (1501-1524) Venetsiyadan Səfəvi sarayına elçi və tacirlər gəlib-gedirdilər. Səfəvi ölkəsinə gəlmiş naməlum Venetsiya taciri 1507-ci ildə Ərzincanda dörd gün Şah İsmayılın ordu qərargahında qalmış, şahın Şirvan yürüşünə qatılmış və dəfələrlə Təbrizdə rəsmi dövlət məclislərində iştirak etmişdir. Səfəvi dövləti ilə siyasi və iqtisadi əlaqələr haqqında uzun müddət danışıqlar aparmış və 1520-ci ildə Venetsiyaya qayıtmışdır. XVI əsrin birinci yarısında Venetsiya ilə ticarət əlaqələri zəifləsə də ikinci yarısında Səfəvi dövlətinin Qərbi Avropa dövlətləri ilə ticarət əlaqəsində Venetsiya tacirləri mühüm rol oynayırdılar.

Osmanlı dövlətinin 1570-ci ildə Kiprə qoşun yeridərək Venetsiyaya qarşı müharibəyə başlaması ilə Venetsiya hökuməti Səfəvi dövləti ilə münasibətləri yenidən canlandırdı. 1570-ci ilin payızında Venetsiyadan qayıdan Səfəvi taciri Xoca Əli I Şah Təhmasibə məktub gətirdi. Məktubda məqsəd I Şah Təhmasibi Osmanlı dövlətinə qarşı müharibəyə cəlb etmək idi.

1571-ci il avqustun 14-də Venetsiya elçisi Vinçentso Aleksandri Senatın xüsusi məktubu ilə Qəzvinə gəldi. O, I Şah Təhmasibin oğlu Heydər Mirzə tərəfindən qəbul edildi, məktubu Heydər Mirzəyə təqdim etdi. Məktubda Roma papasının, İspaniya kralının artıq Türkiyəyə qarşı Venetsiya ilə birləşərək müharibəyə başlamaları, digər Avropa dövlətlərinin də qoşulacağı haqqında doğru olmayan məlumat verilir və I Təhmasib Osmanlı dövlətinə qarşı müharibəyə başlamağa təhrik edilirdi. Təklif edilirdi ki, belə bir şəraitdə Səfəvi dövləti Osmanlılara qarşı müharibəyə başlasa çox asanlıqla qələbə çalar. Lakin I Şah Təhmasib Venetsiya elçisi ilə görüşü uzadaraq Səfəvi taciri Xoca Əlinin Venetsiyadan qayıtmasını gözlədi. 1571-ci il noyabrın 3-də Xoca Əli Venetsiyadan qayıtdı. O, I Şah Təhmasib tərəfindən qəbul olundu və Avropadakı vəziyyət haqqında məlumat verdi. Şah Saray əyanları və qoşun başçılarının iştirakı ilə Venetsiya hökuməti tərəfindən göndərilən məktubu müzakirə edərək Osmanlı dövləti ilə sülh münasibətlərini saxlamağı qərara aldı. Beləliklə, Venetsiya hökumətinin Səfəvi-Osmanlı münasibətlərini pozmaq cəhdi baş tutmadı.

XVI əsrdə Qərbi Avropada kapitalist münasibətlərinin yaranması Şərqin xammal və satış bazarlarına tələbatı artırmışdı. Bu zaman Hind okeanından keçən yollara Portuqaliya, Aralıq və Qara dəniz yollarına isə Osmanlı dövləti nəzarət edirdi. Ona görə də ingilis tacirləri Volqa-Xəzər yolu ilə Azərbaycana və buradan Hindistana doğru hərəkət etmək istəyirdi. İngiltərə dövləti üçün Azərbaycanın xam ipəyi və satış bazarı maraq dairəsində olsa da bu yolla Hindistanda ədviyyat ticarətini ələ keçirmək niyyətində idi. İngiltərə kraliçası Yelizaveta Tüdor (1558-1603) su yollarına nəzarət edən Portuqaliyadan çəkindiyinə görə Volqa-Xəzər yolu ilə öz maraqlarını təmin etmək istəyirdi. Bu məqsədlə də 1561-1563-cü illərdə Antoni Cenkinsonun rəhbərliyi ilə Volqa-Xəzər yolu ilə ekspedisiya göndərdi. Lakin ingilislərin "Moskva" ticarət şirkətinin

təmsilçisi Antoni Cenkinson hökumətinin rəsmi ticarət yaratmaq tapşırığını uğurla həyata keçirə bilmədi. Osmanlı dövləti ilə münasibətləri pozmaq istəmədiyinə görə I Şah Təhmasib ingilislərlə ticarət müqaviləsi bağlamadı. Geriyə dönərkən Cenkinson Şirvan bəylərbəyi Abdulla xan Ustaclı ilə danışıqlar apardı. Abdulla xan verdiyi fərmanla ingilis tacirlərini Azərbaycanda aldıqları mallar üçün, eyni zamanda Avropadan gətirdikləri mallar üçün vergi və gömrük ödəməkdən azad etdi.

1563-1565-ci illərdə ingilis tacirləri Tomos Olkok, Corc Renn və Riçard Cini Azərbaycanda oldular. Onlar aldıqları xam ipəyi Rusiya vasitəsi ilə öz ölkələrinə göndərdilər. 1565-1567-ci illərdə Artur Edvardsın köməkliyi ilə gələn nümayəndə heyətini I Şah Təhmasib qəbul etdi. I Şah Təhmasib kompaniyanın sədri Lores Çepmenə ingilis tacirləri üçün imtiyazlı ticarət hüququ verdi. 1568-1569-cu illərdə yenə Volqa-Xəzər yolu ilə Artur Edvards, Lorens Çepmen, Xristofor Dovest başda olmaqla gələn nümayəndələrə də I Şah Təhmasib ticarət imtiyazı verdi. 1569-1574-cü illərdə Tomas Benisfer və Ceffri Deketin rəhbərliyi ilə gələn beşinci, 1580-ci ildə Xristofor Berronun başçılığı ilə gələn altıncı ticarət nümayəndələrinin gəlişləri uğursuz oldu. Belə ki, Tomas Bensfer və Ceffri Deketi geri qayıdarkən Volqa kazakları tərəfindən qarət olundular, Xristofor Berru gələndə Səfəvi-Osmanlı müharibəsi başlamışdı, döyüş əməliyyatları Azərbaycanın şimal hissəsində getdiyi üçün ticarət baş tutmadı.

XVI əsrin 60-70-ci illərindəki Səfəvi-İngiltərə əlaqələri uzun sürən siyasi və iqtisadi əlaqələrə çevrilmədi. Rusiya çarı IV İvan tərəfindən Livoniya müharibəsində (1558-1583) İngiltərəni öz tərəfinə çəkə bilmədiyinə və rus tacirlərinin ingilis kapitalının Rusiya bazarlarında möhkəmlənməsinə etiraz etmələri səbəbindən İngiltərənin “Moskva” kompaniyasına Rusiya ərazisindən keçib Volqa-Xəzər yolu ilə Şərqə ticarət etməsi qadağan olundu.

1578-ci ildə Osmanlı dövləti ilə müharibəyə başlayanda Şah Məhəmməd Xudabəndə Portuqaliya və Venetsiya dövlətlərinə elçi göndərib kömək göndərmələrini istədi. Lakin bu dövlətlərin heç biri Osmanlılarla müharibəyə başlamadı. İspaniya kralı 1582-ci ildə və 1585-1586-cı illərdə Osmanlı dövlətinə qarşı müqavilə bağlamaq üçün Qəzvinə öz elçilərini göndərsə də, heç bir nəticəsi olmadı. Xristian dövlətləri müəyyən vədlər verməklə kifayətlənir, hər iki müsəlman dövlətini bir-biri ilə vuruşdurmaqla zəiflətmək istəyirdilər.

I Şah Abbas hakimiyyətə gələndən sonra fəal xarici siyasət yeridərək üç mühüm vəzifəni həyata keçirməyə çalışırdı. Birinci, Xorasanı Şeybanilərdən geri almaq; ikinci, osmanlılar tərəfindən ələ keçirilmiş əraziləri qaytarmaq; üçüncü, Portuqaliyanın İran körfəzindəki ağalığına son qoyaraq Hind okeanına çıxmaq. Xüsusilə Osmanlılara qarşı Qərb dövlətlərinin gücündən istifadə etmək istəyirdi. Ona görə də I Şah Abbasın dövründə Qərbi Avropa dövlətləri ilə Səfəvi dövlətinin əlaqələri əvvəlki dövrlərə nisbətən daha da genişlənmişdi. Şah Abbas hakimiyyətinin ilk illərində, 1587, 1590-1591-ci illərdə Venetsiya dojuna elçilər göndərmişdi. 1599-cu ildə ingilis elçisi Antoni Şerli və Hüseyn Əli bəy Bayatın başçılığı ilə Avropaya göndərdiyi nümayəndə heyəti digər ölkələrlə yanaşı Venetsiyada da danışıqlar aparmalı idi. 1603-cü ildə Fəthi bəyin (Xoca Fətullah) başçılığı ilə 12 nəfərlik nümayəndə heyəti Venetsiyaya göndərilmişdi. Şah Abbas tərəfindən göndərilən elçilər Venetsiya ilə ticarət və siyasi əlaqələr qurmaqla əsasən odlu silah alıb gətirməli idilər. Venetsiya hökumətinin qərarı ilə Şah Abbasın elçilərinə sərbəst ticarət etmək və odlu silah almalarına icazə verilmişdi. Xoca Səfərin rəhbərliyi ilə göndərilən nümayəndə heyəti 1610-cu il yanvarın 22-də Venetsiya hökuməti tərəfindən qəbul edildi. Görüş zamanı Venetsiya dojuna Səfəvi-Osmanlı müharibəsinin gedişi barədə məlumat verildi.

Səfəvi elçiləri vasitəsi ilə Venetsiya hökuməti tərəfindən göndərilən məktubda əvvəlki məktublarda olduğu kimi təmtəraqlı ifadələr və vədlər verilirdi. Venetsiya hökuməti isə əslində Osmanlı dövləti ilə münasibətləri pozmaq istəmir, bu ölkənin ərazisindən keçərək Səfəvi dövləti ilə ticarət əlaqələrini bərpa etmək istəyirdi.

I Şah Abbas 1599-cu ildə Antoni Şerli ilə Hüseynəli bəy Bayatın başçılıq etdiyi nümayəndə heyətini Almaniya, İngiltərə, Fransa, İspaniya, Şotlandiya, Polşa və Skandinaviya ölkələrinin hökmdarları ilə danışıqlar aparmaq üçün yola saldı. Bu elçilikdə Şah Abbasın məqsədi Osmanlılara qarşı müharibədə hərbi ittifaq bağlamaqla yanaşı Qərbi Avropa dövlətləri arasındakı münasibətləri aydınlaşdırmaq idi. Çünki gələcəkdə İspaniyanı və Portuqaliyanı İran körfəzində işğal etdiyi ərazilərdən çıxarmaq üçün Qərb dövlətlərinin aralarındakı çəkişmələrdən istifadə etmək lazım gəlirdi. I Şah Abbas Avropa hökmdarlarına göndərdiyi məktublarda bu dövlətləri Osmanlı imperiyasına qarşı vahid cəbhədə müharibə etməyə çağırırdı. Şah Abbas məktublarında Qərb dövlətlərinə ticarət imtiyazından əlavə öz ölkəsində xristianlara öz dinlərini təbliğ etmək, kilsə tikmək vədi verdi. 1600-cü ilin oktyabr ayında Almaniya imperatoru II Rudolf, 1601-ci ilin aprelində Roma papası VIII Klement elçiləri təntənə ilə qəbul edib xoş vədlərlə yola saldılar. İspaniya kralı III Filipp tərəfindən də nümayəndə heyəti yüksək səviyyədə qarşılandı. Venetsiya hökuməti Osmanlı dövləti ilə sülh danışıqları apardığına görə elçiləri qəbul etmədi.

Almaniya imperatoru öz elçisi Stefan Kakaşı danışıqları davam etdirmək üçün Səfəvi sarayına göndərdi. Osmanlılarla müharibə ərəfəsində Antonio de Qouveanın başçılıq etdiyi elçilər I Şah Abbasla danışıqlar aparmağa gəldilər. İspaniya dövlətinin məqsədi yalnız Osmanlılara qarşı deyil, həm də İran körfəzində İngiltərə və Hollandiyanın mövqeyinə qarşı Səfəvi dövləti ilə yaxınlaşmaq idi.

I Şah Abbas 1603-cü il fevralın 11-də İspaniya və Roma papasının elçilərini qəbul etdi. İspaniya elçisi Antoni de Qouvea ilə birlikdə öz elçisi Allahverdi bəy Türkmanı İspaniya ilə hərbi ittifaq bağlamaq üçün Avropaya yola saldı. 1604-cü ildə I Şah Abbasın hərbi düşərgəsinə İspaniya və Portuqaliya kralının elçiləri gəldilər. Onlarla birlikdə İmamqulu xan Pakizə Türkman İspaniyaya yola salındı.

Lakin Almaniya imperatoru II Rudolf 1606-cı ildə Osmanlı dövləti ilə separat sülh bağladı. 1608-ci ilin iyununda Allahverdi bəy Türkman Antonio de Qouvea ilə birlikdə vətənə qayıtdı. İspaniya kralı göndərdiyi məktubda Osmanlılar üzərində qələbə münasibəti ilə I Şah Abbası təbrik edir və öz ərazisində katolik keşişlərinə "mərhəmətini əsirgəməməyi" xahiş edirdi.

Səfəvi dövlətinin Osmanlı dövlətinə qarşı İngiltərəni müharibəyə cəlb etmək planı baş tutmadı.

Beləliklə, Avropa dövlətlərini müharibəyə cəlb etməyin baş tutmadığını başa düşən I Şah Abbas 1612-ci il noyabrın 26-da Osmanlı dövləti ilə İstanbul sülh müqaviləsini imzaladı.

Hindistandan Avropaya okean yolu ilə ədviyyat daşınması Portuqaliyanın nəzarətində olsa da İspaniya Hind okeanı hövzəsində və İran körfəzində möhkəmlənməyə çalışırdı. I Şah Abbas İran körfəzində, o cümlədən Hörmüzdə Portuqal ağalığını aradan qaldırmaq üçün İspaniyanın qüvvəsindən istifadə etməyə çalışırdı. I Şah Abbasın 1607-ci il noyabrın 7-də İspaniya kralı III Filippə göndərdiyi məktubdan aydın olur ki, Hörmüz limanının Portuqaliyanın əlində olduğu bir vaxtda ispanları ora dəvət etməklə I Şah Abbas körfəz üzərində Portuqal ağalığını sarsıtmaq istəyirdi.

XVI əsrdə Hind okeanından keçən yollara Portuqaliya və İspaniyanın, Aralıq və Qara dənizdən keçən yollara Osmanlı dövlətinin nəzarət etdiyi bir şəraitdə İngiltərə və Hollandiya Hindistan və Səfəvi ölkəsinə çıxmaq üçün yeni yollar axtarırdılar. Ona görə də XVII əsrin əvvəllərində Səfəvi dövləti

ilə birbaşa ticarət əlaqəsi qurmaqda maraqlı olan ingilis "Ost-hind" şirkəti İran körfəzində Portuqal inhisarına qarşı açıq mübarizəyə girərək, I Şah Abbasın sarayına elçilər göndərməyə başlamışdı. I Şah Abbas 1615-ci ildə"Ost-hind" şirkətinin nümayəndəsi Stil və Qlouzerə Cəskdə faktoriya təsis etməyə icazə verdi.

1615-ci ildə Səfəvi-İngilis əlaqələrinin güclənməsi İngiltərənin dünya okeanlarında rəqibi olan İspaniyanı bərk narahat edirdi. İspaniya kralı II Filipp proseslərin axarını öz xeyrinə dəyişmək, diplomatik və iqtisadi sahədə danışıqlar aparmaq üçün 1617-ci ildə xüsusi elçisi Don Qarsiya de Silvanı Səfəvi dövlətinə göndərdi. I Şah Abbas 1618-ci ilin yazında Qəzvində onu qəbul etdi. Don Qarsiya de Silvanın Səfəvi dövlətinin Osmanlı, İngiltərə dövlətləri ilə iqtisadi əlaqələrini pozmaq ruhunda Şah Abbasla apardığı danışıqlar nəticəsiz qurtardı. Danışıqlarda heç bir uğur əldə etməyən İspan elçisi 1619-cu ildə Səfəvi dövlətini tərk etməyə məcbur oldu.

Bunun əsas səbəbi İspaniyanın körfəz məsələsində yalnız öz mənafeyindən çıxış etməsi oldu. İngiltərə isə öz mənafeyindən çıxış etsə də, körfəz məsələsində Səfəvilərin mövqeyini müdafiə edirdi. İngiltərə sərbəst ticarət əlaqələrinin qarşısında əsas maneə olan Portuqaliya donanması 1620-ci ildə ingilis "Ost-hind" şirkətinin hərbi donanması tərəfindən İran körfəzinin Cəsk adlı yerində məhv edildi. 1621-ci il noyabrın 21-də Səfəvi dövləti ilə İngiltərə arasında bağlanmış müqaviləyə görə İran körfəzində iki ölkə arasında qurulacaq iqtisadi əlaqələrin tənzimlənməsi qaydası müəyyən olundu. 1622-ci ildə Səfəvi dövləti ilə İngiltərənin birgə səyləri nəticəsində Hörmüz və Kiş adaları portuqallardan geri alındı. 1625-ci ildə portuqallar Hörmüzü yenidən ələ keçirmək istəsələr də, bu, baş tutmadı.

XVII əsrin əvvəllərində İran körfəzində ticarət üstünlüyü qazanmaq uğrunda mübarizəyə Hollandiya da qoşulmağa çalışırdı. 1602-ci ildə təsis edilmiş (bünövrəsi isə 1597-ci ildə

qoyulmuşdu) Hollandiyanın Şərqi Hindistan (Ost-hind) şirkəti okeanda ingilis "Ost-hind" şirkətinin əsas rəqibinə çevrilmişdi. Bu dövrdə Səfəvi dövləti ilə Hollandiya Respublikası arasında diplomatik və iqtisadi əlaqələr güclənirdi. 1683-cü ildə Hollandiyadan İsfahana gələn səfir Hobert Visnixanın I Şah Abbasla apardığı danışıqlar nəticəsində 1623-cü il noyabrın 21-də 23 maddədən ibarət müqavilə bağlandı.

Həmin müqaviləyə görə Hollandiya tacirlərinə Səfəvi dövlətində sərbəst ticarət etmək hüququ verilir, ölkəyə gətirdikləri və buradan apardıqları mallara görə vergi verməkdən azad edilir, hollandiyalılara öz çəki vahidlərindən istifadə etmək və ticarət evlərinə toxunulmazlıq hüququ verildi. Müqaviləyə görə hollandiyalılar Səfəvi dövlətində xristianlar üçün kilsə tikə bilərdilər.

1626-cı ildə Hollandiya ilə rəsmi danışıqlar aparmaq üçün Musa bəyin rəhbərliyi ilə Səfəvi elçiləri Hollandiyaya getdi. Əsas məqsəd Hollandiya-Osmanlı münasibətlərini pozmaqdan və portuqalları Maskatdan sıxışdırıb çıxarmaq üçün Hollandiyadan hərbi yardım almaq idi.

1630-cu ildə I Şah Səfi (1629-1642) İsfahanda yaşayan holland Jan Van Hasseri Hollandiyaya göndərmiş, iqtisadi əməkdaşlığı genişləndirmək məqsədi ilə 1631-ci il fevralın 7-də Hollandiya-Səfəvi müqaviləsi bağlanmışdı.

Bu müqaviləyə görə Səfəvi tacirləri Hollandiyada sərbəst alış-veriş etmək, alqı-satqıda öz çəki vahidlərindən istifadə etmək və digər xarici ölkə tacirlərinə verilən imtiyazlardan istifadə edə bilərdilər. 1642-ci ildə Hollandiya ilə Səfəvi dövləti arasında 16 maddədən ibarət yeni bir ticarət müqaviləsi də bağlanmışdı. Bu müqavilədə əsasən 1623-cü il ticarət müqaviləsinin təkrarı öz əksini tapırdı. Səfəvi dövlətinin Hollandiya Respublikası ilə güzəştli ticarət müqavilələri bağlamaqda məqsədi İngiltərənin İran körfəzindəki tam nüfuzuna qarşı çevrilmişdi.

Hollandiya tacirləri onlara verilən imtiyazlardan istifadə edərək İran körfəzində xam ipəyin satışı üzərindəki inhisar hüququndan sui-istifadə edir, xarici ölkə tacirləri ipək almaq istədikdə ipəyin qiymətini süni surətdə qaldırıb salırdılar. Onların bu özbaşınalığının qarşısını almaq üçün I Şah Səfi bağlanmış müqavilənin şərtlərini pozaraq Hollandiya tacirlərindən gömrük rüsumu və rəhdari alınması haqqında göstəriş vermişdi. Hollandiya hökumətinin I Şah Səfinin həyata keçirdiyi tədbirə etirazı nəticə vermədikdə onlar Səfəvi dövlətindən xam ipək almalarını dayandırdılar. Bu siyasətin Səfəvi dövlətini narahat etmədiyini gördükdə güc üsuluna əl atdılar. Çünki xam ipək alışının dayandırılması hollandiyalıları böyük qazancdan məhrum etmişdi. Ona görə də Kişə hücum edərək İran körfəzinin ticarət yolunu kəsdi. Məcburiyyət qarşısında qalan II Şah Abbas 1645-ci ildə Holland "Ost-hind" şirkətinə Səfəvi dövlətinin bütün məntəqələrindən ipək almaq və heç bir gömrük ödəmədən xaricə ixrac etmək, habelə sərbəst ticarət etmək hüququ verdi. Hollandiyaya verilən bu ticarət imtiyazları ingilis tacirlərinin mövqeyinə mənfi təsir göstərdi. İngilis tacirləri öz ticarət məntəqələrini Bəndər Abbasdan Bəsrəyə köçürmək məcburiyyətində qaldılar. Hollandlar ingilislərin Bəsrədəki ticarət faktoriyalarını da dağıtdılar. 1660-cı illərdən ingilislər Səfəvi məmləkətində ipək ticarətini genişləndirsələr də üstünlüyü hollandiya tacirləri saxladılar.

XVII əsrin ikinci yarısında da Hollandiya ilə Səfəvi dövlətində ticarət əlaqələrində ipək ticarəti əsas rol oynayırdı. Hollandiya "Ost-hind" şirkətinin I Şah Süleymanla bağladığı ticarət müqaviləsi hollandlara verilmiş imtiyazları qoruyub saxlayırdı. Hətta Hollandiya hökuməti Arxangelsk-Volqa-Xəzər yolu ilə Səfəvilər dövlətinin Şirvan, Gilan və başqa vilayətləri ilə də ticarət əlaqələri qurmaq istəyirdi. 1680-ci ildə Rusiya dövlətindən Səfəvi məmləkətinə gedən ticarət yollarından istifadə etməsi ilə əlaqədar apardığı danışıqlar uğursuzluqla

nəticələndi. Çar hökuməti holland elçisinin bu təklifinə razılıq vermədi.

XVII əsrin sonu – XVIII əsrin əvvəllərində Hollandiya ilə İngiltərə arasında İran körfəzində rəqabət daha da kəskinləşdi. İngilislər körfəzdə hollandları getdikcə sıxışdırırdılar. Sultan Hüseynlə ingilislərin bağladıqları 1699-cu il müqaviləsi ilə ingilis "Ost-hind" şirkətinə Səfəvi dövlətində gömrüksüz ticarət etmək imtiyazı verildi.

XVI-XVII əsrlərdə Səfəvi dövləti ilə Qərbi Avropa ölkələri arasında iqtisadi əlaqələrin qurulmasında böyük əhəmiyyətə malik olan İran körfəzinin mühüm məntəqələrini tutmaq və Şərq ticarətini ələ keçirmək uğrunda Portuqaliya, Hollandiya və İngiltərə arasında gedən mübarizəyə gec də olsa, Fransa da qoşuldu. Fransızlar ilk dəfə 1664-cü ildə Səfəvi dövlətindən Bəndər Abbasda faktoriya təsis edib ticarət imtiyazı aldılar.

XVIII əsrin əvvəllərində öz fəaliyyətlərini daha da genişləndirən fransızlar 1708 və 1715-ci illərdə Şah Hüseynin hakimiyyəti illərində (1694-1722) əlverişli müqavilələr imzaladılar.

1708-ci ildə 31 maddədən ibarət ticarət müqaviləsi ilə fransız tacirləri gömrük və vergilərdən azad edilir, onların mallarının təhlükəsizliyinə təminat verilir, fransız şirkətləri üçün xüsusi karvansaralar müəyyənləşir, müəyyən olunmuş miqdarda qızıl və gümüş alıb-sata bilər, fransız tacirlərinin sayı 20 nəfərə çatarsa karvansara xərclərindın azad edilirdilər. Müqavilədə malları oğurlanan tacirlərə dəyən zərərin ödənilməsi də göstərilirdi. Fransız din xadimlərinin dini ayinlərini azad icra etmək hüquqları da müqavilədə əksini tapırdı.

Şah Hüseynin holland və ingilislərə nisbətən Fransa ilə iqtisadi və siyasi əlaqələrə üstünlük verməsinin əsas səbəbi Fransa donanmasından istifadə edərək Maskat və İran körfəzində quldurluq edən, ticarət yollarındakı gediş-gəlişə mane olan dəniz quldurlarını məhv etmək idi. Çünki hollandlar və

ingilislər bu sahədə Sultan Hüseynə kömək etmək istəmirdilər. Sultan Hüseynin Fransaya göndərdiyi elçisi Məhəmməd Rza bəyi 1715-ci ildə Fransa kralı XIV Lüdovik özü qəbul etmişdi. Fransa ilə bağlanan 1715-ci il müqaviləsində 1708-ci il müqaviləsinə beş maddə əlavə edilmişdi. Bu müqavilədə əksini tapan əlavələr – fransız tacirləri idxal və ixraca görə vergi vermədən Səfəvi dövlətində hind və digər xarici ölkələrin mallarını ala bilərdilər; fransız səfirləri Səfəvi ölkəsində başqa ölkələrin səfirlərindən nüfuzlu olmalı idi; fransız tacirlərinin malları yoxlanılmamalı idi; fransızlar istədikləri qədər at ala bilərdilər; fransız tacirləri karvansaralarda pulsuz təmin olunmalı idilər — Fransa tacirlərinə verilən imtiyazlar daha da artırdı. Lakin XVII əsrin sonu — XVIII əsrin əvvəllərində Səfəvilər dövlətində baş vermiş iqtisadi tənəzzül ölkənin xarici ticarət dövriyyəsinə mənfi təsir göstərirdi.

### § 6.2. Rusiya dövləti ilə qarşılıqlı əlaqələr

XVI-XVII əsrlərdə Səfəvi dövlətinin xarici əlaqələrində Rusiya mühüm yer tuturdu. Səfəvilərin Rusiya ilə iqtisadi əlaqələri Xəzər-Volqa su yolu ilə həyata keçirilirdi. Bu yolun üzərində yerləşən Kazan və Həştərxan şəhərləri Səfəvi dövlətinin Avropaya və Rusiyaya əsas çıxış məntəqələri rolunu oynayırdı. Səfəvi elçisinin 1521-ci ildə Moskvaya gəlməsi və Moskva knyazından çoxlu top, ustalar və yaraq-əsləhə alması haqqında mənbələrdə məlumat vardır. Rusiya ilə Səfəvilər arasında siyasi əlaqələr I Şah Təhmasibin dövründə yaranmışdı. XVI əsrin ortalarınadək Rusiya-Səfəvi əlaqələri məhdud səciyyə daşımışdır.

1552-ci ildə Kazan, 1556-ci ildə Həştərxan xanlıqlarının Rusiya tərəfindən işğal edilməsi nəticəsində Xəzər-Volqa ticarət yolunun böyük bir hissəsi rusların əlinə keçdi. Həştərxanın işğalı bu ölkəni Xəzər dənizinə yaxınlaşdırdı və Rusiya Şərq ticarətinin açarını əldə etdi. Kazan və Həştərxan

xanlıqlarının əraziləri Rusiya dövləti tərəfindən ələ keçirildikdən sonra Azərbaycan Səfəvi dövləti ilə Rusiya arasında sabit əlaqələr yarandı. Bu əlaqələr Şamaxı və Bakı vasitəsi ilə həyata keçirildi. 1553-cü ildə Seyid Hüseynin başçılığı ilə Səfəvi nümayəndə heyəti Moskvaya gəlir. 1561-ci ildə Səfəvi elçisinin Moskvaya gəlməsi haqqında məlumat vardır. 1563-cü ildə Şirvan bəylərbəyi Abdulla xan Ustaclının nümayəndəsi Moskvaya göndərildi.

IV İvanın başı Livoniya müharibəsinə qarışdığına görə Səfəvi dövlətinin elçilərinə o qədər də əhəmiyyət verməmişdi. Bununla belə IV İvan Xəzərsahili ərazilərlə və Səfəvi dövlətinin digər hissələri ilə əlaqələrini yaxınlaşdırmaq üçün 1569-cu ildə Aleksey Xoznikovun başçılığı ilə öz nümayəndələrini I Şah Təhmasibin yanına göndərmişdi. Aleksey Xoznikov özü ilə Səfəvi sarayına 100 top və 500 tüfəng gətirmişdi. XVI əsrin 80-ci illərində Rusiya ilə Səfəvi dövləti arasında fasiləsiz səfirlik mübadiləsi olmuşdur.

Səfəvilərlə Rusiya arasında iqtisadi və siyasi əlaqələr I Şah Abbasın dövründə və ondan sonra inkişaf etmişdir. Rusiya-Səfəvi qarşılıqlı münasibətlərin əsas siyasi mövzusunu Osmanlılara qarşı birgə mübarizə aparmağın yollarının müzakirəsi təşkil etsə də, hər iki dövlət ticarət-iqtisadi əlaqələrin inkişaf etdirilməsinə böyük əhəmiyyət verirdi.

Rus tacirləri Səfəvi dövlətinə xəz (sincab), araq, ev quşları gətirir, buradan isə ipək parçalar, xam ipək, yun parçalar, aşılanmış dəri, şaqren, tumac, meyvə qurusu və başqa mallar alıb aparırdılar.

Rusiya 1580-cı ildə vaxtilə dağıtmaq məcburiyyətində qaldıqları Terek qalasını bərpa edib, bu ərazilərdə Kazakları yerləşdirdilər. Bundan sonra Qafqaz uğrunda Osmanlı-Səfəvi-Rusiya rəqabəti gücləndi. 1587-ci il sentyabrın 28-də rus çarının təkidi ilə Kaxet çarlığı Rusiyanın himayəsini qəbul etdi. Bu hadisə ilə əlaqədar Səfəvi elçisi Cəmşid xan Zəyəmdə rus elçisi ilə görüşdü. Səfəvi dövləti ilə münasibətləri qaydaya

salmaq üçün çar Fyodrun elçisi 1588-ci ilin sonunda Qəzvinə gəldi. Bu səfərdə məqsəd Səfəvi dövləti ilə münasibətləri qaydaya salmaq və Osmanlı dövlətinə qarşı hərbi ittifaq yaratmaq idi.

I Şah Abbas Hadi Bəylə Budaç bəyi rus elçisi ilə Moskvaya göndərdi. Səfəvi elçilərinin əsas məqsədi Osmanlı dövlətinə qarşı Rusiya ilə hərbi ittifaq bağlamaq haqqında danışıqlar aparmaq idi. Rusiyanın üçüncü Livoniya müharibəsindəki uğursuzluğu bu istiqamətdə danışıqlarda müsbət nəticə vermədi. I Şah Abbas Hadi bəyin başçılığı ilə Osmanlı dövlətinə qarşı mübarizədə Rusiyanın hərbi yardımını alamq üçün göndərdiyi elçilik də məqsədinə nail ola bilmədi. Bu uğursuzluqlara baxmayaraq I Şah Abbas, eyni zamanda Rusiya dövləti hər iki dövlət arasında siyasi və iqtisadi əlaqələrə xüsusi diqqət yetirirdilər.

I Şah Abbas 1592-ci ildə Hacı Xosrovun, 1593-cü ildə Hacı İsgəndər və Hacı Məhəmmədin başçılığı ilə Moskvaya elçilər göndərmişdi. Hər iki nümayəndə heyyətinə Moskvadan odlu silah və digər mallar almaq tapşırığı verilmişdi. 1593-cü ildə Rusiya Andrey Dmitriyeviç Zevinqorodskinin, 1595-ci ildə knyaz Vasili Vasilyeviç Tyufyakinin başçılığı ilə Səfəvi sarayına ticarət məqsədi ilə elçilər göndərmişdi. 1598-ci ildə Boris Qodunov (1598-1605) hakimiyyətə keçən kimi Aleksandr Zasikini Səfəvi sarayına göndərdi.

İstər I Şah Abbas, istərsə də rus çarları Fyodor İvanoviç və Boris Qodunov göndərdikləri elçilərə hər iki dövlət arasında zəruri malların gömrüksüz idxal-ixracına icazə verilməsi tapşırığını verirdilər.

I Şah Abbas 1603-cü ilin avqustunda öz elçisi Laçın bəyi Moskvaya göndərərək rus çarını Osmanlı dövləti ilə başladığı müharibəyə hərbi yardım göndərməsini bildirdi. Rusiya çarı Boris Qodunov isə Yaroslavskini Səfəvi sarayına göndərərək I Şah Abbasın Osmanlılarla müharibəyə başlayacağı halda Osmanlı dövləti ilə sülh bağlamayacağını bildirməklə kifayət-

ləndi. Yalnız Dağıstana rus qoşunu göndərərək Qafqazın yerli feodallarının Osmanlılara kömək etmələrinin qarşısını almağa cəhd etdi. Rusiya hökuməti bununla Dərbənd, Bakı və Şamaxını Səfəvilərdən qoparmaq niyyətində idi.

XVII əsrin əvvəllərində Rusiya dövləti daxilində baş vermiş siyasi çəkişmələr Rusiya – Səfəvi münasibətlərinə mənfi təsir göstərmişdi. 1613-cü ildə Romanovlar sülaləsi hakimiyyətə gələndən sonra Mixail Romanov (1613-1645) Səfəvi dövlətinə elçilər yola salmağa başladı. 1614-cü ildə Səfəvi sarayına gələn İvan Brexov Osmanlı – Səfəvi müharibəsinin nəticələrini öyrənməli və Səfəvi – Rusiya iqtisadi əlaqələrini bərpa etməli idi. Brexovun I Şah Abbasa gətirdiyi məktub türk dilində yazılmışdı.

1615-ci ildə Şah Abbasın səfiri Polad bəy 8 nəfər Səfəvi taciri ilə Rusiyada olmuş və 1616-ci ildə vətənə dönəndə rus çarının səfiri Leontiyev və bir neçə ticarət adamı da onunla gəlmişdi. Leontiyev rus çarının Polşa ilə müharibə apardığına görə hərbi silah almaq üçün şahdan maliyyə yardımı göstərməsi haqqında xahişini I Şah Abbasa çatdırmışdı.

1618-ci ildə knyaz M.Baryatinskinin başçılığı ilə gələn rus elçilərini həmin il noyabrın 14-də Qəzvində I Şah Abbas qəbul etdi. Səfəvi şahından maliyyə yardımı almaq məqsədi ilə Qəzvinə gəlmiş rus elçiləri məqsədlərinə nail ola bilmədilər və 1619-cu ilin sentyabr ayında geri qayıtdılar.

I Şah Abbasın dövründə Rusiya ilə Səfəvi dövləti arasında diplomatik əlaqələr daha da yaxşılaşırdı. 1617-ci ildə Osmanlı dövlətinin növbəti yürüşü zamanı rus çarı I Şah Abbasın müraciətini nəzərə alaraq Şimali Qafqaz yoluna qoşun yeridərək nəzarətə götürdü, Osmanlı ordusunun və Krım tatarlarının şimaldan Səfəvi dövləti üzərinə hücumuna imkan vermədi. Sözsüz ki, Osmanlı dövlətinin Şimali Qafqazda və Xəzər dənizi sahillərində möhkəmlənməsi Rusiyanın maraqlarına zidd idi. Rusiya hökuməti öz təsirini cənub istiqamətində

genişləndirmək və regionda iqtisadi və siyasi maraqlarını həyata keçirmək üçün I Şah Abbasın xahişini yerinə yetirdi.

Azərbaycan torpaqları Osmanlı işğalından azad edildikdən sonra rusların Şimali Qafqazda qalalarını bərpa etməsinə I Şah Abbas etiraz etmədi. Hətta ruslar II Şah Abbasın dövründə (1642-1666) Terek çayı sahilində yeni qalalar inşa etdilər. II Şah Abbasın dövründə də Rusiya ilə dostluq münasibəıtləri davam etmişdi. 1647-ci ildə Don kazaklarının Bakı ətrafında Səfəvi tacirlərinin mallarını qarət etməsi və XVII əsrin II yarısında Rusiyanın cənub sərhədlərini genişləndirmək siyasəti Səfəvi dövlətinin narazılığına səbəb oldu. Ruslar hətta Dərbənd ətrafında qalalar tikməyə başladılar. 1653-cü ildə Şirvan bəylərbəyi Xosrov xanın başçılığı ilə Şimali Azərbaycan xanları və bəzi Dağıstan hakimlərinin birgə qüvvələri ilə Dərbənd ətrafında tikilmiş qalalar dağıdıldı. II Şah Abbas Rusiya ilə münasibətləri pozmamaq üçün Terek çayı sahilində rusların tikdikləri qalalara dəymədi. Gürcü hakimlərinin Moskva ilə münasibətlərinin yaxınlaşması da Səfəvi hakimiyyətini narahat edirdi. Səfəvi dövləti ilə Rusiya arasında qarşıdurma 1662-ci ilə qədər davam etdi.

Rus səfiri Lobanov – Rostovskinin Şimali Qafqazda tikilən qalaların Səfəvi dövlətinə xələl gətirməyəcəyi fikrini II Şah Abbas səmimi qarşılamadı, səfirin Kaxetuya çarı Teymurazın geri qayıtmasına və Dağıstanda Rusiya əleyhinə çıxışlara son qoyulmasına kömək göstərmək təklifinə şah hakimiyyəti əks tələblər qoydu: Don kazaklarının Xəzər sahili ərazilərdə qarətlərinə son qoyulması, şahın razılığı olmadan Şimali Qafqazda tikilən qalalar dağıdılmamalı və gürcü Şəhzadəsi T.İrakli şaha təhvil verilməlidir. Beləliklə, ticarət məqsədlərindən başqa digər təkliflər şah tərəfindən qəbul edilmədi.

1658-ci ilin yayında Dakul Sultanın başçılığı ilə Moskvaya gələn Səfəvi elçilərinin və 1662-ci ildə Miloslavskinin rəhbərliyi ilə İsfahana gələn rus elçiliərinin məqsədləri hər iki dövlət arasında dostluq münasibətlərini qaydaya salmaq və

ticarət əlaqələrini yaxşılaşdırmaq idi. Rusiya, Polşa və İsveç dövlətləri ilə müharibədə xəzinəsi boşaldığına görə Səfəvi dövləti ilə ticarət əlaqələrinə xüsusi əhəmiyyət verirdi. Ona görə də Qafqaz məsələsində fəal siyasət yeritməkdən müvəqqəti olaraq çəkinsə də Qafqaz siyasətini dəyişmirdi.

XVII əsrin ortalarında hər iki dövlət arasında yaranmış münaqişə diplomatik və siyasi əlaqələrin inkişafına mənfi təsir göstərsə də bu əlaqələri tam aradan qaldırmadı. XVII əsrin ikinci yarısında Səfəvi dövləti ilə Rusiya arasında ticarət əlaqələri qaydaya salındı. Rus çarı Aleksey Mixayloviç (1645-1676) Səfəvi dövləti ilə ticarət əlaqələrini genişləndirməyə, iqtisadi əlaqələri gücləndirməyə çalışırdı. II Şah Abbas da bu məqsədlə 1664-cü ildə rus tacirlərinə Səfəvi ölkəsində azad ticarət etmək imtiyazları vermiş, onları gömrük rüsumundan və digər ödəmələrdən azad etmişdi. 1664-cü ildə Rusiyadan Səfəvi dövlətinə tərkibində çoxlu tacir gəlmiş böyük elçilik həmin imtiyazlara uyğun olaraq gömrük rüsumlarından azad edilmişdi.

1668-ci ildə Stepan Razinin başçılığı altında 40 qayıqdan ibarət iki min nəfərlik Don kazakları Azərbaycan ərazisinə yürüş etdilər. Onlar Dərbənd sahillərinə çıxaraq cənub istiqamətində hərəkət edib Nyazabadı və Şabranı qarət etdilər. Kazaklar Bakı şəhəri və Bakı ətrafı kəndlərdə coyğunçuluq etdikdən sonra Xəzərin cənub sahillərinə Gilana, Rəştə doğru irəlilədilər. Azərbaycanın bu ərazilərində qarət və talanlar törətdikdən sonra Rusiyaya Volqa çayının sahillərinə qayıtdılar. Rusiya dövləti üçün də təhlükəyə çevrilmiş kazakların hərəkatı Moskva knyazlığı tərəfindən 1671-ci ildə yatırıldı. Azərbaycanın Xəzər sahili əraziləri kazakların qarətçi və talançı basqınlarından azad oldu. Bu hadisə Rusiya-Səfəvi münasibətlərində gərginlik yaratsa da Rusiya hökumətinin kazakları cəzalandırması münasibətləri qaydaya saldı.

1667-ci il may ayının 31-də Rusiya hökuməti Səfəvi dövlətində fəaliyyət göstərən Culfa ticarət şirkəti ilə bağladığı

müqaviləyə görə Səfəvi ipəyini və digər malları Həştərxana daşımağı öz üzərinə götürmüşdü. Bu müqavilə Səfəvi ipəyini Həştərxan vasitəsi ilə Moskvaya, oradan isə Mərkəzi və Qərbi Avropaya çıxarmaq imkanı yaradırdı. Rus dövləti üçün Xəzər-Volqa yolu ilə həyata keçirilən ipək ticarəti xüsusi imtiyaz versə də Culfa ticarət şirkətinin erməni tacirlərinin əlində olması (bu üstünlük erməni tacirlərinə I Şah Abbasın hakimiyyəti dövründə verilmişdi) və erməni tacirlərinin Rusiyadan keçən tranzit ticarətdən öz xeyirlərinə istifadə etmələri Rusiyanın xəzinəsinə əvvəlki illərlə müqayisədə ziyanla başa gəlirdi. Beləki, əvvəllər rus tacirləri Səfəvilərdən malları özləri alaraq xarici ölkə tacirlərinə satır və bundan həm özləri, həm də dövlət xeyli gəlir əldə edirdi. Erməni tacirləri isə Avropa mallarını da Moskvadan yan keçirərək Şərq ölkələrinə gətirirdilər. Erməni tacirlərinin bu əməlləri üzə çıxmış, Rusiya hökuməti "Culfa" şirkəti ilə 1673-cü ildə yenidən müqavilə bağlayaraq müqavilənin şərtlərində dəyişiklik edərək şirkətin hüquqlarını azaltmış və Avropa ölkələrinə mal aparmsına icazə verməmişdi. Şirkət Səfəvi ipəyini yalnız Rusiya dövlətinə ixrac edə bilərdi.

XVII əsrin sonlarında Rusiya Osmanlı dövləti ilə müharibə aparmaq üçün Səfəvi dövlətini bu münaqişəyə cəlb etmək istəyirdi. 1675-ci ildə Səfəvi sarayına gələn rus elçiləri Rusiyanın Osmanlı dövləti ilə müharibəyə başlayacağı halda Səfəvi dövlətinin bu müharibəyə qoşulmasını israrla təklif etdilər. Lakin Səfəvi hökuməti bu müharibədə bitərəf qalacağını bildirdi. Bununla yanaşı XVII əsrin sonunda Rusiya Xəzər dənizinə Şərq ölkələrinə müdaxilə vasitəsi kimi baxır və Qafqazda öz işğalçılıq siyasətini həyata keçirməyə fürsət gözləyirdi. I Pyotr da Səfəvi dövlətindən Osmanlıya qarşı mübarizədə istifadə etmək istəyirdi. 1697-1698-ci illərdə o, Səfəvi sarayında rezident postu yaratmağa çalışırdı.

Beləliklə, XVII əsr boyu Səfəvi-Rusiya siyasi və iqtisadi əlaqələri müəyyən maneə və çətinliklərə baxmayaraq inkişaf edərək genişlənmişdi.

XVII əsrin sonu – XVIII əsrin əvvəllərində Rusiya dövləti ilə Səfəvi dövləti arasında iqtisadi əlaqələr davam etdirilirdi. Müntəzəm olaraq hər il Səfəvi dövlətindən Rusiyaya, Rusiyadan isə Səfəvi məmləkətinə tacirlər gəlir, gətirdikləri malların satışını həyata keçirirdilər. 1706-cı ilin yayında şahın xüsusi məktubu ilə Şəmsi Məhəmməd Kazım bəyin başçılığı ilə 30 nəfərdən ibarət heyət Moskvaya yola düşmüşdü. Rusiya hökuməti Səfəvi şahının gətirilən mallara gömrük rüsumu ödənilməməsi haqqında xahişini nəzərə almışdı. Səfəvi tacirləri gətirdikləri malları sataraq şah sarayı üçün lazım olan malları alıb geri dönmüşdülər. Şah Hüseyn Kazım bəy vasitəsi ilə I Pyotra hədiyyələr də göndərmişdi.

XVII əsrin sonu – XVIII əsrin əvvəllərində Rusiya dövləti Qərbi Avropa dövlətlərinin İran körfəzində ticarət üstünlüyü uğrunda apardıqları mübarizə şəraitində bəzi Avropa dövlətləri ilə Şərq ticarət əlaqələrinin qurulmasında vasitəçilik edirdi. Rusiya dövləti Avropa mallarının onun ərazisindən keçərək Səfəvi dövlətinə aparılmasına icazə verir və bu ticarətdən gəlir götürürdü. Səfəvi dövlətindən aparılan mallar daha sərfəli və qısa yolla Rusiyadan Avropaya aparılırdı. Lakin Rusiya hökuməti Səfəvi və digər Şərq dövlətləri ilə ticarətdə verdiyi imtiyazları ləğv edərək yüksək gömrük rüsumu tətbiq etdi. Bununla Şərq bazarından onları sıxışdırıb çıxarırdı.

XVII əsrin sonu – XVIII əsrin əvvəllərində Rusiya dövlətində baş vermiş iqtisadi tənəzzül Səfəvi – Rusiya ticarət əlaqələrinə də mənfi təsir göstərirdi.

## § 6.3. Böyük Moğol dövləti ilə əlaqələr

XVI-XVII əsrlərdə Səfəvi dövlətinin ipək ticarətində Avropa ölkələri ilə yanaşı Hindistan da mühüm rol oynayırdı. Hindistan Səfəvi ipəyinin əsas alıcılarından biri sayılırdı. Bu

ölkələr arasında ticarət birtərəfli qaydada aparılmır və qarşılıqlı faydaya əsaslanırdı. Hindistanla Səfəvi dövləti arasında iqtisadi-ticarət əlaqəsi quru karvan yolu ilə yanaşı okeandan keçərək İran körfəzinə daxil olan su yolu ilə də aparılırdı. Bu dövrdə İran körfəzində əsas ticarət məntəqəsi Hörmüz idi. Hindistanla qarşılıqlı iqtisadi-ticarət əlaqələrinin genişlənməsi Səfəvilərə böyük gəlir gətirirdi. Hindistan tacirlərinin Səfəvi ölkəsinə gətirdikləri məhsullar içərisində ədviyyat əsas yer tuturdu. Portuqaliya Hörmüzü tutduqdan sonra Səfəvi dövləti ilə Hindistan arasında ticarət başlıca olaraq quru karvan yolları vasitəsi ilə aparılırdı.

Səfəvi dövlətinin cənub-şərqində həmsərhəd olduğu Moğol dövləti ilə I Şah İsmayılın dövründə dostluq münasibəti yaradılmışdı. Bu münasibətlərin əsasında yalnız əlverişli iqtisadi əlaqələr deyil, həmdə Əfqanstana və Şimali Hindistana tez-tez hücüm edən Şeybanilər dövləti ilə ümumi düşmənçilik münasibətləri dayanırdı. I Şah İsmayıl Baburun Türküstan və Mavəraünnəhrdə möhkəmlənməsinə kömək göstərdi. I Şah İsmayılın ölümündən sonra bu münasibətlər daha intensiv xarakter aldı. Babur I Şah Təhmasib hakimiyyətə gələndən sonra onu təbrik etmək üçün öz elçisi Hacəyi Əsədi 1527-ci ildə Səfəvi sarayına göndərdi. I Şah Təhmasib də Moğol dövləti ilə əlaqələri yaxınlaşdırmaq məqsədi ilə 1529-cu ildə Həsən Çələbini Babur sarayına səfir göndərdi.

Moğol hökmdarı Humayunun dövründə (1530-1555) bu əlaqələr daha da yaxşılaşdı. Lakin bu iki dövlət arasında mübahisəli Qəndəhar məsələsi mövcud idi. Qəndəhar Hindistanla Səfəvi dövləti arasında mühüm ticarət məntəqəsi rolunu oynamaqla həmdə Xorasanın təhlükəsizliyi üçün hərbi-strateji əhəmiyyətə malik idi. Buna görə də Qəndəhar hər iki dövlət arasında münaqişəyə səbəb olur və tez-tez əldən ələ keçirdi. 1537-ci ilin sonunda I Şah Təhmasib Qəndəharı tutmasına baxmayaraq, 1538-ci ildə Moğol dövləti bu şəhəri geri qaytardı. Az sonra Əfqan hökmdarı Şirxanla döyüşdə məğlubiyyətə

uğrayıb hakimiyyətdən salınan Dehli hökmdarı 1544-cü ildə Səfəvi ölkəsinə gələrək kömək istədi. I Şah Təhmasib Humayunu hökmdar kimi qarşıladı və ona hərbi yardım göstərərək yenidən hakimiyyəti ələ almasına kömək etdi. Bu köməyə görə Şah Humayun Qəndəharı Səfəvilərə güzəşdə getdi. I Şah Təhmasib Humayun şahla sıx diplomatik əlaqə saxlayırdı. Bu əlaqələr Humayun şahın oğlu Əkbər şahın döründə də (1556-1605) davam etdirilmişdir.

Lakin Kabulun və Xorasanın təhlükəsizliyi üçün mühüm strateji əhəmiyyətə malik Qəndahar üstündə münasibətlər dəyişdi.

Əkbər şahın ölkə daxilində baş vermiş çəkişmələrə başının qarışmasından istifadə edərək 1558-ci ildə I Şah Təhmasib Qəndəharı ələ keçirdi. Bu Səfəvilərlə Moğol dövləti arasında münasibətlərə mənfi təsir göstərdi. I Şah Təhmasib Əkbər şahla münasibətləri qaydaya salmaq üçün 1559-cu ildə Seyid bəy Səfəvini, 1564-cü ildə yenə öz elçisini Əkbər şahın sarayına göndərdi. Əkbər şah isə I Şah Təhmasibin elçilərlə göndərdiyi məktubları cavabsız qoydu.

Şah Məhəmməd Xüdabəndənin hakimiyyəti dövrünə qədər əslində Qəndəhar məsələsinə görə siyasi münasibətlər kəsilmişdi. Məhəmməd Xudabəndə, həmçinin I Şah Abbas Osmanlılara qarşı mübarizə aparmaq üçün Əkbər şaha yardım göstərməsi üçün kömək etməsini xahiş etmişdilər. Hər iki müraciətlə əlaqədar Əkbər şah öz elçiləri vasitəsi ilə məsləhət və fikirlərini bildirərək tövsiyə verməklə kifayətləndi.

1591-ci ildə I Şah Abbas Xorasanı özbəklərdən azad etmək üçün yardım göstərməsi ilə əlaqədar Yadigar Əli Sultan Rumlunu Əkbər şahın sarayına göndərdi. Səfəvi elçisi yaxşı qəbul edilsə də I Şah Abbasın təklifi qəbul olunmadı. 1595-ci ildə Qəndəharı Moğollar ələ keçirdilər. I Şah Abbas Mənucöhr bəy vasitəsi ilə göndərdiyi məktubda Qəndəharın qaytarılmasını tələb etsə də, bu heç bir nəticə vermədi. 1596-cı ildə Əkbər şah öz elçilərini hədiyyələrlə Səfəvi sarayına göndərdi. Elçilər I Şah

Abbas tərəfindən yaxşı qarşılandı. 1597-ci ildə I Şah Abbas öz elçilərini hədiyyələrlə Moğol sarayına göndərdi. I Şah Abbas Əkbər şahın özbəklərlə sülh bağlamaq təklifinə cavab olaraq itirilmiş torpaqları geri qaytaracağını bildirirdi.

I Şah Abbas Əkbər şahın oğlu Cahangirlə (1605-1627) də dostluq əlaqələrini davam etdirməyə çalışdı. 1611, 1613, 1614, 1615, 1618-ci illərdə qarşılıqlı elçilik münasibətləri Səfəvi-Moğol əlaqələrinin yaxınlaşmasına səbəb olmuşdu. 1619-cu ildə I Şah Abbas Osmanlı dövləti ilə müharibənin başa çatmasını nəzərə alaraq Moğol elçisi Xanaləmlə birlikdə Zeynal bəy Şamlını Moğol sarayına göndərdi və Moğol hərbi hissələrinin Qəndəhardan çıxarılmasını tələb etdi. I Şah Abbasın 1620-ci ildə göndərdiyi elçilər Moğol hökmdarı tərəfindən yaxşı qarşılandı. I Şah Abbas tərəfindən 1622-ci il iyunun 21-də Qəndəhar ələ keçirilənə qədər davam edən qarşılıqlı elçilik münasibətləri pozulmamışdı.

I Şah Abbas Qəndəharı ələ keçirməsi ilə əlaqədar ya ranmış gərginliyi aradan qaldırmaq üçün öz elçilərini xüsusi məktubla Moğol sarayına göndərdi. Moğol hökmdarı elçiləri qəbul etdi və I Şah Abbasa göndərdiyi məktubda öz narazılığını ifadə etdi.

I Şah Abbas 1624, 1625, 1626-cı illərdə öz elçilərini Moğol sarayına göndərməklə Moğol dövləti ilə münasibətləri qaydasına salmağa çalışırdı. Moğol dövlətində yaranmış daxili çəkişmə və Şah Cahanın atasına qarşı qiyamı Şah Cahangirin Qəndəharı geri qaytarmasına mane olmuşdur.

1627-ci ildə Cahangirin ölümündən sonra hakimiyyətə Şah Cahan keçdi (1627-1658). Şah Cahanla I Şah Səfi (1629-1642) arasında elçilik münasibətləri davam etdi. Osmanlılarla Səfəvilər arasında müharibənin başlanmasından istifadə edən Moğol hökmdarı Səfəvilərlə Moğol dövləti arasında mühüm iqtisadi-ticarət əhəmiyyəti daşıyan Qəndəharı yenidən ələ keçirdi. 1638-ci ildə Qəndəhar hakimi Əlimərdan xan qalanı Moğollara təslim etdi. I Şah Səfi Qəndəhara yürüş təşkil etsə də

Kaşanda vəfat edir. 1642-ci il mayın 16-da hakimiyyətə oğlu Sultan Məhəmməd II Şah Abbas (1642-1666-cı illər) adı ilə gəldi. II Şah Abbasın hakimiyyətinin ilk illərində Moğol dövləti ilə diplomatik əlaqələr davam etsə də, Səfəvi dövləti Qəndəharı güzəştə getmək istəmirdi. Moğol dövlətində daxili çəkişmələrin artdığı, əfqanların və özbəklərin Moğol dövlətinin şimal-qərb sərhədlərində fəallaşmasından istifadə edən II Şah Abbas 1649-cu ilin fevral ayında Qəndəharı ələ keçirdi. Moğol hökmdarı Şah Cahanın 1649, 1652və1653-cü illərdə Qəndəhar üzərinə təşkil etdiyi yürüşlər heç bir nəticə vermədi. Moğol hökmdarı Qurən-greybin hakimiyyəti illərində (1658-1707) Səfəvi dövləti ilə sülh və dostluq əlaqələri qorunub saxlanmışdı. XVII əsrin sonunda Moğol dövləti Qəndəharın verilməsini tələb etsə də Səfəvi sarayı rədd cavabı verdi.

Beləliklə, XVI-XVII əsrlərdə Qəndəhar məsələsi Səfəvi və Moğol dövlətləri arasında sülh və dostluq münasibətlərini poza bilmədi. XVI-XVII əsrlərdə Azərbaycanla Hindistan arasında geniş ticarət əlaqələri mövcud olmuşdur. XVII əsrdə Hindistan malları Qərbi Avropa və Rusiyaya əsasən Volqa-Xəzər yolu ilə daxil olurdu. Bu yolla bağlı əsas ticarət mərkəzləri isə Bakı, Şamaxı, Şabran, Ərdəbil və Təbriz şəhərləri idi.

XVII əsrdə Azərbaycanla Hindistan arasındakı mal mübadiləsinin genişlənməsindən istifadə edən hind tacirləri Şamaxıda, Bakıda böyük kapital sahibi olmaqla, Azərbaycan şəhərlərində yerləşib möhkəmlənmişdilər. Təbriz, Ərdəbil, Salyan və Ərəşdə çoxlu Hind tacirləri yaşayırdı.

XVII əsrin ikinci yarısında Hind tacirləri Səfəvi bazarlarında digər ölkə tacirləri ilə müqayisədə tam üstünlük qazanmışdılar. Hind tacirləri Şərq ölkələri ilə, xüsusilə Çinlə ticarətidə tamamilə öz əllərinə keçirmişdilər.

Göründüyü kimi, Səfəvi dövləti ilə Böyük Moğol dövləti arasında yaranmış dostluq münasibətləri iqtisadi-ticarət əlaqələrinin də genişlənməsinə və sabit səciyyə daşımasına müsbət təsir göstərmişdir.

## § 6.4. Səfəvi-Şeybani münasibətləri

1487-ci ildə köçəri özbək tayfalarının başçısı Məhəmməd Şeybani Türküstanın şəhərlərinin birinin hakimi olandan sonra öz ərazilərini genişləndirərək teymurilərin hərbi qüvvələrini məğlubiyyətə uğradıb, 1499-cu ilin sonu, 1500-cü ilin əvvəllərində Səmərqənd, Buxara, Daşkənd şəhərlərini və Fərqanə vadisini ələ keçirdi. 1501-ci ildə Mavərəünnəhr torpaqları da Məhəmməd Şeybaninin tərəfindən tutuldu. 1501-ci ildə Səmərqəndi paytaxt elan etdi. O, 1503-cü ildə uyğur torpaqlarını, Daşkənd və Sayram vilayətlərini tutduqdan sonra teymurilərin son dayağı olan Xorasana yürüş etdi. 1504-cü ildə Ürgənc şəhəri on aylıq mühasirədən sonra Şeybanilərə təslim oldu. 1506-cı ildə Xorasan və Bəlx yaxınlığında gedən döyüşlərdə Teymuri Sultan Hüseyn məğlubiyyətə uğrayaraq həlak oldu. 1507-ci ilin may ayında Herat ələ keçirilməklə bütün Xorasan vilayəti, Bəlx ətrafı bölgələr Məhəmməd Şeybani tərəfindən tutuldu. 1508-ci ildə Teymuri şəhzadəsi Bədüəzzaman Mirzə I Şah İsmayıla sığınmağa məcbur oldu. Beləliklə, Məhəmməd Şeybani xan Teymurilər sülaləsinin hakimiyyətinə son qoydu.

Şeybanilər Xorasanı ələ keçirmək uğrunda mübarizədə dini fanatizmdən istifadə edərək yürüşlərini şiəliyə qarşı "müqəddəs müharibə" şüarı altında aparırdılar. Şeybanilərin Kirman və Yəzdə hərbi yürüşləri,Teymuri Bədüəzzaman Mirzənin I Şah İsmayıldan kömək istəməsi, şiələrin müqəddəs şəhəri Məşhədin Xorasanda yerləşməsi Orta Asiya və Böyük Moğol dövləti ilə Səfəvilər dövləti arasında əsas keçid əlaqəsi kimi əhəmiyyətli strateji mövqeyi, Kirman hakiminin Şeybanilər tərəfindən öldürülərək şəhərin dağıdılması, Məhəmməd Şeybani xanın I Şah İsmayıla təkəbbürlü məktubu I Şah İsmayılı Xorasana yürüşə vadar etdi. I Şah İsmayıl yürüşdən əvvəl Məhəmməd bəy Rumlunun başçılığı ilə Özbək xanının sarayına öz elçilərini göndərdi. Bu elçiliyin müsbət nəticəsi

olmadı. 1508-ci ilin iyul ayında Şeyx Məhyəddin Əhmədi məktubla yenə Şeybani xanın yanına yola saldı. Məktubun məzmunu dostluq ruhunda yazılmış və Xorasandan özbəklərin geri çəkilməsi məsləhət bilinirdi. Şeybani xan isə məktubunda İsmayıla darğa kimi müraciət edir, hökmranlığın ona yaraşmadığını bildirirdi. I Şah İsmayıl Məhəmməd Şeybani xana Qazi Ziyəddin Nurullah vasitəsi ilə göndərdiyi cavab məktubunda Məşhəddə İmam Rzanın qəbrini ziyarət edəcəyini və Xorasana yürüşə başlayacağını bildirdi.

I Şah İsmayılın Xorasan yürüşündən xəbər tutan Məhəmməd Şeybani xan Heratdan Mərvə gedərək hərbi hazırlığa başladı. I İsmayıl bundan xəbər tutaraq Mərvə qoşun göndərdi. Özü isə Məşhəddə qalaraq İmam Rzanın qəbrini ziyarət etdi. Məhəmməd Şeybani xanın göndərdiyi ordunu Qızılbaşlar Tahirabad kəndində baş vermiş döyüşdə məğlub etdilər. Özbək qoşunu Mərv qalasına çəkildi. Qızılbaşlar Mərv qalasını mühasirəyə aldılar. Noyabrın 28-də I Şah İsmayıl Mərvə yaxınlaşdı. Mərv qalası möhkəm mühafizə olunduğu üçün İsmayıl hərbi hiyləyə əl atdı. Noyabrın 30-da ordunu geriyə, Mərv qalasının 3 fərsəxliyinə (1 fərsəx 7 km-dir) çəkdi. 300 nəfərdən ibarət dəstə isə Mərv yaxınlığında saxlanıldı. Özbəklər qaladan çıxıb onları təqib edəndə həmin dəstə geriyə doğru qaçmalı idi. Şeybani hökmdar I Şah İsmayılın geri qayıtdığını zənn edib onu təqib etmək üçün qaladan çıxdı. Bu zaman İsmayılın elçisi məktubu Məhəmməd Şeybani xana çatdırdı. Məktubda I Şah İsmayıl Məşhədə ziyarətə getdiyini və qışı keçirərək yazda Xorasana yürüş edəcəyini bildirirdi. Məhəmməd xan qızılbaşların geri qayıtmasına tam inanıb onları təqib etməyi davam etdirdi.

1510-cu il dekabrın 1-də Məhəmməd Şeybani xanın qoşunu ilə Qızılbaş ordusu qarşılaşdı. Özbək ordusu ağır məğlubiyyətə uğradı və Məhəmməd Şeybani xan öldürüldü. Bu qələbə Amudəryaya qədər Xorasanın Səfəvi dövlətinin tərkibinə keçməsini təmin etdi. 1511-ci ildə qızılbaşlar Bəlx vilayətini tutdu. Buxara hakimi Übeydulla xan və Səmərqənd

hakimi Məhəmməd Teymur Sultan öz elçilərini I Şah İsmayılın yanına göndərib itaət etdiklərini bildirsələr də, 1513-cü ildə Özbək xanları Dəşti-Qıpçaq qazaxlarının qüvvələri ilə birlikdə yürüşə çıxdılar. Qızılbaş ordusu Bəlx ərazisində onları ağır məğlubiyyətə uğratdı. I Şah İsmayıl Özbək xanlarının sülh təklifini qəbul etdi. Beləliklə, Amudərya sərhəd olmaqla Xorasan Səfəvilər dövlətinə qatıldı.

I Şah İsmayılın ölümündən sonra Səfəvi dövlətində yaranmış daxili çəkişmələrdən istifadə edərək Məhəmməd Şeybani xanın oğlu Übeydulla xan Xorasan üzərinə yürüşə başladı. Übeydulla xanın 1524-cü ildə etdiyi yürüşün Xorasan bəylərbəyi Durmuş xan Şamlının müqaviməti ilə qarşısı alındı.1526-cı ildə Durmuş xanın ölümündən sonra Xorasanda yaranmış hərc-mərclikdən istifadə edən Übeydulla xan Tus şəhərini və Astrabadı ələ keçirdi. 1527-1528-ci illərdə Übeydulla xan Xorasanın mərkəzi Heratı mühasirəyə aldı. Mühasirə yeddi ay davam etdi. I Şah Təhmasibin yaxınlaşması ilə özbəklər şəhərin mühasirəsindən əl çəkdilər.1528-ci ildə Cam vilayətində tərəflər arasında döyüş baş verdi. Özbək ordusu çoxlu itki verərək məğlub oldu. Bağdadda baş vermiş qiyamla əlaqədar şah ordusu geri qayıtdıqdan sonra Übeydulla xan Məşhədi və Heratı ələ keçirdi. 1529-cu ilin sonunda I Təhmasib Xorasandan özbəkləri çıxarıb qardaşı Bəhram Mirzəni Xorasan hakimi təyin etdi. 1531-ci ildə Übeydulla xan yenidən Məşhədi tutub Heratı mühasirəyə aldı. Heratın mühasirəsi il yarım çəkdi. 1532-ci ilin sonunda I Təhmasibin yürüşü ilə əlaqədar mühasirəni dayandırıb geri çəkildilər.

1534-cü ildə vəkil Hüseyn xan Şamlının öldürülməsi ilə əlaqədar Xorasan bəylərbəyi Ağzıvar xan mərkəzi hakimiyyətə qarşı qiyam qaldırdı. 1535-1536-cı illərdə Übeydulla xan Xorasanda yaranmış hərc-mərclikdən istifadə edərək yenidən yürüşə başladı. 1536-ci il martın 11-də Heratı mühasirəyə aldı, 5 aydan sonra 1536-cı il avqustun 15-də Heratı ələ keçirdi. Yalnız 1537-ci il yanvarın 29-da I Şah Təhmasibin böyük ordu

ilə Herata yaxınlaşmasından xəbər tutan Übeydulla xan Qızılbaş ordusu ilə döyüşməkdən ehtiyat edib Heratdan geri çəkildi. Übeydulla xanın 1539-1540-cı illərdə sonuncu yürüşləri zamanı ölməsi ilə özbəklərin Xorasan üzərinə təhlükəli yürüşlərinə son qoyuldu. Özbək xanları 1543, 1545, 1548, 1550, 1555, 1558, 1559-1560, 1563-1564, 1566-1567, 1569-1570-ci illərdə Xorasana yürüşlər etsələr də bu yürüşlər uğursuz oldu.

1587-ci ildə Səfəvi dövlətinin Osmanlılarla müharibədə yaranmış ağır vəziyyətindən istifadə edərək Özbək hökmdarı II Abdulla xan Herat üzərinə yürüş etdi. I Şah Abbas 1588-ci ildə Xorasana yürüşə başladı. Şah naibüs-səltənə Mürşüdqulu xan Ustaclıya Xorasana yürüşə başlamağı tapşırsa da Mürşüdqulu xan şahın mövqeyinin güclənməsindən ehtiyat edərək yürüşü gecikdirdi. Herata yardım gecikdiyinə görə doqquz aylıq mühasirədən sonra 1588-ci il martın 17-də Herat təslim oldu.

1588-ci il aprelin 9-da Mürşüdqulu xanın hazırlığından sonra Xorasana yürüş başladı. O, Xorasan yürüşü ilə əlaqədar yolda olanda Osmanlı dövləti ilə sülh bağlamağa razılıq verilmişdi. Mürşüdqulu xanın Osmanlı elçisini bir müddət Qəzvində saxlaması nəticəsində sülh bağlamaq mümkün olmadı və Osmanlılar daha çox ərazilər ələ keçirdi. Ona görə də I Şah Abbas 1588-ci il avqustun 3-də vəkili Mürşüdqulu xanı öldürtdü.

1589-cu ilin martında I Şah Abbas Osmanlı ordusunun Həmədan istiqamətində irəliləməsi və ərzaq çatışmamazlığı üzündən Heratın mühasirəsini dayandıraraq Qəzvinə qayıtdı. Bundan istifadə edən özbəklər Məşhədi və bir sıra əraziləri ələ keçirdilər.

1590-cı ildə Osmanlı dövləti ilə sülh müqaviləsi bağlayan I Şah Abbas itirilmiş torpaqların geri qaytarılması üçün hazırlaşmağa vaxt qazandı. I Şah Abbas 1591, 1592-ci illərdə Xorasana yürüşə hazırlaşsa da ölkədə baş verən daxili çəkişmələr buna mane oldu. 1592-ci ildə Mərv, 1593-cü ildə

Nişapur şəhəri özbəklər tərəfindən tutuldu. 1595-ci ilin aprelində I Şah Abbas Fərhad xan Qaramanlını Xorasan hakimi təyin etdi və Xorasan torpaqlarını özbəklərdən azad etməyi ona tapşırdı. Özbəklərin Əsfərayin qalasını mühasirəyə alması xəbərini alan I Şah Abbas Xorasana yürüşə başladı. Əsfərayin qalasının tutulması Qəzvin yolunu onların üzünə açırdı. II Abdulla xanın oğlu Əbdülmömin xan I Şah Abbas arasında qırıcı məktublardan sonra 1595-ci ilin yayında I Şah Abbasın məktub gətirən elçisini öldürtdü. 1595-ci ilin sentyabrında özbək ordusu Səbzvara hücum edərək qarət və talan törətdilər. Əbdülmömin xan I Şah Abbasın yaxınlaşdığını eşitdikdə Bəlxə qaçdı. Qışın yaxınlaşması və ərzaq çatışmamazlığına görə şah Qəzvinə qayıtdı.

1597-ci ildə I Şah Abbas II Abdullanın yanına öz elçisini göndərdi. I Şah Abbas məktubunda aparılan müharibələrə baxmayaraq iki müsəlman ölkəsi kimi razılığa gələrək sülh bağlamaq təklif edirdi. Abdulla xan I Şah Abbasın sülh təklifini qəbul etmədi. Lakin bir qədər sonra II Abdulla xan oğlu Əbdülmömin xanın ona qarşı çıxmasını və şərqdən qazaxların yürüşünü nəzərə alaraq Səfəvi sarayına elçi göndərdi. 1598-ci ilin yanvarında Səfəvi sarayına gələn elçinin sülh təklifini isə bu dəfə I Şah Abbas qəbul etmədi.

1598-ci il fevralın 8-də II Abdulla xanın vəfatından sonra özbək xanları arasında yaranmış çəkişmələrdən istifadə edərək I Şah Abbas itirilmiş torpaqları geri qaytarmaq üçün aprelin 9-da Xorasan uğrunda yürüşə başladı. I Şah Abbas Astarabadı, sonra Məşhədi ələ keçirdi və həmin şəhərlərə hakim təyin etdi. Şah qoşunu 1598-ci il avqustun 1-də Məşhəddən Herat istiqamətində hərəkət etdi. I Şah Abbas Əbdülmömin xana göndərdiyi məktubda müsəlman əhalisini qırğına verməməyi tələb edirdi. Əbdülmömin xanın özbək sərkərdələri tərəfindən öldürülməsi məktubu cavabsız qoydu. Həştərxanlı Canıbəy Sultanın oğlu Div Məhəmməd xanın hakimiyyətə keçməsi ilə Özbək xanlığında Şeybanilər sülaləsinin hakimiyyətinə son qoyuldu,

Həştərxanilər sülaləsi hakimiyyətə gəldi. Div Məhəmməd xan da Heratda oturaraq özbək xanlarını Xorasan uğrunda mübarizəyə təhrik etdi. 1598-ci il avqustun 10-da Herat yaxınlığında Div Məhəmməd xanın ordusu ilə Səfəvi ordusu üz-üzə gəldi. Gərgin gedən döyüş qızılbaşların qələbəsi ilə nəticələndi. Div Məhəmməd bu döyüşdə öldürüldü. Beləliklə, 1598-ci il avqustun 10-da baş vermiş Puli-Salar döyüşündə I Şah Abbasın özbək qoşunu üzərində qələbəsi Xorasan uğrunda XVI əsr boyu davam edən hərbi qarşıdurmanı Səfəvilərin xeyrinə həll etdi.

# VII FƏSİL

# DÖVLƏT QURULUŞU

## § 7.1. İdarə sistemi

Səfəvi dövlətinin idarə sistemi Qaraqoyunlu və Ağqoyunluların dövlətçilik ənənələri əsasında yaradılmışdı. I İsmayıl Lahicanı tərk etdikdən bir qədər sonra Şamlı Hüseyn bəylərin təklifi ilə siyasi məram və məqsədlərini planlı şəkildə həyata keçirmək məqsədi ilə saray təşkilatı yaratmışdılar. İsmayıl hakimiyyətə keçənə qədər yüksək hərbi zümrənin sayəsində yeni dövlət aparatının əsasını qoymuş, ələ keçirilmiş ərazilərdə yerli idarəçilik forması yaradılmışdı.

I Şah İsmayıl Azərbaycanda hakimiyyətini bərqərar etdikdən sonra bir sıra qonşu ölkələri də ələ keçirərək güclü imperatorluq yaratdı. Bu imperiyanın ərazisində yaşayan xalqları ortaq siyasi və ideoloji əqidə birliyinə qovuşdurdu. Türk tayfa əsilzadələrini mərkəzi və yerli idarə orqanlarında yerləşdirib onlara geniş səlahiyyətlər verdi.

Səfəvi sülaləsinin hakimiyyəti ilə formalaşmış dövlət əslində dini hakimiyyətlə dünyəvi hakimiyyətin birləşmiş forması idi. I Şah İsmayıl dünyəvi başçı olmaqla yanaşı ruhani-mənəvi təşkilatlara da nəzarətçi və həm də mürşid-i kamil vəzifəsini özündə saxlayırdı. Şah qeyri-məhdud hakimiyyətə malik olmaqla ölkənin dini idarələrinin başçısı hesab olunurdu. Azərbaycan Səfəvi dövləti mütləq monarxiya idi.

Mərkəzi idarə sistemində on iki nəfərdən ibarət məşvərətçi hüquqa malik ali məclis də fəaliyyət göstərirdi. Lakin son sözü Şah deyir və onun rəyi əsasında qərar qəbul olunurdu.

I Şah İsmayıl imperatorluğun bütün bölgələrində türk-qızılbaş tayfalarını yerləşdirir və dövlətin hərbi-siyasi dayaqlarını onların hesabına möhkəmləndirirdi. Şiraz vilayətinə Zülqədər, Diyarbəkir vilayətinə Ustaclı, Herat vilayətinə Şamlı,

Bəlx vilayətinə Rumlu, İsfahan, Həmədan və Əcəm İraqına Təkəli, Bağdada Türkman tayfaları köçürülərək, həmin bölgələrin idarə edilməsi onlara tapşırılmışdı. I Şah Təhmasibin, I Şah İsmayılın və Məhəmməd Xudabəndənin hakimiyyətləri dövründə də ölkənin digər etnoslar yaşadığı ərazilərdə qızılbaş tayfalarının hesabına yerli dayaqların möhkəmləndirilməsinə xüsusi diqqət yetirilir və həmin bölgələrə qızılbaş əyanlarından bəylərbəyi təyin edilirdi. Lakin I Şah Abbasın dövründə ölkədə baş verən seperatizmin qarşısını almaq, mərkəzi hökuməti möhkəmləndirmək üçün qeyri-türk tayfa nümayəndələrindən dövlət idarəetmə orqanlarında müxtəlif vəzifələrə təyinatlar olmuşdur. Bu siyasət söz yox ki, dövlətin mahiyyətinin dəyişməsi deyil, bəzi qızılbaş tayfalarının hərbi-iqtisadi qüdrətini zəiflətmək və mərkəzi hakimiyyəti möhkəmləndirmək məqsədi daşıyırdı. I Şah Abbas Mazandaran və Fars bölgələrində dövlətin dayaqlarını türk etnoslarının hesabına möhkəmləndirmək üçün Qarabağdan və Azərbaycanın digər ərazilərindən əhalinin bir hissəsini ora köçürmüşdü.

Səfəvi nəslinin nümayəndələri Azərbaycan Səfəvi dövləti yaranana qədər səfəviyyə cəmiyyətinə pir, yaxud mürşid-i kamil ünvanı ilə rəhbərlik edərək şeyx titulu daşıyırdılar.

1501 ci ildə hakimiyyətə gələn Şah İsmayıl və sonrakı Səfəvi şahları mürşid-i kamillik titulunu özlərində saxlayıdılar. Xəlifət əl-xüləfa isə dini məsələlər üzrə onların müavini idi. Sufi, dərviş, mürid, qazi və abdallar qızılbaş döyüşçüləri kimi cəmiyyətin sosial-hərbi dayağını təşkil edirdilər. Xəlifət əl-xüləfanın əsas fəaliyyəti cəmiyyətin tərəfdarlarının sayını artırmaq və möhkəmləndirmək idi. Ona görö də cəmiyyətin müridlərinin sayını artırmaq və onlara rəhbərlik etmək üçün cəmiyətin ideologiyasını öyrətməkdə xüsusi təlim keçmiş, inanılmış sufilərdən vilayətlərə vəkil, yaxud xəlifələr də təyin edilirdi.

Xəlifət əl-xüləfa birbaşa şaha tabe idi və səfəviyyə cəmiyyətinin başçısı kimi çox yüksık statusa malik idi. O, vaxtlı-

vaxtında dini yığıncaqların keçirilməsinə, məscidlərin, müqəddəs məzarların və mədrəsələrin təmir edilməsinə, dini mərasimlərin icrasına nəzarət edirdi. Beləliklə, Xəlifət əl-xüləfa vəzifəsi səfəvilərin hakimiyyəti dövründə mürşid-i kamillə müridlər arasında əlaqə yaratmaqla dövləti möhkəmləndirmək işinə yönəlmişdi.

Dövlət quruluşunda baş vəzir şahdan sonra ikinci şəxs hesab olunurdu. I Şah İsmayılın dövründə baş vəzir və digər dövlət məmurlarına əlavə mənsəb kimi vəkillik verilirdi. Vəkil şahın dünyəvi və dini işlər üzrə müavini olub böyük nüfuza malik olurdu. Şah Təmasibin hakimiyyətinin ilk illərində qızılbaş tayfa başçıları arasında vəkillik vəzifəsi uğrunda qanlı mübarizə vəkillik mənsəbinin ləğv olunması ilə nəticələndi.

Baş vəzir mülki və maliyyə işlərinə rəhbərlik edirdi. Mərkəzi dövlət aparatı strukturuna daxil olan bütün idarələrin və əyalət orqanlarının fəaliyyətinə başçılıq və nəzarət edən baş vəzir həm də xarici ölkələrlə diplomatik danışıqlar aparıb müqavilə bağlamaq səlahiyyətinə malik idi. Bütün dövlət vergilərinin yığılması, xəzinənin mədaxili, xəzinə üçün alınan vəsaitlərin haqq-hesabı ilə bağlı bütün məsələlər baş vəzirin əmr və təliqəsi (şərhnaməsi) olmadan icra edilə bilməzdi. Yüksək vəzifələrə məmurlar təyin edilməsinə, tiyul və soyurqalların verilməsinə dair sənədlər baş vəzirin möhürü olmadan etibarsız hesab olunurdu.

Amillərin (vergi işinə baxan məmur) mühasibat hesablarının nüsxələri və bütün vilayətlərin divan hesabını aparanların, yəni bəylərbəyilərin, hakimlərin, sultanların, vəzirlərin (əyalət vəzirləri), kiçik və böyük vergi təhvildarlarının, xırda iş sahiblərinin, zabitlərin və başqalarının haqq-hesab nüsxələri baş vəzirin yazılı təliqəsindən sonra baş mustofilər (maliyyə məmuru) tərfindən hesablanıb mərkəzi maliyyə dəftərinə köçürülürdü. Dövlətin maliyyə strukturunda baş vəzirin tabeçiliyi altında altı vəzirdən ibarət vəzarət divanı fəaliyyət göstərirdi.

Səfəvilər dövründə yığma qoşunların başçısı əmir-ül-üməra adlanırdı. Hərbi iş bütünlüklə qızılbaşların əlində olduğuna görə bu vəzifəyə Azərbaycan tayfa başçılarından təyin olunurdu. Şahın xüsusi hərbi hissəsinə isə qorçubaşı rəhbərlik edirdi. Bu hərbi hissənin də döyüşçüləri Azərbaycan tayfalarından təşkil olunurdu.

Dini təsisatların, yəni dini müəssisələrin idarə edilməsinə sədr rəhbərlik edirdi. O, ali dini idarənin başçısı idi. Sədr şiəliyin yayılmasına çalışmalı, şəriət və dünyəvi qanunları mükəmməl bilməli idi. Çünki dövlətin adından verilən hökm və qərarlar sədr tərəfindən şəriət qanunlarına müvafiq olaraq əsaslandırılmalı idi. Yalnız din xadimlərinin deyil, dövlətdə hər bir şəxs çətinə düşərkən sədrə müraciət etdikdə, ona doğru-düzgün cavab verməli idi. Sədr şəriət qanunlarına nəzarət edirdi. Ölkənin idarə edilməsi, ordu, vergi, mükəl ləfiyyət və cərimələrin miqdarını müəyyənləşdirmək üçün 1555-1556-cı illərdə 96 maddədən ibarət hazırlanmış Dəstür-ül-əməl (qanun) sədr vəzifəsində çalışan Mir Zeynəddin Seyidəli tərəfindən tərtib olunmuşdu.

Səfəvilər dövründə bəzən vəzir və sədr vəzifəsini eyni zamanda iki şəxs idarə edirdi. Onlardan biri divan ərazisinə, o biri xassə mülklərinə nəzarət edirdi. Əyalət vəzirləri şah tərəfindən təyin olunsa da bəylərbəyinə tabe idi.

Baş vəzirin maliyyə məsələləri üzrə müavini mustoufi əl-məmalik adlanıb, böyük əmirlər sırasına daxil idi. O, maliyyə idarəsinin rəisi hesab edilirdi. O, vergi toplanmasına nəzarət edir, vergi siyahılarını, hərbi və mülki şəxslərin maaşlarını təsdiq edirdi. Hakimlərin, yəni bəylərbəyilərin, xanların, sultanların tiyulları, həmsaleləri, vəzirlərin, mustoufilərin, kələntərlərin, hərbiçilərin maaşları, soyurqalları da mustoufi-əl-məmalik dəftərxanasında qeydiyyata alınır, onun möhürü ilə təsdiq olunurdu.

Saray dəftərxanasının darğası da maliyyə məsələləri üzrə maddi məsul dövlət məmuru olub, nazirlə birlikdə maliyyə

məmurlarının haqq-hesablarına nəzarət etmək funksiyasına malik idi. Ancaq vergilərin toplanması, mədaxilə aid bütün sənədlər mustoufi-əl-məmalik tərəfindən möhürlənib təsdiq edilməli idi.

Naziri-buyutat saray təsərrüfatı rəhbəri olub şah və hakim sülalə üzvlərinin, saray əyanlarının mənzil, paltar, zi-nət əşyalarına tələbatının ödənilməsinə nəzarət edirdi. O, həmçinin şah karxanalarının işinə rəhbərlik edirdi. Xəlifət əl-xüləfa Ərdəbil ordeni müridlərinin başçısı idi. Şaha tabe olmaqla Səfəviyyə cəmiyyətinin rəhbəri kimi çox geniş hərbi statusa malik idi. Xəlifət əl-xüləfa dini yığıncaqlar keçirməli, məscid binalarını, mədrəsələri, müqəddəs məzarları təmir etdirməli və müsəlmanları dini vəzifələri yerinə yetirməyə yönəltməli idi.

Kələntər şəhərlərdə şəhər idarəçiliyinə, maliyyə işlərinə, vergilərin toplanmasına rəhbərlik edirdi. Bəzi böyük şəhərlərdə kələntərlər bəylərbəyilərə deyil, bilavasitə şaha tabe idilər və şah tərəfindən təyin olunurdular.

Dövlət aparatında eşikağası – yavərlər, yasavullar, qapıçı-lar, carçıların rəhbəri, mir-şikərbaş – şahın ov tədbirlərinin başçısı, mühtəsib əl-məmalik-şəhər bazarlarını nəzarətdə sax-layan, əmtəələrə qiyməti təsdiq edən dövlət məmuru, münşi əl-məmalik – dövlət katibi, müəyyer əl-məmalik – pul işinə rəh-bərlik edən, möhrdar – şahın möhürünü saxlayan, minaxur başı – mehtərlərin rəisi, mehmandar başı – xarici səfirlərin və qonaqların qəbuluna baxan şəxs, münəccim başı və s. vəzifə sahibləri çalışırdılar.

Geniş ərazini əhatə edən bu ölkə İnzibati-ərazi prinsipi əsasında 4 valilik və 13 vilayətə (bəylərbəyliyə) bölünmüşdü. Şah mərkəzi hakimiyyəti və vilayətləri xan, sultan, kələntər, darğa, vəzir ünvanı ilə məlum olub hakimiyyət funksiyasını yerinə yetirən şəxslərlə idarə edirdi. Şah igidliyi və şücaəti ilə fərqlənən adamlara xan titulu verib vilayətlərə onları hakim təyin edirdi.

XVI-XVII əsrlərdə bəylərbəyliklərin ərazisi sabit qalmamış, ayrı-ayrı inzibati vahidlərin ərazisi dəfələrlə dəyişmişdir.

Vilayətləri şah tərəfindən təyin olunan hakimlər idarə edirdilər. Vilayətə hakim xan, sultan titulu ilə əmir əl-üməra, yaxud bəylərbəyi rütbəsi ilə təyin olunurdu. Təhmasibin hakimiyyətinin əvvəlki illərinə qədər vilayət hakimləri ən çox əmir əl-ümərə adlanırdılar. I Şah İsmayılın hakimiyyəti illərində əmir əl-ümərə hərbi rütbə kimi də verilirdi. Ancaq əsilzadə hər hansı vilayətə əmir əl-ümərə rütbəsi ilə hakim təyin edildikdə, burada əmir əl-ümərə rütbəsi bəylərbəyi ünvanına sinonim olub, mülki inzibati və hərbi mahiyyət kəsb edirdi. Vilayətə təyin olunan şəxsin həmin vilayətdə yaşayan türk tayfalarından birinin ağsaqqalı olması vacib idi. XVI əsrin 30-cu illərinə qədər vilayət hakimləri sultan, sonralar isə xan adlandırıldı.

Bəylərbəyi şah tərəfindən müəyyən edilmiş sayda hərbi hissə saxlamalı və həmin qoşun hissəsinin saxlanma xərcini ödəməli idi. Nüfuzlu qızılbaş əyanları çox vaxt bəylərbəyi kimi vilayətləri irsi olaraq idarə edirdilər. Məsələn, mərkəzi Gəncə olan Qarabağ bəylərbəyliyini kiçik fasilələrlə Qacarlar tayfasının ziyadoğlular nəsli XVI əsrin 40-cı illərindən XIX əsrin əvvəlinə qədər idarə etmişlər.

Bəylərbəyliklər mahallara bölünürdü. Mahal hakim-ləri də şah tərəfindən təyin olunurdu. Mahal hakimləri (sultan və məliklər) vergi və mükəlləfiyyətləri yığmalı, mahal daxilində sabitliyi qorumalı və müharibə şəraitində öhdəsinə düşən hərbi hissə ilə tabe olduğu bəylərbəyinin sərəncamına getməli idi.

Mərkəzi dövlət aparatındakı vəzarət divanı ilə yanaşı, əyalətlərə bəzən şah tərəfindən vəzirlər təyin edilirdi. Əyalətlərə təyin olunan vəzirlər əyalətin maliyyə məsələlərinə, xüsusi ilə vergilərin vaxtında yığılması və aidiyyatı üzrə sərf olunmasına nəzarət edirdilər. Onlar bəylərbəylərə tabe idilər, lakin mərkəzi maliyyə idarəsinə hesabat verirdilər.

## § 7.2. Ordu quruculuğu

XVI-XVII əsrlərdə Azərbaycan dövlətinin ordu quruculuğu XV əsrdəki Qaraqoyunlu Ağqoyunlu əskəri təşkilatından az fərqlənirdi. Bu dövrdə ordu dövlət (vilayət hakimlərinin qoşunu, qorçu) və Şah qoşununa (tüfəngçilər, topçular, qulamlar, süfilər) ayrılırdı. Bir qayda olaraq dinc dövrdə vilayət hakimləri 2-3 min nəfərlik nizami alay saxlayırdılar. Müharibə zamanı isə hər bir vilayəti hakimi Şahın çağırışına əsasən 8-10 min nəfərlik qeyri-nizami qoşun səfərbəyliyə alırdılar. Dövlət qoşununun 20-30 min nəfərlik qorcu adlanan növü türk tayfa süvarilərindən ibarət olub ölkəni daxildən və xaricdən yaranan təhlükədən qoruyurdular.

XVI əsrdə Azərbaycanda mərkəzləşdirilmiş nizami ordu yox idi. Ordu əyalət hakimlərinin ayrı-ayrı qeyri-nizami qoşun hissələrindən ibarət idi. Həmin qoşun hissələri hər tayfanın vilayət hakimi tərəfindən təşkil və təchiz olunurdu. Bu qoşun hissələri tayfa üzvlərindən ibarət qohumluq əlaqələrinə əsaslanırdı. Ona görə də əsgərlər öz tayfa başçılarının əmr və tapşırıqlarına əməl edirdilər. Odur ki, vilayət hakimləri də çox vaxt müstəqil hərəkət edirdilər. Ordunun bu cür təşkili yəni tayfa prinsipləri əsasında qurulması 1514-cü ildə Çaldıran döyüşündə qızılbaşların məğlubiyyəti ilə nəticələndi. Qızılbaş əsgərləri böyük ruh yüksəkliyi və cəsarətlə vuruşsalar da dövrünün müasir silahları ilə silahlanmış və Avropa nizamı qəbul etmiş Osmanlı ordusunun qarşısında dayana bilmədilər.

Şah İsmayılın dövründə yuxarı vəzifələrə hər bir tayfanın öz başçılarının namizədliyini irəli sürmələri bu tayfalar arasında mübahisələrə, hətta toqquşmalara gətirib çıxarırdı. I Şah Təhmasib bir çox tayfaları sıxışdırıb tədbirlər görsə də bu problemi tam aradan qaldıra bilmədi. Yalnız I Şah Abbas həyata keçirdiyi əsaslı hərbi islahatlar nəticəsində vilayət hakimlərinin tabeliyində olan tayfa üzvlərindən ibarət qoşunların sayını azaltdı və mərkəzləşdirilmiş, müasir döyüş silahları ilə təchiz

edilmiş Osmanlı yeniçəri qoşun növündə ordu yaratdı. Bu ordunu tayfaya bağlılıq qüsurlarından azad etdi.

Müharibələr zamanı silahlı qüvvələrin baş komandanı vəzifəsinə Azərbaycan vilayətinin hakimi təyin olunurdu. Şahın şəxsi qvardiyası istisna olmaqla bütün qoşun növləri onun sərəncamına verilirdi.

1) Dövlət qoşunu "divani məmalik"dən asılı olan və bəylərbəyilər tərəfindən idarə edilən torpaqların gəliri hesabına saxlanılırdı. Bu qoşun növü iki hissədən ibarət idi:

a) Vilayət hakimlərinin saxladıqları daimi süvari dəstələr. Mənbələrin verdiyi məlumata görə belə hərbi dəstələrin sayı 59.907 nəfər təşkil edirdi. Bu qoşun 32 qızılbaş tayfasından təşkil olunmuşdu.

b) Qorçu adlı nizami hərbi qvardiya. Onlar yay-ox, xəncər, qılınc, hərbi balta, qalxan kimi silahlarla təchiz olunmuş süvarilər idi. Adi vaxtlar onlar başlarına qırmızı rəngli qızılbaş papaqları qoysalar da müharibə zamanı dəmir dəbilqə qoyurdular.

Qorçular çadırda yaşayırdılar və övladlarını gənc yaşlarında şahın xidmətinə göndərirdilər ki, buradada onlar şaha sədaqət ruhunda təlim-tərbiyə alırdılar. Qorçular sərdarlarını öz sıralarından seçirdilər. I Şah Abbas bu qoşunu aradan götürüb onları qulamlarla əvəz etməyə çalışsa da buna nail ola bilməmişdi. Onların bəzi imtiyazlarını ləğv edib qulamlara versə də qorçuların dövlət əleyhinə qalxmalarından ehtiyat edərək bu işi tez dayandırmışdı. Mərkəzdəki Şah qorçularından başqa yerlərdə 20-30 min nəfərdən ibarət qorçu hərbi hissələri mövcud idi.

I Şah Abbasın həyata keçirdiyi hərbi islahat nəticəsində qorçuların sayı iki dəfə azaldılaraq 30 min nəfərə endirilmiş, əvəzində piyada tüfəngçi alayı yaradılmışdı.

2) Qulam, tüfəngçi, topçu və sufilər "Şah qoşunu" olub, onların maaşı xassə əmlakı hesabına büdcədən ödənilirdi.

I Şah Abbas tərəfindən yaradılan bu nizami qoşun hissəsi 44 min nəfər idi. Bu qoşun növünün yaradılması qızılbaş

tayfalarından olan qeyri-nizami qoşunu (çəriyi) zəiflətsə də onları tam sıradan çıxara bilmədi.

Qulamlar adı ilə göstərilən hərbi alay elmi ədəbiyyatda həm də "qullar" adı ilə qeyd olunur. Onlar azadlıqlarının məhdud olması mənasında qul adlandırılmırlar. Onlar süvari döyüşçüsü olub, silahları qılınc, nizə, ox-yaydan ibarət idi. Onlar şahın nəzarəti altında təlim keçir və birbaşa şaha tabe idilər. Onlar hərbi xidmətə ömürlük qəbul edilirdilər. Qulamlar xristian əhalidən, xüsusilə Gürcüstan və Şimali Qafqaz əhalisindən götürülmüş kiçik yaşlı uşaqlara müsəlmançılığı qəbul etdirərək xüsusi təlim-tərbiyədən keçirilərək götürülürdülər. Bu alayın başçısı qullarağası adlanırdı.

Azərbaycan Səfəvi dövlətinin ordusu I Şah Abbasın həyata keçirdiyi hərbi islahatlar nəticəsində təkmilləşdirilib, möhkəmləndirilmişdi. I Şah Abbasın varisləri dövründə ordu getdikcə zəifləmişdi.

Ordunun sayı haqqında məlumatlar müqayisəli şəkildə ümumiləşdirilsə belə nəticəyə gəlmək olar ki, Azərbaycan Səfəvi dövlətində müharibə dövründə səfərbəyliyə alınan ordunun sayı 120-150 min nəfər arasında olmuşdur.

Orduda qoşun növləri üzrə başçılar əmiri-əzəm rütbəsi daşıyır və qorçubaşı qorçuların, qullarağası qulamların, tüfəngçibaşı tüfəngçilərin, topçubaşı topçuların, bəylərbəyi isə vilayətdəki qoşunun başçısı idi. Ordunun baş komandanı Azərbaycan bəylərbəyi, ya da qorçubaşı təyin olunurdu. Lakin bu hərbi vəzifə müharibə dövrü üçün nəzərdə tutulurdu, müharibə qurtardıqda o, vəzifədən dərhal istefa verirdi.

**Qorçubaşı**. Azərbaycanda qorçuların olması haqqında məlumata XV əsrdə təsadüf edilir. I Şah İsmayıl isə nizami qorçu qvardiyasını təşkil etmişdir. Oxçulardan ibarət olan qorçular I Şah İsmayılın dövründə döyüşlərdə fədakarlıq göstərirdilər. Qorçubaşı dövlətin görkəmli əmirlərindən olub müəyyən vaxtlarda dövlətin silahlı qüvvəsinin baş komandanı olurdu. Qorçubaşı həmişə sarayda olur, ancaq o, baş komandan təyin edildikdə paytaxtı tərk etməli olurdu.

Dövlət, saray, əyalətlərdə hərbi qulluqda olan bütün qorçuların məvacibi və tiyulu qorçubaşının təqdimatı ilə baş vəzirin təliqəsi əsasında verilirdi. Əyalətdəki qorçubaşılar mərkəzdəki qorçubaşıya tabe idilər. Qorçubaşı çox geniş hərbi funksiyaya malik olub dövlətin ali sturukturunda əvvəllər birinci, sonralar isə ikinci yerdə dayanırdı. I Şah Abbasın dövründə qorçuların hüquqları qismən məhdudlaşdırılsa da onların müstəsna nüfuzları ciddi dəyişikliklərə uğramamışdır.

**Qullarağası**. Qulamların rəisi adlanan qullarağası ali dövlət sturukturunda ikinci yerdə dayanırdı. Qullarağası qorçubaşıdan sonra əmirlərin ən böyüyü sayılırdı. Bütün qulamların tiyul, həmesale məvacibi və mükafatları, məvacib qəbzləri onun təqdimatı ilə, baş vəzirin yazılı icazəsindən sonra qullarağası tərəfindən təsdiq edilib möhürlənirdi. Qulamlara aid bütün işləri qullarağası həll edirdi.

**Tüfəngçibaşı**. Tüfəngçibaşı tüfəngçi hərbi hissəsinin minbaşılarının, yüzbaşılarının, saray carçılarının başçısı olub, qorçubaşı və qullarağasından sonra üçüncü yerdə dayanırdı. Ona tabe olanların hamısının tiyul, həmesale, məvacib və mükafatları onun təqdimatı əsasında baş vəzirin yazılı hökmü verildikdən sonra həyata keçirilirdi.

**Topçubaşı**. Topxananın yüzbaşı, minbaşı, topçu və carçılarının rəisi olub tabeliyində olanlara maaş və həmesale təyin olunması üçün təqdimat verir və divan vəzirinin icazəsindən sonra şahın fərmanı verilirdi.Topçubaşı da qorçubaşı və qullarağasından sonra ordudakı tabeçilik qaydasına görə üçüncü yerdə dayanırdı. Topçubaşı döyüş dənizdə baş verdikdə dəniz qüvvələrinə başçılıq edirdi. Səfəvi dövlətinin hərbi dəniz donanması yox idi. Yalnız Xəzər dənizində və İran körfəzində kiçik çaplı odlu silahlarla təchiz olunmuş ticarət gəmiləri var idi.

Mənbələrdə I Şah İsmayıl və I Şah Təhmasibin hakimiyyəti dövründə toptökmə sənəti haqqında çox az məlumat olsada, I Şah Abbas, Şah Səfəvi və II Şah Abbas dövründə toptökmə sənətinin inkişafına xüsusi diqqət yetirilmişdir.

# VIII FƏSİL

# XVI-XVII ƏSRLƏRDƏ SƏFƏVİ DÖVLƏTİNİN TƏSƏRRÜFAT HƏYATI

## § 8.1. Kənd təsərrüfatı

XVI əsrin əvvəllərində mərkəzləşmiş dövlətin yaranması, vahid iqtisadi siyasətin həyata keçirilməsi kənd təsərrüfatının inkişafına səbəb oldu. I Şah İsmayılın (1501-1524), I Şah Təhmasibin (1524-1576), I Şah Abbasın (1587-1629) həyata keçirdikləri iqtisadi tədbirlər kənd təsərrüfatının inkişafına müsbət təsir göstərirdi.

XVI-XVII əsrlərdə Səfəvi dövlətinin iqtisadiyyatı əsasən kənd təsərrüfatı, sənətkarlıq və ticarət sahələrindən ibarət idi. Azərbaycanın bütün bölgələrində buğda, arpa, düyü, paxla, darı, mərci, noxud və s. əkilirdi. Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da kənd təsərrüfatı istehsalı suvarma siteminin vəziyyətindən asılı idi. Bu dövrdə təbii çaylar və onlardan çəkilən su arxları, kanallar, kəhrizlər və su quyuları suvarma sisteminin əsasını təşkil edirdi. Səfəvi hökmdarları suvarma şəbəkələrinin normal fəaliyyət göstərməsinə nəzarət edir, köhnə və dağılmış suvarma qurğularının bərpa edilməsinə xüsusi diqqət yetirirdilər.

I Şah Təhmasibin və I Şah Abbasın həyata keçirdiyi islahatlar nəticəsində bir sıra vergilərin ləğv edilməsi, bəzi vergi və rüsumların azaldılması kənd təsərrüfatının inkişafına müsbət təsir göstərmiş və məhsuldar qüvvələrin inkişafı üçün əlverişli şərait yaratmışdı. Kənd təsərrüfatı bölgələri ilə şəhərlər arasında ticarət əlaqələrinin güclənməsi daxili bazarın inkişafına, əmtəə-pul münasibətlərinin inkişafına səbəb olurdu.

Ölkədə kənd təsərrüfatı inkişafı, əkin sahələrinin genişlənməsi və yeni təsərrüfat sahələrinin yaranması ilə suya tələbat artdığına görə dövlət suvarma sisteminin qurulmasına xüsusi

diqqət yetirirdi. Hələ I Təhmasibin dövründə Zəyəndərud çayının suyu ilk dəfə iki hissəyə bölünərək ətraf ərazilərdə təsərrüfat su ilə təmin edilmişdi. Sonralar bu istiqamətdə iş aparılaraq çayın suyu daha çox təsərrüfatları əhatə etmişdi. Suyun bölünməsi divan dəftərində qeydə alınaraq şahın möhürü ilə təsdiq edilmişdi. Həmin bölgüyə uyğun olaraq hər bir kəndə təyin edilmiş mirab (su məmuru) su bölgüsünə düzgün əməl olunmasına nəzarət edirdi. İsfahan və onun ətrafında yaşayan əkinçilər suvarılan torpağın hər cəbiri (bir cəbir 5 min kvmetrə bərabərdir) üçün 20 su dəyərində pul ödəməli idilər. İsfahanın dövlətin paytaxtı olması ilə əlaqədar şəhər ətrafı məskənlərin artması, əkinçilik təsərrüfatının genişlənməsi nəticəsində bu bölgədə su qıtlığı problemi yarandı. Dövlət bu problemi həll etmək üçün, yəni təsərrüfatı su ilə təmin etmək üçün Zəyəndərud çayından həmin sahələrə arxlar çəkdirmiş, suyun təsərrüfatlar arasında düzgün bölüşdürülməsini nəzarətə götürmüşdü. Dövlət tərəfindən su bölgüsünə mirab adlanan su məmuru nəzarət edirdi. Bu İsfahan şəhərinin dövlətin paytaxtına çevrilməsindən sonra şəhərdə əhalinin artması və onların kənd təsərrüfatı mallarına olan tələbatının artması ilə əlaqədar idi.

Kənd təsərrüfatı istehsalında ipəkçilik mühüm yer tuturdu. İpəkçiliyin inkişafı daxili və xarici bazarda xam ipəyə tələbatın çox olması ilə bağlı idi. Barama istehsalı sahəsində Şirvan, Qarabağ, Gilan, Xorasan bölgələri xüsusi ilə fərqlənirdi. Azərbaycanın baramaçılıq təsərrüfatı qapalılıqdan çıxaraq əmtəə-pul münasibətləri sisteminə cəlb olunmuşdu.

İpəkçilik ölkəyə, dövlət xəzinəsinə böyük gəlir gətirdiyindən, Səfəvi hökmdarları bu sahəni inkişaf etdirmək üçün hətta həmin bölgələrə müxtəlif yerlərdən əhali köçürürdülər. Bu məqsədlə I Şah Abbasın dövründə Qafqazdan Mazandarana 30 min xristian əhali köçürülmüşdü.

İpəkçilik ölkə iqtisadiyyatının çox mühüm sahəsi kimi ümumölkə miqyasında inkişaf edirdi. Səyyahların verdiyi

məlumata görə XVII əsrin 30-40-cı illərində ölkədə ildə 20-22 min tay xam ipək istehsal edilirdi. Həmin ipəyin 10 min tayı Gilanın, 2 min tayı Mazandaranın, 3 min tayı Xorasanın, 3 min tayı Azərbaycanın cənub hissəsinin, 2 min tayı Qarabağın, 2 min tayı isə Gürcüstanın payına düşürdü. Əlbəttə bu rəqəm göstəriciləri Azərbaycanda istehsal edilən ipəyin dəqiq göstəriciləri deyildi. Çünki səyyahlar bu rəqəmləri dövlət strukturunda çalışan məmurlardan aldıqları məlumatlara əsasən yazırdılar. Dövlətin vilayətlərində becərilən ipəyin heç də hamısı, xüsusilə yerli bazarların ehtiyacını ödəyən hissəsi dövlət orqanlarında qeydiyyatdan keçmirdi. Fransız səyyahı Şarden Səfəvi dövlətində Ardeş (Ərəş), Legiya və ya Legian (Leji – Gilanda kiçik şəhər), Kədxodapəsənd, Şərbaf adlı dörd növ ipəyin istehsalı haqqında məlumat vermişdir.

Səfəvi dövlətinin ərazisində istehsal edilən xam ipəyin təqribən üçdə bir hissəsi Şirvan və Qarabağ vilayətlərinin payına düşürdü. Gəncə və Şəki bölgələrinin təsərrüfatında da baramaçılıq mühüm rol oynayırdı.

XVI-XVII əsrlərdə Səfəvi dövlətinin kənd təsərrüfa-tında pambıqçılıq da mühüm yer tuturdu. Təsadüfü deyil ki, Avropa səyyahları pambıqçılığın inkişafı ilə əlaqədar maraqlı məlumat vermişlər. Pambıqçılıq təsərrüfatının inkişafı bu məhsula tələbatın çox olması və pambıq parça istehsalının artması ilə əlaqədar idi. Səyyahların verdiyi məlumatlara görə Rəvan, Naxçıvan, bütün Qarabağ və Azərbaycanda, habelə Xorasanda pambıq becərilirdi.

Pambıq əsas sənətkarlıq və ticarət bitkisi hesab edilirdi. Səfəvi dövlətində bir neçə çeşiddə pambıq parça toxunurdu. Osmanlı elçisi və səyyahı Elviya Çələbi Azərbaycanda pambıqçılıq haqqında geniş məlumat verərək Təbriz və Naxçıvan bölgələrində 7 növ pambıq becərilməsi haqqında məlumat vermişdir.

XVI-XVII əsrlərdə kənd təsərrüfatında meyvəçilik və üzümçülük sahələri xüsusi yer tuturdu. Ölkənin, demək olar ki,

əksər bölgələrində əhali bağçılıq və üzümçülüklə məşğul olurdu. Üzümçülük ölkənin gəlirli təsərrüfat sahələrindən biri olmaqla, daha çox daxili tələbata uyğun şəkildə inkişaf edir və əsasən yerli bazarla bağlı idi. Üzümçülüklə yanaşı bağçılıq, bostançılıq və tərəvəzçilik sahələri də inkişaf etmişdi.

Üzümçülük təsərrüfatın əhəmiyyətli və gəlirli sahələrindən biri idi. Ən çox daxili bazarın tələbatını ödəyirdi. Üzüm şirəsindən çox faydalı məhsullar hazırlanmasında istifadə edilirdi. Üzüm emaledici istehsal sahəsi üçün çox mühüm xammal bazası təşkil edirdi. Ondan halva, konfet və başqa şirniyyat məhsulları hazırlanırdı. Səyyahlar Təbriz və Ordubadda "kəsəyi", "xələc", "əli dərəsi", "xırda", "raziki", "mələki", "təbərsad" kimi üzüm növlərinin hazırlandığını göstərmişlər. XVII əsrin ortalarında Azərbaycanda olmuş Şarden burada 12-15 növ üzümün yetişdirildiyini qeyd etmişdir. Səyyahların verdiyi məlumatlara görə İsfahan və Nəcəfabad yaxınlığında yaşayan zərdüştilər və gaurlar üzümçülüklə məşğul olaraq şərab istehsal edirdilər. Üzümçülük həm daxili, həm də xarici bazarın tələbatını nəzərə alaraq inkişaf etdirilirdi.

Qeyd edilən dövrdə tütün də yetişdirilirdi. Tütün Azərbaycanın cənub və cənub qərb bölgələrində, xüsusilə Marağada becərilirdi. XVII əsrin birinci yarısı və ortalarında Səfəvi məmləkətində tütün məmulatlarına tələbat böyük idi və bu tələbata uyğun olaraq tütün istehsalı və emalı artırdı.

Səfəvi dövlətinin iqtisadiyyatında taxılçılıq təsərrüfatı mühüm yer tuturdu. Ölkədə müxtəlif dənli bitkilər əkilib becərilirdi. Burada becərilən dənli bitkilər içərisində düyü, arpa və buğda üstünlük təşkil edirdi.

Kənd təsərrüfatında əkinçilik kimi heyvandarlıq təsərrüfatı da mühüm yer tuturdu. Azərbaycanda maldarlıq daha çox yarım köçəri formada idi. Burada geniş miqyaslı klassik köçəri maldarlıqdan söhbət gedə bilməzdi.

Səfəvi dövlətində ordunun əsasını süvari qoşunları təşkil etdiyindən, cins döyüş atlarına tələbat böyük idi. Bu tələbata

uyğun olaraq ölkədə heyvandarlıq təsərrüfatının atçılıq sahəsi yüksək inkişaf etmişdi.

Beləliklə Səfəvi dövlətinin iqtisadiyyatında kənd təsərrüfatı istehsalı xüsusi yer tuturdu. Kənd təsərrüfatı məhsulları daxili tələbatı ödəməklə bərabər qonşu ölkələrə və Avropa dövlətlərinə ixrac edilməklə ölkənin xarici ticarət dövriyyəsinin formalaşmasında mühüm rol oynayır və dövlət xəzinəsinə böyük gəlir gətirirdi.

## § 8.2. Torpaq sahibliyi

Orta əsrlər dövründə istər Şərq, istərsədə Qərbi Avropa ölkələrində olduğu kimi Səfəvi dövlətində də aqrar sahə iqtisadiyyatın əsasını təşkil edirdi, ölkənin əsas sərvəti torpaq idi. Dövlətin və onun iqtisadiyyatının başlıca gəlir qaynağını da torpaq təşkil edirdi. Səfəvilər dövründə torpaq mülkiyyəti formaları əvvəlki dövrlərdə mövcud olmuş torpaq mülkiyyəti formalarından çox fərqlənmirdi. Səfəvilər dövründə dövlət və xassə torpaqları əvvəlki dövrlərlə müqayisədə daha da genişlənmiş, mülki və hərbi qulluqçulara verilən irsi torpaq sahibliyini xidmətə görə verilən şərti mülklərlə əvəz etməyə başlamışdıar.

XVII əsrdə torpaq sahibliyinin aşağıdakı formaları mövcud olmuşdur:

1. Dövlət torpaqları (ərazeyi-divan). Bu torpaq mülkiyyəti Səfəvilər dövründə aparıcı torpaq sahibliyi forması olmuş, Səfəvi şahları ələ keçirdikləri ərazilərdə torpaqları keçmiş sahiblərinin əlindən alaraq divan və ya xassə əmlakına çevirirdilər. Divandan gələn gəlirlər dövlət xərclərinə sərf olunurdu.

2. Şah nəslinə məxsus olan torpaqlar – xassə, ərazeyi xassə. Xassə torpaqları da dövlət torpaqları kimi başlıca torpaq mülkiyyəti olmuşdur, hər iki mülkiyyət forması şahın sərəncamında olaraq çox böyük torpaq fondunu təşkil edirdi. Şahın özünə məxsus xassə əmlakından gələn gəlirlər xəzinəyə daxil

olur və şahın icazəsi ilə müəyyən olunmuş sahələrə xərclənirdi. Şah sülaləsinin ayrı-ayrı üzvlərinə məxsus xassə əmlakından gələn gəlirlər isə onların istəklərinə uyğun xərclənirdi.

3. Şərti xarakter daşıyan torpaqlar – soyurqal və tiyul. Bu torpaqlar mülki və hərbi qulluqçulara, habelə din xadimlərinə xidmətləri müqabilində verilirdi. Soyurqal xüsusi əmlak növü olub, nəsildən-nəsilə ötürülür, şahın fərmanları ilə bağışlanırdı və həmin torpağın irsən ötürülməsi üçün yeni fərman tələb olunurdu. XVI əsrdə XV əsrdəki kimi geniş əraziyə malik soyurqallar verilmirdi.

Səfəvi dövlətində şərti torpaq sahibliyinin ən geniş yayılmış növü tiyul idi. Dövlətin sosial-iqtisadi dayaqlarını möhkəmləndirmək üçün tiyul torpaq sahibliyindən geniş istifadə edilirdi. Tiyul adı altında müəyyən ərazidən alınan verginin bir hissəsinin və yaxud hamısının qulluqda olan məmura məvacib şəklində bağışlanması nəzərdə tutulurdu. Bəzən tiyul bu və ya digər vəzifəyə təhkim edilirdi, tiyul verilən məmura irsi sahibkarlıq və inzibati idarə hüququ verilmirdi. Tiyullar əsasən dövlət qulluğunda olan şəxslərə verilirdi.

4. Dini müəssisələrə məxsus olan torpaqlar – vəqf. Ölkənin torpaqlarının bir hissəsi dini-vəqf idarələrinə məxsus idi. Vəqf torpaqları dini məqsədlər və savab işləri üçün ayrılırdı, dini müəssisələrin sərəncamında olan əmlak növü idi. Bu əmlak növü dövlət vergilərindən azad idi, onun alqı-satqısı və bağışlanması şəriətlə qadağan edilmişdi. Vəqf əmlakı vəqfi-xeyriyyə və vəqfi-əhli adlanan iki qrupa bölünürdü. Vəqfi-xeyriyyə dini idarələrin, vəqfi-əhli isə din xadimlərinə məxsus mülklər hesab olunurdu.

5. Xüsusi mülkiyyətdə olan torpaqlar – mülk. Azərbaycan Səfəvi dövlətində torpağın bir hissəsi mülk əmlakı kimi ali zümrənin əlində cəmlənmişdi. Mülkün əsas fərqləndirici xüsusiyyəti onun xüsusi əmlak olması idi. Mülk adlanan torpaqları və digər əmlakları almaq, satmaq, bağışlamaq, irsən ötürmək

olardı. Xüsusi mülkiyyət institutları mülk, ərbabi və xırda malek (xırda mülk) terminləri ilə ifadə edilirdi.

6. İcma torpaqları – camaat. Belə torpaqlar kənd icmasının istifadəsində idi. İcma üzvləri istifadə etdikləri torpaq müqabilində vergi ödəyirdilər. Həmin vergilər icma başçısı tərəfindən yığılırdı. Azad icmalarla bərabər dövlətə və əyanlara tabe olan icmalar da mövcud idi.

Yuxarıda qeyd olunan ilk iki mülkiyyət forması dövlətə məxsus olan çox böyük torpaq fondunu təşkil edirdi. Həmin fond şahın sərəncamında idi. Bu iki torpaq mülkiyyəti arasında əsas fərq ondan ibarət idi ki, dövlət torpaq sahibliyinə aid torpaqlardan gələn gəlirlər qoşunun, mərkəzi və yerli dövlət aparatının saxlanılmasına, xassə torpaq sahibliyinə aid olan torpaqlardan əldə olunan gəlirlər isə əsasən şah sarayının və şahın ailəsinin saxlanılmasına sərf olunurdu. Təsadüfi deyil ki, dövlət və xassə torpaqları iki müxtəlif idarənin əlində cəmlənmişdi: dövlət torpaqlarından gələn gəlirlərə sərkari-divan nəzarət edirdisə, sülalə torpaqlarından vergilərin toplanmasına nəzarəti sərkari-xassə həyata keçirirdi.

Dövlət torpaqları mahal və vilayət hakimləri tərəfindən idarə olunurdu. Xüsusi iqtisadi əhəmiyyət daşıyan geniş ərazilər bu torpaq fondunun tərkibinə daxil idi.

Müsəlman şərqində xassə torpaqları xilafət dövründən mövcud idi. Abbasi xəlifələri vaxtilə sultani adlanan çox geniş sülalə torpaqlarına malik olmuşdular. XI əsrdə səlcuq türkləri fəth etdikləri bütün torpaqları hakim sülalə üzvləri arasında bölmüşdülər. XIII əsrdə monqollar ən yaxşı torpaqları və otlaqları "incu" və ya "xassincu" adlandırdıqları sülalə mülkiyyətinə daxil etmişdilər.

Səfəvilər dövründə şaha və onun ailəsinə məxsus torpaqları "xassə" və ya "xalisə" adlandırırdılar. Səfəvilər sülaləsinin hakimiyyəti dövründə hökmdarların həyata keçirdikləri iqtisadi və aqrar siyasəti nəticəsində xassə və divan torpaq fondları arasında olan nisbət dəyişkən səciyyə daşımışdır.

Xüsusilə I Şah Abbasın həyata keçirdiyi iqtisadi islahatlar bu iki torpaq sahibliyi forması arasındakı nisbətə əsaslı təsir etmişdir. Nəticədə, xassə torpaqları görünməmiş dərəcədə artmış, dövlət torpaqları isə xassə torpaqları ilə müqayisədə az artmışdır. I Şah Abbasın dövründə ölkənin bir sıra mahalları, hətta vilayətləri bütünlüklə xassə əmlakına çevrilmişdi. Bu siyasət Şah Səfinin və II Şah Abbasın dövründə də davam etdirilmişdir. Göründüyü kimi, hakim sülalə xassə torpaqlarını genişləndirməklə yeni gəlir qaynaqları əldə edir və iqtisadi imkanlarını daha da artırırdı. Səfəvi şahları həyata keçirdikləri aqrar siyasətdə mərkəzi hakimiyyəti möhkəmləndirməyə çalışmış və torpaq üzərində irsi sahibkarlıq hüququna malik yeni bir sosial zümrənin meydana çıxmasına imkan verməməyə çalışırdılar.

Ölkənin iqtisadi sərvətlərinin bir hissəsi vəqf əmlakı hesab olunurdu. Səfəvi hökmdarlarına dini müəssisələrin sərəncamına ayırdıqları torpaq sahələri vəqf əmlakı adlanırdı. Vəqf əmlakına torpaqla yanaşı kəhrizlər, dükanlar, bazarlar və sair də daxil idi. Vəqf olmuş əmlakın gəliri məscidlərin, məktəblərin, mədrəsə və xəstəxanaların saxlanılmasına, yoxsullara, sahibsiz yetimlərə və kasıb tələbələrə xərclənirdisə, belə əmlak vəqfi-ammə adlanırdı. Vəqf əmlakının gəliri seyidlərə, şeyxlərə, övladlara, qardaşa verildikdə belə əmlak vəqfi-xas adlanırdı.

Səfəvi hökmdarları ayrı-ayrı müqəddəs ocaqlara vəqf əmlakı bağışlayırdılar. Vəqf verilmiş belə əmlaklar dövlət vergilərindən və rüsumlarından azad edilirdi. Hətta vəqfin yerləşdiyi ərazilərin hakimlərinə və məmurlarına vəqfə daxil olmaq, onun daxili maliyyə və iqtisadi məsələlərinə qarışmaq, ondan vergi tələb etmək qadağan idi. Belə müqəddəs ocaqlardan biri olan Bibiheybət məqbərəsinə 1547-ci ilin fevral ayında I Təhmasib Zığ kəndini vəqf etmişdi. 1650-ci ilin yanvar ayında verdiyi fərmanla II Şah Abbas Bibiheybət məqbərisinin vəqf əmlakını vergilərdən azad etmişdi. Bu fər-

manlardan da aydın olur ki, vəqf əmlakı xüsusi statusa malik olmuşdur.

Vəqf əmlakının idarə olunmasına mütəvəlli adlanan vəzifəli şəxs başçılıq edirdi. Mütəvəlli vəzifəsi çox zaman irsi səciyyə daşıyır və atadan oğula keçirdi. Mütəvəlli vəzifəsinin irsən ötürülməsi şah fərmanı ilə təsdiq olunurdu.

Ölkənin vəqf əmlakları ali dini səlahiyyətli sədrə tabe idi və vəqf məmurları onun nəzarəti altında işləyirdilər.

Səfəvi dövlətində torpağın böyük bir hissəsi və həmin torpaqlardan gələn gəlir sülalənin və dövlətin əlində cəmləşsə də, gəlirin bir hissəsi vilayətlərdəki məmurlara, xidmətçilərə və hərbçilərə maaş şəklində verilirdi. Ümumiyyətlə, istər xassə, istərsə də dövlət torpaqlarının xidmət müqabilində ayrı-ayrı şəxslərə lenlər şəklində bağışlanması təcrübəsi dövlətin sosial-iqtisadi dayaqlarının möhkəmləndirilməsi məqsədi daşıyırdı. Səfəvilər dövləti yarandığı dövrdə hökumətə tabe olmayan əyanların irsi soyurqal torpaqları müsadirə edilərək qızılbaş əsilzadələrinə soyurqal deyil, tiyul hüququ ilə verilirdi. Səfəvilər dövründə soyurqal verilməsi praktikası davam etdirilsə də, soyurqal verilməsi məhdud şəkildə kiçik torpaq sahələrindən ibarət olmuş və əsasən ruhanilərə və dövlət məmurlarına (mülki şəxslərə) paylanırdı. Soyurqallar bir qayda olaraq şahın xüsusi fərmanları ilə bağışlanırdı və həmin torpağın irsən ötürülməsi şahın yeni fərmanı ilə mümkün olurdu. Din xadimlərinə bağışlanan soyurqal torpaqları isə irsi səciyyə daşıyırdı. Maliyyə məmurları həmin ərazidən vergi toplaya bilməz və soyurqal sahibinin vergi toplamasına mane ola bilməzdi. İrsi soyurqal hüququ almış şəxslər sadəcə olaraq dövlətin tələb etdiyi sayda döyüşçü verməli idi. Döyüşçülərin saxlanma xərclərinin soyurqal gəlirləri hesabına ödənilməsi nəzərdə tutulurdu. Səfəvilər dövründə verilmiş soyurqallar XV əsrdəki soyurqallardan tamamilə fərqlənir və geniş əraziləri əhatə etmirdi. Səfəfvi hökmdarları soyurqal torpaq sahibliyini məhdudlaşdırırdılar. Çünki soyurqalın irsi sahibkarlıq statusu, inzibati-

məhkəmə və vergi immuniteti dövlətin maraqlarına uyğun gəlmirdi.

Səfəvi dövlətində şərti torpaq sahibliyinin ən geniş yayılmış növü tiyul idi. Səfəvi hökmdarları mərkəzləşmə siyasətinə uyğun olaraq və dövlətin sosial-iqtisadi dayaqlarını möhkəmləndirmək üçün tiyul torpaq sahibliyindən geniş istifadə edirdilər. Tiyul müəyyən bir ərazidən dövlət xəzinəsi üçün yığılan torpaq vergisinin və bəzən başqa bir verginin ayrı-ayrı qulluq adamlarına xidmət müqabilində bağışlanan hissəsi idi. Tiyul faktiki olaraq müəyyən ərazidən yığılan verginin bir hissəsinin və yaxud hamısının qullluqda olan məmura məvacib şəklində bağışlanmasını nəzərdə tuturdu. Bəzən tiyul bu və ya digər vəzifəyə təhkim olunurdu. Bu zaman həmin vəzifəni daşıyan məmura onun gəlirindən yalnız xidmət dövründə məvacib şəklində istifadə hüququ verilirdi. Tiyul alan məmura irsi sahibkarlıq və inzibati idarə hüququ verilmirdi. Tiyul əsasən divan torpaqlarından verilirdi. Tiyul müvəqqəti verilməklə iki cür olurdu. Birincisi, bir qayda olaraq vəzifəyə əlavə edilib, vəzifə ilə birlikdə verilib alınırdı. İkincisini isə şah divan adından ömürlük bağışlayırdı.

Səfəvi dövlətində aşağı rütbəli qulluq adamlarına gəliri az olan kiçik torpaqlar bağışlanırdı. Belə tiyullar həmesale adlanırdı. Həmesale bir neçə il üçün, yeksale isə bir il üçün nəzərdə tutulurdu.

Soyurqal və tiyul sahibləri öz şərti torpaqlarında yaşamırdılar. Tiyul torpaqlarının sahibi olan hərbiçilər çox vaxt yürüşlərdə olur, şah sarayında qulluq edən əyanlar isə mərkəzdə yaşayırdılar. Onların bir hissəsi yerli əyalətlərin maliyyə idarələrindən və digər hissəsi isə dövlət dəftərxanasından müəyyən olunmuş miqdarda maaşlarını pulla alırdılar. Bu, təsərrüfatla məşğul ola bilməyən və az məvacib alan xidmət adamlarını tam təmin edirdi. Məvacibin tiyuldan belə qayda əsasında ödənilməsi ilə dövlət torpağın cüzi əməkhaqqı alanlar

arasında xırda hissələrə bölünməsinin qismən də olsa qarşısını alırdı.

Beləliklə, tiyuldar soyurqal sahibinin malik olduğu geniş hüquqlardan istifadə edə bilmirdi. Onun böyük inzibati-məhkəmə səlahiyyəti və irsi sahibkarlıq hüququ yox idi. Soyurqal sahibi ilə müqayisədə tiyuldar böyük iqtisadi imkanlara malik deyildi, yəni onun vergi immuniteti yox idi. Tiyullar daha çox şərti xarakter daşıyırdı.

## § 8.3. Sənətkarlıq və ticarət

XVI əsrdə mərkəzləşmiş dövlətin yaranması, daxili bazarın canlanması və xarici dövlətlərlə qarşılıqlı iqtisadi əlaqələrin artması ölkədə sənətkarlığın inkişafı üçün şərait yaratmışdı. Sənətkarlıq dövlət xəzinəsinin əsas gəlir mənbələrindən birini təşkil etdiyindən Səfəvi hökmdarları bu sahənin inkişafina xüsusi diqqət yetirirdilər.

Şah Təhmasibin dövründə daxili bazarın formalaşması, əmtəə-pul münasibətlərinin inkişafı və xüsusilə sənətkarlığın genişlənməsi yolunda əsas maneələri aradan qaldırmaq üçün bir sıra islahatlar həyata keçirmişdi. Şah sənətkarların istehsal etdikləri məhsula görə dövlət xəzinəsinə ödədikləri “mali-möhtərifə” vergisinin və sənətkaralrın malları daxili bazarda satarkən ödədikləri tamğa rüsumunun ləğv edilməsi haqqında fərman imzalamışdı. Onun 1565-ci il 16 mart tarixli fərmanı isə ticarətlə yanaşı sənətkarlığın da inkişafını ləngidən tamğa vergisinin ləğvini nəzərdə tuturdu.

Sənətkarlığın və sənətkarların himayə edilməsi siyasəti I Şah Abbas tərəfindən də davam etdirilirdi. I Şah Abbas 1592-ci ilin avqust ayında sənətkarlardan məhsul istehsalına görə nağd pul ilə alınan mal vergisini ləğv etdi.

Səfəvi hökmdarlarının ayrı-ayrı sənətkarlıq sahələrinin inkişafına yönələn mütərəqqi addımları bütövlükdə şəhər təsərrüfatının genişlənməsinə və bir çox şəhərlərdə yeni emalatxana

və karxanaların açılması hesabına sənətkarlıq istehsalının inkişafına təkan verirdi. Sənətkarlığın və ticarətin inkişafı dövlət xəzinəsinin və sarayın maliyyə mənbələri ilə təmin olunmasında və ölkənin büdcəsinin formalaşmasında çox mühüm rola malik idi. Çünki sənətkarların hazırladıqları məhsulun bir hissəsi dövlətin xəzinəsinə daxil olurdu, bir hissəsi isə ölkənin müdafiə qabiliyyətini təmin etmək üçün hərbi ehtiyaclara sərf olunurdu.

Sənətkarlıq istehsalının əsas hissəsi şəhərlərdə cəmlənmişdi. XVI əsrdə Təbriz, Marağa, Qəzvin, Mərənd, Xoy, Gəncə, Bakı, Şamaxı, Ərdəbil, Kaşan, Yəzd, Məşhəd şəhərləri ölkənin iqtisadi həyatında mühüm rol oynayan sənətkarlıq mərkəzləri idi.

Səfəvi dövlətində 44 sənət və peşə növü var idi. Bu sənət növləri içərisində toxuculuq, başmaqçılıq, dərzilik, misgərlik, duluzçuluq, dabbaqlıq, bənnalıq və silah istehsalı əsas yer tuturdu. Daxili və xarici bazarlarda olan tələbatla bağlı ticarət-sənətkarlıq birlikləri daha da böyüyür və emalatxana tipli iri karxanalar yaranırdı.

XVI-XVII əsrlərdə Səfəvi dövlətinin iqtisadiyyatında toxuculuq istehsalı mühüm yer tuturdu. Toxuculuq sənayesində ipək, yun və pambıq parça istehsalı əsas yer tuturdu. Təbriz, Mərənd, Marağa, Naxçıvan və Gəncə əsas toxuculuq mərkəzi hesab olunurdu. Dərzilik, xalçaçılıq, boyaqçılıq, metalişləmə, silah qayırma, misgərlik, dulusçuluq sənətkarlığın mühüm istehsal sahələrindən idi.

Şah sarayına məxsus toxuculuq karxanalarında və şəhər əyanlarının açdıqları emalatxanalarda xalı-xalça, palaz, ipək və pambıq parça toxuyanların, zərbaf – parça üzərinə qızıl tellər düzənlərin, zərduz-güləbətin tikənlərin, ipək tel əyirənlərin, yumaqçıların, çitsazların, çiti müxtəlif rənglərə boyayanların, paltar tikənlərin və başqa mahir toxuculuq sənətkarlarının istehsal etdikləri keyfiyyətli məhsullar ölkənin daxili bazarında tələbatı ödəməklə yanaşı başqa ölkələrə də ixrac edilirdi.

Səfəvi dövlətində daxili bazarın, şah sarayının və ali zümrənin nümayəndələrinin keyfiyyətli ipək parçalara, xalı-xalçaya tələbatları böyük idi. Səfəvi şahlarının xarici ölkə başçılarına göndərdikləri hədiyyələr içərisində xalılar, zərli ipək parçalar və başqa toxuculuq malları mühüm yer tuturdu. Ona görə toxuculuq sahəsinin inkişafına xüsusi diqqət yetirilirdi. Qızılı və gümüşü saplarla parçalar əsasən dövlət karxanalarında zərduzluq sənətini yaxşı bilən ustalar tərəfindən toxunurdu. Bu cür parçaların ixrac olunmasına dövlət tərəfindən nəzarət olunurdu. Qızıl və gümüş saplarla toxunan xalılar və parçalar xəzinəyə böyük gəlir gətirirdi. Səfəvilər dövründə sənətkarlıq sahəsində çox mahir ustalar var idi. Təsadüfi deyil ki, Evliya Çələbi Təbriz şəhərində sənətkarlığın inkişafı haqqında danışarkən öz təəccübünü gizlətmədən yazırdı: "Heç bir ölkədə buradakı kimi gözəl nəqqaşlar, rəssamlar, zərgərlər və dərzilər yoxdur. Burada toxunan pambıq, yun və ipək parçalar, məxmər, darai və qətifə xüsusilə şöhrət qazanmışdır."

Səfəvi sənətkarları ipək istehsalı və ipək parçaların toxunmasında böyük şöhrət qazanmışdılar. Fransa səyyahı Şarden yazırdı ki, ipək toxuculuğu, xüsusilə əyiricilik sahəsində elə dəzgahlar – çarxlar və cəhrələr ixtira etmişlər ki, bu sənət sahəsində hətta bizim işlətdiyimiz maşınlar və dəzgahlarla rəqabət apara bilər.

Səfəvi toxucuları tərəfindən kəmxa adlanan birrəngli ipək parça, kassab adlı qızılı və gümüşü saplarla işlənmiş sadə və bəzəkli parça, zərbaft (zərxara) və məxmər kimi müxtəlif çeşidli ipək parçalar istehsal edilirdi. İkienli və astarı olmayan zərxara keyfiyyətcə bütün parçalardan seçilir və onun çox sayda çeşidi vardı. Bu parçanın bir qulacının (105 sm) qiyməti 50 tümən idi. Bu dünyada ən bahalı parça hesab olunurdu.

Səfəvi dövlətində pambıq parça istehsalı da geniş inkişaf etmişdi. Bu növ parçalar əsasən geniş əhali kütləsinin tələbatını ödəyirdi.

Azərbaycanda xalçaçılıq qədim zamanlardan mövcud olsa da, Səfəvilər dövründə toxuculuğun bu sahəsi kənd sənətkarlığı çərçivəsindən çıxmış və ümumölkə miqyaslı istehsal sahəsinə çevrilmişdi. Xalçaçılığın bu inkişaf səviyyəsi daxili və xarici bazarlarda ona olan tələbatla əlaqədar idi. Ona görə Səfəvi şahları sənətkarlığın bu sahəsinin inkişafına diqqət yetirirdilər. I Şah Təhmasib və I Şah Abbas xalçaçılıq sənətinin inkişaf etdirilməsi ilə bağlı xalça toxuculuğu emalatxanaları açmışdılar ki, bu emalatxanalarda şah sarayının sifarişləri yerinə yetirilirdi.

Səfəvilər dövründə sənətkarlığın daha geniş yayılmış sahələrindən biri də metalişləmə sənəti idi. Metalişləmə sənəti çoxşaxəli istehsal sahəsi olub, zərgərliyi, silah və əmək alətləri hazırlanmasını, məişət əşyaları düzəltdirilməsini əhatə edirdi. Metalişləmə sənətkarlığın ən mühüm sahələrindən biri silah istehsalı idi. Hələ Ağqoyunlular dövründə Azərbaycanda silah növləri istehsal edilirdi. Silah istehsalı Səfəvilər dövründə daha da inkişaf edib təkmilləşmişdi. Təbriz yaxınlığında Beşkuy adlanan yerdə süvarilər üçün zireh istehsal edilən sənətkarlıq mərkəzi var idi. Burada yaşayanlar yalnız zireh isrehsalı ilə məşğul olurdular. Bu sənəti öyrənənlər başqa yerə köçüb gedə bilməzdilər. Çünki burada istehsal texnikasının sirri gizli saxlanılırdı.

Ölkədə hərbi tələbata uyğun olaraq dəbilqə və qalxan istehsalı da geniş yayılmışdı. Hələ I Şah İsmayılın dövründə qızılbaş qoşununda hərbi geyim və sursatların əksəriyyəti yerli sənətkarlar tərəfindən hazırlanmışdı. Onlar döyüşdə ox və kamanla yanaşı öz sənətkarları tərəfindən hazırlanmış nizə, şəmşir və mancanaqdan istifadə edirdilər. Səfəvi dövlətində soyuq silahla yanaşı XVI əsrdə odlu silahlardan da istifadə edilirdi. Odlu silah metalişləmə sənətinin ən mühüm sahəsinə çevrilmişdi. Azərbaycanın ayrı-ayrı şəhərlərində müxtəlif çaplı tüfənglər istehsal olunurdu. 1571-ci ilin yayında Təbrizdə olmuş Venetsiya elçisi Vinçento de Alessandri yazırdı ki, Səfəvi süvarilərinin silahları qılınc, nizə və tüfəngdən ibarət idi

və hər bir süvari döyüşçü tüfəngdən yaxşı istifadə edə bilirdi. Onun dediyinə görə Səfəvi dövlətində "arkebuz" ("dayandol-durum") tüfənglərinin istehsalı sənətkarlıq cəhətdən çox yüksək səviyyəyə çatmışdı. Odlu silah istehsalı və toptökmə sənəti ölkədə barıt istehsalının təşkilini də tələb edirdi. Təbriz, İsfahan və Qum şəhərlərində odlu silah üçün barıt istehsal edilirdi.

Mənbələrə görə I Şah İsmyılın və I Şah Təhmasibin hakimiyyəti dövründə top istehsalı haqqında məlumat var. I Şah Abbas, Şah Səfi və II Şah Abbas toptökmə sənətinə xüsusi diqqət yetirirdilər. I Şah Abbasın göstərişi ilə 1604-cü il martın əvvəllərində 40 batman ağırlığında daş ata bilən "Fəth" adlı top tökülmüşdü. 1606-cı ildə Gəncədə, 1607-ci ildə Şamaxıda, 1635-ci ildə İrəvanda top tökülmüşdü. Bu dövrdə Təbriz, Gəncə, İsfahan, Qum və digər şəhərlərdə dövlətin sifarişi ilə top tökülmüşdü.

Səfəvi dövlətində çini və saxsı qab istehsalı və kaşı bişirmək sənəti çox inkişaf etmişdi. Ölkədə istehsal olunan çini və saxsı qabların bir hissəsi qonşu ölkələrə, o cümlədən Hindistana ixrac olunurdu. Səfəvi sənətkarlarının istehsal etdiyi çini qablar incəlik, saflıq və cingiltisi cəhətdən bəzən Çində istehsal olunan çini qablardan üstün tutulurdu. Bu baxımdan Şardenin məlumatları maraqlıdır. O, yazırdı ki, Səfəvi kaşılarından daha parlaq, rəngləri daha aydın və dolğun, daha zərif naxışları olan kaşı tapmaq mümkün deyildir.

Şah Təhmasib (1524-1576), I Şah Abbas (1587-1629), Şah Səfi (1629-1642) və II Şah Abbas (1642-1666) top tökülməsi sənətinə xüsusi diqqət yetirirdilər.

Səfəvi dövlətində sərbəst (azad) və feodal (sahibkar) emalatxanaları ilə yanaşı dövlət tərəfindən açılmış iri emalatxanalar da fəaliyyət göstərirdi. Belə dövlət emalatxanaları şah karxanaları (biyutat) adlanırdı. Dövlət karxanalarında imtiyazlı və peşəkar sənətkarlar işləyirdilər. Onlar dövlətdən maaş alır və saray işçiləri hesab olunurdular. Saray karxanalarının ümumi baş nəzarətçisi naziri-biyutat adlanan dövlət məmuru idi.

Ölkədə 33 şah karxanası mövcud idi. Hər bir karxanada 150 nəfər, hamısında birlikdə isə 5 min nəfərədək imtiyazlı sənətkar işləyirdi. Şah karxanaları iqtisadiyyatın dövlət bölməsi kimi fəaliyyət göstərirdi. Dövlətə məxsus karxanaların sənətkarları üçün başçılar şah tərəfindən təyin edilirdi. Azad sənətkarlar isə başçıları öz aralarından təyin edirdilər.

Sənətkarların bazarlarda, məhəllə və rastabazarlarda peşələrinə uyğun olaraq eyni zümrə halında birləşməsi "əsnaf" adlanırdı. Əsnaf müəyyən sosial zümrə ilə yanaşı şəhərlərdə tacir və sənətkarların peşələr üzrə birləşərək yaratdıqları təşkilatlar mənasında işlənirdi. Əsnafların başçısı "ustabaşı", yaxud da "həmkarbaşı" adlanırdı. Şəhərdə sənətkarlıq təşkilatlarının fəaliyyəti kələntər tərəfindən tənzim edilir, kənddə isə sənətkarlıq təşkilatına kəndxudalar nəzarət edirdilər. Sənətkarlıq təşkilatları təkcə şəhərlərin deyil, bütövlükdə ölkənin iqtisadi həyatında çox mühüm rol oynayırdı.

XVI əsrdə ölkə miqyasında başlanan iqtisadi canlanma ilə əlaqədar ictimai əmək bölgüsü və əmtəə istehsalının meydana çıxması şəhərlərdə daxili bazarın inkişafına müsbət təsir göstərdi. Daxili tələbatın artmasına uyğun olaraq dövlətin həyata keçirdiyi sabit daxili siyasəti də daxili bazarın yaranması və ticarət əlaqələrinin genişlənməsində müəyyən rol oynadı. Səfəvilər dövründə şəhərlərin çoxu böyük vilayətlərin inzibati və iqtisadi mərkəzinə çevrilmiş və ümumölkə miqyasında rolu xeyli artmışdı. Belə şəhərlər daxili, xarici və tranzit ticarətdə əsas rol oynayaraq sənətkarlıq və ticarət mərkəzinə çevrilmişdi. İqtisadi inkişaf nəticəsində kiçik inzibati vahidlərin bir hissəsi ümumdövlət, bir hissəsi isə vilayət miqyaslı iqtisadi mərkəzlərə çevrilmişdi. Bu dövrdə şəhər və qəsəbələrin əsas ticarət obyektləri çarşı, Qeysəriyyə və karvansaralar idi. Çarşı (iki tərəfində cərgə dükanlar olan üstüörtülü, yaxud açıq bazar), Qeysəriyyə (bu Bədistanda belə adlanırdı – üstüörtülü bazar), şəhər meydanı (yan tərəfdə cərgə dükanlar yerləşir), ticarət cərgəsi (iki tərəfdən cərgə ilə dükanlar yerləşən küçələr), ayrı-

ayrı əyanlara məxsus olan xüsusi bazarlar və karvansaralar, şəhərlərdə "həftəbazarlar" və ordunun keçdiyi yerlərdə "ordubazarlar" da mövcud idi.

Dövlət ticarət mərkəzlərinə nəzarət etmək üçün xüsusi məmurlar təyin edirdi. Bazarlarda qayda-qanuna nəzarət işlərinin təşkili, həmçinin tacir və sənətkarların mallarının qorunması ilə şəhər inzibati idarəsinə başçılıq edən darğa "əsəs" adlı məmurlar bazara gətirilən mallara qiymət qoyulması, qiymətə nəzarət edilməsi, müəyyən olunmuş qiyməti pozanların, çəkidə və ölçüdə alıcıları aldadanların cəzalandırılması ilə möhtəsib adlanan məmur məşğul olurdu.

Şəhərlərdə ticarətlə məşğul olan karvansaralar da fəaliyyət göstərirdi. Karvansaraların əksəriyyəti şahlar tərəfindən tikilirdi və belə karvansaralar xassəyə (şah sülaləsinə) məxsus idi. Karvansaralar şəhərlərin bazarları və giriş qapıları yaxınlığında yerləşirdi. Şəhərdaxili karvansaralarla yanaşı, şəhərlərarası karvan yolları üzərində də karvansaralar var idi. Karvan yolları üzərində yerləşən belə karvansaralar elçi, qasid və tacirlər üçün tikilmiş və ölkə daxilində iqtisadi əlaqələrin göstəricilərindən biri idi. Ümumiyyətlə karvansaralar ölkənin mühüm ticarət mərkəzləri olan şəhərlərdə karvan yollarında tacirlərin gecələməsi, mallarının yerləşdirilməsi, saxlanması və qorunması üçün nəzərdə tutulmuşdu. Şəhərdəki karvansaralarda xarici ölkələrdən gələn tacirlər topdansatış ticarəti ilə məşğul olurdular. Belə karvansaralarda tacirlər aylarla, illərlə yaşayır və alqı-satqı işləri aparırdılar. "Xoca xanları" (tacir sarayları) da topdansatış mərkəzi hesab olunurdu. Şəhərlərdə yerləşən karvansaralar və xoca xanlarının bəzilərindən, əsasən böyük olanlarından yalnız topdansatış üçün deyil, ticarət mərkəzləri kimi də istifadə olunurdu.

Ölkənin ayrı-ayrı bölgələri arasında iqtisadi əlaqələrin artması, ictimai əmək bölgüsünün genişlənməsi, əmtəə istehsalının artması, əmtəə təsərrüfatının təkamülü kimi mühüm iqtisadi amillər daxili bazarın formalaşmasına səbəb olurdu.

Daxili ticarətin əsas hissəsi iqtisadi mərkəzlərə çevrilmiş şəhərlərdə cəmləşmişdi. Şəhərlər ölkə daxilində ticarət əlaqələrinin qurulması və inkişafında mühüm rol oynayırdı.

XV əsrin sonu üçün əvvəlki ticarət əhəmiyyətini itirmiş Dərbənd şəhəri XVII əsrdə Xəsər dənizinin şimal-qərb hissəsində əsas ticarət mərkəzlərindən birinə çevrilmişdi və ölkənin daxili ticarətində rolu artmışdı. Tacirlər Dərbənddən Şamaxı şəhərinə Niyazabad-Şabran-Beşbarmaq yolu ilə gedirdilər. XVII əsrdə Dərbənd ölkənin açarı və əsas ticarət şəhərlərindən biri idi.

Şamaxı şəhəri ölkənin iqtisadi həyatında və daxili ticarətində mühüm rol oynayırdı. Şamaxının ölkədaxili ticarət əlaqələrində xüsusi əhəmiyyətə malik olması, şəhərin həm daxili, həm də beynəlxalq karvan yolları üzərində yerləşməsi ilə sıx bağlı idi. Şamaxı-Dərbənd, Şamaxı-Hambrun (İran körfəzi) daxili karvan yolları və ölkənin iqtisadi əlaqələrində Şamaxı şəhəri əhəmiyyətli rol oynayırdı.

XVI-XVII əsrlərdə xüsusi statusu ilə seçilən Ərdəbil şəhəri əsas iqtisadi mərkəzlərdən biri idi. Səfəvi dövlətinin güneydən quzeyə, batıdan doğuya bütün iqtisadi mərkəzlərinin Ərdəbillə əlaqəsi var idi. Ərdəbil şəhəri ölkənin iqtisadi bölgələrini əlaqələndirən ticarət yollarının kəsişdiyi əlverişli ərazidə yerləşirdi. Dərbənd-Hörmüz və Gilan-Təbriz karvan yollarının da Ərdəbildən keçməsi şəhəri ölkədə ən mühüm daxili bazarlardan birinə çevirmişdi.

Səfəvi dövlətinin yaranmasından sonra Təbriz şəhəri ölkənin ən mühüm sənətkarlıq və ticarət mərkəzlərindən biri idi. Osmanlı-Səfəvi müharibələri Təbriz şəhəri və şəhərətrafı bölgələrin iqtisadiyyatına böyük ziyan vursa da Təbriz şəhəri yenə də mühüm sənətkarlıq və ticarət mərkəzi kimi öz əhəmiyyətini saxlayırdı. Təbriz şəhərinin ölkədaxili ticarət əlaqələrində rolu qarşılıqlı iqtisadi tələbatla bağlı idi. Təbrizdə toxunan atlas, qumaş, darai, məxmər parçalar daxili tələbatı ödəməklə yanaşı xarici ölkələrə də ixrac olunurdu. XVII əsrdə Təbriz

əhalisinin sayına (550000 nəfər), nüfuzuna, böyüklüyünə, ticarətinə və zənginliyinə görə Səfəvi dövlətində ikinci şəhər idi.

Qeyd olunan şəhərlərdən başqa Azərbaycanın Gəncə, Şəki, Mahmudabad, Ərəş, Ordubad, Culfa, Bakı, Marağa, Mərənd, Xoy və digər şəhərləri də ticarət mərkəzinə çevrilmiş və bazara çıxardıqları məhsulların bir hissəsini qarşılıqlı şəkildə bir-birinin bazarına çıxarırdılar.

Bu dövrdə iri şəhərlərdə sənətkarlıq və ticarətin inkişafı şəhərətrafı kəndlərin iqtisadi tərəqqisinə müsbət təsir göstərirdi. Nəticədə həmin kəndlər şəhər bazarları ilə daha sıx bağlanır və onlarda kənd təsərrüfatı məhsullarının istehsalına maraq daha da artırdı. Şəhərətrafı kəndlərdə oturaq əhali başlıca məhsuldar qüvvəyə çevrilir və əmtəə-pul münasibətlərinə cəlb olunurdular. Kəndlərlə şəhərlər arasında qarşılıqlı iqtisadi əlaqə daxili ticarətin inkişafına və daxili bazarın bir forması kimi inkişafına səbəb olurdu. Beləliklə Səfəvi dövlətində XVI-XVII əsrlərdə ölkədaxili iqtisadi əlaqələr inkiişaf etmiş, daxili ticarət canlanmış, əmtəə-pul münasibətləri genişlənmiş, ölkənin ayri-ayri bölgələri arasında iqtisadi əlaqələr güclənmişdi.

Göründüyü kimi Səfəvilər dövründə ticarət ölkə iqtisadiyyatının çox mühüm və gəlirli sahələrindən biri olduğundan, dövlət daxili ticarət məsələlərinə və xarici iqtisadi əlaqələrin inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verirdi. I Şah İsmayılın 5 oktyabr 1509-cu il və 12 yanvar 1514-cü il məhdud miqyaslı fərmanları ticarətin inkişafına mane olan maneələri aradan qaldırmaq məqsədi ilə verilmişdi. I Şah Təhmasibin 16 mart 1565-ci ildə verdiyi fərmanla karvan yolları, keçidləri və şəhər bazarlarında tacirlərdən alınan tamğa vergisi ləğv edildi. Tamğa tacirlər və sənətkarlıq müəssisələrindən pulla toplanan vergi idi.

I Şah Abbas yerli tacirləri dövlət himayəsinə alaraq ticarəti genişləndirib, onu xəzinənin əsas gəlir qaynaqların-dan birinə çevirə bilmişdi. I Şah Abbasın ticarət və sənətkarlığın inkişafına himayədarlıq siyasəti, karvan yollarının təhlükə-

sizliyinin təmin edilməsinin təşkili və yolların abadlaşdırılması işinə qayğı göstərməsi, karvansaralar tikdirməsi, quldurlara qarşı amansız mübarizə aparması və yeni yollar çəkdirməsi ilə ifadə olunurdu.

I Şah Səfi tacqoyma günü I Şah Abbasın dövründə ipək ticarəti üzərində qoyulan inhisar hüququnu ləğv etməsi, bazarlarda məhsulun satış qiymətinə nəzarət sisteminin tətbiq edilməsi və dövlət səviyyəsində tənzimlənməsi ticarətin inkişafına müsbət təsir göstərmişdi. II Şah Abbasın hakimiyyəti dövründə də dövlətin yeritdiyi düzgün iqtisadi, ticarət və gömrük siyasəti daxili və xarici ticarətin inkişafını təmin etmişdi. Şah Süleymanın (1664-1694) və Şah Hüseynin (1694-1722) hakimiyyəti dövründə isə daxili və xarici ticarət tənəzzülə uğramışdı.

## § 8.4. Vergi və mükəlləfiyyətlər

XV əsrdə olduğu kimi XVI-XVII əsrlərdə də vergi, müxtəlif rüsumlar dövlət xəzinəsinin əsas gəlir qaynaqlarından birini təşkil edirdi. Səfəvilər dövründə dövlətin əsas gəlir mənbələrindən birini təşkil edən vergi və mükəlləfiyyətlərin sayı Ağqoyunlu dövlətinkindən heç də az deyildi. Ağqoyunlu Qasımın 1498-ci ildə imzaladığı soyurqal bəxşisi haqqında fərmanda müxtəlif qanuni və qeyri-qanuni rüsumlardan əlavə 31 növ vergi və mükəlləfiyyətlərin adı çəkilmişdir. I Şah İsmayılın hakimiyyətinin ilk dövründə, yanvar 1502-ci ildə imzaladığı fərmanda 32 növ vergi və mükəlləfiyyət göstərilmişdir. Fərmanda malucəhət, ixracat, xariciyyət, ələfə, ulafə, qonalqa, ulağ, ulam, bigar, şikar, tərh, dəstəndaz, eydi-novruzi, rərpareyi-pişkəş, savari, çerik, ona yarım, malıkanə, mühəssilanə, yüzədörd, sədrlik haqqı, vəzirlik haqqı, amillərin çalışma haqqı, verilmiş vədi yerinə yetirmək haqqı, darğalıq haqları, yetişdirilmiş məhsulun qiymətini müəyyənləşdirmək və torpaq sahəsini müəyyən etmək haqqı, qala və keşikçıxana ixracatı, yüzə bir, yüzə iki və maluxaricə aid oluna biləsi digər divan

mükəlləfiyyətləri və şahlıq tələbatı adlı vergi və mükəlləfiyyətlərin adı çəkilmişdir.

Dövlət vergilərinin əhalidən düzgün şəkildə toplanmasına ciddi nəzarət edilirdi. Vilayət və mahallarda vergi yığılmasına məsul olan dövlət məmuru təhsildar adlanırdı. Təhsildarlar mərkəzi maliyyə idarəsinə tabe olub, bu orqanın qarşısında məsuliyyət daşıyırdılar.

I Şah Təhmasib 1555/56-cı ildə ölkənin idarə edilməsi, ordu, hər bir bölgədən və usuldan alınacaq malcəhət və vücuhat, tiyulun miqdarı, ehdas (hadisə) haqqı və müttəhimlərdən alınacaq cərimələrin miqdarı haqqında qanun verdi. Dəstur-ül-əməl adlanan bu qanun Uzun Həsənin "Qanunnaməsi" əsasında hazırlanmışdı. Dəstur-ül-əməl qəbul edildikdən sonra şərti əsası olmayan vergilər, o cümlədən bazar, qaramal, otlaq sahələri üzrə vergilər ölkənin əsas bölgələrində ləğv edilmişdi. Həmin vergilər arasında yollarda ticarəıt karvanından hər il alınan, ümi miqdarı 1000 tümən olan tamğa vergisi də ləğv olunmuşdu. Ölkənin əsas bölgələrindən, xüsusilə əhalisi şiə olan bölgələrindən mal-i möhtərifə (sənətkarlardan alınan vergi), məvaşi (malqara), mərai (otlaq) üçün alınan vergilər də ləğv edilmişdi. Rəiyyətdən, o cümlədən kəndli və əkinçilərdən alınan vergilərin miqdarı da azaldılmış və vilayət hakimlərinin özbaşına olaraq normadan artıq vergi alması yasaq edilmişdi.

Qeyd olunan dövrdə malcəhət (xərac) əsas vergi olub, torpağın münbitliyindən asılı olaraq məhsulun 1/5, yaxud 1/3 hissəsini təşkil edirdi. Bağlardan yığılan məhsulun 1/10 həcmində bağbaşı, otlaqlardan istifadə əvəzində çobanbəyi, ordunun ərzağı və atlarına verilən yem üçün ələfə və ülafə, nəqliyyat mülkiyyəti adı ilə ulaq, yol gedən elçi, qasid, məmura verilən yer və ərzaq üçün qonalgə vergiləri və bir sıra rüsumlar alınırdı.

Səfəvi dövlətində divan və xassə torpaqları şahın sərəncamında idi. Dövlət (divan) torpaqları ayrı-ayrı vilayətlərə bölünmüşdü və xan titulu daşıyan hakimlər tərəfindən idarə

olunurdu. Dövlət və xassə torpaqlarının bir hissəsi şərti xarakterli tiyul və soyurqal şəklində müxtəlif rütbəli məmurların və yerli hakimlərin istifadəsində idi. Xassə torpaqları əsasən şah tərəfindən təyin olunan darğalar tərəfindən idarə olunurdu. Dövlət torpaqlarını idarə edən xanlardan və sultanlardan fərqli olaraq darğalar qoşun saxlamadıqlarına görə daha çox vergi ödəyirdilər. I Şah Abbasın həyata keçirdiyi aqrar siyasətində mərkəzə tabe olmayan feodalların bütün əmlakı müsadirə edilərək xassə əmlakına çevrilirdi. I Şah Abbas bu yolla xassə əmlakını genişləndirərək dövlətin gəlir qaynağını artırırdı. Bu siyasət Şah Səfi və II Şah Abbasın hakimiyyəti dövründə də davam etdirilmişdi.

Xassə əmlakına daxil olan bəzi bölgələrdə becərilən buğda və arpa məhsullarının üçdə biri kəndliyə, üçdə iki hissəsi isə xəzinəyə çatırdı. Xassə əmlakında onu becərən kəndliyə toxum verilir, su kanalları və arxlar şəkilib suvarma aparılmasına icazə verilirdi. Lakin başqaları öz əkin sahələrini suvarmaq üçün əlavə xərc çəkməli idi. Kəndli isə öz əmək alətləri ilə torpağı şumlamalı və gübrə verməli idi. Şah toxumdan əlavə öküz, cüt və s. verib kəndliləri biyardan azad edirdisə, məhsulun dörddə biri kəndliyə, dörddə üç hissəsi isə şaha çatırdı. Əgər kəndliyə torpağın becərilməsində əlavə işçi qüvvəsi də verilirdisə belə halda kəndliyə məhsulun səkkizdə bir hissəsi çatırdı. Kəndli öz qüvvəsi ilə düyü, darı, pambıq, mərci, yonca, qarpız, yemiş yetişdirirdisə məhsulun beşdə iki hissəsi kəndliyə, beşdə üç hissəsi isə şaha çatırdı. Kəndlilər torpağı şah və mülkədarlardan icarəyə götürürdülər. Sahibkar ilə kəndli arasında müzəraə adlanan becərmə üsulu da mövcud idi. Bu sahibkarla kəndli arasında işçi, torpaq, su, toxum və öküzdən ibarət beş amil əsasında qarşılıqlı razılaşmaya görə bölgü idi. Belə bölgü suvarılan torpaqlarda həyata keçirilirdi. Bütün bunlar göstərir ki, dövlət və xassə torpaqlarının gəlirlərinin iqtisadi cəhətdən mənimsənilməsində yardarlıq-paydarlıq sistemi mövcud olmuşdur.

Xassə ərazilərindəki meyvə bağlarının barı toplanan zaman məhsula nağd qiymət qoyulandan sonra ona 15 faiz də əlvə olunurdu. Dənli bitkilərin barı toplandıqda isə onun hər yüz batmanına əlavə olaraq beşdə dörd mahmudi əlavə alınırdı. Hər il vergilərin yığılması ərəfəsində xassə dəftərxanasında hesablamalar aparılır və alınacaq məhsulun nağd qiyməti müəyyən olunurdu.

Xassə əmlakı olmayan əyalətlərdən də bir hissəsi məhsulla, digər hissəsi malla ödənilən müxtəlif vergilər (rüsum) alınırdı.

Səfəvi hökmdarları bəzi vergiləri ləğv etməklə əhalinin vəziyyətini yüngülləşdirməyə çalışırdılar. Hələ I Şah İsmayıl 1514-cü ildə əvvəllər mövcud olmuş baş pulu vergisini ləğv etmək haqqında fərman vermişdi. Vergilərin əhalidən düzgün şəkildə toplanmasına dövlət tərəfindən ciddi nəzarət olunurdu.

Səfəvi dövlətində islam qanunlarına əsasən xristian əhalinin hər nəfərindən bir misqal (4,69 qram) qızıl alınırdı. Ölkədə ipək istehsalı və ticarəti dövlət büdcəsinin əsas gəlir mənbələrindən birini təşkil edirdi. İpəyin hər tayına görə beşdə bir tümən və yaxud bir abbası rüsum ödənilirdi. Tənbəki vergisi də dövlət büdcəsinin əsas gəlir qaynaqlarından hesab olunurdu. Məsələn, İsfahan şəhəri ildə tənbəkinin hesabına 40 min tümən, Təbriz şəhəri 20 min tümən, Şiraz şəhəri isə 12 min tümən vergi ödəyirdi. Digər şəhərlər də böyüklüyünə və əhalisinin sayına görə xəzinəyə tənbəki vergisi ödəyirdi.

Ölkədə qoyunçuluq geniş inkişaf etmişdi. Qoyunçuluq təsərrüfatı da dövlətə böyük gəlir gətirirdi. Qoyun saxlayanlar çobanbəyi adlanan otlaq haqqı verirdilər. Qoyunların yun və balasına görə xüsusi mənfəət norması, yəni altıda bir mizan vergi ödənilirdi. Qoyun sürülərini otaran və baxan çoban qoyunun yunu və quzusundan götürülən məvfəətin üçdə birini sürünün sahibinə verirdi.

Səfəvi dövlətində bəzi su mənbələrinin bölüşdürülməsindən və suvarma şəbəkələrinin icarəyə verilməsindən xəzinəyə

vergi ödənirdi. Çay sularının bölüşdürülməsi divan dəftərində qeydə alınır və şahın möhürü ilə təsdiq edilirdi. Çayın suyu əsasən dövlətə və sülaləyə məxsus kəndlər arasında bölünürdü. Bəzi kəndlər suyun əvəzini məhsulla, bəziləri pulla ödəyirdilər.

Dövlət Abşerondakı neft yataqlarının icarəyə verilməsindən və balıqtutma hövzələrindən vergilər toplayırdı.

Vergi yığılması işi dövlət orqanlarının ciddi nəzarəti altında idi. Vilayət və mahallarda vergi yığılmasına məsul olan dövlət məmuru təhsildar adlanırdı. Təhsildarlar mərkəzi maliyyə idarəsinə tabe idilər. Şəhər idarəsinin başçısı kələntər birbaşa vergi yığmasa da şəhər əhalisindən verginin yığılıb, xəzinəyə təhvil verilməsinə nəzarət edirdi. Təhsildar vəzifəyə təyin olunarkən hansı vilayətdən və mahaldan vergi toplamaq hüququ olması müəyyənləşir və ona rəsmi vəsiqə verilirdi. Ona toplayacağı verginin miqdarını əks etdirən həvalə baratı adlanan sənəd də təqdim olunurdu. Təhsildarların yığdıqları verginin dəyərinin on faizi onlara çatırdı.

Səfəvi dövlətinin başlıca gəlir mənbələrindən biri də ticarət idi. Xəzinəyə gəlir gətirən bu sahənin inkişafı daim nəzarətdə saxlanılır, daxili və xarici ticarət Səfəvi şahları tərəfindən himayə edilirdi. Karvan yollarının dövlət səviyyəsində qorunması işini maliyyələşdirmək üçün rəhdarı adlı rüsum alınırdı. Ölkənin iqtisadi bölgələri arasında sərbəst ticarət əlaqələrini qurmaq məqsədi ilə karvan yolları çəkilir və karvan yollarının təhlükəsizliyini təmin etmək üçün tədbirlər görülürdü. Karvan yollarında hər mənzilin qurtaracağında karvansaralar, anbarlar, tövlələr inşa edilirdi. Tacirlər, burada yaşayış mənzilləri, ərzaq və su ilə təmin edilirdi. Karvansaralar ticarət məntəqəsi funksiyasnı yerinə yetirirdi. İri şəhərlərdə və ticarət yollarında inşa edilən karvansaralar dövlətin sabit gəlir mənbəyinə çevrilmişdi.

Səfəvi dövləti ilə xarici ölkələr arasında bağlanan ticarət müqavilələrinin həyata keçirilməsi xəzinəyə xeyli gəlir gətirirdi. Xarici ölkələrə mal ixracından xəzinəyə gəlir gəlirdi.

Şaqren, tumac dərilər, meyvə qurusu əsasən Avropa bazarlarına, Hindistana, ən çox Rüştə raunas adlanan qırmızı boyaq bitkisi, tütünün çox hissəsi, Bağdad və Diyarbəkirə meyvə qurusu, Osmanlı dövlətinə daha çox dəvə və qoyun satılırdı.

Şəhərlərdə fəaliyyət göstərən bazarlar daxili ticarət mərkəzi kimi dövlət büdcəsinin qaynaqlarından birini təşkil edirdi. Bazarlarda aparılan ticarət əməliyyatlarından əldə edilən gəlirin bir hissəsi xəzinəyə daxil olurdu. Tacir və sənətkarlardan alınan xüsusi vergilər dövlət mədaxilinin bir hissəsini təşkil edirdi. Ölkənin sərhədlərində və şəhərlərdə fəaliyyət göstərən gömrük məntəqələrində tacirlərin ödədiyi gömrük rüsumu və karvan yollarında tacirlərdən alınan rəhdari adlı yol rüsumu da dövlət büdcəsinin gəlir qaynaqlarından idi.

Beləliklə, Səfəvilər dövründə dövlət xəzinənin gəlir qaynaqlarından biri olan ipək və tütün istehsalından daha çox gəlir əldə edirdi. Bütün vilayətlərdən toplanan vergilər də xəzinənin əsas gəlir qaynağı idi.

# IX FƏSİL

# XVI-XVII ƏSRLƏRDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

## § 9.1. Maarif və elm

Azərbaycan Səfəvi dövlətinin yaranması, habelə mərkəzləşmiş siyasi qurumun möhkəmlənməsi ölkənin iqtisadi və sosial həyatında baş vermiş irəliləyiş mədəniyyətin inkişafına müsbət təsir göstərdi. Gəncə, Təbriz, Şamaxı, Marağa, Ərdəbil şəhərləri bu dövrün mühüm mədəniyyət mərkəzlərinə çevrildi.

Şəhərlərdə məktəb və mədrəsə şəbəkəsi yaradılmışdı. Məktəblərin çoxu vəqf hesabına idarə olunsa da bəzi məktəblərin xərcini isə şah ödəyirdi. Pullu özəl məktəblər də mövcud idi. Şagirdlər ibtidai təhsil məktəbini bitirdikdən sonra orta təhsil verən mədrəsəyə daxil olurdular. Evliya Çələbi 1647-ci ildə Təbrizdə 600 məktəb və 47 mədrəsə, Şamaxıda isə 40 məktəb və 7 mədrəsə olduğunu bildirmişdir. Mədrəsədə ilahiyyat, hesab, cəbr, həndəsə, astronomiya, coğrafiya, tibb, fəlsəfə, tarix, ədəbiyyat fənləri öyrədilirdi.

Bu dövrdə yaşamış bir çox alimlər əsasən dini (şiə) təlimin nümayəndələri kimi çıxış etsələr də məntiqin, fəlsəfənin, ədəbiyyatın, təbabətin, riyaziyyatın, astronomiyanın bir çox məsələləri ilə məşğul olurdular.

Bu dövrdə astronomiya elminin inkişafına diqqət göstərilirdi. XVI əsrin əvvəllərində I Şah İsmayılın göstərişi ilə Marağa rəsədxanasını bərpa etmək məqsədi ilə məşhur riyaziyyatçı və astronom Qiyasəddin Mənsur İbn Əmir Sədrəddin Məhəmmədi (1463-1542) Marağaya göndərilmişdi.

Dövrünün məşhur alimləri Şeyx Abdulla Şəbustərizadə riyaziyyata aid bir sıra əsərlərin, təbrizli Seyid Əhməd Laləvi (1436-1507) məntiq, qrammatika, riyaziyyat və ədəbiyyat sahəsi, Təbrizli Mirzə İbrahim riyaziyyat və fəlsəfə üzrə

əsərlərin müəllifi idilər. Məşhur münəccim Mövlana Məhəmməd Ərdəbili, Mahmud bəy Füsuni riyaziyyat, astronomiya sahəsində tanınmışdılar.

XVII əsrdə yaşamış Şükrüllah Şirvani yazdığı "Riyazülülum" əsərinin bir neçə fəslini təsəvvüf, məntiq, nücum, astranomiya, hesab fənlərinə həsr etmişdi.

Şirvanlı Mövlan Mirzə Məhəmməd humanitar və dəqiq elmlər sahəsində böyük nüfuz qazanmışdı. Filosof Qarabağlı Yusif Məhəmmədcan oğlu fəlsəfə və hüquq elmlərinə aid bir sıra əsərlərin müəllifi idi. XVII əsrin görkəmli alimlərindən Mirzə Əbdülbaqi fəlsəfə və riyaziyyat elmləri sahəsində tanınmışdı.

Təbabət mühüm elm sahəsindən biri idi. Əlaəddin Təbrizi, Mirzə Məhəmməd, Əbülfəth Təbrizi, Əbu Talib Təbrizi, Naxçıvanlı İbrahim, Məhəmmədtağı Tufarqanlı, İmadəddin Mahmud dövrünün məşhur təbibləri idilər.

XVI-XVII yüzillərdə xalqın mədəni-tarixi irsinin öyrənilməsinə maraq xeyli artmışdı. Bu dövrdə Azərbaycan tarixinin öyrənilməsi sahəsində çox işlər görülmüş, qiymətli tarixi əsərlər yazılmışdı. XVI əsrin məşhur Azərbaycan tarixçisi Həsən bəy Rumlu I Şah Təhmasibin sarayında qulluq etmiş, onun yürüşlərinin iştirakçısı olmuşdu. Onun "Əhsən ət-təvarix" (Tarixlərin ən yaxşısı) əsərinin IX-X cildləri dövrümüzə qədər gəlib çatmışdır. Əsər Azərbaycanın və qonşu ölkələrin XV-XVI əsrlər tarixinə həsr olunmuşdur.

Həyatının əsas hissəsini Gəncə və Qarabağda yaşamış, 1524-cü ildən sonrakı hadisələri qələmə almış Fəzli Zeynalabdin oğlu İsfahaninin Səfəvilər tarixinə aid yazdığı 3 cildlik "Əfzəl ət-təvarix" ("Tarixlərin ən dəyərlisi") kitabının I və II cildləri dövrümüzə qədər gəlib çatmışdır. Şah Abbasın dövrünə həsr olunmuş III cildi bu günə qədər tapılmamışdır.

Görkəmli Azərbaycan tarixçisi İsgəndər bəy Münşi (1560-1633) Məhəmməd Xudabəndənin sarayında divan katiblərindən biri, şah Abbasın dövründə saray tarixçisi vəzi-

fəsində işləmişdir. Onun yazdığı "Tarixi aləmara-yi Abbasi" ("Abbasın dünyanı bəzəyən tarixi") əsəri XVI əsrin sonu XVII əsrin əvvəllərində Səfəvilər dövlətinin siyasi, ictimai, iqtisadi və mədəni həyatı haqqında məlumat verən ən qiymətli məxəzdir.

O dövrün Azərbaycan tarixinin öyrənilməsində Xondəmir ləqəbli Qiyasəddin Hüseyn (1475-1536) və Mir Yəhya Qəzvini (1482-1555) kimi İran tarixçilərinin də əsərləri çox qiymətlidir.

XVI əsrdə xalqın mədəni-tarixi irsinin öyrənilməsi üçün "Təzkirə" adlanan əsərlər yazılırdı. I Şah İsmayılın oğlu Sam Mirzə "Töhfeyi-Sami" ("Samın töhfəsi"), Şah İsmayılın nəvəsi İbrahim Mirzə "Fərhəngi İbrahimi" ("İbrahimin lüğəti"), I Şah Təhmasib "Təzkireyi Şah Təhmasib" adlı əsərlərini yazmışdılar.

Azərbaycan Səfəvi dövlətinin tarixinin öyrənilməsində Xondəmirin (Qiyasəddin Hüseyn (1475-1536)), Mir Yəhya Qəzvininin (1481-1555) "Hədid üs-siyər", "Lübbət-təvarix (Tarixlərin qəlbi) adlı əsərləri, I Şah İsmayıl və I Şah Təhmasib dövrünün siyasi tarix məsələlərinə geniş yer verən Hindistanın I Təhmasib dövründə Təbrizdə elçisi olmuş Xurşah ibn Qubad Əl-Hüseynin "Tarixi elçiye Nizamşah", XVI əsrdə Osmanlı-Səfəvi tarixinə və münasibətlərinə geniş yer vermiş Şərəfxan Bidlisinin (1543-1598) iki cildlik "Şərəfnamə", I Şah Təhmasibin hakimiyyəti dövrünün hadisələrinə həsr olunmuş Xacə Zeynəlabdin Əli Əbdi bəyin 1570-ci ildə yazdığı "Təkmilətül əxbar" (Xəbərlərin təkmili), I Şah Təhmasib, II Şah İsmayıl, Şah Məhəmməd Xudabəndə və Şah Abbasın 1612-ci ilə qədərki hakimiyyət dövrünü qələmə almış Cəlaləddin Məhəmməd Yəzdinin "Tarix-i Abbasi", Məhəmməd Yusif Qəzvininin Səfəvi şahlarının hakimiyyətinə həsr olunmuş 8 cildlik "Xolde bərin" (Daimi cənnət), XVII yüzillikdə yaşamış Seyid Hüseyn ibn Murtuza Hüseyni Astrabadinin "Əz Şeyx Səfi ta Şah Səfi" əsərləri Səfəvi dövlətinin tarixinin öyrənilməsində əvəzsiz mənbələrdir.

## § 9.2. Ədəbiyyat

XVI yüzillikdə türk dilinin dövlət, saray və diplomatiya dilinə çevrilməsi ədəbi dilimizi daha da zənginləşdirdi. Xətai, Həbibi, Füzuli, Qövsi, Məsihi və bir çox başqaları türkcə yazıb-yaradırdılar. Həmin dövrdə farsca və başqa dillərdə yazılmış əsərlər türkcəyə tərcümə edilirdi.

XVI-XVII yüzillərdə Səfəvi hökmdarları türk dilində məktublar yazırdılar, həmçinin bir sıra xarici dövlət başçıları Səfəvi şahlarına türkcə məktublar göndərirdilər. Bunun başlıca səbəbi Səfəvi dövlətində Azərbaycan ədəbi türk dilinin aparıcı yer tutması, bu dövlətlə yanaşı Osmanlı dövlətinin qüdrətli siyasi-mənəvi faktora çevrilməsi, Baburlu və Şeybani Türk dövlətlərinin varlığı idi.

Səfəvi şahları özləri Azərbaycan türkcəsində şerlər yazır və bu dildə yazanlara qayğı göstərirdilər. Azərbaycan xalqının tarixinə görkəmli dövlət xadimi və istedadlı bir şair kimi daxil olmuş Şah İsmayıl Xətainin ədəbi irsi Azərbaycan dilində yazılmış “Divan”dan, ibrətamiz mənzumələrdən, lirik qoşmalardan, “Nəsihətnamə” adlı məsnəvidən və “Dəhnamə” poemasından ibarətdir. Xətai üç dildə şeir yazmaq qabiliyyətinə malik olsa da, əsasən Azərbaycan xalqının ədəbi-bədii irsini mənimsəmişdir.

Azərbaycan ədəbiyyatının inkişafı tarixində Füzulinin yaradıcılığı müstəsna yer tutur. Onun əsərləri dərin məzmunu ilə Azərbaycan xalqının ictimai və bədii fikir xəzinəsində yeni bir mərhələnin başlanğıcıdır. Füzuli Azərbaycan mədəniyyətinin çoxəsrlik ədəbi ənənələrini mənimsəmiş, onları inkişaf etdirmiş, ədəbiyyatımıza yeni məzmun, bədii keyfiyyət gətirmişdir.

I Şah İsmayıl 1508-ci ildə Füzulinin yaşadığı İraq ərazisini ələ keçirmiş, 1510-cu ildə Şeybani hökmdarını məğlub etmişdi. Bu hadisədən bir neçə il sonra Füzuli “Bəngü Badə” əsərini Səfəvi hökmdarına təqdim etmişdi. Füzuli Osmanlı

sultanı Süleyman Qanuni 1534-cü ildə Bağdada daxil olanda dünya ədəbiyyatı incilərindən biri olan “Leyli və Məcnun” poemasını ona təqdim etmişdir. Sultan Süleyman tərəfindən təyin edilmiş ayda 9 ağça təqaüdü ala bilməyən şair “Şikayətnamə” əsərini yazdı. Onun yaradıcılığında divanlar, poemalar və nəsr əsərləri mühüm yer tutur.

XVII yüzillikdə yaşamış şairlərdən Saib Təbrizinin, Qovsi Təbrizinin yaradıcılığı ədəbi irsimizin zənginləşməsində müəyyən rol oynamışdır. Bu dövr Azərbaycan ədəbiyyatı yazılı poeziya ilə yanaşı, folklorun müxtəlif forma və janrlarının geniş inkişafı ilə səciyyəvidir. I Şah İsmayılın hakimiyyəti illərində Azərbaycan dilində yazan aşıq və şairlər sarayın himayəsindən bəhrələnirdilər. I Şah Abbasın sərəncamı ilə Azərbaycan məsəlləri və atalar sözləri toplanmışdı.

XVI əsrin sonu XVII əsrin əvvəllərində Səfəvi-Osmanlı müharibələri xalqın mədəni inkişafı prosesinə sarsıdıcı zərbə vursa da dəyərli qəhrəmanlıq və məhəbbət dastanlarının tam şəkildə təşəkkülü XVI əsrin sonu XVII əsrin başlanğıcına təsadüf edir. Xalq yaradıcılığının qüdrətli məhsulu hesab edilən “Koroğlu” dastanı bu dövrdə formalaşmışdır. 1602-1603-cü illərdə Anadolu və Azərbaycanda çoxlu üsyançı dəstələr fəaliyyət göstərirdi. “Cəlali hərəkatı” adlanan bu üsyanlar Azərbaycanda da yayılmışdı. Cəlalilər Kiçik Asiyadan Azərbaycana gələrkən onları Təbrizdə I Şah Abbasın vəziri Hatəm bəy Ordubadi qarşılamışdı.

Cəlalilərin başçılarından biri olan Koroğlu tarixi şəxsiyyət sayılır. “Koroğlu” dastanı müxtəlif qollardan ibarətdir. Eposun hər bir qolu müstəqil və mükəmməl hekayət səviyyəsinə malikdir. Əsərin bütün qollarını birləşdirən ümumi ideya mövcuddur. Dastanda Koroğlu zəhmətkeş xalqın fikir və arzularının ifadəsinə çevrilir.

XVII əsrdə Azərbaycanda dastanlar geniş yayılmışdı. “Şah İsmayıl”, “Aşıq Qərib”, “Abbas və Gülgəz”, “Əsli və Kərəm”, “Novruz” kimi dastanlar formalaşmışdı.

XVI-XVII əsrlər aşıq sənətinin yüksəliş dövrüdür. Aşıqlar epik və lirik əsərlərin yaradılması işində başlıca simalar olmuşlar. XVI əsrdə xalq şerinin ən görkəmli nümayəndələri Aşıq Qurbani idi. Xalqın həyatı, mübarizə və arzuları Aşıq Qurbaninin qoşma və dastanlarında öz əksini tapırdı.

XVII əsrin ən görkəmli aşıqlarından biri Təbriz yaxınlığındakı Tufarqan kəndində anadan olmuş Tufarqanlı Abbas idi. Qoşma, təcnis, gəraylı və ustadnamələri dillər əzbəri olan şair-aşığın həyat yolu sonralar xalq dastanına mövzu olmuşdur.

Bu dövrdə bayatı xalq ədəbiyyatının əsas qollarından biri idi. XVII əsrdə yaşayıb yaratmış Sarı Aşığın bayatıları geniş şöhrət qazanmışdı. Onun bayatıları dövrümüzə qədər gəlib çatmışdır.

## § 9.3. İncəsənət və memarlıq

XVI əsrin əvvəllərində Azərbaycan incəsənəti yeni inkişaf mərhələsinə qədəm qoydu. I Şah İsmayıl, I Şah Təhmasib, I Şah Abbas və II Şah Abbasın dövründə incəsənətin inkişafına xüsusi diqqət yetirilirdi. Azərbaycan Səfəvi dövlətinin yaranması ilə Bağdad, Herat, Şiraz, İsfahan rəssamları Təbrizə gəlməklə Təbriz miniatür məktəbinin mərkəzinə çevrilmişdi. Təbrizdə Sultan Məhəmməd, Mirzə Əli kimi görkəmli rəssamlarla yanaşı Şərqin məşhur rəssamları da yaşayıb yaratmışdılar. İncəsənətin bu sahəsi XVI əsrdə özünün yüksək inkişaf mərhələsinə çatmış Təbriz miniatür məktəbinə məxsus sənətkarların birgə çalışması ilə daha da zənginləşmişdi.

1522-ci il aprelin 26-da I Şah İsmayıl öz fərmanı ilə Herat miniatur məktəbinin görkəmli nümayəndəsi Kəmaləddin Behzadı Təbriz saray kitabxanasının rəisi təyin etmişdi. Behzadın Təbriz miniatür məktəbinin inkişafında böyük rolu olmuşdur. Təsadüfü deyil ki, 1530-1550-ci illər Təbriz miniatür məktəbinin ən yüksək inkişaf dövrü hesab edilir. XVI əsrdə Azərbaycan rəssamları arasında Sadiq bəy Əfşar, Seyid Əli

Təbrizi, Müzəffər Əli, Yəhya Şirvani, Heydər Əli, Nəbati Təbrizi və başqaları miniatür sənətinin görkəmli nümayəndələri olmuşlar.

Təbriz miniatür məktəbinin nümayəndələri özünəməxsus bədii ənənələri davam etdirməklə digər məktəblərin nəaliyyətlərini də əks etdirməklə yeni ifadə üslubları kəşf edirdilər. XVI əsrdə miniatür rəssamlıq poeziya ilə daha sıx bağlı olmuşdur. Bu dövrdə şərq poeziyasının bütün klassiklərinin əsərlərinə miniatürlər çəkilmişdir. Firdovsinin "Şahnamə"si və Nizaminin "Xəmsə"sinə daha çox müraciət olunmuşdur. Müxtəlif məktəblərin nümayəndələri onların əsərlərinə gözəl rəsmlər çəkirdilər. Bu miniatürlər arasında ən nadiri 1527-1537-ci illərdə tərtib olunmuş, "Şahnamə" əlyazmasıdır. Hər iki incəsənət əsəri Sultan Məhəmmədin və onun məktəbinə məxsus xəttatların yaradıcılığının nəticəsidir.

1539-1543-cü ildə I Şah Təhmasib üçün hazırlanmış "Xəmsə" əlyazması Azərbaycan miniatürçülərinin böyük nailiyyəti olub şərqdə kitab sənətinin şah əsəri adlandırılır. Əlyazmanın ən yaxşı miniatürləri Sultan Məhəmməd tərəfindən çəkilmişdir. Sultan Məhəmməd I Şah İsmayılın saray kitabxanasında işləmiş, sonralar bu sənətə rəhbərlik etmişdir. O, Təbriz miniatür sənətində yeni istiqamətin əsasını qoymuş və bir sıra rəssamlar yetişdirmişdir. Tarixçi İsgəndər bəy Münşi haqlı olaraq Sultan Məhəmmədi Kəmaləddin Behzadla bir səviyyədə miniatür rəssamı hesab edirdi. Təbriz rəssamları kitab miniatürləri çəkməklə kifayətlənməyib divar rəssamlığı, süjetli xalçalar, müxtəlif ölçülü bədii parçalar, kaşıkarlıq, metalın bədii emalı sahələrinin bədii forma və təsvir üsullarını da müəyyən edirdilər.

I Şah Təhmasib rəssamlıq və xəttatlıq sənətini sevməsinə və himayə etməsinə baxmayaraq 1557-ci ildə tövbə fərmanı verərək şərab evlərini, qumarxanalarla bərabər Təbriz saray kitabxanasını bağlatdı. Burada çalışan miniatür ustaları dövlət qulluğundan çıxarılaraq işsiz qaldılar. Bu tədbir Təbriz miniatür

məktəbinin inkişafına mənfi təsir göstərsə də bu məktəbin ənənəsi yox olmadı. Dövlətin paytaxtına çevrilmiş Qəzvin şəhərində saray kitabxanasının açılması ilə rəssam və xəttatların çoxu Qəzvinə getdi. I Şah Təhmasibin fərmanı ilə 1575-ci ildə Mövlana Həsən Müzəhhibin Təbriz xəttatlarına, rəssamlarına kələntər təyin edilməsi Təbriz miniatür məktəbi ənənəsinin hələ yaşadığını göstərir. Təbriz miniatür məktəbinin təsiri ilə XVI əsrin birinci yarısında Şiraz məktəbi, 70-ci illərində Məşhəd miniatür məktəbi, əsrin son rübündə isə İsfahanın paytaxt olması ilə əlaqədar İsfahan məktəbi yarandı. Təbriz məktəbinin təsiri ilə miniatür sənəti Şirvanda da inkişaf etmişdi. Sədi Şirazinin "Bustan" əsəri 1539-cu ildə Müzəffərəli Şirvani və Əbdüllətif Şirvani tərəfindən tərtib edilmişdi.

Təbriz miniatür məktəbinin dağılmasında XVI əsrin sonunda Osmanlı işğallarının təsiri olmuşdur. Təbriz rəssamları Osmanlı sarayına aparılmış və Türkiyə miniatür sənətinin inkişafında mühüm rol oynamışlar.

I Şah Abbas təsviri sənətin inkişafına diqqət göstərirdi. O, təsviri sənəti öyrənmək üçün İtaliyaya tələbələr göndərir və təqaüdləri şah tərəfindən ödənilirdi. II Şah Abbas da rəssamlıq sənətini Hollandiya rəssamlarından öyrənmiş və bu sənətin inkişafı qayğısına qalırdı.

Təbriz miniatür məktəbi ölkənin müxtəlif bölgələrində rəssamlıq məktəblərinin inkişafına təsir göstərməklə yanaşı Yaxın və Orta Şərqdə rəssamlıq mərkəzlərinin inkişaf etməsində mühüm rol oynayırdı.

XVI-XVII əsrlərdə Azərbaycanda memarlıq keçmiş ənənələri əsasında davam edirdi. Dini təyinatlı binalar əsasən şəhərin mərkəzi hissəsində tikilirdi. Həmin dövrdə karvansaralar daxili və xarici ticarətin inkişafından irəli gələn memarlıq kompleksi idi.Qeyd olunan dövrdə saray kompleksləri, müdafiə qurğuları, körpülər və s. memarlığın tərkib hissəsi olmuşdur.

XVI əsrdə Azərbaycanın cənubunda tikinti işləri daha intensiv olmuşdur. Səfəvilər sülaləsinin vətəni kimi Ərdəbil

şəhərinin inkişafı, 1555-ci ildə Qəzvin şəhərinin paytaxta çevrilməsi nəticəsində burada şəhər salma tədbirləri sayəsində aparılan tikinti işləri memarlığın inkişafında bir sıra yeni cəhətlərin meydana gəlməsinə səbəb olurdu.

XVI əsrdə Aəzrbaycanda memarlıq bədii yaradıcılığın başqa sahələri ilə sıx əlaqədə idi. Memar-xəttat, şair-rəssam, şair-musiqiçi kimi fəaliyyət sahələri yaranmışdı. Miniatürçü rəssam, nəqqaş, həkkak, xəttat memarlıq abidələrinin inşasında memarların yardımçısı kimi fəaliyyət göstərirdilər. Bu dövrdə Azərbaycanda "İmamzadə" adlanan memarlıq növü yaranmışdı. Bu memarlıq növü xanəgah komplekslərini əvəz edirdi.

Dövrün ən iri dini-xatirə kompleksi Ərdəbildə yerləşirdi. Şeyx Səfiəddinin Ərdəbil kompleksinin əsası XIV əsrdə qoyulmuş, XV əsrdə qübbəvari məqbərə görkəmini almışdı. XVI əsrdə Şeyx Səfi məqbərəsi iri memarlıq kompleksinə çevrilmişdi. Kompleksə məqbərənin yanında tikilmiş məscid, "Çinixana" adlanan bina, ziyarətə gələnlər üçün otaqlar, kitabxana binası və digər tikililər daxildir.

Şeyx Cəbrayılın Ərdəbil yaxınlığındakı türbəsi, Gəncədəki "İmamzadə" kompleksi, Şeyx Mahmud Şihabəddinin Əhər şəhərindəki türbəsi, 1544-cü ildə I Şah Təhmasibin göstərişi ilə Qusarın Həzrə kəndində tikilmiş Şeyx Cüneyd türbəsi bu dövrün ən böyük memarlıq abidələrindəndir.

XVI-XVII əsrlərdə əvvəllər tikilən iki minarəli məscidlərdən fərqli olaraq birminarəli məscidlər tikilirdi. 1663-cü ildə Abşeronun Nardaran kəndində ölçülərinə görə böyük olmayan məscid tikilmişdi. Ordubad şəhərindəki came və mədrəsə binası, Mərdəkanda Pir Türbəsi, 1663-cü ildə Şamaxının Qalakən kəndində Şeyx İbrahim türbəsi, Tovuzun Yanıqlı kəndində məqbərə də dini təyinatlı tikililərdəndir.

1616-cı ildə I Şah Abbasın göstərişi ilə yeni Gəncə şəhərinin əsası qoyuldu, orada məscid, karvansara, bazar, ictimai və yaşayış binaları tikilirdi.

XVI-XVII əsrlərdə Təbriz, Şamaxı, Bakı, Ərdəbil, Gəncə və Naxçıvan şəhərlərində bir sıra məscid, hamam, bazar və karvansaralar tikilmişdi.

XVI-XVII əsrlərdə musiqi cəmiyyət həyatında getdikcə çox yer tutmaqda idi. Həmin dövrün musiqiçilərindən Hafiz Haşım (müğənni), kamança və ud çalan Mirzə Məhərrəm, ud çalan Məhəmməd Mömin, dördtelli tanbur çalan Şahsuvar, Kamançeyi Məsum, tanbur çalanlardan ustad Sultan və Mirzə Həsən, müğənni və kanon çalan təbrizli Hafiz Məclisi və başqaları məşhur idilər.

XVI-XVII əsrlərdə Azərbaycan mədəniyyəti dolğun inkişaf yolu keçmiş, Səfəvi dövlətində yaşayan digər xalqların da mədəni inkişafında dəyərli rol oynamışdır.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

## *a) Azərbaycan dilində*


1. Abbasqulu ağa Bakıxanov. Gülüstani-İrəm. Bakı: "Mömin" intişaratı, 2001, 287 s.
2. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər. Redaktor: tarix elmləri doktoru, professor, əməkdar elm xadimi Süleyman Əliyarlı. Bakı: "Azərbaycan" nəşriyyatı, 1996, 872 s.
3. Azərbaycan tarixi.7 clddə, III c, Bakı: Elm, 1999, 584 s.
4. Azərbaycan tarixi üzrə qaynaqlar. Professor S.S. Əliyarlı və dosent Y.M.Mahmudovun redaktəsi ilə. Bakı: "Azərbaycan Universiteti" Nəşriyyatı, 1989, 328 s.
5. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək) I cild, Z.M.Bünyadov və Y.B.Yusifovun redəktəsilə, Bakı: Azərbaycan Nəşriyyatı, 2009, 719 s.
6. Aşurbəyli S. Bakı şəhərinin tarixi. Bakı: Avrasiya Press, 2006, 416 s.
7. Aşurbəyli S. Şirvanşahlar dövləti. Ruscadan tərcümə edəni Azər Bağırov. Bakı: Avrasiya Press, 2006, 406 s.
8. Azərbaycan tarixi (ən qədim zamanlardan – XXI əsrin ilk onilliklərinədək) M.Q.Abdullayevin redaktorluğu ilə. Bakı: "Bakı Universiteti" Nəşriyyatı, 2014, 380 s.
9. Baxşəliyev A.B. Səfəvi dövlətinin sosial-iqtisadi həyatı və beynəlxalq əlaqələri. Bakı: ADPU-nun mətbəəsi, 2009, 274 s.
10. Bayramlı Z.H. Əzizli B. Azərbaycan Evliya Çələbinin 1654-cü il "Səyahətnamə"sində. Bakı: "Azərbaycan" Nəşriyyatı, 2000, 174 s.
11. Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi, Bakı: ADPU, 2006, 258 s.
12. Bayramlı Z.N. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunhmasında türk-qızılbaş əyanlarının rolu. Bakı: Avropa, 2015, 348 s.

13. Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri. Azərbaycan dilinə çevirənlər akademik Z.M. Bünyadov və tarix elmləri namizədi N.R. Ağayeva. Bakı: "Elm" Nəşriyyatı, 1999, 160 s.
14. Dadaşova R.İ. Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda). Bakı: «Nurlan», 2003, 439 s.
15. Dəlili H.Ə. Azərbaycan-Rusiya münasibətləri Fars və Azərbaycan dilli sənədlərdə. Bakı: "Elm" Nəşriyyatı, 1976, 107 s.
16. Evliya Çələbi. Səyahətnamə. Türk dilindən işləyəni və şərhlərin müəllifi tarix elmləri doktoru, professor Seyidağa Onullahi, Bakı: Azərbaycan Nəşriyyatı, 1997, 87 s.
17. Əfəndiyev O.A. Azərbaycan Səfəvilər dövləti. (Bakı: Azərbaycan Nəşriyyatı, 1993, 300 s.); Bakı: Şərq-Qərb nəşriyyatı, 2007, 342 s.
18. Əhmədov B.Ə. XVII əsrin birinci yarısında İngiltərənin şərq siyasəti. Bakı: Nafta Press, 1998. 234 s.
19. Fərzəliyev Ş.F. Azərbaycan XV-XVI əsrlərdə. Bakı: "Elm" Nəşriyyatı, 1983, 150 s.
20. Fərzəliyev Ş.F. Azərbaycan və Osmanlı imperiyası (XV-XVI əsrlər). Bakı: "Kür" Nəşriyyatı, 1999, 241 s.
21. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd və şərhlər Hüsaməddin Məmmədovundur. Bakı: "Şuşa" Nəşriyyatı, 2000, 576 s.
22. Həsənəliyev Z. XVII əsrdə Səfəvi dövlətinin beynəlxalq əlaqələri. Bakı: "Nurlan", 2007, 344 s.
23. Həsənəliyev Z., Bayramlı Z. II Şah Abbasın hakimiyyəti illərində Azərbaycan Səfəvi dövlətinin daxili və xarici siyasəti. Bakı: Elm, 2011, 88 s.
24. Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazi. Təkmillətül-Əxbar. Fars dilindən tərcümə Əbülfəz Haşım oğlu Rəhimlinindir, Bakı: Elm, 1996, 200 s.
25. İsgəndər bəy Münşi. Tarix-i aləm aray-i Abbasi.
26. Farscadan tərcümənin, ön sözün, şərhlərin və göstəricilərin müəllifləri AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru,

professor Oqtay Əfəndiyev, tarix elmləri namizədi Namiq Musalı, I cild, Bakı: «Təhsil», 2009, 792 s.
27. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. I kitab. Fars dilindən tərcümə Ş.F.Fərzəliyevindir. Bakı: Şərq-Qərb, 2010, 1144 s.
28. İsgəndər bəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi. I kitab. Fars dilindən tərcümə Ş.F.Fərzəliyevindir. Bakı: Şərq-Qərb, 2014, 1400 s.
29. Kruşinski Y.T. Xristian səyyahın tarixi. Farscadan tərcumə edəni Ş.Fərzəliyev. Bakı: Azərbaycan Nəşriyyatı, 1993, 105 s.
30. Qızılbaşlar tarixi. Tərcümə və şərhlər M.Ə.Məmmədinindir, Bakı: "Azərbaycan" Nəşriyyatı, 1993, 48 s.
31. İ.Şarden. Səyahətnamə. Fransız dilindən tərcümə edəni Vaqif Aslanov. Bakı: Elm, 1994, 98 s.
32. İsgəndər bəy Münşi. Tarix-i aləm aray-i Abbasi.
33. Mahmudov Y.M. Səyyahlar Azərbaycana gəlir. Bakı: "Gənclik", 1977, 138 s.
34. Mahmudov Y.M. Odlar yurduna səyahət. Bakı: "Gənclik", 1980, 119 s.
35. Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı: "Gənclik", 1985, 184 s.
36. Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı: "Təhsil", 2006, 416 s.
37. Mahmudov Y.M. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri. Bakı:Azərbaycan Dövlət Universiteti,1986, 96 s.
38. Mehdiyev R. "Şah İsmayıl Səfəvi ali məramlı tarixi şəxsiyyət kimi". Azərbaycan qəzeti, 5 dekabr, 2012-ci il.
39. Mehmed Solak-zade. Tarix. Türk dilindən tərcümə edən akademik Z.M.Bünyadov. Bakı: "Elm" Nəşriyyatı, 1992, 82 s.
40. Nəcəfli T.H. Səfəvi-Osmanlı münasibətləri. (Türkiyə Tarixşünaslığında). Bakı: Turkan NPB, 2014,516 s.
41. Rəhimzadə İbrahim Hərimi. Osmanlı qoşunlarının Azərbaycana yürüşləri (XVI əsrin sonu) nəşrə hazırlayan,

ön sözün və şərhlərin müəllifi Rauf Şeyxzamanlı. Bakı: Nurlan, 2007, 218 s.
42. Süleymanov M. Nadir Şah. Tehran: 2010, 740 s.
43. Şah İsmayıl Səfəvi. Tarixi diplomatik sənədlər toplusu. Fars və ərəb dilərindən tərcümə: Şahin Yəhyayev, Elvin Əliyev. Bakı: Şərq-Qərb, 2014, 400 s.
44. Şirazlı Xacə Zeynalabdin Əli Əbdi bəy. Tərmülətil-əxbar (Səfəvi dövrü-Şah İsmayıl və Şah Təhmasib dövrünün tarixi). Fars dilindən tərcümə, müqəddimə və şərhlər Ə.H.Rəhimli. Bakı: Elm, 1996.
45. Vilayəti Ə. İsmayıl dövründə İranın xarici əlaqələr tarixi. Tehran: Əl-Hida, 1998,421 s.
46. Zühuri-dövləti-Səfəviyan (transfoneeiterasiya, tərcümə və fotofaksimile). Nəşrə hazırlayan: Namiq Musalı. Bakı: Mütərcim, 2013, 100 s.
47. Məmmədov S.A. Azərbaycan tarixi. Bakı: Çaşıoğlu, 2004, 291 s.
48. Məmmədova Ş. Xülasət ət-təvarix Azərbaycan tarixinin mənbəyi kimi. Bakı: "Elm", 1991, 120 s.
49.Musalı N. I Şah İsmayılın hakimiyyəti (Tarix-i-aləmarayi Şah İsmayıl" əsəri əsasında). Bakı: Elm və təhsil, 2011, 482 s.
50. Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI-XVII əsrlər). Bakı: Elm, 1977, 237 s.
51. Mustafazadə T.T. XVIII yüzillik-XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: Elm, 2002, 372 s.
52. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı: Elm, 1982, 278 s.
53. Piriyev V.Z. Naxçıvan tarixindən səhifələr. Bakı: "Müəllim" Nəşriyyatı, 2004, 125 s.
54. Süleymanov N.M. Səfəvi dövlətinin təsərrüfat həyatı. Bakı: Elm, 2012, 440 s.
55. Selaniki Mustafa Əfəndi. Tarix-i Selaniki. Osmanlı türk dilindən tərcümə edəni akademik Z.M.Bünyadov, Bakı: Elm, 1992, 74 s.

56. Şah Təhmasibin təzkirəsi. Fars dilindən tərcümə və müqəddimə Ə.H.Rəhimovundur. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1996, 128 s.
57. Venesiyalılar Şah Təhmasibin sarayında (Mikell Membre və Vinçenso Alessandri). İngilis dilindən tərcümə, ön söz, giriş və şərhlər AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyevindir, Bakı: Təhsil, 2005, 112 s.

***b) türk dilində***

58. Evliya Çelebi. Seyahatnamasi. Kitab I. Ankara: Başbakanlık Basımevi, 1982, 411 s.
59. Evliya Çelebi. Seyahatnamasi. İkinci cild, İstanbul: Kardeş matbaası, 1314, 466 s.
60. Evliya Çelebi. Seyahatnamesi. Yeddinci kitab, İstanbul: 1970, 335 s.
61. Evliya Çelebi. Seyahatnamesi. Üçüncü kitab, İstanbul: Kardeş matbaası, 1972, 320 s.
62. Evliya Çelebi. Seyahatnamesi. Beşinci kitab, İstanbul: Kardeş matbaası, 1970, 336 s.
63. Ekinçi M. Yavuz Sultan Selim doneminde Osmanlı-Safevi ilişkileri \ Türkler, c.9, Yeni Türkiye Yaycenları, Ankara: 2002, s. 446-458
64. Faruk Sümer. Safevi devletinin kuruluşu və gelişmesinde Anadolu türklerinin rolu. Ankara: Türk Tarih Kurumu Basımevi, 1977, 263 s.
65. Hoca Sadeddin Efendi. Tacüt-tevarih. C.3-4, İstanbul: Milli Egitim basımevi, 1979, 399 s., 407 s.
66. Katip Çelebi. Cihannüma. İstanbul: İbbKültürA.ş. yayınları, 2008, 868 s.
67. Osmanlı devleti ilə Azerbaycan türk hanlıkları arasındakı münasebetlere dair arxiv belgeleri. Karabağ-Şuşa, Nahçivan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy (1578-1914). C.1, Ankara: 1992, 427 s.

68. Osmanlı devleti ilə Azerbeycan türk hanlıkları arasındakı münasebetlere dair arxiv belgeleri. Karabağ-Şuşa, Nahçivan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy (1578-1914).c.II, Ankara:1993, 483 s.
69. İnalcik H. Osmanlı İmparatorluğunun ekonomik və sosyal tarihi, c I, Türkçeye çeviren Halil Berktay. Eren Yayıncılık, İstanbul: 2000, 496 s.

### *c) rus dilində*

70. Адам Олеарий. Подробное описание путешествия Голштинского посольства в Московию и Персию в 1633, 1636 и 1639 годах. Перевод с немец. П. Барсова, Москва: Университетская типография, 1870, 1033 с.
71. Алиев Ф.М. Миссия посланника русского государство А.П.Волынского в Азербайджане. Баку: Элм, 1979, 120 с.
72. Английские путешественники в Московском государстве. Перевод с английского Ю.В.Готье. Ленинград: Соц. ЭСКИЗ, 1937, 308 с.
73. Ашурбейли С.Б. Государство Ширваншахов (VI-XVI вв.). Баку: Элм, 1983, 342 с.
74. Ашурбейли С.Б. Экономические и культурные связи Азербайджана с Индией в средние века. Баку: Элм, 1990, 150 с.
75. Ахмедов Б.А. Характер торговых сношений Англии с Азербайджаном во второй половине XVI – начале XVII вв.//Ученые записки АГУ,1971, №5, с.86-90.
76. Ахмедов Б.А. Третья экспедиция англичан в государство Сефевидов (1565-1567 годы)//Ученые записки АГУ им. С.М.Кирова, серия исторических наук, 1966, №8, с.90-97.
77. Байрамов З.Х. Местное и городское управление в Азербайджане в системе государства Сефевидов. Автореферат канд. дис. Баку: 1985, 26 с.

78. Бартольд В.В. Сочинения. Т.1, Москва: Изд-ство Восточной литературы,1963, 759 с.
79. Бушев П.П. История посольства и дипломатических отношений Русского и Иранского государств в 1586-1612 гг. (по русским архивам). Москва: «Наука», 1976, 478 с.
80. Бушев П.П. Посольство Артемия Волынского в Иран в 1715-1718 гг. Москва: Изд. «Наука», 1978, 286 с.
81. Бушев П.П. История посольства и дипломати- ческих отношений Русского и Иранского государств в 1613-1621гг. (по русским архивам). Москва: «Наука», 1987, 286 с.
82. Бушев П.П. Иранский купчина Казим-бек в России, 1706-1709 гг. // Иран. Сборник статей. Москва: Наука, 1973, с.166-180
83. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв. Баку: Элм,1982, 280 с.
84. Гейдаров М.Х. Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII-XVII вв. Баку: Элм, 1987, 210 с.
85. Ибрахим Эфенди Печеви. История. Перевод с турецкого языка З.М.Бунятова, Баку: Элм, 1988, 100 с.
86. Иванов М.С. Очерк истории Ирана. Москва: Государственное издательство Политической Литературы, 1952, 467 с.
87. Иванов М.С. История Ирана. Москва: Издательство Московского Университета, 1977, 487 с.
88. Книга Орудж–бека Байата дон-Жуана Персидского. Перевод с английского, введение и комментарий д.и.н. Октая Эфендиева, к.и.н. Акифа Фарзалиева, Баку: Язычы, 1988, 216 с.
89. Куканова Н.Г. Очерки по истории русско-иранских торговых отношений в XVII-первой половине XIX века. (по материалам русских архивов). Саранск: Морд. кн. Изд-во, 1977, 286 с.

90. Махмудов Я.М. Взаимоотношения государств Аггоюнлу и Сефевидов с западноевропейскими странами. Баку: Изд-во Бакинского Университета,1991, 263 с.
91. Памятники дипломатических и торговых сношений Московской Русы с Персией. Под ред. Н.И. Веселевского, том 1, С.Петербург: Товарищество Паровой Скоропечатии Яблонский и Перотть Лештуков, 1890, 453 с.
92. Памятники дипломатических и торговых сношений Московской Русы с Персией. Том 2, С.Петербург: Лештуковскоя паровая Скоропечатня П.О.Яблонского, 1892, 445 с.
93. Петрушевский И.П. Земледелие и аграрные отношения в Иране в XIII – XIV веках. М.-Л.: АН СССР, 1960, 492 с.
94. Пигулевская Н.В., Якубовский А.Ю., Петрушевский И.П., Строева Л.В., Беленецкий А.М. История Ирана с древнейших времен до конца XVIII века. Ленинград: Изд. Ленинградского Университета, 1958, 390 с.
95. Путешественники об Азербайджане. Т.1, Составил З.И.Ямпольский, Баку: Изд. АН Азерб ССР, 1961, 497 с.
96. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке. Баку: Элм, 1981, 237 с.
97. Туманович Н.Н. Европейские державы в Персидском заливе в XVI-XIX вв. Москва: Наука, 1982, 188 с.
98. Шахмалиев Э.М. Донесение папского посла Векьетти о Сефевидском государстве//«Ученые записки» АГУ им. С.М.Кирова, серия история и философия, 1977,№4,31-37 с.
99. Хождение купца Федота Котова в Персию. Москва: Изд. Восточной литературы, 1958, 110 с.
100. Эвлия Челеби. Книга путешествия (извлечение из сочинения турецкого путешественника XVII века). Выпуск 3, Москва: Наука,1983,375 с.

## MÜNDƏRİCAT

**GİRİŞ................................................................ *3***

**I FƏSİL. AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİNİN YARANMASI................................ *6***
§ 1.1.Səfəvi dövlətinin yaranmasının ictimai-iqtisadi və ideoloji amilləri.................................................... ***6***
§1.2. Səfəvilərin Ərdəbil hakimliyi........................... ***8***
§1.3.Səfəvi dövlətinin yaranması. Azərbaycan torpaqlarının vahid dövlət tərkibində birləşdirilməsi...... ***14***
§ 1.4. İmperatorluğun yaradılması............................. ***19***

**II FƏSİL. I ŞAH İSMAYILIN DAXİLİ VƏ XARİCİ SİYASƏTİ................................................... *24***
§ 2.1. I Şah İsmayılın daxili siyasəti........................... ***24***
§ 2.2. Səfəvi-Osmanlı münasibətləri........................... ***26***
§ 2.3. I Şah İsmayılın Gürcüstana yürüşü.................. ***36***
§ 2.4. Şirvan üzərində nəzarətin gücləndirilməsi....... ***38***

**III FƏSİL. SƏFƏVİ DÖVLƏTİ I ŞAH TƏHMASİBİN HAKİMİYYƏTİ İLLƏRİNDƏ... *40***
§ 3.1. I Şah Təhmasibin hakimiyyətinin əvvəllərində Qızılbaş əmirləri arasında çəkişmələr.... ***40***
§ 3.2. I Şah Təhmasibin dövründə Səfəvi-Osmanlı müharibələri............................................................. ***42***
§ 3.3. Şeybanilərin Səfəvilərin ərazisinə basqınları.... ***51***
§ 3.4. Şirvan və Şəkinin Səfəvi dövlətinə birləşdirilməsi.......................................................... ***53***

**IV FƏSİL. SƏFƏVİ DÖVLƏTİ XVI ƏSRİN SONU, XVII ƏSRİN BİRİNCİ YARISINDA........ *60***
§ 4.1. I Şah Təhmasibin ölümündən sonra daxili vəziyyət.................................................................. ***60***
§ 4.2.1578-1590-cı illərdə Səfəvi-Osmanlı müharibəsi.. ***68***

§ 4.3. I Şah Abbasın islahatları.................................. *77*
§ 4.4. I Şah Abbasın dövründə işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi.................... *82*
§ 4.5. XVII əsrin 20-30-cu illərində Səfəvi-Osmanlı münasibətləri........................................................... *93*

**V FƏSİL. AZƏRBAYCAN XVII ƏSRİN - SONU - XVIII ƏSRİN BİRİNCİ QƏRİNƏSİNDƏ..........** ***99***
§ 5.1. XVII əsrin sonu XVIII əsrin əvvəllərində Səfəvi dövlətində daxili iqtisadi-siyasi vəziyyət......... *99*
§ 5.2. XVIII əsrin əvvəllərində Azərbaycanın beynəlxalq rəqabət meydanına çevrilməsi................. *104*
§ 5.3. Rusiyanın Xəzərboyu ərazilərdə işğalçılıq siyasəti......................................................................... *108*
§ 5.4. Azərbaycan torpaqları Osmanlı hakimiyyəti altında.......................................................................... *113*
§ 5.5. Azərbaycan torpaqlarının Osmanlı və Rusiya işğalından azad edilməsi uğrunda mübarizə.............. *117*

**VI FƏSİL. SƏFƏVİ DÖVLƏTİNİN XARİCİ ÖLKƏLƏRLƏ SİYASİ-İQTİSADİ ƏLAQƏLƏRİ...........................................................** ***125***
§ 6.1. Qərbi Avropa dövlətləri ilə münasibətlər.......... *125*
§ 6.2. Rusiya dövləti ilə qarşılıqlı əlaqələr.................. *138*
§ 6.3. Böyük Moğol dövləti ilə əlaqələr...................... *145*
§ 6.4. Səfəvi-Şeybani münasibətləri.......................... *150*

**VII FƏSİL. DÖVLƏT QURULUŞU......................** ***156***
§ 7.1. İdarə sistemi..................................................... *156*
§ 7.2. Ordu quruculuğu.............................................. *162*

**VIII FƏSİL. XVI-XVII ƏSRLƏRDƏ SƏFƏVİ DÖVLƏTİNİN TƏSƏRRÜFAT HƏYATI............ *166***
§ 8.1. Kənd təsərrüfatı................................................ ***166***
§ 8.2. Torpaq sahibliyi............................................. ***170***
§ 8.3. Sənətkarlıq və ticarət........................................ ***176***
§ 8.4. Vergi və mükəlləfiyyətlər................................ ***185***

**IX FƏSİL. XVI-XVII ƏSRLƏRDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ....................... *191***
§ 9.1. Maarif və elm ................................................... ***191***
§ 9.2. Ədəbiyyat ........................................................ ***194***
§ 9.3. İncəsənət və memarlıq...................................... ***196***

**İstifadə edilmiş ədəbiyyat ........................................ *201***

| | |
|---|---|
| **Nəşriyyatın müdiri** | ***Kamil Hüseynov*** |
| **Baş redaktor** | ***İsmət Səfərov*** |
| **Redaktor** | ***İsabə Hüseynova*** |
| **Korrektor** | ***Südabə Manafova*** |
| **Kompyuter operatoru** | ***Təranə Baxşəliyeva*** |
| **Dizayner** | ***Vüqar İbrahimov*** |

**tarix elmləri doktoru, professor**
**Nizami Süleymanov**

**Azərbaycan Səfəvilər dövləti**
**(1501-1736-cı illər)**
**---------------------------------------------------**
***Dərs vəsaiti***

***Çapa imzalanıb 20. 09. 2018. Kağız formatı 60x84 1/16.***
***Həcmi 13,3 ç.v. Sifariş 183. Sayı 50.***
**------------------------------------------------------------------------------**
***" İqtisad Universiteti " Nəşriyyatı.***
***AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6***



**Nizami Süleymanov**

**Azərbaycan Dövlət İqtisad Universiteti «Humanitar fənlər» kafedrasının professoru, tarix elmləri doktoru**

Prof.N.Süleymanov 1958-ci ildə Borçalı mahalının Qaçağan kəndində anadan olmuşdur.

1979-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) «Tarix» fakültəsini bitirmiş, 1979-1984-cü illərdə Ağdaş rayonununda, 1984-1994-cü illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində işləmiş, 1995-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetində fəaliyyətini davam etdirir.

Prof.N.Süleymanov «İqtisadi tarix», «Azərbaycanın iqtisadi tarixi» adlı dərs vəsaitlərin, «Səfəvi dövlətinin təsərrüfat həyatı», «Səfəvi dövləti: təsərrüfatı, ticarət əlaqələri, maliyyə sistemi» monoqrafiyalarının müəllifi, «Milli iqtisadiyyatın əsasları» dərsliyinin həmmüəllifi, Azərbaycan Respublikası Təhsil Qanunvericiliyi külliyatının tərtibçilərindən biridir. O, həmçinin bir neçə kitabçanın, proqram və metodiki göstərişlərin müəllifidir. Onun Azərbaycan, ABŞ, Rusiya, Ukrayna, Qazaxıstan və Gürcüstanın elmi jurnallarında, beynəlxalq simpozium və konfranslarda 70-dən çox məqalə və tezisləri çap olunmuşdur.

Prof.N.Süleymanov Heydər Əliyev adına "Əsrin Akademiyasının" və Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. O, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tarix və siyasi elmlər üzrə ekspert şurasının üzvüdür.

**"İQTİSAD UNİVERSİTETİ" NƏŞRİYYATI**